**QULU AĞSƏS**

# NABRAN NOVELLASI



"AVRASİYA PRESS"
BAKI
2009

Nəşrə məsul: **Möhlət Yolçuoğlu**

Redaktor: **Umud Rəhimoğlu**
Məsul redaktor: **Laura Cəbrayıllı**

**AZE**
**Qulu Ağsəs**
**Nabran novellası**
Bakı, "Arvasiya press" 2009 336 səh.

**ISBN 978-9952-442-23-6**

**© Qulu Ağsəs**

## AĞSƏS QULU...

Ağsəs soyadının bu mənada alınması da taleyin bir uğurudu, fikrimin daha aydın olması üçün sadəcə belə deyim: bu da Tanrının işidi ki, düz Qulunun üstünə biçilib... Ağsəs...

Eynəksiz təsəvvürümə gəlmir; inana bilmirəm ki, gözlüyü də zəif gördüyünə görə taxır; ağlım kəsmir, deyirəm, yəqin, ona görə taxır ki, şüşələrin arxasından ətrafa özü istədiyi kimi diqqət edə bilsin. Baxışlarının da həmişə biliklə – məlumatlarla, ən əsası sualla dolu olmağı ona görədi...

Çox danışan deyil, amma birdən danışandı, yəni gözlənilmədən. Ona görə də danışmağa başlamağı hücum etməyə bənzəyir. Bu həm də dediyi çox fikirlərin dəqiq olmağındandı. Bu fikirlərin çoxu tapıntı səviyyəsindədi, özünün kəşfinə oxşayır.

Görün barmaqlar haqda yazdığı adsız şeirdə nə deyir:

Barmaqlarım yaman şeydi,
Hara gəldi uzanır.
Çıxarmağa göz axtarır,
Mənə düşmən qazanır.

Bir ucu hey tətikdədi,
Hədəf elə özüməm.
Bu barmağın şıltağına
Vallah mənəm ki, dözürəm.

Üstündə say döydürmüşəm,
Sıfırdan doqquzacan.
Tutanda qız əllərindən,
Buraxmır doqqazacan...

...dediklərinin ağıllı və bənzərsiz olduğunu özü də bilir, həmişə də qarşılığını gözləyir...

Özünü lazım olmadığı qədərində sadə aparır, amma çox bilmiş, çox ayıq olduğuna görədir ki, sadəliyi əskiklik gətirmir. Bir sözlə, sadə görükür, amma sadə deyil. Yazdığına baxın:

Ara qarışmışkən öləydim gərək,
Bir də doğulardım baş açılanda.
Allah varmı-yoxmu, biləydim gərək,
Nağıl da yalanmış, yalançılar da...

O, öz sözünün yiyəsidi, sözüylə onu tanımaq mümkündü. Dost-arası münasibətlərində üzə vurmadığı çox şeylər var, yanlışı-səhvi bilər, hiss edər, amma çox vaxt üzə vurmaz, deməz; ağrısını təkbaşına çəkə-çəkə yaşayar...

Deyir:

Yorulub oturdum
varağın bir küncündə.
Ürəyim it kimi ulayır,
it kimi...
at gücündə.

...beləcə, özü özü haqda hər şeyi deyir...

Mənə zəng edib bu yazını yazmağımı istəyəndə, "hə" deyə-deyə bu detalların hamısını fikrimdən keçirtdim. Bir daha əmin oldum ki, mən onu yalnız şair kimi, yazıçı-publisist kimi yox, maraqlı bir Adam kimi də yaxşı tanıyıram; buna sevindim. İndi bu cür, tanıdığım kimi də qələmə almağım ona görədi...

Şairlik, yazıçılıq sonra gələndi, baxmayaraq insanla bir doğulur, duyğularının hansı səmtə cücərməyisə mühitlə, tərbiyəylə bağlıdı.

Radionun "Gənclik və İdman" baş redaksiyasına da ona görə, yəni, şair olsa da şairə oxşamadığına görə işə götürmüşdüm. Sən deyən elə bir yazısını oxumamışdım. Şairə oxşayanlardan da qaçmaq, uzaq gəzmək məsləhət idi, indi də məsləhətdi. O vaxtlar onun şair olduğunu bilirdim, amma yaxşıydı ki, şair olduğunu özü





bilmirdi; yəni qafiyəli görünmürdü (sığallı, səliqəli, qabaqcadan münasibət hazırlığını yapmış deyildi), görünüşü, geyimi-geçimi vəzifəli adama, yəni mənə münasibəti qafiyəli deyildi, təbii, necə vardı eləydi, dostyana idi, hətta ədəbi mühitimizə abırlı atma-calarından da qalmırdı.

İşə götürdük, çox keçmədi baş redaktorun müavini oldu. Çünki hamı onu tez bir zaman içində çox istədi, yalnız iş yoldaşları yox, dinləyiciləri də. Ağsəs Radiomuzun efirinə sözün əsl mənasında özünəməxsus yeni düşüncə tərzi gətirmişdi. Fikirləri gec qavranan, dolayı deyildi, birbaşaydı, yəni dediyi söz, verdiyi sual uzaqdan gəlmirdi, öz aramızda kimi görünürdü. Radio jurnalistliyində bu – əsas şərtlərdəndi; dinləyicilərlə səmimi olmaq, auditoriyada onlarla üz-üzə, diz-dizə oturmaq üçün bundan başqa yol yoxdu. Efirdə fikirlərin aydın, saf olması üçün yalandan uzaq, ağıl kəsən sözlərlə mənanın ifadəsi vacib şərtlərdəndi...

Ağsəs indi də efirdədi, "Çağdaş qələmlər" adlı verilişiylə ayda bir dəfə efirə çıxır. Amma çox istədim, çox dilə tutdum ki, ayda bir dəfə yox, tez-tez çıxsın, razı olmadı. – Vaxtın məni qovmasını istəmirəm, – dedi, – belə rahatam...

Yeri gəldi-gəlmədi, şeirdən istifadə eləyən deyil, çünki Ağsəs bilir ki, şair olmaq üçün şairlik eləmək lazım deyil. Onun Radiomuzda apardığı verlişdə də belə şeylər yoxdu, yəni "məhlə-mizə dəllək gəlib, kəkili yannan qoyur", belə şeylər olmur onun verilişlərində.

Bir sözlə, Qulu Ağsəs yaranışla bağlı olan hər nə var, irili-xırdalı, dərinli-dayazlı problemlər haqda öz qənaəti olan ziyalılarımızdandı. Ah-uff eləyən deyil. Ruhu oyaq, ayıq və döyüşkəndi, gözü-könlü toxdu...

Publisistikasına da çox hörmət bəsləyirəm, baxmayaraq ki, hələ bilmirəm ön söz yazdığım bu kitabda hansı materiallar gedəcək. Telefonda da elə beləcə dedim, – yazılarını təzədən oxumaq elə də vacib deyil, sənə yazılarınla bir yerdə təkrar-təkrar oxumuş olduğum qədər bələdəm... – dedim.

Bütün bunlarla yanaşı demək istədiyim, daha doğrusu, qeydlərim də var...

Nədən ibarətdi bu qeydlərim?

Vaxtını boş keçirməyəydi, Vaxtdan muğayat olmağı bacaraydı...

Gücünün əslində çox böyük olduğunu hiss edib, anlayaydı...

Çünki bizim hamımızın bir yerdə qələmimizin hay-küyü utanc-xəcalət gətirəcək dərəcədə çoxdu, daşımalı olduğumuz yüklərsə nə qədər istəyirsən...

Bu mənada ətrafdakı yalançı yazıçılara fikir verib bənd olmayaydı...

Özünün daxili aləmindəki ənginliklərə yol alaydı...

Ən böyük müəllimsə əslində insanın özüdü...

Dərin hörmətlə, uğurlar diləyərəkdən:

***Mövlud Süleymanlı,***
***xalq yazıçısı***

# NOVELLA
# HEKAYƏLƏR
# PYES



# NABRAN NOVELLASI

Bu yay ömrümdə ilk dəfə istirahət evinə getmişdim. Yəqin Nabranı görənlər bu bir parça Azərbaycan torpağının kürəyini meşəyə, üzünü Xəzərə necə ərklə söykəməyindən xəbərdardılar. Birinci gün suya baş vuran kimi eynəyim batdı, qaldım qaranlıqda. Artıq mənimçün gündüz də gecə kimiydi: meşənin içi, üstəlik də eynəksiz, daha necə ola bilərdi ki? Tərslikdən ağlıma dalbadal "dahiyanə" fikirlər gəlirdi, boş vaxt da xirtdəkdən. Görmədiyim, amma həmişə arzuladığım günə düşmüşdüm, di gəl... Optika axtarmaq mənasız işiydi, bunu yerli sakinlərdən biri başa salmışdı, əlac dəniz gəzintisinə qalırdı. Meşədə – ilan vardı deyə – çox bənd almırdım, dənizsə Nabranda əclafcasına gözəldi.

Günlərin bir günü maraqlı bir obyekti gözüm aldı və dənizə marağım daha da artdı. Təsəvvür eləyin ki, plyajda adamlardan azca aralı bir nəfər suyun üzərində uzanıb, saatlarla tərpənmədən göyə baxır. Heç nəylə maraqlanmır, suda nəzərəçarpacaq heç bir hərəkət eləmir və s. Təbii ki, heyrətlənərsiz. İkinci gün də obyekti süzəndən sonra ürəyimdə dedim ki, yəqin o, su yoqasıyla məşğuldu, bəlkə də filosofdu, suyun üstündə dürlü-dürlü xəyallarla məşğulat eləyir. Paxıllıqdan bağrımın başına od düşdü, qərara gəldim ki, eynəksiz oturub yazım, necə ki hərif suyun üzərində yaradıcılıqla məşğuldu. Məlum oldu ki, eynəksiz də yaza bilərəmmiş. Çox sevindim, amma siftə günlər sel kimi axıb gələn ideyalar, kəlamlar, misralar heç biri qələmə tutduq vermədi.

Yazmaqdan vaz keçdim, açığı, istirahətimi korlamaq istəmirdim; onsuz da eynəyimin suda batmağı və əvəzində naməlum obyektin peyda olması əsəblərimin ipini boş buraxmırdı. Yazmağa da başlasam, xəstələnə bilərdim, mayam də eynəyim kimi batıb gedərdi fələyin badına. Söz verdim ki, ancaq canıma qulaq asacam...

Şər vaxtı – hər axşam evciklərin qabağında ağcaqanad əleyhinə tonqal qalayırdıq – ocağın qırağında İvan Buninin "Kənd"

povestindəki Kuzma İliçin danışdığı əhvalatı xatırladım... "Aclıq illərində biz usta köməkçiləri Çornoya Slobodaya çıxırdıq, orada fahişələrin sayı-hesabı yox idi. Özləri də ac-yalavac idilər. Bütün əhvalat üçün onlardan birinə bir parça çörək verəndə, arvad onu sənin altındaca yeyib qurtarırdı..." (Evə qayıdanda həmin epizodu təkrar oxudum, məlum oldu ki, bu hadisəni Kuzmaya da Deniska adlı nacins bir mujik danışıbmış. Sonra Buninin hekayə və povestlərini təzədən varaqladım. Aman Allah, necə olub ki, indiyəcən gözümdən yayınıb bu?.. Səhifələrdəki sözlər, cümlələr, abzaslar ölət dəymiş qoyun kimi öskürüşürdü. Xoşbəxtlikdən, ya bədbəxtlikdən – deyə bilmərəm – mən canavar doğulmamışdım, odur ki, sürünü boğazlamaqdan vaz keçdim)

Az qala beynimə qan sızacaqdı, bu azmış kimi, obyekti görmək arzusu təzədən baş qaldırdı. Səhəri dirigözlü açdım. Lənət şeytana (inanmayana da üstəlik!), hər gün arxası üstə uzanıb buludları güdən, kürəyini Xəzərə söykəyib saatlarla hərəkətsiz qalan bu adam, yox ey, taxta parçası, qayıq, gəmi qırığı nə istəyir görən? Elə bil ağzına su alıb zalım balası (Yox-yox, almayıb, adamın üstündə Allah var, alsa, batardı). Eynəyimi dəniz oğurlamasa, sahilə çıxanda onu tanıyıb yaxalayar, bir-iki sualla tanışlıq yapardım. Məsələn... saatı soruşardım. Taxtada da saat olar? Cəhənnəm, Bunindən, dolların kursundan, ləzgi-türk mehribanlığından söz salardım. Evrika! Optikanın yerini xəbər alacam: "Bağışlayın, eynəyim dənizə düşüb... çiməndə... hə, axı mən üzü üstə üzürəm – görməmisiz?" Yəqin tip dəli olacaq! Qoy olsun, alçaq... Üstündən qayıdacam ki, bəs optikanın yerini necə, onu da bilmirsiz?..

Beləcə, tanış olacağıq və hər şey aydınlaşacaq. Məni heç nə maraqlandırmır – deyəcəm – suda dalıqatda necə dayanırsız, niyə elə hey yuxarı – bir nöqtəyə baxırsız, mənlik deyil, amma... Bəlkə də o kəmhövsələnin biridi, hər şeyi özü açıb danışacaq, deyəcək ki, Nyu-York Elmlər Akademiyası üçün ixtira hazırlayır, ya nəsə bir şey. Mənim də canım qurtaracaq.

Bakıya qayıtmağa iki gün qalmış sahilə yollandım. Güclü dalğa çimərliyi adamlardan yuyub təmizləmişdi, üç-dörd yerli ləzgi balası





dizəcən suda voleybol oynayırdı, qıraqda inəklər ot qırpırdı, mən qəzet qoltuğumda sahildə var-gəl eləyirdim, elə bu dəm o gəldi. Uşaqlarla ləzgicə nəsə danışdı. Onlar topu götürüb uzaqlaşdılar. Özü də aralanmaq istəyirdi ki, yaxında it hürdü. Cəld ona yaxınlaşdım: "Bağışlayın, tutağan deyil?" Bu dəfə itə acıqlandı: "Von, sobaka!" İndicə məni də qovacaqmış kimi üstümə çımxırdı: "Burda nə gəzirsən?" Tez şirin dilimi işə saldım... bir azdan alaçıq-kafedə pivə vururduq. Noxud boşqabı təzələnənə kimi o mənə hər şeyi açıb danışdı. Sən demə, bu "nacins mujik"in (İ.Bunin) gözünün ağı-qarası beş baş inəyi varmış, hər gün onları dəniz kənarına otlamağa gətirirmiş, göyə-zada baxmırmış, buludları güdmürmüş, Allahla kəlmə kəsməyi ağlına belə gətirmirmiş, Sokratın adını belə eşitməyibmiş, sadəcə, nabranlı peşəkarlığıyla suyun dalğa tutmayan hissəsində uzanıb heyvanlara göz qoyurmuş ki, başına gün vurmasın...

*Yay, 1999-cu il*

# QƏDİR GECƏSİ

– Ə, qaqa, maşın mənim, ev dostumun, bə bunlar nə adnan gəlib doluşublar içəri?..

Adil müəllim Qədiri bir də bağrına basdı, "şofer"ə əl uzatdı, Zöhrabla hal-əhval elədi, mənə yaxınlaşanda oğurluq üstdə tutulan uşaq kimi qızardım, başımı əvvəl aşağı, sonra tavana sarı qovzadım, Qədirin atmacası havada üzürdü...

Montajdan çıxıb redaksiyaya girəndə uşaqlar nahardaydı, stolun üstündəki "zapiska"da "Qulu, Zöhraba ("Azadlıq") zəng vur" sözləri elə pintiliklə yazılmışdı ki, Sitarənin "poçerk"i gendən çağırırdı. "Alo, zəhmət olmasa, Zöhrab Əmirxanlını..." Salam.- Salam. Necəsən?-Necəsən? Yenə "Azadlıq"dasan? – Yenə radioda çürüyürsən?" – Zöhrabın səsindən hiss elədim ki, diabetinin dilinin şəkəriylə tərs-mütənasib vaxtlarıdı, yəni kefi kökdü, taleyindən razıdı, burnuma kabab iyi gəldi. "Ağdamlı Adil müəllim zəng vurmuşdu, dedi Qədir Bakıdadı, danışmışam, sənə müsahibə verəsidi, götür gəl Ələtə..." Bir şey kəsdirəmmədim, ancaq sual verməyin də mənası yoxuydu, Zöhrab ki başladı, dəndiyində söz saxlayan deyil. "Dur gəl "Azadlıq"a, gedək "Kubinka"ya, beşin yarısı Qədir dostunun maşınında bizi gözləyəcək, istəyirəm ikimiz bir yazı hazırlayaq". "Kubinka"ya çatanacan sözü bir yerə qoyduq ki, Qədiri maşından saldıraq, müsahibəni elə Bakıda alaq, Adil müəllimdən zəng vurub üzr istəyərik. Qədir çatan kimi üstünü aldıq, Zöhrab sağdan, mən soldan, birimiz havadan, o birimiz qurudan hücuma keçmək istədik. Sözü kimə deyirsən? Qədir daş atıb başın tutdu: "Ə, əvvəla, mən heç sizi tanımıram, Adilə hörmətim var, ona görə bəlkə sizi də maşına götürdüm. İkincisi, mən Bakıda karıxıram, sözümü-hərəkətimi bilmirəm, heç Əliyev mənə orden verəndə ağızdolusu təşəkkür də eləyə bilmədim. Siz kimsiniz, ə?" Çar-naçar maşına oturduq. "Mənim adım Zöhrabdı", "Mənimki Quludu", sürücü geri qanrılıb güldü: "Mən də Qədirin şoferiyəm". Qədir tərsikdi: "Şofer nədi, ə, sən bunların ikisindən də mərifətli





oğlansan..." (Allah, sən özün Zöhraba səbr ver!). Zöhrab deyən məni eşitdi, üzündəki göyqurşağı əriyib itdi, başını irəli uzadıb Qədirdən nəsə soruşmaq istədi. Qədir dönüb gözlərini elə bərəltdi ki, ikimiz də mumladıq: "Ə, başımı qatmayın, bu saat avariya eliyəjəm" (Allaha and olsun, sükanda ayrısıydı, amma biz inandıq...). Ələtə xeyli var... 96-nın payız aylarıdı gərək ki. Bizdə heylə demirlər ha. Vay odu bir ağsaqqaldan nəyinsə yaşın soruşasan, o saat qayıdacaq ki, Keçicığırı altındakı dağdağanı ildırım vuran ili... dəyirman Məhəmmədi yer çəkəndən azca irəli... güneyin dalından beləməsinə qalxanda Salmanlar kəhrizinin baş quyusuna şappa düşəndə... Divangirin gamışı Qalaya qaçanda... Amma mən sizə dəqiq vaxt deyirəm: Qədir Rüstəmov təzəcə "Şöhrət" ordeni alıb, ev alıb, yenə nəsə bağışlayıblar, şəhərdə min cürə şayiə gəzir, indi bir-bir özündən soruşacam, bircə Ələtə çataq. Postdan keçəndə "QAİ" saxladı: "Sənədləri!". "Sənəd mən!" – Qədir buyğur polisə çəmkirdi. "Bay, Qədir müəllim, sizə qurban olum, nətərsiz?" Postdakılar maşını dövrəyə aldılar. Içəridən biri qaçaqaça gəldi ki, rəis Qədiri görmək istəyir, deyir ayağını yuxarı qoysun, mənim yanıma. Di dur Qədirin qabağında, Azərbaycan polisi, görüm necə durursan?! "Ə, mən q...bəyəm-zadam, yanına çağıra, sən öl, kişiyə deyərəm, onun şalvarını çıxartdırar" (Vaxtın sürətini artırıram – müəl.). Polis üzrxahlıq eləyir: "Ötən dəfə Rəmiş də gəlmişdi..." Rəmişin adını eşidəndə Qədir lap hövüllənir: "Rəmiş kimdi, ə, sən məni ona tay tutursan? Sür, ə!.." Zöhrab qulağıma pıçıldayır ki, bundan müsahibə verən olmaz. Qədir Zöhrabdan iş yerini xəbər alır. Duet başladı. Zöhrab Elçibəyi, Qədir Əliyevi müdafiə eləyir. Axırı Zöhrab "pas" gedir, Qədirsə kirimək bilmir: "Çox da mənə xalq artisti adı verib, amma ondan prezident olmaz. Elə bil Rəmişi padşah qoymusan, adamın dədəsinin goruna söyərlər, sən öl. Gördün də Elçibəyi. Bizi qoydu Leylanın düzündə". Mən partlayıram: "Qədir müəllim, bunu indi niyə deyirsiniz?" "Havaxt deyim, bəs? Bəri bax, ağsaqqal mənə orden verib – verib, ev verib – verib, noolsun içində yaşamayanda. Heç yaxşı kişilər şikəst balasına heylə baxmırlar..." Şoferin dünya vecinə deyil, arabir Qədirlə məzələnir: "Leylanın düzün yaman dedin e. Haradı ora?" Qədir sözü

boynundan atır: "Mən nə bilim haradı, bu "açkili" oğlanlardan xəbər al..." Ələt xaraba nə uzaqmış? Tərslikdən Adil müəllim evdə yoxdu, harasa çıxıb, ikinci mərtəbədəki stolların üstü naz-nemətlə doludu, ev sahibi gəlsə, "bismillah" eləyərdik.

...Zöhrab Adil müəllimlə məni əməlli-başlı tanış eləməyə ehtiyac duydu, Qədirin yolda çıxardığı oyunlardan danışdı, üstündən də and-aman elədi ki, bizi boş qaytarmasın. Çörəkdən sonraya razılaşdıq (Vaxtın sürətini təzədən artırıram – müəl.). Stola araq sel kimi axır, Adil müəllim şeiri şeirin, sağlığı sağlığın dalınca qoşur. Qədir deyilən Allah bəndəsi əlini süfrəyə uzatmır, vur-hay qəlyanı körükləyir. At minnətinə sözü ona veririk. Diktafonu yavaşca stolun üstünə qoyuram, düyməsini sıxmamış Qədirin gözü alır, çörək burnumuzdan gəlir (A bədbəxt, guya Qədir nə deyəsidi ki? Gözəl bilirsən ki, onun möcüzəsi səsindədi), biz üzr istəyirik, diktofonu qulaqlayıb o biri evə atırlar. Zöhrab Adil müəllimi öyrədir soruşsun ki, Hacıbaba nətər oxuyanıydı? Qədirin cavabı hazırıymış: "Allah rəhmət eləsin, əziyyət çəkirdi". Bəs Ağaxan, Arif, Süleyman? – "Sağ olsunlar, zəhmət çəkirlər". Zöhrab girəvədən istifadə eləyir, üzünü Adilə tutub Qədirə eşitdirir: "Şamaxıda bir qız peyda olub – Elnarə, qeyri-adi səsi var, stili də özünəməxsusdu". Qədir tora düşür: "Ə, mənim ağzımı açmayın, yerindən qalxan özünə bir stil qayırır. Ayrı şeyi bilmirəm, "Muğamat"ın bircə yolu var: Xan yolu. Bu, el yoludu. Mən də o yolu gedirəm – dədə-baba. Bunlar qıraqdan gedirlər, qaçaq-quldur yoluynan". Zöhrabın tükü durulur, üzünü şəstlə Qədirə tutub: "Alim Qasımov xaricdə zənciylə oxuyandan sonra Az.TV ona hücuma keçib, Habil Əliyev o günü Alimi "vapşe" yıxıb sürüdü, deməli, siz də onunla həmrəysiz, eləmi?" – soruşur. Qədirə bu söz bəsiymiş ki, təzədən "öz ampluasına" qayıtsın: "Habil özünə gülür, Xan əmimə ayaq verən kamançada bu durub "Cücələrim" çalır. O kimdi Alimə sataşır?" Sonra təzədən mülayimləşir: "Allah başlarından töksün, hamısı zəhmət çəkir". Gecədi, saat on ikiyə işləyir, heç nə alınmadı. Zöhrab getmək üçün məclisdən izn alır. Adil müəllim bizi buraxmaq istəmir, o biri otaqda yerimiz hazırdı, Qədir "Gecdi, getsələr yaxşıdı" – deyir. Səhərdən bəri onun əlindən canı boğazına yığılan Zöhrab tələsik plaşını geyir. Mənim paltomu hirslə üstümə atır: "Getdik!" ("Qəzeti də belə-belə olsun, səni də...") Adil müəllim əl-ayağa düşür, Qədir özünü sındırmadan yerindən qalxır: "Bunları özüm evlərinə qoyajam". Bizi yola salmaq üstündə qırğın düşür, Qədir dediyindən dönmür, "şoferi" divanın üstündən paltoları yığışdırır... Birdən: "Ə, bə mənim ordenim hanı?" – hamı Qədirin yaxasına baxır, ora Leylanın düzü kimi bomboşdu, irəlidən də gərək ki, bir şey yoxdu. Adil müəllim yazıq stolun altına baxır, mən qorxumdan ciblərimi eşirəm, Zöhrabın hirsindən üzü səyriyir, "şofer" qanımızın arasına girir: "Qədir, bəlkə evdə qoymusan?" (Bir azdan ağlımıza gələcək ki, orden və medalların vur-tut eskizi hazırdı...) Qədir sürətlə otaqdan çıxır, səhərki qaydayla "Jiquli"də tərkləşirik. Saat bir olar. Arabir maşının qabağından qurd-quş keçir, Qədir cuşa gəlir: "Üstünüzdə tüfəng olanınız yoxdu?".. Kamal Abdulla yazır ki, Bakıya təşrif buyuran Oljas ağanı (Süleymenov) rayona qonaq aparmışdıq, yedik-içdik, dərdləşdik, şeir dedik, Oljas ağa təkidimizə baxmayaraq, dodağın dodağından ayırmadı. Geri qayıdanda, heç kəsin unamadığı yerdə başladı, nə başladı... Əsl oxumalı gecəydi, yorğun adamlar, maşında da Qədir Rüstəmov. Qədir oxumadı, dinmədi, danışmadı. Biz də ağzımıza su alıb oturduq. Düşəndə yalandan əl tutduq.

Mən:

– Qədir müəllim, icazə verin, bu gecəni yazım? Siz oxumadız, oxumadız...

Qədir Rüstəmov:

– Səni məhkəməyə verərəm.

– Sonra da yazmaq olmaz?

– Sonra... nə bilim, ə, nə olar, nə olmaz? Allah-zadam?

Mən Qədir oxumayan gecəni Allahın izniylə yazdım. Üstündən üç il yarım keçəndən sonra. Qədirə gənəşmədən, Zöhrabdan xəbərsiz. Bilib nə deyəsidilər: Allah deyillər ki?..

*Fevral, 2000*

# DÖRD SİM

*Habil Əliyevə*

Qocalıqdan oğraşlıq yaxşıdı. Qurban əmim deyəndə gülməyim tutardı rəhmətliyə. İndi görürsən, öz maşınımı tanımıram. Həştaddandı hamısı... Dizimin üstünə nə zəndlə baxırsan? Yox, əşi, qan nə gəzir? Xəbərim var, Eldar Baxış yazmışdı. Yazmışdı ki, siz durnaya güllə atırsız, qanı tökülür Habilin dizinin üstünə. Əli Kərim də şeir qoşub mənə, Bəxtiyar müəllim də... "Cüy-cüy, cüy-cüy". Arvadın başın xarab eləmişdim. Bütün günü axtarırdım. Kamançanı xilas eləmək lazımıydı. Kamançanın vəziyyəti ermənicəydi. Alət bizim ola-ola ermənilər tutub almışdılar əlimizdən. Məndən qabaq azərbaycanlı kaman ustası yoxuydu. Gecə-gündüz vuruşub qurtardım onu yağı işğalından. Kamança başladı azərbaycanca danışmağa. Bunun kökü uyğur türklərinə gedib çıxır. Farsa-zada heç bir dəxli yoxdu. Rəhmətlik Lətif Kərimov kamançanın kökün eşirdi bir vaxtlar. Aydın oldu ki, təmiz türk alətidi. Ona görə erməni kamançaçılar kökləyə bilmirdi kamançanı. Kök bizimdi axı. Mən neylədim? Neyləyəcəm, kamançanı kökündən çalmağa başladım, qol-budağından yox. Sonra neylədim – tarın əlindən aldım onu. Baxırdım, trio çalıb-oxuyur – xanəndə heç, onu qoyuram bir qırağa – tar nə deyir, kamança başıyla təsdiqləyir. Tar deyir, qatıq qaradı, kamança deyir elədi. Tar üzü yoxuşa qalxır, kamança düşür dalınca, enir dərəyə, kamança yumalana-yumalana onu təqib eləyir. Dedim tara, belə olmaz. Sən özünə görə bir kişisən, kamança özünə görə. Kamançanı götürüb tarın evindən çıxdım. Kamança tarın vassallığından azad oldu. Üstündən 35 il keçir... Belə baxanda adi alətdi – qozdan hazırlanır, cəmi dörd teli – simi var, bir də kəmanəsi. Çubuğu sürtürsən, kamanın paxırın açır, telinin altındakı alın yazısından sənə dürlü-dürlü hekayətlər danışır. Bir qəliz xasiyyəti var: yaman dəymə-düşərdi; evdə qoyub çıxıram, gəlib görürəm





ağlayır, alıram dizimin üstünə, yenə kirimir. Məni də qoşur özünə... Yox, heç onu yerə çırparam? Uşaqlarım hamısı institut qurtarıb, ev-eşik yiyəsidilər. Söz düşəndə deyirəm, sizin ağsaqqalınız, dədəniz mən deyiləm, bax, bu kamançadı. Onun hesabına böyümüsüz. Düzdü ey, mən də ona az yaxşılıq eləməmişəm, itirməyib ha. Mən də onun əməyin itirə bilmərəm... 12 gün dalbadal solo konsert verdiyim vaxtlar olub. Filarmoniyanın müdiri Niyaziydi onda. İndi mənim dinləyicim yoxdu. Adamlar sintezator istəyir. Adamlar dərdlərini azdırmaq istəyir. Sintezatorda dərd azır, kamançada yox. Kamança dərdin vətənidi. O gün "Segahda" Xocalı faciəsini çaldım. Xocalıda itkin düşənləri, qəbirsiz-kəfənsiz, qibləsiz ölənləri yudum, kəfənlədim, el adətiylə yasların verdim, Quran səsiylə torpağa tapşırdım. Qoymadım şəhidlərimizi qurd-quş yeyə, düşmən təhqir eləyə. Mən eləmədim ey, kamança elədi. Kamança hələ çox şeylər eləyəcək – torpaqları alacaq, yazırsız ey, mənəvi ərazilər məsələsi, oraları genişləndirəcək, Vətəni uşaq kimi dizimizin üstünə çıxaracaq, neçə aydı istisini yeddi qatımızdan içəri ötürən Günəşin iti baxışlarını yumşaldacaq, göy təndirinin külfəsini gün həsrətli buzlaqlara sarı yönəldəcək, yarpaqları küləyə, dərdi çəkə bilənə, suyu cadara, adamı adama, Allahı özünə tapşırıb, kəmanəsin telinə taxıb təzədən rəvayətə dönəcək. Bəs mən? Bəs mən necə olacam? İşdi, o günü görməsəm, işdi, təzədən dünyaya gəlsəm, qədim Çində bir uyğur kişinin sonbeşiyi olacam, ya da... qoz ağacı. Qoy məndən kamança düzəltsinlər. Çalan lazım deyil, özüm kəmanə əlimi sinəmə – simə sürtüb sizə bu dünyadan, o dünyadan, o biri dünyadan nağıl danışaram, ruhun ölməzliyindən nəğmə oxuyaram... Üzeyir bəy yazırdı ki, oxuyan səsinə ən yaxın səs kamança səsidi. Düz yazıb. Bayaq dedim, mənim ustadım olmayıb. Yalan danışıram. Olub – Xan Şuşinski. O, boğazıyla neyləyibsə, mən də həmin şeyi kamançada eləməyə can atmışam. Gör neçə ildi. Di gəl, Xan əmiylə çomaq döyüşdürməkmi olar? Ustad ona deyərəm, kamançanı Xanın səsiylə danışdıra. İndi solo çalanlar azdı, nəysə qorxurlar elə bil. Məndən qorxurlar? Nəyimdən? Deyəcəklər, filankəs lap Habil kimi çalır? Belə çıxır ki, kamançanı indi də mənim işğalımdan xilas eləmək lazımdı... Xaricdə çox

konsert vermişəm. İtaliyada Arif Babayev, Həbib Bayramov, bir də mən çalıb oxuduq. Zalın papağını başından saldıq. Konsertdən sonra biri soruşdu ki, bu mahnıların yaşı neçədi, müəllifi kimdi? Dedim, müəllifi xalqdı, yaşı bilinməz. Dedi, nə əcəb bunlar sizi bezdirmir, əsrlərlə eyni mahnıya necə qulaq asmaq olar? Dedim, İtaliyada hər cür bina var, hamısının adı tikilidi. Amma görün heç adamı yorur? Heyrətdən qımışdılar... Trioda tarla necə yola gedirəm? Çox asan. Nə qədər ki xanəndə oxuyur, tarla kamança susur, sonra tar dillənir, xanəndəylə kamança qulaq asır, nəhayət, mən danışıram, yoldaşlarım dişnək kəsilir. Əməkdaşlığımız paritet əsaslarla başlayır və sona yetir. Heç kim qabağındakının boşqabına əl uzatmır... Bir yol da filarmoniyada konsert verirdim. Əbülfət Əliyev söz aldı – çox duzlu adamıydı rəhmətlik – dedi, Habil çalanda pis oxuyan müğənninin boyun yerə soxum. Amma mənim boyun yerə soxduğum müğənni olmayıb tarixində. Çünki sənətkarları müşayiət eləmişəm, uşaq-muşağı yox. İndikilərdən gəl danışmayaq. Bir də görürsən, televizorda bir yaşlı arvaddan müsahibə alırlar. Müxbir soruşur ki, nətər oldu, musiqi yazdız? Deyir: belə beqəfil... Çoxdan kamançanı əlimə götürmürəm. Bilirsən, muğamat dəryadı, plyaj deyil ki, qurşağacan özünü isladıb qayıdıb cumasan qumun üstünə. Orda üzməyə qəvvas lazımdı. Muğamatın ləli dəryanın dibindədi. Onu çıxarmasan da, heç olmasa, gərək enib baxasan. Buna da nəfəs lazımdı. Mən çox vaxt dəryaya girəndə suyun altıyla üzürəm. Ona görə də tamaşaçı kamançanı görür, məni yox. Kamançanı başımın üstündə tuturam axı. Bəs necə! Sənət sənətkardan uca olmalıdı – çörək çörəkçidən irəli olan kimi. Çoxdan suya girmirəm deyin, istidən ciyərim yanır. Qaçıram Vahid bağına. Burda da çox bənd ala bilmirəm. Dönürəm evə. Dostlarım hərdən zarafat eləyir, deyirlər, nooldu yenə, evdə körpən qalıb? Deyirəm, hə...

*2000*





## SOLO KONSERT

*Möhlət Müslümova*

– Gedəkmi, ya Allah? – Hər dəfə tarı əlimə alanda ondan icazə istəyirəm, kefin soruşuram, işə salmamışdan yağın-suyun yoxlayıram, kamali-ədəblə hallaşandan, halallaşandan sonra "xodduyub" yola düşürəm. İldə bir-iki dəfə olub, sözümüz çəp gəlib; onu da day çox açıb-ağartmırıq, bir-birimizin üzünə vurmuruq. Amma sarı simə tez-tez vururam. Bilirsən, sarı sim hansıdı? Tarın, öyrətmək olmasın, 11 simi var cəmi. Sarı sim ikincisidi, ağ simdən sonra gəlir. Adam var üç barmaqla çalır, mənim tarda əlim dəyməyən sim yoxdu (özü də beş barmaqla çalıram), getmədiyim mənzil. Ən yaxın yer "Segah"dı, darıxanda tez ora dəyib gəlirəm, görüşəndə tar da sevinir, mən də, elə "Segah"ın özü də. Elə də yer var, tarı ha qovuram, gedib çıxmaq olmur. Uzaqdı, çox uzaqdı. İlğım görmüsən? Həri, "toçnı" elənçik bir şeydi – ha gedirsən, çatmaq olmur. Di gəl, əl də çəkə bilmirsən. Mənim heç ağlıma da gəlməzdi ki, haçansa "Şüştər" çalım; çətiniydi, açığı. İllər keçdi, Fərəc Qarayev mənimçün məxsusi bir avanqard musiqi yazdı – "Şüştər" üstdə. İndi necə aydı "Şüştər"siz çala bilmirəm. Tarla yığışıb oturmuşuq orda. Amma hara getsəm də, "Segah"da "pasadka" eləyirəm, düşüb orda əl-üzümə su vururam, ciyər dolusu nəfəs də almasam, köks ötürüb təzədən yolu əlimə alıram. Bir yerdə duran adam deyiləm təbiətcə. Gördüz, işdə yoxam, evdən tarı da götürüb çıxmışam, bilin ki, "Segah"dayam. Gələ bilirsiz, gəlin ora. Çətindi ha ora gedib çıxmaq. "Segah" bir çox xalqlarda var, amma bizdəki dərinlikdə deyil. Hamısını gəzib görmüşəm ha, ağızdan eşitdiyimi danışmıram...

O qədər konsertlərdə olmuşam, saymaqla qurtarmaz. Ansambl qalır bir yanda, tara şeytana uyan kimi uyuram. Bir də görürəm, dədəm vay, marşrutdan çıxmışam, karvan üzü Dərbəndə gedir, mən Həştərxandan qayıdıram ey artıq. O saatca darıxıram, düşürəm

labirintə. Amma ansambla fikir verməyəndə hər şey gözəl olur: səhər onlara qoşulub Dərbəndə yola düşürəm, onlar getməkdə olsun, onacan mən yolüstü Həştərxana, Aşqabada... da dəyib qayıdıram, təzədən qoşuluram karvana. Özü də elə qoşuluram, heç xəbərləri də olmur. Düzdü, hərdən Allah insafımı əlimdən alır, tarın başın salıram daşlığa, şumluğa, incidirəm onu. Amma hərdən ey, day ildə bir yol ola, olmaya. Tarı dördnala da çalmışam, yorğa da, şotdaq da. Heç vaxt adın batırmayıb. Öz adın ha, mən kiməm o olan yerdə... Adam var konsertdən qabaq məşq eləyir. Elə şey mənlik deyil. Nə mənada? Bu musiqi belə yazılıb, mən də bunu məhz belə çalmalıyam – bacarmıram. Musiqi necə yazılır-yazılsın, onu kim bəstələyir-bəstələsin, dəxli yoxdu. Mən onu öz bildiyim kimi çalacam. Hərdən elə yerlərə gedib çıxıram ki, əvvəllər heç vaxt görməmişəm. Qorxuram, sağ-salamat qayıdıb gələ bilməyəm. Amma qayıdıram. Desəm, ustalıq xilas eləyir məni – düz olmaz, istedad da deyil. Nəsə ayrı şeydi. Adı barmağımın ucundadı... Qəzaya uğradığım vaxtlar da olub. Belə pis çıxmasın, mən bədahət tarçalanam, standarta gəlmirəm, başımı girləməyə qəlib axtaran deyiləm. Bu, mənə ləzzət eləyir, işimə ziyan. Asəf Zeynallı adına musiqi məktəbində müəllim işləyirəm axı, üstəlik də Əhməd Bakıxanov Dövlət Televiziyası və Radiosunun xalq çalğı alətləri ansamblının bədii rəhbəriyəm. “Özbaşınalığım” həm ansamblı incidir, həm tələbələri. Tələbələrin işi lap ağırdı, çünki tar şöbəsinə daxil olanların çoxu mənim sinfimə qaçır. Öyrədə bilmirəm onları. Qabında gərək bir şey olsun uşağın. Yoxsa ki, əlifbadan bunlara dərs keç, mənim işim deyil. Heç öz oğluma dərs demirəm. Asəf Zeynallıda oxuyur, tar şöbəsində, amma müəllimi başqasıdı. Dedim, get ayrı sənətə, eşitmədi... Amma yaxşı tələbələrim də var ha. Tarda onları azdıra bilmirəm. Azdıra bilmirəm deyəndə, tuturlar da adamı. Bir-ikisinin gələcəyi olmalıdı. Çünki keçilmiş yol var ha – biz saya yol deyirik, ondan qaçırlar. Düzdü, mən yaxşı müəllim deyiləm, amma elə uşaq istəyirəm ki, durğuzum dərs çalmağa, dərdin də onun gözünə qatıb danışsın. Yenə pis çıxmasın, mənim tara demədiyim sirrim yoxdu. Birin qoyum, keçim o birinə. Hərdən məndən soruşurlar ki, tarı çoxmu sevirəm? Sən Allah, bu da sözdü?





Sevməsəm, onu necə bağrıma basa bilərəm?! Heç o da güclə gəlib sinəmə sığınmaz, axı...

Aşıq Ədalət deyir, öləndə sazı yanımda basdırsınlar. Mən də tarımı çox istəyirəm. Özü də namusum kimi baxıram ona. Kişi də ki, aydın məsələdi, namusun özü qoruyar. Heç kəsə etibar eləməz. Amma tarı qəbrə qoymaram heç vaxt. Çünki ölən Möhlətdi, Sənət deyil. Qurban dayı, Allah rəhmət eləsin, dünyadan köçəndə tarı da özüylə aparmadı ki?! Bir şey deyim sənə, tar dəhşət diqqətsevəndi ha, üstəlik də eqoistdi. Hərdən tarı qoyub qabağıma fikirləşirəm: bax, bu məndən canımı, qanımı, ürəyimi, ömrümü umur, bəs mən tardan nə istəyirəm, hə?..

Tar həddən artıq həssasdı həm də, bir də görürsən, küsür səndən, çalmır. Üstün yaxşı basdırmadın, soyuqlayır, çox istidə qızdırır. Uşaq kimidi ey. Ciyərinə düşən yeganə hava Qarabağ havasıydı. Qarabağda bircə kərə kökləyərdim onu, vəssalam. Kökləməkdən bir əhvalat danışım. Dedilər ki, filankəsin əla tarı var, heç vaxt kökdən düşmür, bir bax da ona. Aldım, baxdım, nə görsəm yaxşıdı? Yazıq tar çalınmayıb axı, kökdən də düşə. Tar iki səbəbdən kökdən düşür: çalınmaqdan, bir də havadan. Çalınmaqdan bir şey də danışım. Otu çalmağı görməmisən? Quyruq doğana bir ay qalmış, yayın cırhacırında kişilər özlərini verirlər biçənəyə. Baş qırxıq (çox vaxt da bir-birinə qırxdırırlar), dəsmalları isladıb qoyurlar təpələrinə, dəryazı alırlar əllərinə, biç ki, biçəsən. Eləsi var, elə bil otun saçın vurur ki, istidən bişməsin. Ot onun qabağında otçalan “kişi salonu”nun qabağında duran kimi şəstlə durur. Eləsi də var ki, otun başın yolur, işin girəvəsini bilmir deyin, qoluna güc verir. O da çalır, bu da. İkisinə də günorta çörək gəlir, axşam təşəkkür. İkinci bəlkə də birincidən çox taya vurur... Tar çalmaq da elədi. Qoluna güc verənlər məndən adlı-sanlıdılar, varlı-hallıdılar. Adamların yanında təbii ki. Tarınsa qabağında üzləri qaradı. Tarın saçın yolublar, anasın ağladıblar çünki... Fəxri adımın olmamağı məni heç pəjmürdə eləməyib. Doğulanda “mitirkama” yazmamışdılar ki, əməkdar artist Möhlət Müslümov. 46 yaşım var, hamı mənə hörmətlə sənətkar deyir. Ustad deyənlər də var. Özləri də elə-belə adam deyillər... Qurban Pirimov, Bəhram Mansurov qəzəl

çalırdılar, mən bayatı çalıram. Bir kərə məndən xəbər aldılar ki, şirniyyatla aran necədi? Dedim, pis. Dalınca "şəkərin yoxdu" soruşdular. Dedim, Allah eləməsin. "Bəs, barmaqların niyə bu qədər şirindi?" Qaldım belə... Çalanda heç kimə baxmıram. Heç əlimə də göz gəzdirmirəm. Baxsam, karıxacam. Çünki mən bədahət çalıram. Çox vaxt özümdə olmuram. Qurtaranda ürəyim ağrısa, deməli, babat çalmışam. Ağrımasa, onda heç...

Deyəsən, çox danışdım. Solo konsert belədi də; bir də görürsən, çalanın ürəyi ağrıyır, eşidənin başı... Özü də birinci dəfədi kitabda tar çalıram. Mən bilən, pis alınmadı. Qulağıma alqış səsləri gəlir...

*2000*





## QARĞIŞ

*Süleyman Abdullayevə*

– Onu məktəbə götürməyənin evi dağılsın!..

İmtahan götürən müəllimlər diksindi, biri qalxıb pəncərəni örtmək istədi, biri uşaqlara çəmkirdi, gözünü bayaqdan Süleymanın ağzına dikən müəllimsə hələ də heyrətindən başını bulayırdı. Ağa Süleymanı zənlə süzdü: "Sənin yiyən döyüldü söyən?" Süleyman qıpqırmızı qızardı, səsini içinə çəkdi, elə bil bayaqdan cəh-cəh vuran o deyildi. Ürəyində Seyidi qınadı da: "Mənim yiyəm nə gəzir, Ağa? Qarabağdan səni deyib gəlməmişəmmi?" Seyid Şuşınski Qaryaginə səs yığmağa getmişdi. Qoçəhmədlidən bir uşaq nişan verdilər – Süleyman adında. Ağa o kəndə yaxşı bələdiydi, orda iki-üç toy yola vermişdi. Hər dönə də üç gün – üç gecə oxumuşdu. Qayıdandasa çuvalnan pul gətirmişdi Bakıya. Ağa Süleymanı görən kimi bəyəndi. Gördü toyda tökdüklərin bu uşaq bitdə-bitdə toplayıb özünə qaytarır. Amma savadsızdı. Ağa Süleymanı Bakıya çağırdı. Süleyman imtahanlardan sonra gəldi. Ağa onu danladı, dansadı, arada yanına gəlib-getməyi tapşırdı. Yanına gəlib-getdikcə ona muğamın sirlərini öyrətdi, musiqi məktəbinin qapısın tanıtdı, gələn iləcən iş yeri tapdı. O biri ilsə dərs dediyi Asəf Zeynallı adına məktəbə çəkib gətirdi. İxtisas imtahanında şəstlə keçib başda oturdu, Süleymana "bir muğam oxu" dedi. Ustadın görəndə ürəyi üstünə gələn Süleyman qavalı götürdü, nə götürdü. Əvvəl abituriyentlər gözün ona zillədi, sonra müəllimlər, axırı Ağa özü dözmədi. "Bu qarabalanın canında nələr varmış, verdiyinə şükür, İlahi" deyə öz cavanlığını xatırladı. Səssə öz işindəydi. İçəridəkiləri ram eləyəndən sonra çölə çıxdı, pəncərənin ağzında uşaqlarından xoş xəbər gözləyən valideynlərin əvvəl hənirin aldı, sonra nitqin qurutdu. Kişilərdən birinin ciyəri elə pörşələndi ki, axırı özün saxlaya bilmədi, Süleymanı kəsən müəllimə qarğış elədi. Ağanın cəddi qar-

ğışın ağzın dağa-daşa çevirdi, qarğışın ağzı dağa-daşa dəydikcə alxışa dönürdü, qarğış Bayatı-Şiraz oxuyurdu, Bayatı-Kürd oxuyurdu, qarğışın bir səsi də Süleymanın boğazından gəlirdi...

– Onu əsgər aparsan, südüm sənə haram olsun!..

Ağa ayrı cür ustaydı, bir özgə müəllimiydi. Tələbələrin siftə seçirdi, sonra hamısına birdən dərs verirdi: istər birinci kurs olsun, istər axırıncı. Süleyman birdə oxuya-oxuya ikinin də dərslərindən halıydı, üçdə oxuyanda Ağa özü də görürdü ki, ta bu qarabala onun dizinin dibinə sığınmır. Bu hində onu əsgər çağırdılar. Ağa Süleymanı da qabağına qatıb "voenkoma" gəldi. Rus katibəynən hal-əhval tutdu, birtəhər qandırdı ki, komissarın yanına Seyid Şuşinskidi gələn. Katibə içəri girməyiynən komissarın çölə çıxmağı bir oldu. Xoş-beşdən sonra Ağa məsələni qəti qoydu: bu uşaqdan hələ "soldat" çıxmaz, dərsin bitirsin, sonra. Komissar şərt kəsdi: gələn həftə bacımın toyudu, dedi, ikinizi də dəvət eləyirəm, yaxşı oxusa, dedi, onu biryolluq saxlayacam. Ağa əsasın götürdü, Süleyman papağın fırlatdı, deyilən gün gəlib çatdı. Bakılılar Ağanın qavalın pulnan doydurdular, Ağa məclis əhlin muğamnan. Süleyman da qısılıb oturdu bir küncdə. Qəfil komissar başının üstün kəsdirdi: sözümüz sözdü, dedi, bu meydan, bu şeytan.

Ağa əlin şəyirdinin kürəyinə çəkdi: məktəb mənim, səs özünün. Allah xeyir versin. Süleyman məclisi qabağa apardı – Ağa keçmiş günlərdən oxuyurdu – hamıya uzun ömür arzuladı, yaş üstünə yaş artırdı, komissarın anasına o qədər ömür verdi ki, arvad kötücələrini də gördü. Qayıdıb oğluna təpindi: "Bunu əsgər aparmaq istəyirsən? İşdi aparsan..." Komissar dediyi sözün üstündə durdu, çağırışçı Abdullayevi biryolluq hərbi xidmətdən azad elədi. Problemlərsə bitib-tükənmirdi...

– Onu efirə buraxmayın!

Süleymanın təzəcə eyni açılırdı ki, buyğur təyinatın Əlibayramlıya (indiki Şirvan şəhəri) verdilər. Cəddinə qurban olduğum Seyid təzədən qapı döyəsi, ona-buna ağız açası oldu. Yenə sözü yerinə yetdi. Süleyman filarmoniyada işləyir, ara-sıra ekrana, efirə ayaq açırdı. Bir gün də Rübabə Muradovaynan ikisinin konsertin verdilər. Radioda canlı oxuyub ayağın eşiyə atmamış





sədrin yanına çağırdılar. Bəs hali-qəziyyə belə, İran mahnısı oxumusan, yox e, fars üstdə oxumusan, belə canım sənə desin, pis oxuyursan, xoşum gəlmədi səndən, get, altı ay bərilərə üzükmə. Süleymanın da yaşı otuz ola-olmaya, sədrin nə sözün götürə, nə də saqqalından keçib cavab qaytara bilirdi. Ta bu heç kəsə deyiləsi dərd deyildi. Əhvalatın üstündən neçə gün keçmişdi, yəqin indi Dədə özü də xatırlamaz, rəhmətlik Xan əmi onu yanına çağırdı. Dedi ki, səhər ikisin də Ali Sovetin sədri Məmməd İsgəndərov otağında gözləyəcək. Sədrin təpinməyi yalan oldu, Süleymanın canın qara qayğı aldı, öz aramızdı, o hara, İsgəndərov hara. Yaxşı ki, Xan əmi "çox ürəyinə salma – demişdi – inşallah, xeyir olar". İncəvara səhəri Ali Sovetin sədri Xan əmiynən elə mehriban görüşdü ki, Süleymanın şübhəsi bir az əl yerə qoydu. Şuşinski Süleymanı sədrə nişan verdi: "O səsi xoşuna gələn gənc budu". Süleyman biləndə ki, ölkənin ikinci adamı onun səsini, özü də radiodakı son başıbəlalı çıxışını bəyənib, uçmağa qanad axtardı. Dövlətdə qanad nə gəzirdi. İsgəndərov əvəzində ona ev təklif elədi, maşın təklif elədi, Opera və Baletdə iş təklif elədi. Teleşirkətin sədrinə onların yanındaca zəng vurub Süleymanın konsertini təkrar verməyi tapşırdı. Üç-dörd gündən sonra Süleymanın dalınca minnətçi minnətçi dalınca gəldi: bəs sədr əlimyandıda səni axtarır, deyir gəlsin, konsertin verək, təzə mahnıların lentə alaq. Süleyman təşəxxüs satdı, özün qaldırıb dağın başına qoydu, dedi, məndən üzr istəyin, istədilər, dedi, qadağanı geri götürün, götürdülər, dedi... Yox, bu dəfə fələk dilləndi. İsgəndərovu işdən çıxardılar, Süleyman evsiz qaldı, işsiz qaldı, maşınsız qaldı və and içdi ki, bir də heç kimin çırağına umud olmayacaq, olmayacaq, olmayacaq...

– Məni dar ayaqda qoyub qaçan namərdlər! Görüm sizin...

Nağıl dili yüyrək olar. Ay ötdü, il dolandı, Süleyman hər telin bir xeyir işə yandırdı, hər gecəsin gözünün oduyla aydınlatdı, zülməti əliynən qova-qova gəlib Dədə yaşına çatdı. Bir də gözün açıb sağına baxdı – ustadların görmədi, soluna baxdı – dostların. Qayıdıb kəndində ölüncə baş girələmək fikrinə düşdü, dönüb yurduna baxdı, Qoçəhmədli nə gəzirdi... Qavalın da götürüb evdən çıxdı, nəvəsi də

saxlaya bilmədi onu. Aldatdı ki, tezliklə şirni alıb qayıdacaq. "Ya Qarabağ!" deyib maşının başın boşladı. Az getdi, üz getdi, gəlib Xındırıstan postunda ilişdi. Əsgərlər Dədəni tanıdılar, hal-əhval tutdular, amma "o üzə adladı yoxdu – dedilər – əvvəl biz, sonra sən". Dədə yalvardı, olmadı, üz vurdu, olmadı, axır zəngulə vurası oldu. Əsgərlər lam düşdülər, tərpənməyə heyləri qalmadı. Dədə tez istədi özün o üzə vura, səs eşidib dayandı. Torpaq Dədə Süleymanı söyürdü... Dədə əyilib torpaqdan söyüşü götürdü, öpüb gözünün üstünə qoydu, maşının ağzın geri çevirdi.

– Dədəm mənə kənddən nə gətirib?

Nəvəsinin səsiydi.

– Söyüş gətirib.

Qarabağın səsiydi...

*2000*





## BƏBİŞ KİŞİNİN QIZI

*Sara Qədimovaya*

"Mən jurnalist deyiləm, Sara xanım, Gülablıyam..." Xəttin o başındakı səs səmtini dəyişdi, elə bil, Novlu kəhrizin gözünə qoz qanağı tökdün, quzulayan xatirələrin şappıltısına telefon simləri də diksindi. "Evimi tanıyırsan?" Ayıb söhbətdi ki. Burdan çıxan kimi sağa dönürsən, Rəşidin bağının ayağından çaylağı adlayıb, Soltanın bağının başına qalxırsan, asfalt yolda hansı maşına əl qalxızsan, səni Təkirə dönən yerdə düşürəcək. Ordan kənd tirəsinə beş addımdı. Amma hara tələsirəm, hazır ayaqla qalxaram da. Məmmədxanları keçən kimi Xasılardayam, kəhrizin üstdəki camaatla salaməleyk eləyib, Çıraqlıya yol alıram, Ağacan kəhrizindən su içdin, Cəfərxanlar ayağının altındadı. Di gəl, bu tərəflərdə Qədimuşağı çoxdu. Tapdım, rəhmətlik Bəbiş kişinin evi sağda olmalıdı...

...Zəngi basıram, içəridən Akif İslamzadə çıxır, məni evə dəvət eləyir. Qardaşı Vaqif də burdaymış ki. Deyəsən, çoxdandı analarının kəndçilərini görməyiblər. Kəndin məhəllələrini yağır eləyən ayaqqabılarım parketin üstündə duruxub qalıb, çıxarmağa qoymurlar. Süleyman Dəmirəlin şəkli stoldakı şirniyyatı qaralayıb. Elə özüm də Sara xanıma göz qoya bilmirəm. Oğulları onu yad nəzərdən qoruyurlar. Oturub yeddi arxa dönənimizi çeşidləyirik. Tarzən Qurban Pirimov, professor Şükufə Mirzəyeva, rejissor Ceyhun Mirzəyev, yazıçı Məcid Şamxalov, gitaraçı Rəmişin valideynləri... hər ikimizə qohum çıxır. Hər ikimizə ona görə deyirəm ki, Vaqif tez-tez girib çıxır, söhbətə qarışmır, Akifsə bəri başdan bəyanat verib ki, onu regional məsələlərə qatmayaq. "Akifin səsi haralıdı bəs?" – Sara xanım əvvəl Kürdəmirin, sonra Şamaxının adını çəkir. Yəni ki, atası Şamaxı əsilli kürdəmirli olub. Sara xanımın öz atası Bəbiş kişisə (əsl adı Bəbirdi, kənddə Bəbiş deyirlər) Gülablıdan lap sütül vaxtı çıxıb. Bir müddət Vladiqafqazda sabun sexində işləyib,

sonra gəlib Bakıya. Qurban Pirimovun yoldaşı Nabat xala onu yaxşı bir qızla evləndirib. 1922-ci ildə övladları dünyaya gəlib – Sara. “On yaşım olardı – Sara xanım xatırlayır – yayda atam bizi apardı Yevlağa, qatardan düşüb yollandıq Ağdama, ordan Gülablıya”. Sonra Akifə sarı çönür: “Bir yol bizi Abdala qonaq aparmışdılar, alaçıqda qalırdıq, gecə yaxından eşşək anqırtısı gəldi, çadırı aralayıb baxdıq, gördük ki, canavar soxulub eşşəyə, parçalayıb dağıdır. Elə qorxdum ki...” Akif bəy başıyla anasının qorxduğunu təsdiqləyir. Onların mehribanlığını gözüm götürmür. Sara xanımdan xəbər alıram ki, niyə oğlunuzla yolunuz nə sənətdə, nə siyasətdə düz gəldi? “Məni anamla bağlı söhbətə çəkməyin” – nədənsə dərhal Akif bəy reaksiya verir, daha doğrusu, növbəti bəyanatını. Sara xanımsa çox qadağaların, padşahların, sorğu-sualların üstündən su axıdıb, odu ki, söz altda qalmır: “Hərənin bir əqidəsi var. Əqidəsiz adamlardan xoşum gəlmir. İndi çoxları Floranı qınayır. Amma mən onu başa düşürəm. Akif də əqidə adamıdı”. Sualın ikinci hissəsinin cavabı məni razı saldığından əvvəlinə qayıtmıram, eləcə soruşuram ki, bəs Sara xanım hansı məzhəbə qulluq eləyir? “Sənətə, ancaq sənətə!” Aydındı. “Bir dəfə Opera və Balet Teatrında konsertiydi – Akif bəy bayaq verdiyi bəyanatları unudur – Sara xanım oxuyub qurtaranda başına konfet atdılar. Hirs vurdu beynimə, dedim görən bu kimin işi olar? Sonra ardı-arası kəsilməyən alqışları və konfet yağışını görəndə ürəyim üstümə gəldi”. Sara xanım oğlunun sözünə qüvvət verir: “İndi hanı o tamaşaçılar, hanı o müğənnilər, hanı o bəstəçilər? Hamı keçib çırtığa”. Akif bəy yaddaşını qurdalayıb Üzeyir bəydən də bir “çırtıq” (adını unutmuşam – müəl.) havası tapır, ifa eləyəni də kim olsa yaxşıdı – Sara Qədimova. Ortaya yüngülcə pərtlik düşür. Mən sükutu pozmaq üçün paxlavanı zərblə dişləyirəm, Akif bəy çayımı təzələməyi təklif edir, Sara xanım ortalığa danışır: “Bizim həyətdə Qurban əminin baldızı qızları var, onların da birinin uşağı Natiq Əliyevin yoldaşıdı”. “Hansı Natiq Əliyevin?” sualımı gözləmədən: “Neft ministrimiz” – deyir və kürəkənlərinin vəzifəsini iki dəfə təkrarlayır: “Başa düşdün?” Hələ bu harasıdı, sən demə, Sara xanımın bir əminəvəsi də Səməd Vurğunun gəlini olub – Vaqif Səmədoğlunun zövcəsi. Sonra boşanıblar. “Qız özü oturmadı”.





Ailə-məişət məsələlərindən söz düşmüşkən, Süleyman Dəmirəllə necə tanış olublar? Dost ölkənin başçısı adını eşitcək şirniyyatdan gözünü çəkir, Sara xanımın ağzına dikir: “1967-ci iliydi, Dəmirəllə Bakıda görüşdük. Sən demə, səsimə vurulubmuş. Üstündən 30 il keçəndən sonra məni Türkiyəyə dəvət elədi. Hamı bilir...”

Söhbəti fırlayıb özümüzünkülərin üstünə gətirir: “Bütün başçılardan hörmət görmüşəm, sənətimi, səsimi həmişə yüksək qiymətləndiriblər. Düzdü, o dövrün qadağaları olub, amma indiki biabırçılıqları biz görməmişik. Müğənnilər bir-birini qəzetdə ifşa eləyir, məhkəməyə tutdurur. Bizim ağzımız nəydi Xan əminin, Yavər xanımın qabağında oxuyaq? İndikilər adamı tapdayıb keçir. Heç elə bil məni görmürlər”. Mən öz aləmimdə müğənniləri təmizə çıxarıram: “Bəlkə sizi tanımırlar?” Sara xanımı od götürür: “Olar, olar, bunlardan nə desən, çıxar”. Deyəsən, mədəni səbatsızlığa yol verdim, cəld səhvimi düzəldirəm: “Niyə indi Şövkət Ələkbərova, Yavər Kələntərli, Rübabə Muradova, Fatma Mehrəliyeva, Sara Qədimova... yetişmir?” Sara xanımın izahından bəlli olur ki, istedad həmişə yaranmır. Üstəlik, bu günlərdə dövlət radiosundan da zəng vurub, onu axmaq bir sualla narahat ediblərmiş ki, indiki oxuyanlar niyə zaydı? Sara xanım da onların yaxşıca cavabını verir. Deyir ki, efirə çıxaran siz, reklam eləyən, qoltuğuna qarpız verən siz, indi məndən soruşursuz? Pisin efirdə nə azarı var? “Mənə yaraşar onların ağına, ya qarasına bir söz deyim?” – Sara xanımın suallarına başımı yırğalamaqla cavab verirəm. Xatirələrin ipi yenidən boşalır: “Arabayla bu kənddən o kəndə konsert verməyə gedirdik. 39 dərəcə qızdırmam vardı. Kamança çalan – erməni olanda nolar? – şubanı saldı çiynimə, oxudum. Konsert salonu, mikrofon nə gəzirdi? Kolxoz sədrinin eyvanında çaıb-oxuyurduq. Millət də ki, bir-birinin belinə dırmaşıb qulaq asırdı...” Akif bəy oturduğu yerdən replika atır: “Getdi o günlər”. “İranda olmuşam 42-də, şahın yanında oxumuşam, haraları gəzməmişəm, kimləri görməmişəm. İndi 1 milyon təqaüd alıram, halbuki xarici qastrollardan dövlətin büdcəsinə o qədər pul gətirmişəm ki, – Sara xanımın gözləri uzaq illərdə, qərib ellərdədi, – məni Konservatoriyada dərs deməyə qoymadılar. Dedilər, gərək

Konservatoriyanı bitirəsən. Bəyəm Cabbar rəhmətlik haranı qurtarmışdı? Səs – vergidi, o da, pis çıxmasın, məndə var”.

Rəhmətliklərdən ən çox ürəyi kimi istəyir? Yavər xanımın adını çəkir, onunla yaxın olublar (indi olmasınlar), amma Şövkətçün möhkəm darıxır. “Ölməmişdən azca qabaq getmişdim onlara; divanda oturmuşdu, ağlıma nə gələr, kefini soruşdum, dedi ki, Sarışka, 50 il bir yerdə işləmişik, səndən bir damcı da inciməmişəm. Dedim, elə mən də. Rübabənin də, Fatmanın da yeri görünür”. Sonra adlayır kişilərə: “Xan əmi, Zülfü əmi, Seyid... Cabbarı görmüşəm – 43-də, qoca kişiydi, səsi vardı, amma gücü yoxuydu, heç yadımdan çıxmaz. Sonra... İslam Abdullayevi görmüşəm – Xanın müəllimi olub, adı da ona İslam müəllim verib, Xan Şuşinskinin əsl adı İsfəndiyar Cavanşirovuydu. Sonra... Qurban əmi, Hacı, Əhsən, Məmmədağa, Qulu, Ələvsət... ehhh...” Görən, Sara xanımın səsi qalıb? “Qalıb – deyir – hələ var, ömrümün sonunacan çatar, inşallah!”

Qapıdan çıxanda soruşuram: “Otağınız elə bircədi?” “Hə, 10-12 ildi tək otaqda yaşayıram. Qonaq-qaram olanda qalıram belə, sığışmır”. Üstəlik də, bu qədər xatirələr, itkilər, xiffət...

...Qədimuşağının söhbətləri məni yuxu kimi tutur. Müştəri haylayan sürücülərin səsinə ayılıram: “4-cü mikrorayon, 500 manat!..”

*Mart, 2000*





## PEYĞƏMBƏRİN MƏQBƏRƏSİNDƏ QƏTL

– Ya peyğəmbər, mən saa arxeyin oluf, bu yolu gəldim. Nə bilim, sən də qaçaq-quldurluxnan məşğuluymuşsan...

Abdal Qasımın canı ağzından bu sözlər qarışıq çıxdı, nahaq dünyanın dalından dəyib, haqqa yollananda da məzələnməyindən qalmamağı haya yığışanları bir az da kövrəltdi, atını səyirdib güclə aradan çıxan şahsevənli qaçaq, Qasımı gec tanıdığına görə barmağını salıb gözlərini oymaq istəyirdi. Balaca Əfqan nəsə pis şey baş verdiyini hiss elədiyindən atasından aralanıb, anasının tumanına sığındı. Bir neçə gün Abdal Qasımın kirvəsi onu ailəlikcə Beyləqana qonaq çağırmışdı, yaxşıca yeyib içmiş, bəs deyincə şənlənmişdilər. Dörd qızın bircə qardaşı Əfqanın kiçik toyundan sonra kirvələr bu tarixi qohumluğu indi də aranda yuyurdular. Kəlləri qoşub geri qayıdanda təzəcə toran çalırdı, üç-dörd adam olardılar, Peyğəmbərin məqbərəsindən adlayanda göydə ulduzların sanı-hesabı yoxudu, elə bil qızıl ordunu poliqona tökmüşdün. Kefi qoyun quyruğu çağıran Qasımın sifəti birdən dəyişdi, atın cilovunu çəkib, onu arabaların ardınca yeriməyə vadar elədi, qaranlıqdan da qara kəli zəndlə süzüb, “saa canım qurvan” dedi.

...Kəbleyi Qulunun böyük oğlu Xanlar 1917-ci ildə gedir Ağdama, xeylax mal vurub tərpənir Qalaya sarı. Dan üzü gətirdiyini satır, şər qarışanda Abdala qayıdır. Şuşalı dostları çox deyir qal, Xanlar az eşidir. Arabaya oturub kəlləri dəhmərləyir. Xocalıdan keçəndə ürpənir, beşatılanı çıxarıb qaraltını nişan alanacan dərənin üstdən bir güllə atırlar, ikincidə kəl yıxılır, samı qırılır, qalır yolun ortasında. O biri kəl təkbaşına arabanı çəkib aparır. Qarqardan keçib, Qızılcabeldən aşıb, Aranzəminin, Piracamalın altından adlayıb, Ağbulaqdan dönür Abdala – düz rəhmətlik Qulu kişinin

qapısına. Xanların anası tezdən sübh namazına qalxır, həyətə çıxanda görür araba çardağın qabağında dayanıb, kəlin biri yoxdu, o biri də arabanın altında yatıb. Cumur irəli: "Ay Xanlar, ay Xanlar!" Xanlar nə gəzir? Xanlar Xocalıda birinci gülədən keçinəndi. Camaat şivən səsinə oyanır, başıpapaqlılar atlanıb arabanın rəddiylə Qalaya sarı çapırlar. Aranzəmində qanın izinə düşüb, düz Xanların vurulduğu yerə gəlib çıxırlar. Kəlin meyiti yolun ortasında qalıbmış... Üçü verən kimi Qasım evdən çıxır, dörd gün keçir, beşinci gün geri dönür, atın belindəki həvgəni yerə düşürür, içindən 24 (!) sağ əl çıxarır. "Söyün, ay nənə, – deyir, – oğlunun qanını aldım". Anası təzədən şivən qoparır: "Nəyə söyünüm, a öyü dağılmışın oğlu, 24 ananı ağlar qoymağına, ya adam qırmağına?" Qasıma sözmü çatdırmaq olar, qayıdır ki, aaz, adam öldürməmişəm ey, bunlar hamısı dığa qoludu...

...Sahibinin mehribanlığını duyubmuş kimi qara kəl başını qaldırdı, heyvan dilində Allaha yalvardı ki, bir də bu qapıya cənazə daşımasın, yazıqdı. At ona baxanda Allah bəxtəvəridi, bir ayağı şərdədisə, üçü xeyirdə, dava-dalaşda, deyişmədədi. Kəhər telini gözünün üstündən atmaqla öküzə acıq verdi. Həm də xatırladı ki, bir yol onu da kəl kimi yükləmişdilər...

...Hazırcavablıqda, mərdlikdə Qarabağ mahalında ad çıxarmış Abdal Qasımın erməni-müsəlman qırğınında göstərdiyi şücaətlərdən sonra bir az da nüfuzu artmış, sağlığında əfsanələşmiş bu qəhrəmanla çörək kəsmək istəyənlərin sayı-hesabı itmişdi. Bir gün Şuşaya – çox hörmətli qala bəylərindən birinin məclisinə dəvət alan Qasımla olduqca sərt bir şərt kəsilir: bəy səkkiz pilləkən düşüncə onu güldürməsə, Qasım güllənəcək. Çar-naçar razılaşan Abdal Qasım bəyin zarafatla işi olmadığını gözəl bilirdi. Amma indi ki vəziyyət belədi, geri durmaq kişilikdən deyil. Bəy yeddi pilləkən düşür, Qasımın bir sözünü də eyninə almır. Əhli-məclis indicə qanlı bir tamaşanın şahidi olacağını düşünür. Səkkizinci pilləkənə ayağın qoyanda Qasım dözmür, deyir, a sənin dədənin beynini..., qapında qan düşəcək deyin, dodağını niyə sallamısan? Bəy uğunub





gedir. Qasımı yola salanda ona məktub verir ki, Ağcabədidə mənim mülkümə baxan darğa var, ona çatdırarsan, sənin bəxşeyişini verəcək. Qasım həmən bu atın belində gəlir Abdala – uşaqlara baş çəkməyə. Evdə məktubu açıb oxuyur, görür qala bəyi yazıb ki, bəs Qasıma iki xurcun qar verərsən. Altdan da qəşəng imza atıb (qışın oğlan çağları olub bu). Qasım məktubu atır evə, iyulun ortalarında "Ya Allah" deyib, atın başını Ağcabədiyə sarı döndərir. Məktubu yiyəsinə çatdıranda darğanı az qala yayın cırhacırında don vura. Bəyin də sözündən keçə bilmir, qalır mat-məəttəl. Qasıma yalvarır, gəl bu qarı dörd xurcun taxılnan əvəz eləyək. Qasım nəm-nüm eləyir ki, bəs bəy razı olmaz. Darğa deyir, sən razı ol, bəyi yola gətirmək məndən. Razılaşırlar. İki yekə xurcun taxılı Qasımın atına, ikisini də darğanınkına yükləyib, qonağı hörmət-izzətlə yola salırlar. Qasımın atının bərkə düşdüyü həmin əhvalatın üstündən bir ay ötməmiş darğa olanları Şuşada bəyə çatdırır. Bəyi gerçəkli don vurur, darğanı söyüb yamanlayır, axırı "əşşi, bu Qasımı çox eşitmişdim, indi təzədən gördüm ki, deyiləncən varmış" deyə özünə təsəlli verir...

...Kəlin nənni kimi yırğaladığı geriki arabada balalarını böyrünə yığıb oturan Maya xanım ərindən razıydı – neçə qızdan sonra bir oğulları, bir tikə çörəkləri, hörmətləri də ki bir mahalı tutmaz. Ağalar bəyin qızı Abdala gəlməydi, Qasım onu halallıqla, dədə-baba qaydasıyla almışdı, götürüb qaçmamışdı. Ermənilərin qorxudan tük saldıqları ərinin qız-gəlində cavanlıqdan gözü olan deyildi, heç erməni haxçilərinə də dönüb baxmazdı, halbuki Qasımdan ötrü Təkirdən, Ağbulaqdan adlayıb onların qapısına gələnlər də olurdu... Maya xanımın Murtuza adlı balaca qaynını da ermənilər qətlə yetirmişdi, taleyin işinə bax ki, Murtuzanın nəvəsi bala Murtuzanı da 70 ildən sonra eyni yerdə ("Vışka"nın yanı), həmin kəndin erməniləri gülləylə vurub öldürəcəkdilər. Hələliksə çox şeydən, onu arabanın addımbaaddım yaxınlaşdırdığı faciədən də xəbərsiz Maya xanım dünyadan razı halda kirvələrinin arvadıyla şirin söhbətlərini xatırlayırdı.

Qasım atını əmisi oğlunun atı ilə qoşalaşdırdı, beşatılanını onun çiyninə salıb, mauzerini götürdü. Atını sürüb təzəcə uzaqlaşmışdı

ki, irəlidən atəş səsi eşidildi. Əmoğlunun dalağı sancdı, bu atəş xeyirliyə deyildi, o öz mauzerinin səsini gendən tanıyırdı. Atan yad adamıydı. “Qasımı vurdular!” Özünü çatdıranda at Qasımın başı üstdə kişnəyir, köçü haraya çağırırdı. Onu tanımadan atmışdılar. Beyləqan camaatı Abdal Qasımı Peyğəmbər məqbərəsində basdırmaq istəyirdi: “burda ölənin yeri cənnətdi”. Əmisi oğlu razı olmadı, Abdal Qasımı adının sol tərəfində torpağa tapşırdılar...

***P.S.*** ...Nəvə Qasım danışır ki, atam öləndə mənə son sözü bu oldu: “Sən Abdal Qasımın nəvəsisən, Əfqan kişinin də oğlu – unutma! Bizim bu xalqdan düşmənimiz olmayıb, ermənidən dostumuz. Bir də bunu yadında saxla...”

*Aprel, 2000*





# QAYNAQÇI

*Aydın Əliyevə*

...Yəqin Oqtay Zülfüqarov adlı bəstəkarın varlığı çoxlarının yadındadı, yox, o, dünyasını dəyişməyib, yaşayır. Sadəcə... “bir növ xatirələrdə”. Çoxdandı “unudulmuş adamlar kitabxanası”nın kataloqunda “uyuyan” qocaman bəstəçi ötən il cavan bir jurnalistin girinə keçmişdi. Onunla söhbətdə bir məqam diqqətimi çəkdi. Oqtay müəllim xatırlayır ki, rəhmətlik Qara Qarayevin rəhmətlik Qulu Əsgərovu görən gözü yoxmuş. Müğənni kimi yox ha, bəstəkar kimi!

Axı adaşım həm də bir-birindən gözəl mahnılar bəstələyib. Maestronu da qəzəbləndirən elə buymuş: xanəndənin musiqi toqquşdurmağı. İradı da qədərincə tutarlıydı: Əsgərov not tanımır!.. Qara Qarayev də tarixdə qaldı, Qulu Əsgərov da! Biri dahi bəstəkar, o biri əvəzsiz xanəndə və... gözəl bəstəçi kimi!.. Oqtay Zülfüqarov danışırdı ki, sənətdə professionallıq çox şeydi, amma hər çey demək deyil. Bunu gözüylə görən adam danışır. Odu ki, indi meydan sulayan həvəskarları tənqid eləməkdən çəkinir, qorxur bəlkə də...

Eynən mən müsahibimdən qorxduğum kimi...

Özü də bilə-bilə ki, neçə ildən sonra familini güclə öyrəndiyim Aydın Əliyev vur-tut qaynaqçıdı, uzaqbaşı qaçqındı, lap belə tərifləyəsi olsam, deyərəm ki, musiqisevərdi...

Amma vallahi-billahi, Aydın kişi musiqinin südünə də bələddi, sümüyünə də! – özü də təkcə Azərbaycan musiqisini demirəm...

...mühafizəkardı: “muğamı islah eləmək lazımdısa, onda gərək Baxa, Bethovenə çoxdan əl gəzdirəydilər...”

...beynəlmiləlçidi: “Çaykovskidən aldığım həzzi ana laylasına tay tuturam...”

...qəddardı: “imkanım olsa, Üzeyir bəyə əl uzadanların barmağını kəsərəm...”

...kövrəkdi: "küləyin ritmi də məni ağladır..."

...fanatdı: "svarka" eləyəndə "nauşnik"də musiqiyə qulaq asıram..."

...dindardı: "mənimçün Allahın bir adı da SƏSDİ..."

...Düz bir aydı Aydın kişinin "Allahı" stolumun gözündə itkin düşüb – kaseti hara qoymuşamsa, tapa bilmirəm...

...Düz bir aydı Aydın kişidən yazmaq istəyirəm, alınmır: elə bil, kimsə beynimin Aydınlı sahəsini "svarka"yla kəsib atıb...

...Aydın məndən ötrü bu qədər aydın ola-ola!..

...O da mənə aydındı ki:

– Qədir oxuyanda özü görünmür, görünən ya Allahın "musiqi" adıdı, ya "orijinal"ı;

– Alimin zənguləsi qayıtmaq nisgilidi, amma gedir;

– Günelin hıçqırtısı qəfil gələcəyiylə rastlaşan körpənin heyrətidi;

– Habilin "Segah"ı o dünyada dizimizin üzümüzə qayıtmağıdı;

– Rəmişin "Ana"sı dünənəcən qarğıdığı dünyanı indi körpəsinə görə öpüb əzizləyir;

– Möhlət Müslümov... Qurban Pirimovun tardan olan ciyər-parasıdı;

– Hələ su şırıltısı, hələ ildırım şaqqıltısı, hələ sevən ürəyin tappıltısı, hələ...

...Bunlar mənə də aydındı, Aydın əmi!

Ondan da xəbərim var ki, birinci sinfə gedəndə artıq simfonik musiqi "bazıydın", sinifdə çalıb oxuyurdun da: özü də ağzında – düzmü deyirəm? Sonra tar çalmaq öyrəndin, sonra gitara, sonra səni musiqi məktəbinə götürmədilər. Yaşın keçmişdi. Məcbur olub "svarka" aparatının qulpundan yapışdın. Yalan demirəm ki? Onda qoy gerisini danışım. Qaynağın özündə də poeziya var: elə ki metal əriyir, sanki onun üstündə ekran açılır, sən bu "tabloda" uşaqlığını görürsən. Uşaqlıq deyirəm ey sənə: ərsinlə kol əyən, quş uçuran, xizək sürən... Bay, tut çırpmaq yadımızdan çıxdı ki! Elə bil, "KQB"-də adam dindirirsən. Budaqlar barını xoşluqla ələ vermir. Tut çırpmısanmı, Aydın əmi? Onda onun musiqisindən danış, cəhənnəm olsun "KQB"-filan... Tut karxanaya hansı not üstə düşür? Niyə fikir verməmisən? Olmadı ki!





Keçək o biri suallara: bülbülün səsi hansı musiqini xatırladır? Xalq musiqisini – düzdü! Bəs qartalın? Üvertüranı – nolar! Qarğanın "cəh-cəhi" yapon hokkusuna oxşayır – nə deyirəm! Bəs mənim səsim? Bilmirsən? Bilirsən, Aydın əmi, deməyə utanırsan. Axı bizim əvvəlimiz təbiət olub, ağsaqqal, TƏBİƏT. Ancaq indi özümüzü ota, ağaca, itə, qurda oxşatmağa utanırıq. Ona görə insandan özgə hər şeyə bənzəyirik. Cavab istəmirəm, Aydın əmi, cavab məlumdu...

Bilirsən, nəyi danış: uşaqlıq dostun şair Əşrəf Veysəlliylə çay-xanada oturmağınızı. Bu vaxtı radioyla bir veriliş səsləndirirlər ki, bəs hansısa bəstəkar haçansa sərgidə olub, gördüyü mənzərələri nota köçürüb, indi həmin musiqidən parçaları veririk, tapın görək bəstəkar bu hissədə haranı nəzərdə tutur... Sizin də əliniz qalıb üzünüzdə. Simfonik parça qurtaranda əlini üzündən götürüb dizinə vurmusan: heç nə anlamadım, elə bil, quş bazarıdı. Ardınca diktor elan eləyib ki, siz "Quş bazarı"nı dinlədiniz...

Deyəsən, yoruldun, ağsaqqal. Bir az da mən gap eləyim: dağ çayı sənə qadın səsini xatırladır, meşə ağaclarının uğultusu polifoniyanı, himnimiz (səncə) okeana qovuşmayan dəniz kimidi, torağay nəğməsinisə sanki özün bəstələmisən...

Mühafizəkarlığını bayaq bir cümləylə dedim. Aydın kişi Üzeyir bəyə "Fikrət Əmirov artırması"nı bəyənir. Heç Alimin Fransada "fransızca" oxumasına da pis baxmır. Amma bir şərtlə: Azərbaycan muğamını Azərbaycanda Azərbaycanca oxumaq lazımdı. Bundan başqa, milli musiqimizin qeyri-milli alətlərlə ifasına yol vermək olmaz. Yoxsa ara qarışar, məzhəb itər. İndiki təki...

Körpə səsi, uşaq səsi, yeniyetmə, uşaq, cavan, ağsaqqal səsi... Heç gör bir-birinə oxşayır? Bəs o nədi, deyirlər, filankəsin səsi qırx ildi həmən həməndi?! Aydın əmi deyir, adam var ki, səsinin yağı qurtarıb, "çarxın dişləri" sürtür, amma səhnədən düşmür. Niyə, "yağlı" xanəndələr də var: Sara Qədimova, Arif Babayev... Amma təbiətin səsi dəyişmir. Siz heç "ölüm ayağında su şırıltısı" eşitmisiz? Mən eşitmişəm, Aydın əmi! Novlu kəhrizin çayın o üzünə adlayan borusuna xəzəl tökəndə suyun "içini çəkməyinin" şahidiyəm! Evi-mizin qabağındakı yasəmənə "aşiq olan" pişiyin üstünə su əndərib

onu "məşuqəsindən" perik salandan sonra "yasəmən xanımın" rənginin avazıdığının şahidiyəm! Mahnısı yarımçıq kəsilən ala inəyin qurutduğunun şahidiyəm! Qoduğu qonşumuz Firdovsinin maşını altında xurd-xəşil olan eşşəyimizin zar-zar ağladığının şahidiyəm! O inək də, haşa üzündən, o eşşək də sonralar səsini itirdi, "xaric oxumağa" başladılar...

Bunu düz demədin, Aydın əmi! Qoy bir söz də soruşum: Allahdan 124 min – nə az, nə azacıq – peyğəmbərə ün gəlib ha, görən O-nun səsi nəyə oxşayırmış? Bilmirsən, amma inanırsan ki, O SƏS sənin indiyəcən eşitmədiyin musiqidi...

Ona də qəti əminsən ki, musiqi, incəsənət xalqa məxsus deyil, onun konkret yaradıcıları var, onları qorumaq, öyrənmək, sevmək lazımdı. Xalq... xalq həmişə olub, olacaq da!

Sənin bir fəlsəfən də var: deyirsən, "musiqi – üstünə şəkər tozu qatılmış zəhərdi, hamı başından yalayıb "bəh-bəh" deyir, altdan xəbəri olan yoxdu"...

Sənin bir "bədbəxtçiliyin" də var: ömrünü girov qoyduğun "hobbi"nin ancaq zəhərini dadmaqla məşğulsan, qara gündən ötrü elədiyin çax-çuxun da plastinkalara, kasetlərə, kitablara gedir: amma nə şöhrətin var, nə də bir parça diplomun; uşaqlarına da "svarşik" Aydının oğlu (qızı) deyirlər...

...Və sənin bir sirrin də var – düzdü, kişi kişinin sözünü danışmaz, odu ki, yazıram: övladların səni "balacanlı ata" kimi tanıyırlar, halbuki sən TƏNHASAN, hərdən sənə elə gəlir ki, HEÇ KİMİN yoxdu, 66 yaşında da xəyallardan qopa, musiqi dünyasından ayrıla bilmirsən.

Səni bu dünyadan hansı "svarka"yla kəsib qoparıblar, Aydın kişi?..

Səni o dünyaya hansı musiqiylə "yapışdıracaqlar?!"

Niyə dinmirsən?!

...sən Allah, bağışla, bayaqdan qulağındakı "nauşniki" görmürəm.

Qulağın dinc olanda gəl bir dərdləşək...

*2001*





# ON ÜÇ ŞƏKİLLİ PYES

## *Birinci şəkil*

Bakı. 1994. Fred Asifin barmaqlarının paslanan, biləklərinin solan günləri. "Qaçqın" kimi sığındığı panel evdə dirigözlü açdığı növbəti Ağdamsız (oxu: Allahsız) yaz səhəri. Arxada Asifin bacıları: Rəhilə və Xanım. Fred əlini səhərin çiyninə qoyubmuş kimi irəli uzadıb öz-özünə danışır.

Fred Asifin səsi: Bilirsinizmi, dan yeri niyə gözəldi? Pauza. Ona görə yox ki, səhər açılır. Ona görə ki, hələ pis adamlar yuxudan oyanmayıblar, nəfəslərini havaya qatmayıblar, hələ qarğış olunmayıb, hələ padşahlar fərman verməyib, hələ baş kəsilməyib, hələ biri yeyib biri baxmayıb. Hönkürtü. Ağlama, bacım, Allahın dan yeri kimi çox-çox möcüzələri var. Ona yalvarın, məni ayağa qaldırsın.

## *İkinci şəkil*

Ağdam. 1971. Asif Yusif oğlu Məhərrəmov əsgər getməzdən bir gün qabaq sonuncu dəfə "Bey pervıy, Fred" kinosuna baxır. Kinoteatrda hay-küydü. Dostları qışqırır: "Fred toçnı Asif təki vuruşur. Çox da öyünmə, Paris, Ağdamın da öz Fredi var". Arxa tərəfdə dava düşür. İki varlı balası bir yetimi təpikləyir. Asifin yumruğunun açılmasıyla "qoçular" tirtap uzanır. Milis fiti. Məhkəmə zalı. Məhluqə ananın gözləri hakimin üzündədi.

Hakimin səsi: 1952-ci il təvəllüdlü Asif Yusif oğlu Məhərrəmov ictimai yerdə xuliqanlıq elədiyinə görə 3 il azadlıqdan məhrum edilsin. Hıçqırtı. Anasını tənəylə süzən Asifin sərt baxışları.

## *Üçüncü şəkil*

Aran Qarabağ. 1993. Uzaqda yanan Ağdamın iyi Bərdəni vurur. Pərən-pərən düşmüş Azərbaycan əsgərləri. Xındırıstan yolunda bir bölük. Ön planda Fred Asif. Əyilib torpaqdan bir ovuc toz götürür. Öpüb üz-gözünə sürtür.

Nərə səsi: Qardaşlar! Namus da, qeyrət də, hörmət-izzət də bu torpaqdadı!.. Vətən yoxdusa, biz də yoxuq!.. Əsgərlərin arasında canlanma. Oldu, komandir, irəli!..

## *Dördüncü şəkil*

Bakı. 1994. Ayı 240 rubla tutulan kirayə ev. Jurnalistlər Zakir Sadatlı və Adil İrşadoğlu Azərbaycanın Milli Qəhrəmanı, "General Məhəmməd Əsədov mükafatı" laureatı, ağır yataq xəstəsi Fred Asifin başına yığışıblar.

– Allah şahiddi, bir əxlaqlı qız görəndə iki yüz min dəfə deyirəm: Tanrı, sən bunu xoşbəxt elə! Çünki o, Vətənə oğul doğacaq. Danışan Asifin ruhudu. Düzünə qalsa, dərman almağa pulum yoxdu. Bu məmləkətin qəhrəmanı da belə olmalıdı, nətəər olmalıdı bəs? Öskürək. Ayaqlarının ucuna dikilən jurnalist baxışları.

## *Beşinci şəkil*

Qarabağ. Ağdam. Abdal-Gülablı. 1992. Ermənilər üç tərəfdən hücuma keçiblər. Dairə daralır. "Həyəcan siqnalı ver! Düşməni geri oturtmalıyıq!" – Fred Asifin mayor Bəndəliyevə əmri. Alova şütüyən UAZ maşını. Kənddən uzaqlaşan milis zabitləri. "Qrad"ın, topun, tüfəngin cavabını qaytaran qayalar. Tüstünün içində güclə sezilən Asif, Ədalət, Mahir, Səxavət qardaşları. Kəndə uzanan qardaş əlləri. Vurulan vertolyot uğultusu. Paraşütlə tullanan ekipaj. Haya çatan fredçilər. Erməni çantasından konyak çıxaran tacik balası Şərif Əzimov.

Butulka cingiltisi: bunu da içək Abdal-Gülablının sağlığına! Bunu da içək igidlərin şərəfinə! Cingilti kəsir. Bunu da içək şəhidlərin sağlığına...





## *Altıncı şəkil*

Novotrast şəhəri. 1978. Maşınla təsadüfən adam yaralayan Asif təzədən həbs olunub. Türmənin lotuları ipə-sapa yatmayan bu azərbaycanlı oğlanı zorla ram eləmək istəyirlər. Dava. Onu birinə qarşı. Çoxluğun dalbadal, tək-tək zərbələri. Fredin arabir, amma avtomatik yumruqları. Kürəyi divara söykəli. 46 ölçülü ayaqqabıları yerə pərçim. Yat-yut. Səhəri Fred Asifin qolunun gücündən danışan rus şəhəri.

## *Yeddinci şəkil*

Qarabağ. 1992. Yerbəyer düzülmüş batalyon. Naxçıvanikə hücuma! Ciyərlilər silaha! Qorxaqlar kazarmaya! Öz yurdunda düşmənə əsir düşənlər cəhənnəmə! Cavabdehlik mayor Bəndəliyevə! Güllə dəysə, mənə! Fred Asifin sifətinin əzələləri yumşalır. Füzuli deyib ki, mən istərəm bəlanı, çün istər bəla məni... Get-gedə öləziyən çəkmə səsləri.

## *Səkkizinci şəkil*

Bakı. 1999. Qarabağ Əlilləri Cəmiyyətinin girişi. Müsahibə almağa gələn cavan jurnalist xanım "Fred Asif"in qənşərində. Yaşla dolu gözlər. Sinə dolu ahın səsi. Şəkil kimi oğlanlar getdi.

## *Doqquzuncu şəkil.*

Yalta. 1994. Müalicəyə gətirilmiş Asif qardaşı Bəhlulla həkimin otağında. "Elə ki həkim girir xəstənin qılığına... onda həkim, salaməleykim..." Səssizcə çıxan canın səsi. Bir-birinə dəyən yaltalı azərbaycanlılar. Tatar məscidində yuyulub kəfənlənən Fred. Xüsusi təyyarəylə Bakıya qaytarılan Asif. Şəhidlər Xiyabanında dəfn olunan Milli Qəhrəman. Ağdamı Allah sayan yurdsuz mömin. Qarabağın son ümidi.

### *Onuncu şəkil*

Bakı. 2000. Milli park. Çayı dənizə calayan trio. Şuşa gedəndən başı papaq görməyən (şəhid atası) Əkbər müəllim. Qardaşının torpağı sanı yaşayası oğul Ədalət. Əli üzündə jurnalist. "Ayrı nə deyərdiz" – soruşan jurnalist. "On çağanı yığ bir yerə ağlat, milləti bilinməyəcək – deyərdi Asif" – Freddən kitab yazmağa hazırlaşan Ədalət. "Oğlum lap cavan şəhid oldu. Onu o dünyada da Asifə tapşırmışam" – Fredin uşaqlıq-cavanlıq-məhlə-cəbhə dostu Əkbər müəllim.

### *On birinci şəkil*

Xəstəxana. 1992. Fred Asifi baş çəkməyə gələn dostları. Gitarasını köynəkdən çıxaran Rəmiş. "Segah" üstündə qəzəl oxuyan Asifin pərdə-pərdə cana yayılan səsi.

### *On ikinci şəkil*

Məclis. 1987. Ağdamın məşhur sənətçiləri. Başda alim Xudu Məmmədov. Söz alan Asifin dəmir məntiqi. Xudu müəllimin tərif nitqi. Həyat akademikinin kimya akademikinə reaksiyası.

### *On üçüncü şəkil*

Ağdam. 2001. 6 nömrəli məktəbin şagirdləri ev muzeyində. Lövhədə qəhrəmanın tərcümeyi-halı. Adı, atasının adı, soyadı: Asif Yusif oğlu Məhərrəmov. Doğulduğu tarix: 27 iyun 1952-ci il. Boyu: 185 sm. Boyu: Şahbulaqdan azca qəlbi. Sənəti: kişi. Sənəti: Vətənə xidmət. Şəhid olduğu tarix: Ağdamın işğalı günü. Şəhid olduğu tarix: 1 iyun 1994-cü il. Gözünün düşməni: şər. Gözünün düşməni: yurdun düşmənləri. Təxəllüsü: Fred. Varisi: düşmən çəpəri oğullar. Mirası: kişilik.

*Aprel, 2000*



# ESSE PUBLİSİSTİKA



# YUXU DƏRMANI

Yazı özünüifadədi, ya özünüinşa? Hərdən özümdən xəbər aldığım bu sualın qabağında ifadəylə inşanın fərqini tutmayan orta məktəb uşağı kimi boynumu büküb dururam. Yazı – əlbəttə, yazıdısa! – ilk növbədə, Allahın payıdı, Allahın payı çox olduğundan sən ondan nə götürsən, qənimətdi.

Deməli, belə: – pay Allahın, qab – sənindi. Hərənin qabına görə payı verilir. İntəhası, sən öz qabındakını ortaya çıxaranda onu dadan – Allaha dilucu, sənə cani-dildən dua eləyir. Düz də eləyir, məncə. Bizim Tanrıdan umduqlarımızı Tanrı onsuz da öz əliylə yox, bəndələrinin əliylə bizə çatdırır.

Onda belə çıxır ki, yazı həm də yazanındı. Yazan da bir Allahdan deyəndə, beş də özündən deyir. Qələm ondadı, axı... Hamısını Allahdan desə, peyğəmbər olardı. Belədə yazıçıdı. Elə yazıçı var ki, aldığı payı buğlana-buğlana oxucunun qabağına çəkir. Eləsi var, üstünə qoyur. Üstündən götürəni də az deyil! Allah hamısının payını versin.

Tək-tük qələm adamı tanırıyıram ki, Allahdan hazır pay almır. Bir yol üç-dörd sümük götürür, bi yol quru kəllər götürür, bir yol... axırda onları bir-birinə calayıb adam fiquru düzəldir – eynən özünəoxşar! Amma yaratdığına nəfəs verməyə qüdrəti çatmır, məcbur olub yaratdığıyla nəfəs alır... O, özünü inşa eləyəndi, bənnadı, mühəndisdi, qaynaqçıdı... O, Allahdan aşağı yaradandı.

Deməli, belə...

* * *

Qabaq ədəbiyyata gələnlər siftə sol ayaqlarını atıb içəri keçirdilər. İndi “sol” gəlirlər. Amma gedəndə sağ getmirlər: ya dəli olurlar, ya da içki düşkünü...

* * *

Bütün dini kitablar bizə Allahı sevməyi tapşırır.
Bütün dini kitablar bizə Allahı tapşırır.
Bütün dini kitablar bizə tapşırır.
Qışqırmır, hədələmir, yalvarmır, boğaz çəkmir, məhz tapşırır.
Biz Allahı sevməklə səmavi kitabların tapşırığını yerinə yetiririk.

* * *

Avropanı sel-su başına götürüb. Müasir texnikalar əli qoynunda dayanıb baxır. Onlar heç kimi xilas eləyə bilməz, onların özünü selin ağzından çıxaran lazımdı.

Amerika Əfqanıstan kəndlisinin toyunu bombardman eləyəndə Avropa gülməkdən qəşş eləyirdi, üst-başı "sevinc yaşından" islanmışdı. İndi "səyyar terrorçu" buludlar Avropa ərazisini "bombalayır". İndi Avropa kədər və dəhşətdən gözünün iliyini axıdır. Yağışın altında göz yaşları görünmür...

* * *

YER KÜRƏSİ – ALLAHIN DƏYİRMİ MASASIDIR.

* * *

Hələ də Sabir və Cəlil Məmmədquluzadənin personajları İslamla xürafatı qarışdırırlar. Hələ də Mirzə Cəlil və Sabir "gavur" damğasından qurtulmayıb.

Halbuki, ötən yüzilliyin əvvəllərində Azərbaycanda iki əməlisaleh Allah adamı vardı: Mirzə Cəlil və Mirzə Ələkbər Sabir. Hətta Hüseyn Cavid, Almas İldırım, Əhməd Cavad... bu "duetdən" sonra gəlir...





* * *

Yer kürəsini dörd dolanıb yenə əvvəlki yerə gəlib çıxırsan. Görməmişəm, belə deyirlər. Mənə danışanların özləri də ağızdan eşidiblər. Bəlkə elə kimsə bu fikri durduğu yerdə özündən quraşdırıb?

* * *

– İnsanın azadlığını satın almaq oratorun qulağını və dilini kəsib əvəzində ona cib telefonu bağışlamaq kimi bir şeydi.

Bu sözləri dediyim adam beynində nəyisə vurub-çıxandan sonra məndən soruşdu:

– Bura bax, indi ən bahalı mobil telefon neçəyədi?..

* * *

Yer üzünü qələmlə əkib-becərmək imkanım olsa, qanqalı o qədər bol eləyərdim ki, dövrəmdəki eşşəklər dünya malından doysunlar.

* * *

Alimin son oxuları əvvəlki oxularını oynamağıdı. Ustalıqla, mərhəmcəsinə, bir az da gözgörəti. Alimin əvvəli onun özündən də əvvəldi. Bilir. Alimin oynamağı oxumağından geridi. Bilmir. Heç mən də üzünə vurmuram. Qorxuram. Alimi üzünə tutub özünü tərifləyənlərdən...

Alim son konsertində qız qardaşımı dəli eləyib. Dərhal da ağıllandırıb. İki kəlməylə: kasetim satılır. Filan yerdə bəhmən qiymətə, alın!.. Elə bil, Şuşanı aldığı yerdə general ordunu hərbi hissəyə, "poluçka" dalınca yollayır...

* * *

Dedilər, Allah göydədi. Marsacan uçduq, "gördüm" deyən olmadı.

Dedilər, Allah yerdədi. Torpağın altını üstünə çevirdik, neftlə qazdan özgə əlimizə bir şey keçmədi.

Dedilər, məscid Allahın evidi. Girdik ki, molla moizə oxuyur.

Dedilər, Allah insanın bətnindədi. Cərrah çağırdıq, açıb baxdı: bu öddü, bu mədədi, bu bağırsaqdı, bu da...

Dedilər, Allah yoxdu. Dərilərini soyduq.

* * *

Dostumun atasının gözünə "mirvari suyu" gəlmişdi. Çəkib götürdülər. İndi qırğı kimi görür. Gördüyünə elə sevinir ki, qırx illik yastıq yoldaşı ərindən şübhələnib.

Dostumun atasının bu dünyanı görən gözü yoxdu. Bəs onda o nəyə sevinir?

* * *

Puşkin rus dilini yaradıb. Halbuki ruslar ona qədər də ingiliscə danışmırdılar. Deməli, Aleksandr Sergeyeviçin ən böyük xidməti danışıq dilindən yazı dili düzəltməyidi.

Azərbaycan ədəbiyyatında hərə bir "dildə" yazır. Əli Kərimin bir neçə şeiri "sükut" dilindədi...

* * *

Rahat adam görəndə narahat oluram. Bu, mənim həyat tərzimdir.

* * *

Onun yeganə səhvi... səhvini etiraf eləməyi oldu.





* * *

Qələbə məğlubiyyət deyil ki, gözünə kül üfürəsən.

* * *

Qorxaq dünyaya qalib gəlmək arzusuna qalib gəlmişdi.

* * *

Adını Loğman qoyub ki, xəstələnməsin.

* * *

Müasir ədəbiyyat gözə görünməyən Allahı tapıb, gözünün qabağındakı insanı görə bilmir.

* * *

Sükutun səsini batırmaq üçün qışqırın!

* * *

Ağalıqla köləlik paralel xətlərdi. Onlar kəsişməsə də, heç vaxt bir-birindən əl çəkmir.

* * *

Mən Adəmdən bəri dünyasını dəyişən bütün insanların dəqiq sayını bilmək istəyirəm.

* * *

Bahar adamı yanına çağırır, qış adamın ayağına gəlir.

* * *

Tamaşa başlandı: aktyorlar... soyunub səhnəyə çıxdılar.

* * *

Kosmonavt göyün boynunun dadını görmək istəyirdi.

* * *

Otları meh bişirir, qoyun yeyir.

* * *

Adətən ədəbi qurumlara yazdıqları dildə danışa bilməyənlərlə danışdıqları dildə yaza bilməyənlər yığışırlar.

* * *

Həqiqət qarşısında çoxu baş əyir. Sevdiyindən yox, həqiqətin gözünün içinə baxa bilmədiyindən.

* * *

Əvvəllər oğlanlar instituta girməyin dərdindən əsgər gedirdilər, indi əsgər getməyin dərdindən instituta girirlər.

* * *

Bizdə adamdan pulu da pulla alırlar. Fakt: tanışım banka pul yatırmaq üçün rüşvət verib.

* * *

Bu dünyada hər şey yerində olsaydı, çoxumuz o dünyada olardıq.





* * *

ADAMLARI BİRCƏ YOL ÇİYNİNİZƏ ÇIXARIN: ÖLƏNDƏ!..

* * *

Yazıçı əsər gətirəndə tənqidçi sitat gətirir.

* * *

O, ağlı kəsəndən şeytanla mübarizə aparırdı ki, Allah adamı olsun. Nəhayət, qalib gəldi. Və qələbə ona elə ləzzət elədi ki, qabağına keçənin boynunu vurmaq istədi.

* * *

Gözəl xanım görəndə qeyri-ixtiyari olaraq ayaq saxlayıram. Baxıram görüm, Allahın nəzərləri onun üstündədirmi?..

* * *

Uşaqlar bizim gələcəyimiz yox, keçmişimizdi. Bunu uşaq vaxtı böyüklərə başa sala bilmədim, indi də uşaqlara.

* * *

Hərdən hamı ölmək istəyir. Amma həmişəlik ölmək istəyən adama rast gəlmədim.

* * *

Mənim azərbaycanlı dostlarımın çoxu ingiltərəli çıxdı: məlum oldu ki, onların daimi dostları yox, daimi maraqları varmış.

* * *

İnsan gündüzlər qaranlığın düşməyini gözləyir, gecələr dan yerinin ağarmağını. Vaxtı uzatmağın ayrı yolu qalmayıb...

* * *

Rəiyyətini gözdən qoymayan padşah – diktatordu, başlı-başına buraxan – demokrat. Bir də var, yaxşı padşah (Bax: "Azərbaycan nağılları").

* * *

Tapın görüm, nöqtəni hara qoymuşam?





## ANAR

(esse)

Uşaq vaxtı pencəyimin düyməsini, alabəzək toqqamı, corabımı... həyətimizdəki tutun dibində basdırmaqdan həzz alırdım, onda mənim üçün hamı, hər şey torpağın üstündəydi, hətta üzünü belə xatırlamadığım atam (uzun müddət böyük qardaşımı ata bilmişəm) da; ağlım kəsəndə anladım ki, sən demə, mən bununla ölümü məşq eləyirmişəm... Mən həmin tutun dibində əvvəl uşaqlığımı, sonra yeniyetməliyimi dəfn elədim, cavanlığım elə üstümdəcə, ayaq üstə keçindi – dünyanın qarışıq vaxtları, mən indi onları ekskumasiya eləmək istəmirəm, axtarmaq fikrim də yoxdu, amma bir şeylə təsəlli tapıram: onlar olub və onları heç kəs tapa bilməz, heç sahibi də!

İstərdim bu yazının qəhrəmanına olan rəğbətimi də bir kimsə tapmasın, tapa bilməsin. Görən, bununla nəyi məşq eləyirəm?..

* * *

Azərbaycanı yazıçılar pis günə qoydular, milləti azdırdılar – çoxu belə deyir, amma mən belə düşünmürəm. Bakıya gələndən şəhəri yazıçılarla tanımışam. Təxminən belə: dəmiryolu stansiyasını Cəfər Cabbarlının heykəlinin ətrafına yığışmış prototiplərindən xəbər alırdım, Qaraçuxura gedən 76 nömrəli avtobusu Səməd Vurğundan yaxşı görən olmaz, Torqovı küçəsi Nəsiminindi, İçərişəhərə girdinsə, Zərdabi sənə bələdçilik eləyəcək, Azdramaya bileti Füzulinin kölgəsi düşən yerdə satırlar. İndinin özündə evimin yerini Nəvai göstərir. Görürsüz, yazıçılar bizi azdırmır, yola yönəldir, öləndən sonra da! Sahildəki əksər ünvanları isə onun köməyilə tapmışam, uşaq vaxtı elə bilirdim sevdiyim yazıçılar kimi o da AYB-də yaşayır, böyüyəndə anladım ki, Birlik doğrudan da onun evidi, mən onun ev-kompasıyla dənizkənarı obyektləri gəzməyə başlamışdım...

* * *

Mən o fikirlə də razı deyiləm. Guya bizdə ölçülər itib. Amma dünyanın hər yerində var. ABŞ-a yeni gömrük texnologiyasını öyrənməyə göndərilən gömrükçü dostum mənə ordan dörd qalstuk, iki köynək almağa söz vermişdi, özü də təmiz Amerika malı. Qayıdanda and içdi ki, ABŞ-da Çin malından başqa heç nəyə rast gəlməyib. Çin malı Azərbaycanı da basıb, ABŞ-ı da. Saxta ədəbiyyat da eləcə. İstismar müddəti bitmiş, təqaüddə olan, əsir və ya itkin düşmüş etalonlar indi ancaq, deyəsən, İsveçrədə saxlanılır. O da tutya kimi. Kəmiyyət hər yerdə öndədi. Reklam çarxları gecə-gündüz insanın tamah dişini itiləmək üçün fırlanır.

Bizdə böyük ədəbiyyat yaransa, onu hansı bazara çıxaracağıq – Çin malları satılan ABŞ bazarına, yoxsa Asiyadan təzəcə "kimyagər"lik öyrənən Avropaya?

Hələ nə yaxşı ki, ədəbiyyatı bazardan qorumaq istəyən(lər) var, yoxsa mənim Sahildəki evimi də satmışdılar. Bəli, onun evi həm də mənimdi...

* * *

Hər gün bir bəhanəylə kabinetinə dürtülənləri əsəbiliklə sümürdüyü qəlyanının tüstüsüylə qovmağa çalışır.

Cümlə (bütün) yaradıcılığı cümlə (bitmiş fikri ifadə eləyən söz və ya söz birləşməsi) yaradıcılığına dəyməyənlər isə onun hətta qanını içməyə hazırdılar. Unudurlar ki, onun qələminin yeddi başı var: nəsr, dramaturgiya, ssenari, publisistika, esse, tərcümə, şeir. Yox, nəsrin payına iki baş düşür. Şeir onun qələminin olsa-olsa səkkizinci başıdı.

* * *

Əvvəldən söz verdim axı, bu yazıda rəğbətimi gizləməyə çalışacam. Tut tapmadığımdan rəğbətimi vur-tut bir sözdə gizləməyə çalışdım. Başlıqdakı ad – yaza bilmədiyim sözlərin də pənah gətirdiyi etibarlı sığınacaqdı...





## YETMİŞİNƏ YETƏN...

Dünyada nəsrin oxucusu var, essenin, publisistikanın, qəzetin, jurnalın, kitabın oxucusu var, amma şeirin oxucusu yoxdu.

Şeirin oxucusu şairdi!

Bir şair yazır, o biri şair oxuyur.

Dünyada bir yazan və bir oxuyan şair var.

Deyəsən, hay-küylü giriş oldu, hər halda, Fikrət Qoca yaradıcılığına yaraşmaz.

Çünki Fikrət Qocanın şeirləri səssiz şeirlərdi, hətta onun ən populyar və ən "ritorik" şeiri olan:

– Biri qoçaq olub –
mərd olub,
biri qaçaq olub –
mərd olub...
Bəs namərdlər hardandı?
Bax, bu mənə dərd olub...

– "Babalarım"ın da səs tembri uzaqbaşı dərindən köks ötürməkdən yuxarı qalxmır.

Fikrət Qoca tale şairidi, onun səsinin ucalıb-ucalıb şeirinin səsinə enməyini başqa nə cür izah eləmək olar?..

İndi desəm ki, orta məktəbdə oxuyanda məni divar qəzetinin redaktor müavini kürsüsündən məhz Fikrət Qocaya görə çıxarıblar, bəlkə çoxları inanmayacaq. Heç inanmasınlar. Mən bu xatirəni dünyada bir yazan və bir oxuyan şairə danışıram.

Əhvalat belə olmuşdu. Orta məktəbin 1 nömrəli divar qəzetinin redaktor müavini kimi səlahiyyətlərimdən gen-boluna istifadə elə-

yib komsomol əxlaqına yaraşmayan iki şeir çap eləmişdim. Onlardan biri beləydi:

Günəşə bənzəməkçin
yarpaqlar saraldılar.
Yerə şölə salmayıb,
yenə kölgə saldılar.

Bu xətanı müəllimlər otağında mənə bağışladılar. Qalmaqal ikinci şeir üstündəydi:

Dodaqların Füzulinin
iki şirin misrasıdı,
özün tap oxu, hansıdı...
Gözlərin yazılmayıb hələ
Nazın çəkilməyib hələ
Eh, işimiz var indən belə...

Məni bu şeirə görə ilk vəzifəmdən çıxardılar. And-aman elədim ki, bunları mən yazmamışam. Fikrət Qocanın titulları da direktoru rəhmə gətirmədi. Yapışdı yaxamdan ki, sən bu şeirlə nə demək istəmisən. Mən də ədəbiyyatın altını-üstünü bilən adam kimi müdrikcəsinə dilləndim: "Demək istəmişəm ki, şeir belə olar, yoxsa sizin çap elədiyiniz kimi..."

Gör bu nə vaxt olub, sən Allah! Amma mən iyirmi ildən çoxdu o baiskar "Dodaqlar"ı unuda bilmirəm.

Bu hadisədən sonra Fikrət Qocaya "Açıq məktub" adlı şeir yazdım. O şeiri sahibinə göndərməyə utandım. Qaldı arxivimdə. Arxivim də qaldı Qarabağda. İndi xatırlamasam da, inanıram ki, zəif şeiriydi. Amma zəif olanda nolar, o şeiri xilas eləmək lazımdı.

Fikrət müəllim, nə vaxt gedirik o şeiri işğaldan qurtarmağa? Biz o zəif şeiri xilas eləyəndə o şeir güclənəcək, təkcə işğaldan yox, həm də artıq sözlərdən, misralardan xilas olacaq...





Fikrət Qocanın nəğmələrindən danışmaq istəyirəm, onları təkcə Rəşid Behbudov, Şövkət Ələkbərova, Oqtay Ağayev, Polad Bülbüloğlu... oxumur, həm də müəllif özü oxuyur.

Ona görə Fikrət müəllim hərdən səsini qaldıranda təəccüblənmirəm.

Fikrət Qoca həyatda çox şeyə yetib. Bircə yetmişə yetməyi qalmışdı, o da düzəlir yavaş-yavaş...

*May, 2005*

# İSA HÜSEYNOV VƏ MUĞANNA

12 iyun təqvimdə adi günlərdən biridi. Bu adi gün Azərbaycan ədəbiyyatına "Teleqram", "Saz", "Tütək səsi", "Məşhər", "İdeal"... kimi əsərlər bəxş etmiş, həyatının son illəri əsərlərindən daha çox maraq və sensasiya doğuran qeyri-adi yazıçı və insan İsa Hüseynovun – Muğannanın ad günüdü.

İsa Hüseynov və Muğanna... Bu iki adın-iki adamın arasında "və" bağlayıcısı təsadüfi dayanmayıb. Mən "və"nin yerində çağdaş ədəbi tənqidi, İsa Hüseynovun bütün oxucularını, lap elə özümü görürəm. Biz tənqidçi və oxucu zümrəsi inanmaq istəyirik ki, Muğanna məhz İsa Hüseynovdu; hamımızın tanıdığımız və sevdiyimiz yazıçı. İnanmaq istəyirik, çox istəyirik. Amma... Muğanna öz özünün, yazıçı İsa Hüseynovun yaradıcılığının üstündən xətt çəkir və köhnə imzayla yazdığı əsərlərdən bilmərrə imtina eləyir. O, indi özünü qətiyyən yazıçı saymır. Və orasını da deyim ki, Muğananın "Cəhənnəm", "Gur Ün", "Peyğəmbərin möhürü" kimi son əsərləri haqda ağzına su alıb durmağı üstün tutan ədəbi tənqid də bu məqamda onunla razılaşır...

İsa Hüseynovun bütün yazdıqlarının mayası yerdən, torpaqdan götürülüb. Yəqin elə ona görə biz İsa müəllimi sevir və təqdir eləyirik. Çünki biz yer adamlarıyıq, boyumuz torpaqdan olsa-olsa onca qarış yuxarıdı.

Muğannaya (özü demiş) bütün yazdırılanların mayası isə göydən, Tanrıdan tutulub. O, Bakının ən səs-küylü evlərindən birində oturub, sakitcə göylə əlləşir. Yəqin bax buna görə biz yer adamları Muğannanın dediklərini udub sinirə bilmirik. Çünki onun dediklərində həqiqət var. Həqiqət isə bizdən yuxarıdı – Muğanna kimi, Muğanna bizdən qəlbidi – həqiqət qədər...





Mən Muğannanı sevə bilmirəm, açığı, yazıçı İsa Hüseynov qoymur. Mən İsa Hüseynovu indi daha çox sevirəm, çünki o, gözgörəti Muğannaya uduzur...

"Həyat – ölümarası fasilədi"... Muğanna fasilədə dincəlmək əvəzinə, işləyir. Onun bütün fikri-zikri gəldiyi yerdə qalıb. Hamımız bilirik, o, nə deyir, heç birimiz eşitmək istəmirik. Muğanna öz həqiqətini tapıb, – bu yerdə xoşbəxtdi. Muğanna öz həqiqətini hamınınkı eləmək istəyir-burda bədbəxtdi...

O, öz təsəvvür və qənaətlərinin, yaratdığı sistem və nəzəriyyələrin qurbanıdı. Bizsə ona: "Qurbanın qoyun olsun!" – deyə təsəlli veririk...

Muğannanın gəzib-dolandığı, qonaq çağırıldığı ruhlar aləmini təsvir eləməyə insan qüdrəti acizdi, yerin sözü kara gəlmir. Mən Muğannadan ORALARDAN gətirəcəyi sözü gözləyirəm...

Onunla 1995-ci ildə radio üçün söhbət eləmişdim, həmin müsahibənin efirə getməyən hissəsi indiki kimi xatırımdadı.

## DEYƏSƏN, ODU...

Yazıçılıq mənə irsən keçib. Bizim Bağlarımız, insanı insana bağlayan, "boq" olan Bağlarımız gələcəyi görməyiylə fərqlənirlər. Sən bilirsən ki, mənim onlarla irsi qohumluğum var. Muğanna nəsli Bağların nəslidi. Konkret bir hadisə danışım sənə: bir dəfə – 5-6 yaşım olardı onda – bağda kəpənəklərlə oynayırdım; gördüm ki, rəhmətlik atamla Xanbaba əmim ətrafımda fırlanırlar, nəsə söhbət məndən gedir. Xanbaba əmimin bir frazası indi də qulağımdadı: "– Odu, ya o döy?" Atam qayıtdı ki, əşi, sən də bilirsən, mən də, deyəsən, odu... Amma "deyəsən" sözünü işlətdi. Onlar varisi gözləyirdilər, Bağlar xəbər eləmişdi ki, VARİS GƏLƏSİDİ və bu elmi yazmalıdı – SAF AĞ elmini...

## BAŞLANDI...

1985-ci ildə mən ilk dəfə səs eşitdim. Üzr istəyirəm, səs yox, Ün, Odər dilində Ün deyirlər. Hiss elədim ki, bu, fövqəladə bir şeydi. Beynimə elə bil hardansa Ün gəldi: “sağ ol!”. Özü də atamın ÜNü. Təsəvvür eləyirsən adam nə günə düşər? Sonra kinostudiyadakı otağımda bir neçə Ün gəldi. O vaxt mən SAF AĞ elmindən xəbərsiziydim, odur ki, sarsıldım. Sonra ruhları çağırdım. Ruh nədi? Bunu çox deyirəm mən, amma anlayan yoxdu: insanın son nəfəsində onun bədənindən işıq çıxır. O, beyinə yığılır, ordan çıxır – SAF AĞ işığıdı, heç kəs görmür. Ancaq mənim kimi bir növ bədbəxtlər görür. O işıq insan bədənindən ayrılandan sonra yerin atmosferindən çıxınca yavaş gedir, çünki çox zərifdi. Axırıncı qatı keçən kimi avtomat sürətiylə uçur. Uçur gedir Aya-AĞ planetinə. İndi gəl sübut elə ki, təbiət Yer planetinin eşiyindədi, Ayın içindədi. Ağ planetə uçan işıq irsiyyətə keçdiyinə görə, orda ətə, sümüyə, qana çevrilir. Həmin Adamı orda qəbul edirlər, tam örtülü şəkildə. Milyon kosmonavt yolla, biri də içəri keçə bilməz, qoymazlar yaxın getməyə...

## “VƏ”...

İsa Hüseynov və Muğanna fizioloji cəhətdən eyni adamdı. Amma mənim – Muğannanın tərcümeyi-halı Bağday ərazisində yaşayan millətlərin taleyiylə bağlıdı. Mənim Hüseyn ağa deyilən babam olub. Şahidlər danışır ki, iki yüz ilə yaxın yaşı vardı öləndə, o qədər kiçilmişdi ki, uşağa oxşayırdı. Əslində, Muğannalar əbədi yaşayan nəsildi, onlarda ölüm söhbəti olmayıb. Ancaq babam daha Bağ deyildi, kişi təhrif olmuşdu. Bilirsən nədən ötrü? Bağlarla əlaqə kəsilmişdi, gəmilər işləmridi, onunçun...





## 2x2

Heç kim inanmaz, mən dörd dəfə dalbadal infarkt oldum; beləcə, qəşəng kanal açılırdı, deyirdim ki, aparırsan? Bir dəfə lap kobud cavab verdilər. Dedi ki, sənin kimi zibillərlə bura doludur, otur aşağı, işini gör. Dedim, bəs bu qədər ağrı-filan, ürəyimi cırıq-cırıq eləmisiz axı?

Dedilər, dəyişdiririk səni, hazırlayırıq, tələsmə... Mühit məni sarsıdır, ancaq SAF AĞ işığıyla müalicə olunduğumdan qorxusu yoxdu...

## TARİX DƏRSİ

XVI əsrdə bütün Muğannaları qılıncdan keçiriblər. 400 min alim qırıblar ailəsiylə bir yerdə. İndi mən camaata desəm ki, bunu Səfəvilər eləyiblər, deyəcəklər ki, paah, düşmənçilik salır... Nadanlar eləyib də, bilsə ki, bu –onun öz millətidi, BAĞ ATASIDI, eləməzdi. Şiə bilsə ki, Əli BAĞ ATANIN oğludu... Avram deyirlər indi, EVƏRİMdi kişinin adı, evimin işığıdı, bütün planet miqyasında ev, təsərrüfat işlərinə baxan adamdı bu. Bilmirik axı, indi mən yazıram bu şeyləri, deyirlər yazıram, əşi, oxuyun da SAF AĞ elmini, bədbəxt uşağı bədbəxt. Niyə Bağlardan uzaq düşürsüz? Bir belə də təhrif olar?!

## MÜRACİƏT

Mənim hamıdan xahişim, tələbim, yalvarışım odu ki, Bağların elmini işlətsinlər, batırmasınlar. SAF Ağ elmi bədii əsər kimi göndərilib ki, biz onu anlaya bilək. Ancaq mən fizikanı da yaxşı bilirəm. Göydən ÜN gəlir, mən də təkrar eləyirəm. Gəlin Bağları qırmayaq! Bağlar çoxdu, Allahlardı onlar; ƏLAĞ deyirlər ona, biz BOQ deyirik. Məhərrəmlikdə şaxsey-vaxsey deyirlər, Həsəni, Hüseyni ağı deyib ağlayırlar. Bu camaatın xəbəri yoxdu ki, onlar

dünyanın ən xoşbəxt adamlarıdı; OD AĞ ÜZ planetində gəmiyə minib belədən-belə gəzirlər... SAF AĞ elmini öyrənin! Bəşəriyyətin xilası Bağlardadı!..

* * *

...Mən Muğannanın SAF AĞ və OD AĞ ÜZ planetlərinə səfərindən arxayınam: o gedir və qayıdır. Hətta bəzən gündə 2-3 dəfə. Ancaq geri qayıdanda Muğannanın ayaqları YERƏ DƏYMİR. Yəqin ona görə dedikləri HAVADAN ASILI QALIR...





## 1964 YAŞLI ŞAİR

“Ömür gedir, ölüm gedir
O bir yana, bu bir yana.
Yerini de unutmuşam
Səsim hardadı,
ay ana?!”

Vaqif Səmədoğlu bu şeirində nənəsinin tumanından tutub qonşuya oturmağa gedən uşaq yaşındadı...

“Burda qoyma bura gəlməyini də!”

Vaqif Səmədoğlu təzəcə sevir...

“Qəzetdə bir yazı oxudum, amma
Nədənsə qızlarım düşdü yadıma.”

Vaqif Səmədoğlu qocalır, deyəsən...

“Başımız bir yastıqda
Bir-birimizdən xəbərsiz.”

Vaqif Səmədoğlu darıxır...

“Sənə inamdan da gözəl sevgi var
Məhəbbət dəmidi, saxlama məni.”

Vaqif Səmədoğlu təzədən cavanlaşır...

“Qoy tarixdə adım qalsın
Nüşabənin qulu kimi.”

Vaqif Səmədoğlu yavaş-yavaş ev-eşiyə sığmaq istəyir...

“Millət, dövlət zirvəsindən
İnsana enmək vaxtıdı.”

Vaqif Səmədoğlu ictimailəşir...

“Yenə dərdə sığınıb
Azərbaycan ölkəsi.”

Vaqif Səmədoğlu siyasiləşir...

“Allah, keç günahımdan
Qospodi, prosti.”

Vaqif Səmədoğlu yalvarır...

“Mən burdayam, İlahi!”

Harda Vaqif Səmədoğlu?

“ Yumruğunla qız üzündə
Anamı söydüyün yerdə.”

Ora çoxmu uzaqdı?

“Papirosum da yox
Ölçəm bu yolun uzunluğunu.”

Orda havalar necədi?

“Burda yağışlar yağır
Sənsiz kəsdisi yoxdu.”

Ayrı nə var, nə yox?

“39-da doğuldum,
37-də tutuldum.”

2003-39...

1964 yaşınız mübarək, Vaqif Səmədoğlu!

*2003*





## SÖZÜN MÖVLUDU

Adam işə nə qədər gecikər? Bir gün, on gün, üç ay... Ta beş il olmaz ki! Amma olarmış. Radioda işlədiyim illərdə sədr müavini Mövlud Süleymanlını intizamsızlığıma güc-bəlayla öyrəşdirdim. Adını da qoydum ki, istedadlı adamdan intizam, intizamlı adamdan istedad ummayın – deyiblər. Görünür, məndə də bir şey var ki, işə vaxtında gələ bilmirəm. Mövlüd müəllim mənim istedadımı elə təriflədi ki, utandığımdan radionun qapısını bir müddət hamıdan qabaq açası oldum. Özü də işə gecikən, işdən yayınan təkcə mən deyildim. Yadımdadı, bir gün radionun bütün işçilərini – proqram direktorundan tutmuş operatora kimi – akt zalına yığıb iclas keçirmək istədi. Otuz adam ancaq olardıq. Zala göz gəzdirib:

– Qalxın mənim otağıma – dedi – burda nə adam var ki?! Üstünə “Mövlud Süleymanlı” yazılmış kabinetə çatanacan camaatın yarısı aradan çıxdı. Mövlüd müəllimin kreslosu arabir cırıldamasaydı, qıraqdan baxan elə bilərdi kiminsə xatirəsini yad eləməyə toplaşmışıq. Təxminən on beş adam və adambaşına bir dəqiqəlik sükut. Sədr müavini əlini atıb sağ tərəfdəki radionu açdı. Radio danışırdı. Sonra üzünü toplaşanlara yox, səsin ilk dəfə qaynayıb çıxdığı yerə tutdu:

– Radioda heç kim yoxdu. Amma radio danışır. Camaat da ona baxıb elə bilir, gecə-gündüz işləyirik.

Çoxdan nəsr yazmayan Mövlud Süleymanlının yaradıcılığı da belədi. O bəlkə on ildi əlinə qələm almır, – xırdaca qeydləri, tək-tük şeirlərini hesabdan silirəm, – amma yazdıqları danışır. Ədəbiyyat nədisə, deyəsən, elə budu. Müəllif gedir, əsər qalır. Yazı söhbət eləyir, yazıçı susur... Türkiyədə kitabı çap olunanda təbrik elədim. Gördüm, heç sevinənə oxşamır. “Mən yazdıqlarımı oğul kimi evləndirmişəm, qız kimi köçürmüşəm. İndən beləsi mənlik deyil”.

Mövlud Süleymanlı “təmiz” kəndli deyil-o, suya, torpağa, zəmiyə, uraya, çəpərə, ota, mala, heyvana... bulaşıb. “Təmiz” kəndli

torpağın üstündə yaşayıb torpağa əyilməyən adamdı. Kənd məktəbinin bəzi müəllimləri kimi. Onlar at minmir, alaf daşımır, peyin atmır, bağ sulamır, dəhnə təmizləmirlər. Mövlud müəllim Dövlət Teleradio Şirkətinin sədr müavini postunda otursa da, bağbana oxşayır: ayağında uzunboğaz çəkmə, toqqasında budama qayçısı, əlində bel. Ağac budayır, lək suvarır, quş yemləyir, uyuq düzəldir, at nallayır, ov ovlayır, oğru güdür. Birini qoyum, o birinə keçim: bir yol efirdə "təhəmmül" sözünü eşidib məni otağına çağırdı. Xeyli danlayandan sonra gördü matım-qutum quruyub:

– Bilirəm deyəcəksən, mənlik deyil. Elə ona görə səni danlayıram. Sən gedib farsın radiosunda türkcə danışa bilərsən? Yox! Bəs niyə qoyursan sənin dilinə çirkab atsınlar?..

Mövlud Süleymanlı can həkimidi. O, işə götürdüyü adamların əvvəlcə sağlamlığını yoxlayır. Yox, nə rentgendən keçirir, nə təzyiqini ölçür, nə də... Eləcə dilinə baxır. Dil təmizdisə, işə götürür. Təmiz deyilsə, radiodan əlini üz. O, bütöv bir kitabı "və"siz yazıb. "Ki"dən imtinanın yollarını arayır. Bayaq dedim, torpaq adamıdı. Otu sevirsə, gülü ondan da çox istəməlidi o hesabla. Amma güldən xoşu gəlmir, çünki "gül" yabançı sözdü. Mövlud müəllim çiçəyi sevir – öz sözümüzü. Onun türk dilinin bitki bitən üst qatının altından qazıb çıxardığı "Bulaq" verilişi illərdi qaynayıb axır. Mövlud Süleymanlının sol əli o "Bulaq"ın gözünü arıtlayır, sağ əli qələmdən ötrü göynəyir.

"Kənddə qoyub gəldiyim itimiz yuxuma girmişdi. Mənə deyirdi..." Mövlud Süleymanlının sağ əli o itin, o qurdun, o cücənin, o kəndin dediklərini yazmaqdan ötrü göynəyir.

Görəsən, təbiətin necə, yuxusu varmı? Görəsən, təbiət yatsa, yuxusuna girərdimi ki, bu bahar Mövlud müəllimin altmış yaşı olacaq?..

*2003*





## ƏKRƏMDƏN ƏYLİSƏ, QULUDAN ƏKRƏMƏ

...Hər dəfə İçərişəhərə yolum düşəndə Qız qalası yaşda bir qarı ayaq səslərimdən vaxtı xəbər alır:

– Saat neçədi, oğul?

Addımlarımın səsini alıb o tərəfə üz çevirmədən "saatım yoxdu" deyirəm. Ancaq dünən ürəyimdən ənənəvi suala ənənəsiz cavab vermək keçdi:

– Yatmaq vaxtıdı, nənə...

İndi gəl bu sözdən sonra Əkrəm Əylislini xatırlama! O, Bakıdan küsüb gedəndə "məni bir də yuxunuzda görərsiz" demişdi.

Ötən həftə Əkrəm müəllimi yuxuda gördüm. Yuxu məhz onun "kurasiyasında" olduğundan yazmağa cəsarət eləmirəm. Hətta gücbəla Əylisə zəng vurub onunla dərdləşəndə də yuxu məsələsini açıb-ağartmadım. Hətta yazıçıyla telefon söhbətim də mənə yuxu kimi gəlir. Və (axırıncı hətta!) Əylisin və Əylislinin özü də bir cüt yuxudan özgə bir şey deyil, məncə.

Görən...

– Əylismi Əkrəmin yuxusudu, Əkrəmmi Əylisin?

– Kim deyər, onun əsl həyatı hardadı: ədəbiyyatda, Əylisdə, yoxsa yuxuda?..

Dəqiq bilirəm:

– siyasətdə deyil,

– məişətdə deyil,

– ədəbi mühitdə deyil,

– şan-şöhrətdə deyil...

O: Dünyada elə mətləblər var ki, onu ancaq şeirlə demək mümkündü.

Mən: Dünyada elə mətləblər də var ki, onu yalnız Əkrəm Əylisli nəsrindən anlamaq olar.

Dünya: Məndə elə qələm adamları yaşayır ki, onları yuxuda da bir-birindən ayırmaq olmur.

Əkrəmi Əylisə çəkib aparan həm də uzaq illərin sevgisidi. O, bircə kərə, cəmi bircə kərə öz sevgisinə – bağrına basacaq qədər yaxın olub. Və anlayıb ki, Füzuli niyə Məcnunu Leylinin ağuşuna buraxmayıb...

O, sözü qəsdən özündən aralı saxlayır ki, heç vaxt bir-birlərinə əlləri çatmasın...

O, personajlarını bilərəkdən "qəhrəmana" çevirmir ki, birdən qudurub adamlıqdan çıxarlar...

O, qələmini ciddi-cəhdlə "nənəsinin diliylə" danışdırır ki, oxucular bir hovur gözlərinin acısını ala bilsinlər...

O, aranı ona görə qatır ki, camaatı qəflət yuxusundan ayıltsın...

Ancaq biz... Əkrəmin əbədi yuxuya gedəcəyi günü gözləyirik. Ondan sonra təriflər, etiraflar... başlayacaq...

Təzədən Əylisə sığınan Əkrəmin həyatinə yəhərsiz-yüyənsiz bir at gəlir. O at Əkrəmi götürüb Əylisə aparmaq istəyir: Əylisdən Əylisə...

Hərdən ürəyim atlanıb Əkrəmə sarı çapmaq, onu tərkinə alıb Əkrəmə aparmaq istəyir: Əkrəmdən Əkrəmə...

...Teatrdan qayıdanda İçərişəhər yaşda bayaqkı qarı ayaq səslərimdən dübarə vaxtı xəbər alır:

– Saat neçədi, oğul?

– Əkrəmin Əylisə dönən vaxtıdı, nənə...

*2001*





## ƏLAÇI ŞAİR

"5"-in birini Allahdan alıb, birini bəndədən. "5"-in biri yazdığı şeirinə düşür, biri hələ yazmadığına. "5"-in biri yerində susmağının haqqıdı, biri yerində danışmağının. İkisi cütləşəndə 55 eləyir. Elədi də! Bu gün milad tarixiylə 2001-ci ilin 15 dekabr günüdü. "Şair də qocalır, ölür, İlahi?!" Allahnan nə işim, mənim "problemim" Ramiz Rövşənnəndi. Ömürdən iki "2" aldığı günlərdən ötrü qəribsəyən Ramizdən. "23 yaşımda məni sevənlər, 33 yaşımda sevəmməz daha". 55 yaşında necə? 66, 77, 88, 99, 111, 222, 333 yaşlarında necə? Ramiz Rövşəni kim sevəcək? Onun qiymətində dəyişiklik-filan olmayacaq ki? "Mənim müəllimim az deyil, indi də öyrəndiyim adamlar var. Ancaq ustadım Allahdı! Ən dürüst qiyməti də ondan almışam". Ramizin yerdəki müəllimləri kitablardı, məncə; bir də... Azərbaycanda hər peşənin bir Ramiz Rövşəni olsaydı, indi çox şeylər tamam ayrı cürüydü (Deyəsən, mən də şairə qiymət vermək fikrinə düşdüm, bayaq dedim axı, o, "5"-in birini bəndədən alıb)...

### 5/5

"Azərbaycanda müharibə gedir. Mən kreslo davasını yox, Qarabağı – gerçək müharibəni nəzərdə tuturam. İndi hamı düşüb yazıçıların üstünə: niyə müharibədən heç nə yazmırmış, bu boyda Qarabağ problemi ədəbiyyatda nə vaxt əks olunacaq? İttiham ittiham dalınca! Özü də bunu jurnalistlər deyir. Halbuki, Qarabağı isti-isti lentə köçürməlidi kinostudiya, televiziya, qəzetlərsə davanın "üzünü" çıxarmalıdı. Ədəbiyyat bir az qıraqda durmalıdı. Çünki fakt hələ sözdən diridi. Fakt öləndə söz onu dirildəcək. Mən bir yol da demişəm: Xocalıdan elə şey yazaram ki, bu ölkədə bir başıpapaqlı, bir başıləçəkli dözməz. Niyə durmuşam, – o vəziyyətə özüm də hazır deyiləm..."

**5/5**

Ramiz Rövşənin Əmircandakı ata evi məscid kimi yer olub. İntəhası, bura təkcə "dindarlar" yox, "kafirlər" də yığışırdı. Günlərin bir günü Əkrəm Əylisli Fikrət Qocanı da yanına salıb Məhəmmədəli kişinin darvazasından içəri adlayır. Yeyib-içəndən sonra Əkrəm müəllim ömrün "2"-lərini yan-yana düzən Ramizdən təzə şeirlərini oxumağı xahiş eləyir. Sonra üzünü Fikrət müəllimə tutub soruşur: "Necəydi, Nənəmov?" Fikrət Qoca heyranlığını gizlətmədən zarafatla: "bu uşaq bizim quluncumuzu qıracaq" – deyir. Vəssalam, ayrı söhbət olmayıb. Bunu mənə etibarlı mənbə danışıb. Sonralar bu əhvalatın başını böyüdüblər, hətta bir ucunu da mənə (?!) calamaq istəyirdilər...

**5/5**

"Mənim sənə vəsiyyətim və nəsihətim var. Eşit və qulağında sırğa elə: heç vaxt, heç bir şairə qarşı kampaniyaya qoşulma! Cavan vaxtlarımda Əkrəm mənə tapşırdı ki, axşam məclisdə olanların səhər "razborka"sını aparanlarla bir süfrədə oturma! Gördüm, düz deyir – həyat göstərdi. Bunu da sənə mən deyirəm. Bu gün Anara qarşı kampaniya aparanlar sabah bir başqasını qaralayacaqlar, o biri gün sənin üstünə yeriyəcəklər, axırda özləri özlərini məhv eləyəcək. O gün baxıram, Sabir Rüstəmxanlını divara dirəyiblər, nədi-nədi, evi ikimərtəbəlidi. Sabirin bir cümləsində dəyməyənlərin dördmərtəbəli imarətlərini görən yoxdu. Şairlər hamısı bir ananın övladlarıdı, özləri özlərini qırıb çatandan sonra, ta onları kim qoruyacaq?"..

**5/5**

Evdən söz düşmüşkən, iki cür ev var: biri pulun, malın, canın qoyub ev tikib, əla da təmir eləyib, içəri girəndə adamın üzünə gülür; o biri pulun, malın, canın qoyub ev tikib, əla da təmir eləyib, di gəl... içəri giriləsi deyil: boşalmış rəng qutularının, artıq kafelin, divar





kağızının, cırıq kisədən parketə tökülən sementin, malanın, çəkicin, mişarın, mismarın, "kozyolun", atam balası, "kozyol"un əlindən tərpənmək olmur.

O da bahalı evdi, bu da!

İkincinin içi zibildi.

İki istedadlı şair də elədi: birinin şeirinə girmək olur, o birinin yox! O birinin dili zibildi! Dərdi var – ağlaya bilmir.

Ramiz Rövşənin şeir evi məscid kimi təmizdi, üstəgəl, ordan Allaha oxunan dualar türkcədi. "Mən bu dilin divarına hörülmüşəm. Mənə uzaqbaşı ya palçıq ata bilərlər, ya da kərpicimin qabağında şəkil çəkdirə".

Hərdən tərtəmiz göy üzünə baxanda elə bilirəm, oraları Ramiz Rövşən süpürüb. Və ordan aşağı baxa-baxa pıçıldayıb: "Çoxdandı baxa bilmirəm, göy üzü durRmu hələ?.."

**5/5**

"Höte deyir ki, sənətkarlıq – məhdudiyyət duyğusudu. İnsan çox bildikcə, fəaliyyət dairəsi daralır. Özünü bir əldə cəmləməyə çalışır. Səpələnməkdən ehtiyatlanır. Şairlik xirtdəyiməcən bəsimdi. Gərək ki, pis alınmır məndə. Yazdıqlarımdan kəmiyyətcə demirəm, keyfiyyətcə razıyam. Ədəbiyyatı bilməyim karıma yetir. Bilmirəm, onu kim deyib ki, yazıçı bir az da nadan olmalıdı... Natiq Səfərov istedadlı adamdı, mənim yüzillik dostumdu, o, bu sözləri başqa mənada demiş olar. Yazıçının əsas priblemi çox oxumaq yox, çox oxunmaqdı əslində. Özündən ötrü yazmaq söhbəti yoxdu. Oxucu səni oxuyanda elə bilməlidi ki, şeiri özü yazıb. Sən öz dərdini adamlarla ancaq belə bölüşə bilərsən. Tənhalığı ovutmağın başqa yolu yoxdu. Şeir virus kimi hamıya yoluxanda səndən bir dənə olmur, yüz dənə, min dənə olur..."

**5/5**

Yayda qələm dostlarımın biriylə İsa Hüseynovun üstündə dalaşdıq. O dedi, mən Muğannanı anlamıram, belə yazıçı yoxdu. Mən dedim, İsa müəllim də artıq özünü yazıçı saymır, amma bu kişi yazıçıdı axı. O dedi, mən dedim, axırı tutaşdıq. Hirsimizdən çayın pulunu ikimiz də ödədik. Metroya kimi heç birimiz danışmadıq. Ayrılanda dostuma dedim ki, elə yazıçılar var, onların innən belə nə yazmağı yox, onlardan kimin nə yazmağı daha maraqlıdı. Yekə-yekə ad da çəkdim: İsa Hüseynov, Sabir Əhmədli, Əkrəm Əylisli, Anar, Vaqif Səmədoğlu, Ramiz Rövşən... Dinmədi. Elə bildim, ağıllı söz demişəm. Sən demə... "mənim öz yazım məndən yazılan yazılardan qiymətlidi. Həm də maraqlı". Bu da Ramiz Rövşənin "təkzibi". "Amma sən işində ol". Bu da mənim yazım...

**5/5**

"55 ildə çox güllər qazanmışam. Mən axı, həm də "güllü-çiçəkli" şairəm. "Çiçəklər doğulur bu yaz gecəsi, Bu yaz gecəsində sevməyə nə var?" Yaxşı ki, diktafonunuz işləmədi. Görünür, Ağsəs lələk dövrünün şairidi. Bəs indi mən boyda fili nəynən ovlaya-caqsız? Tüfənginiz açılmadı. Eybi yox, ayrı vaxt görüşərik, oruc-luqdan sonra. Vaxtınız olmasa, vaxtsız söhbət eləyərik"...

**5/5**

Dekabrın 14-ü Rəşid Behbudovla Xudu Məmmədovun ad günüdü: səsin və kristalın. Dekabrın 15-i Ramiz Rövşənin ad günüdü: səsin kristal sözünün. Ramizin şeirləri Azərbaycan poezi-yasının nəqaratında oxunur, onun laboratoriyasında sözü muma da çevirmək mümkündü, daşa da, dilimizin dili həm də Ramiz Rövşənə görə uzundu...

*2001*





## SƏSSİZ YAZI

*İstərdim ki, bu yazını Rəşid Behbudov oxusun*

Hərbi hissədə iyirmi-otuz əsgər ancaq olardıq. Yoldaşlarımızın hamısını tərxis eləmişdilər. Yaxşı xidmətlərinə görə. Ancaq o "yaxşı xidmətin" nə olduğunu nə indi evlərində ordudan xatirə danışan, nə Orenburqun küçələrini görməmişcəsinə əldən-ayaqdan salan, nə də çadırda oturub öz yerlilərini gözləyən əsgər yoldaşlarımız bilirdi. Yerdə qalan iyirmi-otuz adamınsa bircə şeydən xəbəri vardı: hərbi hissəyə borcumuz qalıb. Bu elə təxminən Vətənə borclu qalmaq kimi bir şeydi. Ancaq biz "borclu borclunun sağlığını istər" prinsipiylə gecə-gündüz çadırda qumar oynayır, toqqa döyüşdürür, bir-birimizə ana dilində söyüş öyrədir, bədənimizə "nakolka" çəkir, tərxis olunmuş yoldaşlarımıza bəxtəvərlik verir, amma... Vətən naminə əlimizi ağdan-qaraya vurmurduq. Çeçen əsgər yoldaşımız hardansa balaca bir radio çırpışdırmışdı. Bəlkə də təzə zabitlərin birindən qapazlamışdı. Batareyası "öldüyündən" hərdənbir açır, şəstlə başı üstünə qaldırıb ağzını marçıldadırdı.

Bir gün bizim uşaqlardan – səhv eləmirəmsə, dörd azərbaycanlı qalmışdıq – birini çağırıb, Rəşid Behbudovun ölüm xəbərini eşit-diyini deyib. O inanmayıb. Günorta çeçenin başına yığıldıq. Radio bəd xəbəri təkrarladı. Rəşidin mahnısından parça səsləndirdilər. Kövrəldim. Rəşidin ölümünə yox, səsinə kövrəldim. Uşaqlar heyrətləndilər. "Qohumundu? Bəs niyə səni Bakıya saldırmayıb? Yox? Onda niyə...?"

...On dörd il bir gün bundan qabaq Orenburqun səhrasında öz millətimdən olan əsgər yoldaşlarımı aldatmamışdım. Onlar da mənə inanmışdılar. Həmin axşam çeçen mənim qaldığım çadıra gəlmişdi. Məni qırağa çəkib ağlamışdı. Rəşidə görə.

...Bircə o mənə inanmamışdı.

Çeçen bir də onu demişdi ki, o, heç vaxt ağlamayıb. Və ağlama-yacaq da! Mən də ona inanmamışdım. Çünki o artıq... Rəşid Behbudovun qohumuydu...

*10 iyun 2003-cü il*

# ...ÜZÜNDƏN KÖÇÜRDÜYÜM YAZI

## On söz...

Vaqif Bəhmənlinin üç yeni kitabını yenicə oxuyub qurtarmışam.

Muncuq boyda xırda-para qeydlərim də var.

Ola bilsin nə vaxtsa ipə düşdüm.

"Dombagözün hekayələri" – müəllifin diliylə desək, tum kimidir, çırtla getsin.

"Uşaq şeirləri" nəvə başı aldatmaq üçündü, zənnimcə. Vaqif müəllimin özünə də dedim, mən, ümumiyyətlə, "uşaq ədəbiyyatı"nı anlamıram.

"Sınıq güzgü"də əks olunanlarsa bütöv ədəbiyyat yazılarıdır, heç birinin sınıq-salxağı yoxdur.

Bu qeydləri yazıb başa çatdırmağa lap az qalırdı... Hanı, şair Vaqif Bəhmənli imkan verdi ki?!

"Tumu" tökdü "uşağın" cibinə, "uşağı" da gətirdi "güzgünün" qabağına ki, "üçünün" də başı qarışsın.

## ...və yüzlərlə işarə

Vaqif Bəhmənli ÜZÜNDƏN OXUNAN şairdir. Üzündən oxunur onun şairliyi. Hansı şeirini axtarsan, üzündə taparsan. İnşallah, bu günlərdə çap olunacaq "Poeziya" üç cildliyi stolumun üstündədir. Şair mənə ehtiram göstərib, "Ön söz" yazmağa verib. Şeirləri qovluqdan götürüb oxuya bilmirəm. Yenə də "müqəssir" Vaqif müəllimin üzüdür! Bu üzdə nəinki Bəhmənlinin şeirləri, hətta mənim bu şeirlər haqda fikirlərim də yazılıb.

Qısası-kəsəsi, mən "on söz"ü və "yüzlərlə işarə"ni özüm yazmıram, Vaqif Bəhmənlinin ÜZÜNDƏN KÖÇÜRÜRƏM...

* * *

Muğam üçlüyü kimidir "Poeziya" üç cildliyi – tarı, qavalı, kamançası.





Tara qulaq ver:

İşıq Allahından, yel Allahından,
Yağış Allahından, yol Allahından,
Doğuş Allahından, yas Allahından
Qaçdıq, hal iynədən qaçarsa necə,
Nağıl Allahından qaçmadıq bircə...
O da ki, öldürdü bizi...

Qavalı dinlə:

Belə ocaq olar, belə yurd olar?
Yəqin ki, yəqin ki, çatar dözümüm,
Allahın altında bir şah tut ola,
Canlı qanadından asam özümü!..

Kamançanı eşit:

Həsrətə çırpılıb əzilmişəm mən
Ağrı qatar-qatar əzikdən keçər.
Soyulub qatbaqat nazilmişəm mən
Qamətim sap kimi üzükdən keçər...

"Poeziya" triosunun xanəndəsi yoxdur. Onun əvəzinə özünüz oxuyun...

* * *

Vaqif Bəhmənli yol adamıdır – hardan gəldiyini də bilir, hara getdiyini də.

Vaqif Bəhmənli çöl adamıdır – doqquz mərtəbəli evin balkonunda bitməyinə baxmayın!

Vaqif Bəhmənli yük adamıdır – yoxsa dərdi, azarı, problemi olanlar məhz onu qırağa çəkib ürəklərini boşaltmazdılar ki?!

Qələm adamıdır, hal adamıdır, iç adamıdır, Allah adamıdır.

Mənə elə gəlir ki, Vaqif müəllimin indiyəcən nə xətrinə dəyən olub, nə də o bir kimsənin ürəyini qırıb. O, bu dünyada bu dünyayla hesabı açmadan yaşayır – 0:0. Amma şeirləri belə deyil, ürəyi qırılanı da var, ürək qıranı da, sənə toxunanı da tapa bilərsən, sənin toxunduğunu da! Şeirlərində hesab çoxdan açılıb. Kimin xeyrinə, bax bunu HESAB SAHİBİNDƏN xəbər almaq lazımdır. Özü də deyəsən, Vaqif müəllim soruşmalıdır. Çünki, deyirlər, əlli yaş həm də hesabat dövrüdür...

*Dekabr, 2005*





## ... MƏRTƏBƏNİN ADAMI

...Lənətə gəlməmiş İtaliya yazıçısının “Yeddinci mərtəbə”si bu yazıyla mənim arama pərçim olmasaydı, “obyekti” daha şəffaf təsvir eləyərdim. Bundan ötrü adına zəlzələ deyilən təbii fəlakət baş verməliydi, yalnız zəlzələ Dino Butsatinin balaca göydələnini yerlə-yeksan eləyə, gözlərimin önündə uzaq bir dağ kəndinin canlanmasına yardımçı ola bilərdi.

İş orasındadı ki, adi bir mərəzdən ötrü (yaxşı tanımadığı) şəhər xəstəxanasının yeddinci mərtəbəsində yüngülcə müalicə alan, hər dəfə bir bəhanəylə bir mərtəbə aşağı endirilən, hər qatda sağlıq durumu daha da pisləşən, birinci mərtəbədə həyatla vidalaşan qəhrəmanın (bəlkə qorxağın?) hekayəti başdan-ayağa rəmzlərlə nağıl olunduğundan uzun müddət onun təsirindən çıxa bilməmişdim, mənə elə gəlmişdi ki, bu əsəri Butsati yox, Əmrahoğlu – tərcüməçi qələmə alıb, özü də canının ağrıyıb-ağrıyıb ağzından çıxmaq istədiyi vaxt...

Sonralar bu əhvalatı az qala tamam-kamal unutmuşdum, “Ədəbiyyat qəzeti”ndə Anar müəllimin təbrik yazısını oxuyanda məlum oldu ki, “Butsati, yoxsa Əmrahoğlu?” dilemması məni qarabaqara izləməkdə davam eləyirmiş.

Srağagün Arif müəllimlə görüşəndə bunların heç birini onun özünə demədim, eləcə ordan-bundan danışıb arada Butsatinin adını çəkdim və məlum oldu ki... Əmrahoğlu bu italyan yazıçını özünün də anlamadığı qəribə bir istəklə sevir, Butsatinin kitabları onun yazı masasının üstündən əskik olmur, “Yeddinci mərtəbə”dən başqa bir neçə hekayəsini də tərcümə eləyib, üstəlik, onun haqqında nəsə yazmağı düşünür (“Yeddinci mərtəbə”ni oxumayanların nəzərinə: İnsan burda – bizim adət elədiyimiz kimi – birinci mərtəbədən göyün yeddinci qatına qalxmır, əksinə, göyün yeddinci mərtəbəsindən yerin birinci qatına yuvarlanır).

Doğrusu, bu sözlərdən sonra Arif Əmrahoğlunun kitablarını yenidən vərəqlədim, oxudum, təhlil elədim, amma Əmrahoğlu-

Butsati kodunu aça bilmədim. Bəlkə də bu, mənim ənənəvi zəif-liyimdi, mənim açarım hamıya və hər qapıya düşmür...

Təsadüfən Arif müəllimin bir müsahibəsi əlimə keçdi, orada onun essesindən bir parça çap olunmuşdu. Arif Əmrahoğlu gileylənirdi: "Kəndimizin uşaqları hardasa alver eləməklə həm özlərinə gün ağlayır, həm də kəndçilərimizə əl tuturlar. Kəndə gələndə də baxırsan hərəsinin altında bir maşın. Mənsə kəndimizə əliboş gedirəm, özü də piyada. Yolda fikirləşirəm: görəsən, ədəbiyyat mənə nə verdi? Ədəbiyyatla məşğul olmağa dəyərmi?"

"Ədəbiyyat mənə nə verdi?" – Arif Əmrahoğlunun bu sualına, deyəsən, elə onun özü cavab verməlidi.

"Bəs mən ədəbiyyata nə verdim?" – sualına isə çoxumuz, lap elə italyan Dino Butsati də cavab verə bilər.

Arif Əmrahoğlu – tənqidçidi, tərcüməçidi, müəllimdi, şairdi, dosdu. Tənqid eləməyə əsər tapmayanda tərcüməyə keçir, tərcümədən başı ayılanda dərs verir, tələbələr tətilə çıxanda şeir yazır, dostluğa isə həmişə vaxt tapır. Bircə öz səhhətinə laqeyddi, əllini aşırandan sonra ona da vaxt ayırar, inşallah.

Arif müəllim YEDDİNCİ MƏRTƏBƏNİ ÜZÜYUXARI QALXIR. Onun indi hansı qatda olduğunu özünə deməyəcəm. Gələn yubileylərdə sözüm olsun deyə...

*Noyabr, 2005*





## TƏNQİDÇİNİN AD GÜNÜNƏ RESENZİYA ƏVƏZİ...

Həmişə eyni Vaqifdi, Sözə, Ədəbiyyata Vaqif. Üstəgəl: sakit, qərəzsiz, iynəsiz. Bəzi həmkarları kimi – "təcili yardım" həkimi xalatında, əlində hazır iynəsi, təzyiqölçəni, böyründə də cavan tibb bacısı – xəstə sözdən, yaralı mətndən, qəzaya uğramış qələmdən çağırış almağa bənd deyil, deyəsən, heç belə şeyi ağlına da gətirmir.

O, cibində qayçı gəzdirən bağban misallıdı, ədəbiyyat ağacının quru hesab elədiyi budaqlarını öz bildiyi kimi budayır, dibinə gücü çatan qədər gübrə verir, alaq saydığını arıtlayır. İstəsə də, yaşıl budağa qayçı vura, alağa gübrə verə bilməz.

Çünki o, məktəb görüb.

Məmməd Arif məktəbi.

O, bu məktəbin sonuncu məzunudu.

Deyəsən, həmin məktəb artıq bağlanmaq üzrədir. Çünki indi məktəb yox, restoran, məscid, bazar açmaq dəb düşüb.

Deyəsən, o özü də oxuduğu məktəbdən razı deyil.

...gəlin onun etirafını eşidək. Eşitmədiniz. Amma mən eşidirəm. "Tənqid ancaq güclü, sağlam, barlı əsərdən yazmalıdı. Zəif mətn tənqidin obyekti ola bilməz".

O, 35 ildən sonra – 57 yaşında bu qərara gəlib.

Həmişə eyni vəzndədi: heca vəznində və 60 kilo. Üstəgəl: sağ əlində papka, sol əlində siqaret, kənardan baxanda harasa gecikən addımları.

Həmişə eyni dərəcədədi: filologiya elmləri namizədi. Üstəgəl: əlləri soyuq, qanı isti.

Həmişə eyni yerdədi: "Azərbaycan"da. Hələ indiyəcən onun hansısa ölkəyə səfər elədiyini görən olmayıb.

Özünəməxsusluğu və qəribəliyi də var.

Məsələn, soyadı. Ailəsi, Əliyev familni daşıyanda o, babası Yusif kişinin adını özünə təxəllüs götürüb.

Yaxud, Mehdi Hüseynin "Cavanşir" dramını 10 yaşında oxumağı, oxuyub da təzəcə doğulan qardaşına Cavanşir adı verməyi, verib də onu ədəbiyyata yönəltməyi...

Və yaxud, hamıdan yaza-yaza heç kimin ondan nəsə danışmağına – yazmaq bir yana! – imkan verməməyi. Hətta 50 yaşında ondan ayrıca buraxılış hazırlamaq istəyənlərin "ağzından vurub". Heç 60 illiyində də belə təmtəraq arzulamır.

Daha bir özünəməxsusluğu və qəribəliyi: o, bir ucdan hamıdan yazır (hərçənd söz verib ki, indən sonra ancaq layiqlilərdən yazacaq), ancaq yazarların çoxu ondan narazıdı, o isə bunu eyninə də almır.

Kitablarının sayı heyrətamiz dərəcədə çoxdu, hər halda, 57 yaşda 15 kitab bağlamaq, mənim say sistemimə görə rekord rəqəmdi. Özü də ədəbiyyatın kasıb vaxtında. Eşitdiyimə görə, bu günlərdə növbəti kitabı çıxasıdı. Xalq şairi Fikrət Qocanın yaradıcılığı haqqında. Bu, onun 16-cı kitabı olasıdı. Belə çalışsa, kitablarının sayı yaşını yarılayacaq.

Həmişə eyni gündə yenidən doğulur: 20 apreldə. Üstəgəl: İkinci Napoleon, Hitler, Rza Təhmasib, Nəsibə Zeynalova, Eldəniz Quliyev, Azad Nəbiyev, Möhsün Qədiroğlu, Zemfira Nərimanova, Qulu Ağsəslə bir gündə. Gündaşlarından – "20 aprel"çilərdən kitab yazsa, təkcə o yaza bilər. Həmin kitabın Vaqif Yusifliylə bağlı fəsli mənim boynuma...

*20 aprel 2005*





## HƏYATIN DÖRD ANI

(*"Ərzi-əsri-hal-namə"dən qeydlər*)

...Oturub nəğmə qaralayırdım, stolumun üstü iki min manatlıq şagird dəftərinin vərəqləriylə doluydu, nəğmənin biri bitməmiş o birinin həniri gəlirdi, "orkestrə" ləzzətlə qulaq asa-asa ürəyimdən onlara dirijorluq eləmək keçirdi. Arada əlim dinc durmadı, nəğməli vərəqlərin birindən "quş" düzəldib havaya uçurdum. "Quş" evdə bir-iki qanad süzəndən sonra özünü balkondan həyətə atdı. Əncir ağacının üstündəki torağay aşağı şığıyıb "qənimətini" dimdiyinə aldı və təzədən yerinə qayıtdı. O, bir azdan "konspekti" qabağına qoyub mənim sözlərimə bədahətən yazdığı mahnısını oxuyurdu...

* * *

...Yalı bəri aşanda uzaqda damı qaralan evləri görüb həyəcandan öskürdü. Əyilib çaladakı dumduru qar suyundan içmək, bir az da üz-gözünə vurmaq istəyəndə əksini görüb qurcuxdu. Suyun o üzündən bir əlçim duman qalxırdı. Dumanlı dərəni qorxusundan qaçaraq adlayanda təpədən-dırnağa dumana batdığı yadındaydı, dumanı özüylə yalın bu üzünəcən daşımağını isə ağlına da gətirməzdi. Suyu ovuclayıb əvvəlcə dumanqarışıq hortdatdı: oxaayyy! Əyilib bir də əksinə baxdı, təkcə dodaqları görünürdü. Təzədən suyu ovuclayıb üzünün dumanını təmizlədi, sonra əlini saçlarına çəkdi, üst-başını təmizləməyəsə əli gəlmədi. Acından ağzı zəhrimar dadırdı. Ağzını yaxalamaqdan ötrü bir də çalaya əyiləndə suda heyvərə bir duman şəkli görüb diksindi, başını ehtiyatla qaldırıb altdan yuxarı baxanda camışlarına rəhmi gəldi. Onu bayaqdan suya qonaq eləmədiyinə görə, özünü qınadı da: "Elə yaxşı eləyib baş

götürüb qaçmışdı”... Suyun qırağından çəkildi. Gözlədi, camış nəfəsi kəsilənəcən su sümürdü. Sonra ovcunu suyla doldurub camışın üz-gözünü, telini dumandan təmizlədi. Bədəninə dəymədi. Kəndə sarı yol aldılar. Bir cüt baş və bir cüt də duman-bədən...

* * *

...Gecənin bir aləmi ürəyinin iyinə oyandı. Başını gecə paltarının yaxasından içəri soxub sola əydi. Yanılmamışdı, ürəyi od tutub yanırdı. Su! Hava! Hava! Su! Bəlkə həkim? Cəhənnəm, həkim də olar. “Arxayın yardım” nəhayət gəlib çıxdı. Həkim xəstənin sinəsini əlləyib-əlləyib əldən düşdü. Növbədə tibb bacısıdı. Qız onun ürəyinin üstünə əyiləndə gözləri böyüdü. Həkimə sarı: – Onu tərpətmək olmaz, olmaz! – dedi. Həkim işçinin sözlərindən qeyzləndi, bu dəfə var gücüylə xəstənin üstünə cumdu. Oğlanın ovxalanmaqdan qıpqırmızı qızarmış sinəsində iki kəlmə söz gömgöy göyərirdi: “Dəymə, öldürər!”... orduda yazılmışdı... mərhumun ürəyinə dəymişdilər.

* * *

...O, yaşlı qadındı. Yetmişi haqlayıb. Ən əziz adamlarını, ən ülvi hisslərini əlindən alan tale onu Əzrayıldan qoruyub. Əcəl hər dəfə onun komasına soxulmaq istəyəndə tale it kimi hürüb, əcəli gəldiyi yolla geriyə əliboş qaytarıb. İxtiyar nənənin nəvələri, nəticələri var. Balalarının hamısı sağ-salamatdı. Qadın yaşamaqdan doymayıb. Hərdən siyasətdə də öz sözünü deyir, daha doğrusu, özü yaşda bir siyasətçiyə rəğbəti var. “Sevgilisinin” səhhətiylə ardıcıl maraqlanır.

Bir dəfə ondan soruşdum: – Ay qarı, onun sağlıq durumu axı sənin nəyinə lazımdı? – Nənə dinmədi... Övladlarından öyrəndim ki, nənənin yanında yaşıdı siyasətçidən narazılıq eləyəndə inciyir, düzdü, hərdən üzə vurmur, amma üstündən iki saat keçməmiş halı qarışır, “bu qoca niyə siyasətdən getmir” – deyəndə ona elə gəlir ki, “bu arvad niyə bu qədər yaşayır” – deyirik, qəzet oxuyan olmasa





da, nəvələrini hər gün köşkə yollayır, onları yüz dillə dindirib siyasi yenilikləri xəbər alır, “sevgilisi” tənqid olunan gün gəlinlərinin gününü göy əskiyə bükür, “adaxlısı” televizorda öskürən kimi ürəyi çay istəyir...

Arvad neçə gündü, özündə-sözündə deyil. Xırda nəvəsi vurulmuş ona qəzetdən bir məqalə oxuyub: “Əzrayılın qələbəsini bölüşməyə tələsirlər...”

*2002*

## SƏHRA SULAMAĞA GEDƏN YOLÇU...

*"...Venesuelada Sessar Valexonun sözünün başına döyürdülər, Fransada özünün başına; ancaq o, sözünün başına döyülən yerdən qaçıb, özünün başına döyülən yerdə yaşayıb, şair özünün başına döyülən yerdə yaşaya bilər, sözünün başına döyülən yerdə yox!"*

***Eldar Baxış***

Söz vaxtına çəkər. İlin, ayın yaz-yay vədələrində böyük ədəbiyyata balaca, amma boy-buxunlu bir kənd uşağı gəlirdi – Azərbaycan SSR Yazıçılar İttifaqının yanından. O uşaq Yİ-nə yox, ədəbiyyata yol tapdı...

... Söz vaxtına çəkər. Günün qora bişirən çağlarıydı, böyük məktəbə – ADU-ya balaca, amma boy-buxunlu bir kənd uşağı gəlirdi – dayıların, tapşırıqların böyründən; o uşaq ədəbiyyat fakültəsinə yox, ədəbiyyat tarixinə yol açdı...

... Söz vaxtına çəkər. Ağacların matah vaxtı, kölgəliyin şirin əyyamı o kənd uşağının iki uğurunu qapılarındakı bir şam ağacı muştuluqladı. Şam ağacı gözünə döndüyümün muştuluğu nə olasıdı, iki ay yay kölgəsini qalın elədi ki, o uşaq dibində uzanıb kitab oxusun. Amma o kənd uşağının kölgəynən arası yoxdu, Eldar ağacının kölgəsi olmur, lap Eldar şamının kölgəsi olsun: o kənd uşağının işi-gücü, ardı-arxası Qələmiydi: "Olanım qələmdi dövlətdən, vardan..."

... Söz vaxtına çəkər. Bədii sözə və söz adamlarına indiki təki susadığım bir vaxtda "Xəzər" dərgisinin yeni sayı əlimə keçdi: – içində də yazıçılardan kimin ildə neçə oxucu məktubu aldığı haqda sorğunun nəticələri. İki sevdiyim şair: Ə. Salahzadə və E. Baxış sorğudan "kəsilmişdilər". Bir istədim onlara imzasız məktub yazam – oxucu məktubu, qoy sevinsinlər. Bir istədim onlara konvertdə ağ vərəq yollayım – imzalı, bir də... Bir də istəmədim, çünki Ələkbər müəllim də, Eldar bəy də hər gün özüylə zəngləşən, hər an özüylə





xəbərləşən şairlərdi. Mənə inanmırsız, "Sərçə balası"na qulaq asın. Məndən ötrü E. Baxışın bu şeiri kənddə evimizin ayağındakı çaylağın Rəşidin bağını basdığı yerdi...

...Söz vaxtına çəkər. Eldar Baxışın sözüsə daha çox Vaxtdan çəkən sözdü: sağlığında öz yazdıqları da, indi haqqında danışılanlar da...

***P.S.*** Yazıçı-publisist İntiqam Mehdizadənin şəxsi arxivində qoruyub saxladığı "Vətən sədri" şeirini E. Baxış mərhum Şıxəli Qurbanova həsr edibmiş və o vaxtlar məlum səbəblər üzündən çap olunmayıb. İlk dəfə "Yol"da işıq üzü görən "Vətən sədri" şeirini qələmə alanda Eldar bəyin vur-tut 20 yaşı olardı...

### Vətən sədri

*Şıxəli Qurbanova*

Dostları öldürdü onun ölümü,
Düşməni güldürdü onun ölümü.

Sındı barmaqları vuran əlimin,
Ruhu təbiətdən qopardı ölüm.
Yazıq vətənimin, yazıq elimin
Düşünən beynini apardı ölüm.

Həyat, nə ağırdır düyünün, dağın
Dəlinməz daşları dələsiydi o.
Bu doğma torpağın, ana torpağın
Düşmənə tuşlanan gülləsiydi o.

Qəlbimə ən yaxın bir ürək sönüb,
Bilsəydim, nə həkim, nə tibbi yardım.
Dünyada ikinci Bruta dönüb,
Onun ölümünü bıçaqlayardım.

Qəlbimin aləmi borandı, qışdı
Bu torpaq, bu torpaq quduzdu, xalqım.
Baxmayın ən böyük xal toplamışdı
Yenə də həyatda uduzdu xalqım.

Rəngim saralsa da, rəngim solsa da
Mən insan qiyməti, qədri bilmişəm.
Şıxəli MK-da katib olsa da,
Mən onu yurdumun sədri bilmişəm.

O, torpaq sədridir, vətən sədridir,
Yurdumun, yuvamın itən sədridir.

O, öldü hökmündən kiçik bir anın
Düşüncə büzüşdü, könül büzüşdü.
O öldü... elə bil Azərbaycanın
Açılıb belindən qılıncı düşdü...

*01.1998*





## BİR SORĞUYA CAVAB

1. Siz məndən ədəbi nəsil anlayışına münasibət öyrənmək istəyirsiniz, ser! Mən isə sizdən soruşuram: mənim təvəllüdümün ötən əsrin axırlarına təsadüf eləməyində ədəbiyyatın nə kimi rolu olub? Yaxud imzamın hansısa ədəbi orqanda kiminləsə eyni vaxtda peyda olmağının yazdıqlarımın keyfiyyətinə nə dəxli? Və yaxud iki eyni yaşlı quşun eyni mahnı oxuduğunu görmüsünüzmü?

Mən özümü bülbülə, göyərçinə, qartala oxşatmıram, hər halda, yaşıdlarımın bəziləri kimi ala qarğa da deyiləm. Mənim nəslimin kökü bəlkə də Dəclə-Fərat sahillərinə gedib çıxır – o yerlərə ki, sivilizasiya məhz burda formalaşırdı, qədim şumerlər dünyanın ilk ikipalatalı parlamentində qanun qəbul eləyirdi, mənim sələfimsə göy guruldayanda qaçıb ən hündür ağaca dırmaşırdı ki, ildırım məhz onu vursun... Mənim nəslimin yazıları Göydəkinin Yerdəkilərin işləklərinə baxıb köks ötürməyi kimi bir şeydi... Mənim dostlarım Allahın söz verib işıq əta elədiyi adamlardı... Mənim nəslimin bir qismi məndən yaşlıdı, bəziləri isə hələ öz vaxtlarını gözləyir, yəni doğulmayıblar...

2. Siz daha sonra "90-cı illər ədəbi gənclərini xüsusi bir ədəbi nəsil kimi səciyyələndirmək olarmı" – deyə məndən soruşursunuz. Bir daha bəyan edirəm: həmyaşıd ağacların, quşların, heyvanların... hərəsi öz geninin daşıyıcısıdı. İkiyaşlı çinarla ikiyaşlı sərçəni necə eyni nəsildən saymaq olar? Yadımdan çıxmamış, ser, "90-cı illər ədəbi nəslində" bəzi istisnalar mövcuddu, varlıqların təsnifatı tarixdə bəlkə də ilk dəfə olaraq qarışıb, odur ki, haqlısınız: yuxarıda adı çəkilən gənclərin bir qismini "xüsusi ədəbi nəsil" saymaq olar.

3. "Xüsusi ədəbi nəsil" "yeni ədəbiyyat"mı yaradır? – mən indi bu suala cavab verməliyəm. Elədi, ser. Özü də bu ağacın aslan kimi nərə çəkməyinə, sərçənin it kimi hürməyinə, bayquşun dolu kimi yağmağına bənzəyir...

4. “Gənclərin qocaları inkar eləməyinə” olmaya təəccüblənirsiniz, ser? İndi oğul atasını, ata oğlunun anasını, ana oğlunun atasının anasını bəyənmir. Məşhur filosofun fikrini unutmusunuzmu: “Hər şey axır, hər şey dəyişir”... Azərbaycan ədəbiyyatında hər növbəti “onluğun” özündən əvvəlki “onluğu” bəyənməməyi bir ənənədi: 80-cilər 70-cilərə, 70-cilər 60-cılara, 60-cılar 50-cilərə, 50-cilər 40-cılara, 40-cılar 30-culara, 30-cular 20-cilərə, 20-cilər 10-culara dodaq büzüb. Lütfən, bunu da unutmayın! Hərçənd sizin “90-cı illərin xüsusi ədəbi nəsli” adlandırdığınız zümrə sələflərindən daha irəli gedib, nəinki özlərindən 10, 20, 30, 40, 50, 60, 70, 80... il əvvəlkiləri, hətta 100, 200, 300, 400, 500, 600, 700, 800... il öncə yaşayıb-yaradanları da inkar edir. Onlar bu gedişlə, ümumiyyətlə, ədəbiyyatın vur-tut 10 il öncə meydana çıxdığını da iddia edə bilərlər. Və yenə lütfən, buna da təəccüblənməyin!

5. Soruşduqlarınız azmış kimi, məndən “gəncliyin yaradıcılığında boy artımının müşahidə olunub-olunmadığını” xəbər alırsınız. Mən sizə gördüyümü, bildiyimi bir də təkrarlayıram: qələmə çinarlar-ildırım vurmasa! – böyüyüb xan çinarlar olacaq, ətcəbala qarğalar-ilan aparmasa! – yuvalarından pərvazlanıb ceviz ovuna çıxacaq, sular səmtinə axacaq, yarpaqlar küləyin tərkində dünyanı gəzəcək, yarasalar gecənin, günəbaxanlar səhərin dalınca düşəcək. Hamı, hər şey özündən əvvəlkilərin ləpiriylə gedib, onların cığırıyla da qayıdacaq! Qələmə çinardan xan çinardan hündür ağac, ətcəbala qarğadan ala qarğadan yırtıcı quş gözləməyin...

6. Ser, sizi həm də “90-cı illər ədəbi gənclərindən ədəbiyyat tariximizə kimin düşüb düşməyəcəyi” maraqlandırır, deyilmi? Bizim ədəbiyyat tariximiz kor quyuya bənzəyir: ora bir kərə düşən bir də ordan çıxmaz! Sovet dövründə eyni imzalar, müstəqillik dövründə eyni qadağalar... Dünən bir qəzetdə oxudum ki, Mikayıl Müşfiqi, Əhməd Cavadı, Məhəmməd Əmin Rəsulzadəni orta məktəb ədəbiyyat dərsliyindən çıxarıblar. Müşfiqin çıxdaş olunduğu ədəbiyyatın tarixinə düşməyə dəyməz...

7. “Gənclər arasında oxuyub bəyəndiyiniz son əsər və müəllif” – sonuncu sualınız budur, deyilmi, ser?





Gənclərin:

– bir qisminə Allah söz verib, işıq verməyib. Mən onları oxuya bilmirəm, çünki qaranlıqda eynəyim yaxşı göstərmir;

– bir qisminə Allah söz verməyib, işıq verib. Mən onları da oxuya bilmirəm, eləcə işığına baxıram;

– bir qisminəsə Allah söz də verib, işıq da. Bircə... vaxt verməyib qurban olduğum, VAXT!..

Həmin vaxt gələnəcən köhnələri oxuyuram. “İncil”i bu günlərdə bir də gözdən keçirdim. İsa Məsih 33 yaşında dünyaya qalib gəlib. Mənsə, bu peyğəmbər yaşında dünyaya uduzmaq istərdim. Ürəyimdəm Allahın oğlu olmaq keçsə belə...

*2002*

## TƏK-lər TƏNHASI

*Vaqif Bayatlı Odərin Aydınlar Birliyinin sədri seçilməyinə etiraz notası*

Əvvəla, o – hamıdan gizlidi, çoxumuza aydın deyil, üzdən və hətta şeirlərindən tanıdığımız Vaqif əsl Vaqifin "üzçıxarmasıdı", lap dərinə gedəndə şair Vaqif Bayatlı Odər də "orijinalın" həndəvərində vurnuxa-vurnuxa onu hədəfdən yayındırmaqla məşğuldu; əsl Vaqifin hədəfi – Yer kürəsi, sivilizasiya, tarix kimi cəfəng atributlardı, o, saydıqlarımı və mənasız saydıqlarını məhv eləmək istəyir.

...Halbuki, ziyalı – yeri, sivilizasiyanı, tarixi sevən adama deyirlər.

İkincisi, Vaqif bəyin cəm şəkilçisini görən gözü yoxdu – onun bu xasiyyətini dəqiq bildiyimdən yazının başındakı "təklər"i defislə ayırmışam – Bayatlıdan ötrü insan var, "insan üstəgəl lar" yoxdu, şair var, şairlər yoxdu, aydın var, aydınlar yoxdu. Elə buna görə təxəllüslərini tez-tez dəyişir, onlardan yaxa qurtarmaq, onları gözdən salmaq istəyir, yəqin günlərin bir günü adından da imtina eləyəcək.

...Halbuki, təşkilat sədri – adlı, qrantlı olmalıdı.

Üçüncüsü,

İndi də gəl
ölüm-ölüm oynayaq –
əvvəl mən ölüm,
sən bilmə.
Sonra...
sən ölmə.

– yazan şairlə "sədr-sədr" oynamazlar.





...Halbuki, V. B. Odəri Aydınlar Birliyinə özləri sədr seçiblər.

Dördüncüsü, siz heç "zəncirli sərçə" görmüsüz? – Vaqif bəy quş kimi bir şeydi, ipinin üstünə odun, qanadlarının üstünə səlahiyyət yükü yığmaq olmaz.

...Halbuki, sədr-keçmiş partiya məmuru kimi kabinet qurdu olmalıdı.

Beşincisi, Vaqif Bayatlı Odər indiki zamanda yaşamır, onu hansısa yığıncağa çağırmaq üçün ya min il (özü çox da deyir: "Neynəsəm hamısı boş şey, çıxıb getsəm inanma, yüz il, min il sonra qayıdacam") geriyə qayıtmaq, ya bir əsr irəli addımlamaq, ya da Allahı tapıb Vaqif bəyin yerini ondan soruşmaq lazımdı. Amma şairin yer üzündəki yerini bilənlər də var, hərçənd onlar Aydınlar Birliyinin üzvü deyillər, dediklərinə görə, o, mələklərə uçmağın sirlərini öyrədir.

...Halbuki, təşkilat sədri – təyyarəylə bu ölkədən o ölkəyə uçmalı, ofisinin qabağında "Mersedes" dayanmalıdı.

Altıncısı, Vaqif Bayatlı Odər havadan da nəm çəkən zərif duyğulu kişidi, özü də qadınları, xanımlar onu sevdiyindən də çox sevir, sevgi ona yaşamaqdan, ağız duadan ötrü lazımdı, Vaqif bəyin doyunca tikə daddığını indiyəcən evində də görməyiblər.

...Halbuki, qurum başqanının stola vurmağa yumruğu, hesab-dakı varidatı həzm-rabedən keçirməyə iti dişləri olmalıdı.

Yeddincisi... yeddincisi, mən onu məmur şəklində görmək istəmirəm.

...Halbuki, o posta Vaqif Bayatlı Odərdən layiqli namizəd yoxdu.

*2001*

## NABRANNAMƏ

Burda adamlar Günəşlə yatıb, Günəşlə dururlar.

Burda Günəş bütün günü dənizdə çimir.

Burda Xəzər ağacların ayağını yumaqdan doymur.

Burda ağacların çoxu telini gözünün üstünə elə töküb ki, meyvəsindən dadmamış adını tapa bilməzsən.

Burda təbiət Azərbaycan türkcəsində yeddi dil bilir.

Burda sözü uşaq kimi qabağında çağırıb-buyurmaq olur.

Burda dincələnlərin bircə yay-oxu çatışmır – hamısı qədim insanlarsayaq yarıçılpaqdı.

Burda şəhərdən gətirdiyin hansı kasetə qulaq asırsan, baxırsan ki, əvvəlkindən şövqlə oxuyur.

Burda çölə tökülən gavalının qiyməti Təzə bazardan bahadı.

Burda ağcaqanadlar adamın üstünə hücum çəkmir – arı çiçəyə qonan kimi ehmal qonur.

Burda qəzeti qarpızın altına sərmək üçün satırlar, oxumaqdan ötrü yox.

Burda televizoru üstünə maqnitofon qoyub oxutmaqdan ötrü alırlar.

Burda ağ-qara qaz mavi qazdan, gün işığı lampa işığından boldu.

Burda ayaqların sızıltısından xəbər tutursan ki, bir az nəmişlikdi.

Burda doyunca balıq yeməyən, qum ələməyə şadara tapmayan, dənizdə çiməndən sonra bədəninin duzunu evində suya çəkməyə imkanı olmayan yerli adamlar, Xəzərə villasından çəkdirdiyi astma körpüdən kəllə vuran gəlmələr yaşayır.

Burda torpaq, su, hava, Günəş türkcə, danışıq ruscadı.

İstidə rusca danışmağa ərindiyimdən burda proje yapmaq, yaxud proyekt hazırlamaq istəyindən vaz keçdim. Hərçənd Nabrandan heç kimi danışdırmadan da reportaj yazmaq mümkündü.

Gözümün neqativində qalanlardan: çimərliyin o başında bir velosiped görünür. Yaxınlaşanda baxırsan ki, üstündə bir adam da varmış. Burnundan, bir də boynunun ardından ləzgiyə oxşayır. Sənə çataşatda nəsə deyir, külək sözünü ağzından alıb dənizə atdığından nə istədiyini anlamırsan, hər ehtimala qarşı "əleyküm salam" deyirsən ki, birdən adam sənə salam vermiş olar. Velosipedli böyründən keçmək istəyəndə üstünün qumunu kamali-ədəblə çırpıb onu qarpıza qonaq eləmək istəyirsən. Adamsa səni eyninə almadan ləzgicə döşüyür. Sən ona ləzgicə qanmadığını başa salanacan yanından ötüb keçir. Velosipedin arxa təkərinin üstündə yerini rahatlayıb oturmuş ikinci zatı indicə görüb qabaqdakının bayaqdan onunla gap elədiyini anlayırsan. Onlar çox güman ki, qardaşdılar, ya da əmiuşağı. Xalaoğlu ömründə ola bilməzlər. Kənddə balaca bir evləri var. Evlərinə kirəkeş axtarmağa gəliblər. Əgər tapsalar, özləri yığışıb yekə əmioğlugildə qalacaqlar. Çünki onun öz ata-anası bir yana, atasının ata-anası da sağdı. Üstəlik, nənəsinin başı səs götürmür. Kirəkeş maqnitofonu açan kimi həyətdəki Adolf adlı iti üstlərinə qısqırdacaq.

Daha bir şəkil. Kəndin girəcəyindəki kepkalı kişiyə zəndlə baxıram. 1941-ci ildə doğulub, səhv eləmirəmsə. Atası cəbhədən qayıtmayıb. Anası ərinin yolunu gözləyə-gözləyə vərəmləyib. Uşaq məktəb oxumayıb, müəllimlərin yetimə yazığı gəlib, adını yalandan jurnala salıblar. Sonra əsgər gedib. Özüylə bir rus qızı gətirib. Qızın da böyründə cins it. İt Nabranda küçükləyib. Küçükləri sata-sata günü axşam eləyiblər. O vaxtdan adı itsaxlayan Yusuf qalıb. İndi iki qızı, iki də qız nəvəsi var. Arvadını keçən payız suiti parçalayıb. Yusuf kişi indi də it saxlayır. Amma ta özününküləri yox, özgələrininkini...

Daha bir epizod? Həvəsdi, bəsdi! Nabrana yazı yazmağa gəlməmişəm ki...

Burda, heç olmasa, burda qələmin daşını ata bilsəydim...

*2002*

## QAPISI AÇIQ MƏCİD

O, məni Ağsəs çağırır, mən ona bu yazıda Məcid deyəcəm. MƏCİDİN QAPISI AÇIQDI: "Nərimanov" metrostansiyasının yaylı qapıları "525-ci qəzet"in baş redaktorunun kabinetinə açılır.

Azərbaycan Yazıçılar Birliyinə aparan yollar həm də gənclər üzrə katibin otağından keçir.

İnşallah, sevimli Ağcabədi camaatı gələn növbəti deputat seçkilərində rayonun alaqapısından birbaşa onun Milli Məclisdəki otağına adlayacaq.

Rəşad Məcidin bircə qələminin qapısında növbədi: yazmadığı şeir və hekayələrin növbəsi. "10 sentyabr"dan sonra ondan 364 hekayə gözləyirəm, çünki adi təqvimdə 365 gün var, ədəbi təqvimdən danışsaq, Məcid gərək qələmi yerə qoymaya...

...Qarabağda, Ağdamda tək-tük dördmərtəbəli daş evlərin birinin ikinci mərtəbəsində böyüyən balaca uşaq balkondan baxanda həyətdə ağacı görürdü, ağacdan bir az yuxarıda dağı görürdü, dağdan bir az yuxarıda göyü görürdü, göydən bir az yuxarıda Allahı görürdü, gecə yatağına girəndə yuxu görürdü, yuxuda da həmin balkonuydu, həmin ağacıydı, həmin dağıydı, həmin göyüydü, həmin Allahıydı, həmin yuxuydu gördüyü... uşaq balkondan ağaca, ağacdan dağa, dağdan göyə, göydən... yoxa çıxdı. Daşladığı darvazaların qulağı batdı, dalaşdığı tay-tuşları əsgər getdilər, sevdiyi qızlara nişan taxdılar, uşaq uzə çıxmadı. Universitetin jurnalistika fakültəsində, "Elm və həyat"ın korrektor otağında həm də ona oxşayan bir oğlan peyda oldu. Yetdiyinə yetdi, üzünə açılmayan qapıları daşladı, şeir yazmağa başladı, nə başladı. Balkon yadına düşdü – yazdı, ağac yadına düşdü – yazdı, göy yadına düşdü – yazdı, həm də oxşadığı uşaq yadına düşdü – yazdı, bircə Allahı xatırlaya bilmədi. Oğlan böyüdükcə, oxuduqca, yazdıqca Allahı unutmağa başlamışdı. Allah bir də onun yadına balkondan gördüyü dağdakı ağacı düşmənlər kəsəndə düşdü. Qayıdıb təzədən həmin





uşaq oldu, həmin uşağa oxşadı, həmin uşağı oxşadı. Baxdı ki, uşağın saçı tikan kimidi. Buyğur şeiri boşladı, publisistikaya başladı, nə başladı. Azadlıqdan yazdı, müstəqillikdən yazdı, ağacdan yazdı, dağdan yazdı, sonra istədi yazdıqlarına baş çəksin, gördü: azadlıq var, müstəqillik var, Qarabağ yoxdu, Ağdam yoxdu, Qarabağda, Ağdamda tək-tük dördmərtəbəli daş ev yoxdu, balkon yoxdu, ağac yoxdu, göy yoxdu, qorxdu, birdən Allah da olmaz, qəddin dikəldib qəddinə baxdı, cəddin çağırıb cəddinə baxdı, gördü, yox: Allah Var! Var! Var!

Təqvimə baxdı: sentyabrın onuydu...

*2009*

## DİRİ ADAMIN XATİRƏSİNƏ...

Elə bil dünəniydi – Qarabağın Qarabağca ünlü, muğamca klassik xanəndəsi Şahmalı Kürdoğlunun xatirə axşamına yığışmışdıq. Hava təzəcə qaralsa da – hərçənd tədbir gecəyarıyadək uzandı – Mahnı Teatrının işıqları adamın gözünə düşürdü: bir yandan da Rəşidin, Şahmalının, səs-səsə, söz-sözə verən ömrü uzun olmuşların işığı.

Hamı Şahmalının böyüklüyündən danışırdı, heç kəs bu böyüklüyün "reseptini" açmırdı. Şahmar Əkbərzadəyə növbə çatanda oturduğum yerdə qurcuxdum: ta söz qalmayıb, bəs bu nədən danışacaq?.. Şahmar müəllim siqnalı havada tutdu və bəlkə də bir saatlıq çıxışında bir havayı söz danışmadı, özü də heç kəsin fikrini təkrar eləmədən, "boşluğu" doldura-doldura... Elşən, ayrısına desəm inanmaz, ona görə sənə deyirəm – Şahmarın oğul yadigarına, atan danışanda Nazim Hikməti xatırladım, daha doğrusu, "Mikayıl Rəfiliyə ağı" şeirini. Niyəsi indi də mənimçün sirri-xudadı: bəlkə Şahmarın boy-buxununu çoxdan görmürdüm, bəlkə o cür enerjili adamın çox yaşamayacağını haçansa öz dilindən eşitmişdim, nədəndi – bilmirəm...

Tədbirdən çıxanda Mustafa Çəmənliylə tapışdıq. Beynimin bir tərəfində Nazim əfəndinin şeirini axtara-axtara o biri tərəfiylə həm Mustafa müəllimi danışdırır, həm də Ağdamlı günləri vərəqləyirdim. Çəmənli fikrimin özümdə olmadığını görüb: "Şahmara yüz kərə yalvarmışam ki, bir az soyuqqanlı ol, özünü həlak eləmə" – dedi və susdu...

...Yadımdadı, "Qarabağın səsi" ədəbi birliyinin iclaslarına uça-uça gələrdim. Kənddən rayon mərkəzinə yolpulu tapmayanda sinif yoldaşlarımdan utana-utana borc alar, onlarsa şairlərlə görüşə getdiyimə görə qəpiklərini də qızırqanmazdılar. Növbəti iclasların birində – 80-ci illərin əvvəliydi – Ş.Əkbərzadənin "Mərkəzi poçtxana" şeirini müzakirə elədilər. Mən onda Şahmarı çox az tanıyırdım, üzünü görmədiyim bir yana, şeirlərini də fərli-başlı oxumamışdım. Eşidəndə ki, Şahmar Çəmənlidəndi, xeyli ürəkləndim.





Çünki bir əlcə uşaq da olsam, rayon şairlərini bəyənmirdim, Ağdamdan yaxşı şair çıxmamağını da özümə əməllicə dərd eləmişdim.

Sonra Şahmarı az qala güdməyə başladım...

Sonra dinc buraxdım...

İki il bundan irəli "Mədəniyyət" qəzetində əyani tanış olduq. Mənə Abdal-Gülablının tarixçəsini danışdı, bilmədiklərimi anlatdı, Ağsəsin atam olduğunu bilincə heyrətindən ayağa durdu: "Sən yarımdahisən: Ağsəsin oğlu, özün də Gülablıdan, ta nə istəyirsən? Abdala qarışacağın yoxdu ki?" "Var – dedim – anam Abdal qızıdı". Ürəyi qəşş elədi: "Dədə, onda sənə zaval yoxdu".

Məni işə çağırdı – çox cüzi maaşa. "Özüm səndən bir az çox alıram". Şahmarın puldan xəbəri yoxuydu. Onun ətrafındakı qəzet redaktorları ayda 200-300 dollar maaş alırdı. Amma ona 200-300 min manat da bəs eləyirdi. Eləyirdimi, Elşən?..

Şahmar haqda tənqidçilər yazıb, yazır, yazacaqlar da – odu ki, yaradıcılığına toxunmuram.

Şahmarı dostları həmişə axtarıb, axtarır, axtaracaqlar da...

Şahmardan çox deyilib, yenə danışılır, danışacaqlar da...

Mən Şahmardan deyilməyənləri, yazılmayanları qələmə almaq, "boşluğu" doldurmaq istədim. Alınmadı.

Çünki mən onun öldüyünü görməmişəm, görmürəm, görməyəcəm də!

Danışdıq, atam balası?! Bunu da xatirə kimi yazmıram, Elşən, xətirə yazıram. Siz də Allah xətrinə, şairin sağlığına kölgə salmayın. Lap o kölgə Şahmarın başdaşından da düşsə...

*Aprel, 2001*

# FLORA KƏRİMOVA OXUMUR

**Oxuyur Flora Kərimova**

"– Alo.
– Eşidirəm".
Hardan eşidirsiz, Flora xanım, mən ömrümdə sizə zəng vurmamışam.
"– Sən onu görmüsən?
– Onu heç özü də görməyib. O, səsdi"...

* * *

"Hörmətli televiziya!
Mən Orenburqda xidmət eləyirəm. Hərbi hissəmizin yanından hər gecə qatar keçir... Mən hər gecə onun fitinə oyanıram. Mən qatara nifrət eləyirəm. Mən... bütün azərbaycanlı əsgərlər adından xahiş eləyirəm ki, Flora Kərimovanın ifasında "Qatar" mahnısını səsləndirəsiz. Biz onu səhranın düzündə mütləq eşidəcəyik. Biz onu sevirik. O, bizi Vətəni qorumağa qoymur. O, bizi Azərbaycana çağırır. Yeməkxanaya gedəndə də onun mahnılarını oxuyuruq. Siz onu efirdə səsləndirin, bizim səsimizi batırsın"...

* * *

"– Siz iyirmi dəqiqə gözləməli olacaqsız.
– Studiyada mənim növbəmdi axı.
Alabəzək xanım (elə oturmuşdu, mən onu demək olar ki, görmürdüm) şəstlə söhbətə qoşuldu:
– Mən müsahibə verim, sonra!
– Siz kimsiz axı?





– Siz məni tanımırsız bəyəm?
– Yox!
– Ola bilməz!
– Mənim vaxtım gedir...
– Azərbaycanın ən populyar müğənnisi...
– Bağışlayın, Flora xanım!
– O kimdi?
– Kərimova!
– Dəhşət!
– Mən ondan başqa qadın müğənni tanımıram.
– Ujas!
– Növbəmi verirəm sizə, həyəcanlanmayın"...

* * *

"– İndi Flora xanım danışacaq.
– Kaş oxuyaydı.
– Siyasət aldı bunu əlimizdən.
– Səs sözə məğlub oldu.
– Özü də dolu səs boş sözə.
– Flora Kərimova danışır.
– Aha! Oxuyur!
– Oxumur ey, buludları gəlin köçürür.
– Bayaq deyirdin, mitinqdən qayıtmağa pulun yoxdu, götür...
– Ayaqla gedərəm. Sənin təzyiqin nə yerdədi?
– Təzyiqlə qurtardıq.
– Ta mənim də problemim yoxdu.
– Deyəsən, İsa Qəmbər danışır.
– Yox, Flora Kərimova oxuyur.
– Tahir Kərimlidi o, yenə özündən çıxıb?
– Oxuyur Flora Kərimova.
– Sən ayrı heç nə eşitmirsən?
– Yox.
– Elə mən də"...

* * *

"– Atam Polad müəllimə deyərdi ki, siz müğənnilər Tanrının quşlarısız.
– Bəs o nə cavab verərdi?
– Gülərdi.
– Flora Kərimova gülməz bu sözə.
– Niyə?
– Tanrının quşu Tanrının işinə gülməz heç vədə".

* * *

"– Vəfadar, yazının arasındakı ulduzları götür.
– Bəs yerinə nə qoyum?
– Quş şəkli.
– Birdən Flora xanım da sənin yazına "quş" qoysa, onda necə?
– Qışqırma, özün də kompakt diski yığışdır. Bura musiqi salonu deyil.
– Bəs yerinə nə qoyum?
– Flora Kərimovanın mahnılarını"...

*26 dekabr 2001*





## AZƏRBAYCAN QADINI

Martın 8-ini dünyanın hər yerində qeyd edirlər – kəndimizdən başqa. Həmin gün bizim xanımlar adəti üzrə ərlərinin qulluğunda durur, obaşdan çayın-çörəyin verir, günortalarına soyutma kartof-yumurta tədarük eləyir, axşam darvazadan girən təki əlinə su tökür, ayaqlarını təndirdən pörşələnə-pörşələnə çıxmış vedrəyə salır, kürəyini ovur, belinə banka qoyurlar. Kişilər də, bir qayda olaraq, arvadlarını söyür, hədələyir, qayınlarını ələ salır, uşaqlarını dayılarına oxşamamağa çağırırlar. Bu, bütün kənddə belədi; amma hamının ailə gizlinləri qaya koluyla çəpərlənib, ordan kənara atlanmır. Bir kopolu arvadından, bir kopakqızı ərindən eşiyə informasiya sızdırmaz. Bu qanunların yaşı mixi yazılardan çox qədimdi və onu pozmağa kimsə cürət eləməz. Odu ki, ömrünün yarısını şəhərdə keçirmiş otuz yaşlı avropalı bəndənizin də az qala əsrin yaşıdı anasını bir dəstə gülə qonaq eləməyə ixtiyarı çatmır.

"Şarrr!" – hər gün ayağımı blokdan çölə qoyanda arxamca atılan suyun səsini eşidirəm: "Allah, sən balamı şərdən qoru, yazıqdı". Anam Allahdan başqa heç kəsin yanında "mənim balam" sözünü dilinə gətirməz, qanundan qorxur, üstəlik inanır, özü də möhkəm inanır ki, oğlu həm də Allahın balasıdı, yoxsa məni təkbaşına böyüdüb ayağa qaldırmağa gücü çatmazdı. Əvvəllərsə anamın "ev Allahı" da varmış (mən görməmişəm). Anam onunçün səkkiz uşaq doğub, bacısı uşaqlarına qulluq eləyib, körpələrdən ikisi rəhmətə gedəndə günahın hamısını özündə görüb, "Allah" evdən gedəndə tənbəki qutusunu götürüb, onun ətrini tütündən alıb və o alandı... Atam anamın heç vaxt adını çəkməyib, onu "a kişi", "ay uşaq", kefi lap kök olanda hərdən "Allah yaratmış" çağırıb. Anam özünə görə bir kişi olsa da, heç vaxt "Allahlıq" iddiasına düşməyib, atamın boş taxtına göz dikməyib, övladlarını ərinin adıyla böyüdüb... "Çıx get dədən öyünə, üç gündən sonra gələrsən!.." – Atam son nəfəsində anama belə əmr eləyib... "Məni qovursan?" – Anam ömründə bircə

yol ərinə belə cavab qaytarıb. Sonralar başa düşüb ki, kişi yasın ilk günləri onun əl-ayaq altda qalmasından narahatmış, ona acıyırmış, yazığı gəlirmiş, bəlkə də son nəfəsində indiyəcən hiss elətdirmədiyi, dilinə gətirmədiyi sevgisini açırmış...

"Pensiyamı al, özümə gətir!" – Anamdan çıxmayan iş, xeyir ola, təqaüdün adını tutur? "Özümə xalça alacam, məni ona bükərsiz..." Mən də neçə aydı döşümə döyürdüm ki, anama deyəcəm prezident təqaüdündən sənə nə alım...

*Mart, 2000*





## ABDAL-GÜLABLIDAN ALLAHACAN

(*Səxavətin ruhunu xəsis bir anım*)

...Allahın çoxlu sayda adı var. Neçədi – xatırlamıram. Onun bir adı da, məncə, şəbəkədi...

...Dünyanın çoxlu sayda adı var. İkisi yadımdadı: bu dünya, bir də o dünya. Dünyanın bir adı da, məncə, ayrılıqdı...

...Ölümün çoxlu sayda adı var. Sayıb ürəyinizi qısmaq istəmirəm. Ən dəhşətlisi insan ölümüdü. Onun bir adı da, məncə, qısaqapanmadı, yox, özünəqapanma...

Bəlkə şəbəkədən qopmadı, bəlkə şəbəkəyə qoşulma?!

...Allahın, hara yozsaq, adı Allahdı...

...Dünyanın, hara yozsaq, adı Dünyadı...

...Ölümün, hara yozsaq, adı Ölümdü...

...Allah-Allahdı, Dünya-Dünyadı, Ölüm-Ölümdü!..

...Bəs, onda "alın yazısı" nədi?

* * *

Bizim təqvimdə 1953-cü il oktyabr ayının 23-üydü, Tanrının yaddaşında nakam Cabbarlının ruhu ağrıyan gün. Yaradan özünə bağışlamadığı bir xətasını ilahicəsinə redaktə eləmək qərarına gəldi və iyirmi il öncə torpağın ağ varağına yazılıb qurtarmamış qara qələm kimi uzatdığı vergilisini iyirmi il sonra səs şəklində ayağa qaldırdı...

Abdal-Gülablıda Tanrı payına SƏXAVƏT deyirdilər.

* * *

"...Səs də qabağından yeyən deyildi..." Ağır məclisləri yola verdi, yüngül məclisləri yelə... Adamlar bir yana, quşlar da bu səsin meydanından uçurdular. Səsin ayağı dəyən yerdə torpaq havalanırdı, göyə çıxanda buludlar canını qoymağa yer tapmırdı. Hamınındı bu səs, heç kəsin deyildi – Tanrınındı.

...Günlərin bir günü Tanrı səsini içinə çəkdi... Səxavətin atası Əmirxan kişiyəsə bu xəbəri ayrı cürə nağıl elədilər...

* * *

"...Sentyabrın axırıydı, yo...ox, oktyabrın biri. Tezdən "ispalkom" Şirinnən Talıbov İsmayıl gəldi ki, bəs, Səxavət avarıyaya düşüf. Biz öydən "hah" eliyif çıxıncan, gördük gətirirlər...

...İndiyəcən bizə məktub, teleqram yolluyurlar, nə bilim, İrannan, Türkiyədən. Allah onu ayrı cür xəlq eləmişdi, niyə tez aldı, baş tapmıram..."

* * *

...O vaxtdan – Tanrı səsini içinə çəkdiyi gündən hamımızın qulağı səsdədi. Quşlar kimi səs-səsə verib, o səsə can atırıq. Ancaq ha tələsirik, Əskinaz xalanın kölgəsinə də çata bilmirik. Çünki o səs Tanrıdan sonra Ananın idi...

* * *

"...Bir əlcə vaxtınnan oxuyurdu. Ata minirdi, atda oxuyurdu, yerə düşürdü, yerdə. Göndərərdik meyvə yığmağa, gedif görürdüm oturuf ağacda, oxuyur...

Mən onun təkcənə anasıydım, o, mənim həm atamdı, həm anamdı, həm bajımdı, həm qardaşımdı, həm də elə hər şeyim.

Abdal-Gülablı təki alınsın, Ağdamnan sürünə-sürünə gedəjəm qavrını ziyarata. Əhd eləmişəm.





Baxtına bircə yol baxdırmışdım, dedilər, Bakıda oxuyur, ordan da öylənəjək. Elə heylə də oldu. Qorxdum, ta baxdırmadım.

Könlümdən nə keçəsidi: tezdiynən onun yanına getmək..."

* * *

...Neçə ildi SƏSİNİN yanına çıxdığı. Arxayınıq – ORDADI. Bizik – yersiz-yurdsuz qalan, bizik – quru yerdə qalan... Səsimizi də alıblar... Bunu da birtəhər yazıram. Kirimişcə. Ta nə deyim?! Özün hamısını görürsən...

Yox, Səxavətnənəm, Sənnən söhbətim sonradı. Hələlik...

*1996*

## 8121 KƏPƏNƏK UÇURAN KİŞİ

...Brilliantı görürsən – kövrəlirsən, adamların sənə rəğbətindən baş açmırsan – gözlərin dolur, ANS-in reportyoru halını xəbər alır – özünü saxlaya bilmirsən.

Yıxıldığın yerdə bərk dur, Mirzə Baba!.. Məlik Dadaşovun səhnədə keçindiyini eşidənlər sevindi bir az da – Allah heç kəsin canını qürbətdə almasın, hamının Əzrayılını öz qapısına yollasın. Dadaşov iş başında "yaxalandı", daha doğrusu, səhnədə çoxdan yaratmaq istədiyi faciə qəhrəmanının ssenarivari ipini Əzrayıl tərəf-müqabilinə kəsdirdi... Sənsə səhnədə yerə yıxıldın – "kimlər gəldi, kimlər getdi bu dünyadan, bu dünyadan" oxuya-oxuya. Tələbələrə elə gəldi ki, bu, mahnının klipidi, axı sənin aktyorluğun da var, Mirzə Baba! Reanimasiyada gözünü dünyaya təzədən açanda "ölümdən qorxmuram" – dedin. Qulağına tamaşaçıların səsi gəldi: sən huşunu itirib yerə yıxılanda yerbəyerdən ÖLÜMÜ FİTƏ BASIRDILAR...

Çıx xəstəxanadan, Mirzə Baba! Baban yüzdən çox yaşayıb, nənən yüz iyirmidən, özün də yüz otuz deyib durmusan. Dur və çıx xəstəxanadan. Bilirəm – övladların var, bilirəm – qohum-əqrəban başından aşır, bilirəm – həyatın hər üzünə bələdsən, bu dünyada çox yaşayıb az ölmüsən sən – onu da bilirəm. Srağagün televiziyada səni lap yaxından göstərənə qədər dünyada hələ yaşamağın dadı damağında bunca qalan adamın olduğuna inanmırdım, doğrusu.

Dostun Vaqif Səmədoğlunun uzun illər öncə yazdığı misralar düşdü yadıma:

...Ölmək istəmir –
Sabirabad yolunda
gözü işığa düşüb
burnu titrəyən
dovşan da...





Kimi səni ustad çağırır, kimi ağsaqqal, kimi artist sayır, kimi baməzə oğlan. Amma çoxları üçün "kəpənək tutan Mirzə Babayevsən". 89 ili günə çevirəndə 32.485 gün eləyir. 32.485 günün içərisində 8121 yaz günü və 8121 kəpənək ömrü var (kəpənəyin ömrü bir gündü axı)! Bu qədər kəpənəyin birini də tora sala bilmədin. Amma yüzlərlə kəpənək xanımlar səsinin toruna düşdü. O "girovları" açıb buraxmamış, toylarında "Kəpənək" mahnısını dübarə oxumamış hara gedə bilərsən, Mirzə Baba?

Yıxıldığın yerdə bərk dur!..

*3 iyul 2001*

## SƏFƏR

Quzanlıya çatanda göyün qırışığı təzəcə açılırdı, iyul Günəşi gözün ağardan kimi buludlar tumanın yuxarı çəkdi. Selin ağzı açıldı, nə açıldı. Atəş xəttini saymazyana bəri adlayan lehmədən yuxarıların ətri gəlirdi. Tufan əməliyyatının əsir götürdüyü çör-çöp, zir-zibil Ağdamda insan yaşamadığından xəbər verirdi. Quzanlının çuxurları girovları ustalıqla öz qoynunda yerləşdirdi. Uğurumuzu növbəti cəbhə xəttində, göylə yerin ölüm-dirim savaşına qalxdığı İsmayıllı dağlarında yuyası olduq. Cülyan meşəsinin ağacları qonaq üstündə bir-bririnə budaq silkələdi. Sonra əl-ələ tutub dolunun üstün örtdülər. Böyür-başında bir sürü nəvə-nəticəsi yaşayan ağsaqqalın kölgəsində oturası olduq. Burda bekar ağac yoxuydu, meyvə düzəldənlər öz yerində, sonsuzlar da əllərin işdən soyutmurdu. Az qala hərəsi üstündən bir heyvan cəsədi asmışdı. Onlara sallaqxana da demək olardı, qoyun turniki də. Ancaq daha çox ət ağacına oxşayırdılar. Cülyan meşəsinin konsert proqramı da maraqlıydı – quşlar fonoqramsız oxuyur, kliplər canlı yayımlanırdı. Torpağın ayaqlarını yumaqdan iftixar duyan dağ çayı özün dağa-daşa çırpıb “mən də varam!” demir, beş addım o üzdə çıxan körpə bulağı çiyninə alıb uzaqlara gəzməyə aparırdı.

Cülyan dağı Cülyan torpağının qabaran sinəsiydi ki, durmuşdu. Ağaclar tez-tez məclisimizə küləkdən yarpaq yollayır, quşlar ildırımın səsin batırmaq üçün bir az da bərkdən oxuyurdular. Ləzgi meşəbəyi ceyranı diri tutub gətirmək əmrinə müntəziriydi...

Yerin ziyafəti uzun çəkdi. Gecə saat üçdə dağın başına qalxdıq. Azarımız vardı. Mənə Şirvan Ayını göstərəcəkdilər. Deyiləncən varmış!.. Qonaq olduğumu bilincə Yeri buraxıb təkcə mənim başıma fırlanmağa başladı. Biz də əl-ələ tutub fırlandıq. İntiqam müəllimiydi, doktoruydu, Hikmətiydi, Rəşadıydı, bir də gərək ki,





məniydim. Fırlandıqca məclis qızışırdı. Soldakı taxıl zəmisi uğunub gedir, sağdakı bağın almaları salyut verirmiş kimi bir az da qızarırdı. Nəriltiylə yan alıb bizə yaxınlaşan maşın da bir azdan yerində fırlanmağa başladı.

Arada, deyəsən, yer tərpəndi. Tərpənməyiylə yerindən götürülməyi bir oldu. Bir azdan atəş xəttini o üzə adlamışdıq. Mən də dünəndən fikir eləyirdim ki, Ağdamdan axıb gələn selin torbasına nə qoyacağıq...

*2000*

## SÖZSÜZ teatr və... sözsüz TEATR!

"Sim-Sim, açıl!" – açılır.

"Him-Cim, açıl!" – bağlanır. Dil-ağız kilidlənir. Əl-ayaq işə düşür.

"Əlnən-qolnan danışma, qaqaş!"

Pantomim əlnən-qolnan danışır, hələ o yana da keçir – Avropaya, Asiyaya, Amerikaya. Hələ gör Afrikaya adlasa, nə fısqırıq qopar!

* * *

Pantomim... SÖZSÜZ (!) teatrdı!

* * *

Azərbaycan teatrının sözü çoxdan qurtarmışdı. Rejissorlar aktyorlara verməyə söz tapmırdılar. Bəxtiyar Xanızadə də çox əlləşib-vuruşdu, babat pyes-faciə-dram-komediya axtardı. Axırda naəlaclıqdan susub oturdu. Başladı barmaqlarının quluncun qırmağa, çiynin çəkməyə, başın bulamağa. Gördü, tələbələri onu yamsılayır. Onları bir yerə yığıb "Dəli yığıcağı" düzəltdi.

Xanızadənin "Dəli yığıncağı" dövlət qeydiyyatından keçdi az sonra. Amma bir balaca "ağıllı" imzayla: Dövlət Pantomim Teatrı adı altında.

On il qabaq olub bunlar. Amma dəlilərin ağlına indiyəcən on kəlmə söz gəlməyib. Gəlsə, deyərdilər.

Onları bircə on illik yubileylərində danışan gördüm. Onda da xorla!

"Dəlilər" ya xorla susur, ya da xorla danışırmış, səm demə!

* * *

Pantomim sözsüz TEATR-dı!





* * *

Yubileydən bir fraqment. İndi bu tamaşadan bir parça, o tamaşadan bir köynək oynayan truppa əynin dəyişməlidi, axı. Arada nə yaranır? Pauza. Gözəlim Bəxtiyar Xanızadə yellənə-yellənə çıxır səhnəyə, bir siqaret yandırıb qoyur damağına, əvvəl saat əqrəbi istiqamətində, sonra əksinə var-gəl eləyir. Fikirləşirsən, görən nolub. Bu dəmdə səhnənin arxasından səs gəlir: "Dövlət Pantomim Teatrının rəhbəri, əməkdar incəsənət xadimi Bəxtiyar Xanızadə səhnədə pauzaları doldurmağın böyük ustasıdı".

* * *

Pantomim on illik yubileyində teatrda qalıb işləyənlərə yox, teatrdan çıxıb gedənlərə mükafat verdi. Həə, mən bu jesti sözsüz başa düşdüm.

* * *

Pantomimin ssenari yazanı yoxdu-teatr öz-özünü təkrarlayır. Və bu, sözsüz belədi. Bir də binası. Bu da ikinci maneədi. Pantomimçilər nə qədər cəld – elastik-plastik olsalar da, bu iki maneəni özləri dəf eləyə bilməzlər.

Təklifim nədi?

Pantomimə sözsüz ssenarilər yazaq. Lap iki-üç nəfər bir yerdə! Lap bir adam iki-üç ssenari! Hər halda, bu, eksperiment işidi və risq eləməyə dəyər.

Dəyərmi, Aydın Dadaşov, İlham Rəhimli, Aydın Talıbzadə, yazıçı dostlar? Bəlkə söz yaza bilməyənləri də qataq bu işə?!

İkinci, hökumətdən bu teatra bina istəyək. İndi bu biçarələrin dili yoxdu-yoxdu, bizə nə gəlib? Biz ki danışa bilirik!

* * *

Bu da belə. Yubileydən bir epizod da deyim, gerisinə baxarıq. Telman Adıgözəlovla Ramiz Novruzov Akademik Dram Teatrının adından həmkarlarını təbrikə gəlmişdilər. İstədilər, Pantomimsa-

yağı çıxış eləsinlər. Yəni him-cimlə. Mümkün olmadı. Axırı ağızlarına "skoç" vurdular. Yenə alınmadı. Ənənəvi Azərbaycan teatrı üçün susmaq böyük faciədi...

* * *

İndi də Pantomimin aktyorları və ötənlərdə baxdığım "Dulusçu" tamaşası haqqında.

Əlbəttə, onlardan yazmamaq günahdı. Ən azı ona görə ki, Xanızadənin "dəliləri" adamı özlərindən betər günə qoyurlar, ağlın alırlar, huşun aparırlar, yarasın qoparırlar, bu milləti aciz-məhkum-üsyankar-hakim-barbar-mədəni-azərbaycanlı-türk... olmadığından yana, həm də istedaddan xali olmamağına inandırırlar, dəli eləyirlər, bir sözlə. Amma güldürə-güldürə.

Tamaşaçının paltosun çıxarıb, pencəyinin düyməsin açıb, əlin köynəkdən də içəri salıb qıdıqlamırlar. Dili ağızqarışıq əyib qatlamaqla dodaq qaçırmırlar. Çox sadə: aktyorluq eləyirlər, vəssalam. Özü də danışmadan. Pantomim yeganə teatrdı ki, tamaşaçını görür, amma görməzliyə vurur. Bir elə oynayır – Bəxtiyar Xanızadənin əlinə. Bəxtiyarın əli heç bir rejissor-dramaturq-aktyorunun cibindən çıxmır. Üstəlik, aktyorların hamısı öz "istehsalıdı". Teatrallardan kimsə deyib ki, bina, rejissura, tamaşaçı, tərtibat, dekorasiya, musiqi hələ teatr demək deyil; çöldə, asfaltın üstündə əgər iki adam şəbeh çıxarırsa, bu, artıq teatrdı!.. Normal qənaətdi. Pantomim Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində oynayır. Bir az kasıb, bir az mağmın səhnədi. Tamaşanın kəm-kəsirin məmnuniyyətlə onun boynuna yıxmaq olar. Pantomim elə eləmir. Pantomim Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində... öz meydanında oynayır. Ona görə bu uşaqların əli-ayağı yerə dəymir. Arı kimi çiçəkdən çiçəyə uçurlar. Sancmaqları da şirindi. Ancaq həmişə yox. Onlar hərdən tamaşaçını iynələmək əvəzinə... ələ salırlar. Çox sadə: himlə-cimlə, adlarına uyğun. Pantomim hazırlıqlı oxucu üçündü. Üzeyir Hacıbəylinin feyletonlarını oxumayan "Dəli yığıncağı"nın "Dulusçu" tamaşasını təbii ki, anlamaz. Ancaq Pantomim bəzən elədiyini gözə soxur, mətnin içindən sözləri arıtlayıb kənara atdığına, onları felin (hərəkətin) felinə verdiyinə görə əlini arxadan öz





kürəyinə şappıldadır: oğulsan!.. Onların Oğul olduğuna şübhəm yox, ancaq tamaşaçıların arasında onlarla sənəti bilən, duyan, sevən Kişi olduğuna gərək xanızadəçilərin də şübhəsi olmasın. İndiki belədi, onda buyursunlar: Pantomima çox da böyük olmayan uğurla yerində sayır. Süstlükdən yox ha, artıq hərəkət elədiyindən. Məsələn? Məsələnin bu tərəfini sözsüz başa salmaq istərdim...

Qayıdaq "Dulusçu"ya. Pantomimanın sıradan tamaşasıdı. Əziyyət göz qabağındadı, istedad qulaqla eşidilir. Əvvəl nərdivandan başlayırlar. Üzeyir bəy necə yazırdı: "Nərdivan elə bir şeydi ki, yuxarı dırmanmaq üçün onsuz ötüşmək olmur". Pantomima nərdivan düzəltmək istəyir. Dəlilərin biri sağdan, biri soldan, biri ortadan səhnəyə daxil olur. Hərəsinin də əlində bir qutu. Qutuları üst-üstə düzüb nərdivan düzəldirlər. Yuxarı dırmanan aşağıdakıları əzir. Onu aşırırlar. İkinci çıxır, əzir, yıxılır, üçüncü çıxır, əzir, yıxılır... Hə, bəradərlərim, nərdivansız ötüşmək olmur, bizsə nərdivan qura bilmirik. Bravo!

Yenə Üzeyir bəyin (Pantomimanın nəzərinə çatdırırıq ki, danışanın İlham Təvəkküloğlu olduğundan xəbərimiz var) səsi eşidilir: "Başqa millətlər siçan boyda iş görəndə biz yatmışdıq"... Səhnəyə amerikalı gəlir, oynaya-oynaya "aparatın" arxasına keçir, Azadlıq heykəli yapır, gedir; səhnəyə fransız gəlir, oynaya-oynaya "aparatın" arxasına keçir, Eyfel qülləsi yapır, gedir; səhnəyə gürcü gəlir, oynaya-oynaya çaxır buynuzu yapır, gedir; səhnəyə azərbaycanlı çoban gəlir... gəlmir, daha doğrusu, itələyə-itələyə gətirirlər, kamançanın müşayiətiylə "aparatın" böyründə "muğam" oxuyur, əsnəyir, yatır, əlin "aparata" vurmur ki, vurmur. Hamı gülür. Pantomima hədəfi vurub. Qətiyyən! Kamançayla muğamın faizi bəsimizdi. Ala bilsək. Bizi mədəniyyət yox, mədəniyyətsizlik geri qoyub.

Yazıq kamança, yazıq muğamat, yazıq Üzeyir bəy, yazıq...

* * *

...Müəllif yerində qurcuxur, əsnəyir, saata baxır, qələmi vərəqin üstünə tullayır və əlyazmanı operatora göndərir.

*2004*

## FEVRALIN OTUZU DOĞULAN ŞAİR...

"Dostlar, qaldırın qələmləri, şeir içək..." Bu misranın iyinə düşüb sərhəd iti kimi sahibini aradığım, tapıb da sevdiyim, sevib də sevildiyim vaxtdan çoxmu keçir?.. İndi də kəsdirəmmirəm, görən, Akif yaxşı oğlandı, yoxsa şeirləri? Göz institutundan, dil universitetindən, qarın məktəbindən kəsilib Əli Kərim kursuna düzələn bu oğlan niyə cibində Qorki adına Ədəbiyyat İnstitutunun yox, MDU-nun jurnalistika fakültəsinin diplomunu gəzdirir? Yəqin Akif özü şirin oğlandı, ona görə. Amma şeirləri acıdı axı, amma ovqatı təlxdi axı: "Sən mənim kefimin necəliyini, kefimə doğranan soğandan soruş". (Araq da "qorki"di, dərdiş, şeirin tale oxşarı...). "Gil"i ədəbiyyata Akif gətirib, mən bilən, "sement"i şeirə Akif daşıyıb, deyilənə görə, yaşıdlarını özündən bir "podborka" Akif geri buraxıb, tənqidçilər sözü. Bəs niyə başını aşağı salıb şeirin yazmır? Özü bilən məsləhətdi. "Bülbülüm əzrayıl, gülüm əzrayıl" gələndə gec olmasın təki. Yoxsa qardaşım bir də onda xəbər tutacaq ki, qırxı çıxıb... Yoxsa... "Haqq divanı varsa da, soğru-sual nə gərək?" Bəlkə arxayındı ki, mələkləri qız familiyasıyla təkcə O çağıra bilər? Üz qabığında adı yəqin müəllifin öz günahından səhv gedən "Ürəyimin sümüyü yoxdu" kitabına təzədən baxanda Akifə bir bənd də artıq bənd oldum:

...Heç bilmirəm Kərəm
külü çıxacaqmı odumdan?
Adını de, Akif Səməd,
adım çıxıb yadımdan...

Rəsmi mənbələr 1960-cı ilin fevralında Tovuzun hərdən zarafatla Alkaqol adlandırdıqları Alakol kəndində Akif adlı bir oğlan uşağının dünyaya gəldiyini bildirir. Hesabla bu günlərdə onun qırx





yaşı tamam olasıdı. Amma... Akif Əhmədgilin yubileyi təqvimdə olmayan günə – fevralın otuzuna təsadüf edir. Gərək ki, Akifin şeirinə Azərbaycanda indiyəcən musiqi bəstələyən olmayıb. Amma bir türk şərqisi var ey:

Əl-ayaq çəkilincə,
Söhbətlər tükənincə,
Dostlar evə gedincə,
Bu gecələr işgəncə

– boynuna al, sözləri sənin deyil? Sən kəsdiyimiz çörək, yalan da olsa, "hə" de...

*Fevral, 2000*

# YEDDİ OĞULDAN BİRİ DƏ GETDİ...

Əzrayılın ağzı yansın, tikəsi nə iridi: əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, Milli Dram Teatrının baş rəssamı, milli vuraq pulumuzun üstəgəl pasportumuzun üstəgəl ordenlərimizin dizayn-rəssamı, Qaraca çoban, Mirpaşa, Mehdi Məmmədovun varisi, Barat Şəkinskayanın güvənci, bir evin başçısı (saymaqla qurtarmaq olmur)... Elçin Məmmədovu "uddu". Elçini hələ rəssam kimi təzəcə tanınan, gövdəsi yer əyən vaxtı "Dədə Qorqud"a çəkmişdilər. Onun Qaraca çobanı dastandan gəlməmişdi, Elçin özü "Dədə Qorqud"a qoşulub çoban axtarışına çıxmışdı. Tapmışdı da! Qayıdandasa Qaraca çoban onun özüydü. Elçin Məmmədov kürəyindəki ağacı sonralar da heç vaxt yerə qoymadı, teatr quruluşunun, rəssamlığın, sənətin "qıpçaq məlikləri" ona şələsini yerə qoymağa, qoyub da bir hovur dincəlməyə aman vermədilər. Üstəlik, kürəyindəkinin şəcərə-nəsil ağacı olmağı: atası Mehdi Məmmədovun təkcə elə adı, anası Barat xanımın südü, iki danılmaz istedadın vərəsə ağırlığı...

Görən, Elçini yuyanda kürəyindəki ağacı görən olubmu? Görən, o boy-buxunda adamı – belində də ağac – hansı məzarda basdırmaq mümkünüydü? Meşə. Sıx-sıx bitili ağaclar. Azca aralı keçəl bir tala. Talada çəpəki durmuş bir ağac. Ağacın altında üzüquyulu bir adam. Görən, Elçinin belə rəsmi olubmu?..

Kino ona məscidə it bağlatdırıb – Mirpaşanı deyirəm. Mirpaşa ona sevgiqarışıq nifrət qazandırıb – "Yeddi oğul istərəm"ə baxandan sonra öz çəkdiklərimi yazıram. Kürəyindəki ağacdan üstünə Mehdi müəllimlə Barat xanımın kölgəsi düşüb – valideynlərinin kim olduğunu biləndən sonra bu fikrə gəlmişəm. Sənət pilləlıəriylə qalxa-qalxa həyat nərdivanından enirmiş, sən demə. Yoxsa əcəl onu emalatxanasının pillələrində yaxalamazdı ki... Mehdi müəllimin





qollarının arasına yıxıldı, Barat xanımın qucağına endi, ölümüylə üstündəki kölgələri işıqlatdı, ölümüylə kürəyindəki ağacın ayaqlarını yerə pərçimlədi.

Elçin Məmmədov dünyanın qarışıq, ...ağaclı vaxtı dünyadan getdi. Öldü – əcəli yadıma saldı, amma nə qədər acı da olsa, onun sağlığında da həyat yadıma düşmürdü...

*Fevral, 2001*

## ULDUZLARI HİS ELƏYƏN ŞƏHƏR

Son vaxtlar kolleksiya toplamaq azarına tutulmuşam. Ancaq Zamin Hacı kimi mətbuatı eşələmirəm, sözlər özü qarşıma çıxır, üstəlik, mənim kolleksiyam gülməkçün deyil, bəlkə də ağlamaqdan ötrüdü.

Əvvəlcə "BBC"-dən bir iqtibas. İngilis radiosuna müsahibə verən on altı yaşlı Füzuli qaçqını – mən onun səkkiz ildi özgə qapılarında nökərçilik elədiyini mütləq yazmalıyam! – səkkiz baş (ifadə sahibinindi) külfəti saxlamağın çətinliyindən elə rəvan danışırdı ki, peşəkar radio işçisi kimi söhbətin qayçıya heç bir ehtiyacı olmadığını qulağımı şəkləmədən belə duyurdum. Onu da hiss eləyirdim ki, bu uşağın axırı yoxdu: o belə yaşamağın mümkün olmadığını gözüyumulu bilir. Müsahibənin axırında məlum oldu ki, yaşından tez, həm də olduqca laqeydcəsinə qocalmış bu gəncin əli hələ hər şeydən üzülməyib, onun da öz arzuları varmış: "Doyunca çörək, bir də qənd yemək istəyirəm"...

Mənə bir saatın içində dünyanı gəzdirən, adını bildiyim, bilmədiyim ölkələri dolandırıb axırı İmişlinin çadır şəhərciyinə gətirib çıxaran "BBC" dalğalarında boğulmamaqdan ötrü ayağımı yerə bərk basıb löngər vurdum, evimə-özümə qayıtmaq istədim. Quruda suyu süzülə-süzülə gəzmək nə məşəqqətdi! Hanı Xırdalan avtobusu? "Xalturşiklər" adambaşı min manatdan meydan sulayır. Bu da növbəti kolleksiya! – yanımda özündən qabaq kirli çantasını rahlayan yol yoldaşım öz-özünə deyinir: "Bu şəhərin marşrutu da fahişələrə oxşayır. Gündüz ucuz minirsən, axşam baha..."

Əlimi balkonnan bir kitablarıma uzadıram. Hanı Qorki? Bir az Füzuli qaçqınına, bir az yol yoldaşıma, bir az da elə mənə oxşayan sosialist realisti. "Uşaq vaxtı qaranlıqdan möhkəm qorxurdum. İldırım çaxanda elə bilirdim, göyün o üzündəki cəhənnəmin qapıları





taybatay açılır. Gecə isə məndən ötrü buludların arxasında alışıb yanan bir dünyanın yerə hopmuş hisiydi..." Bu da bir kolleksiyalıq sözdü, deyilmi? Təzədən radionu açıram. Qoy Azərbaycan kanalının nostaljisi ruhumu oxşasın. Bəxtimdən – xatirimdə burnunu tez-tez qırışdırmağıyla qalan – kişi diktor rəsmi xəbərləri oxuyurdu. Özü də necə! "...Ölkə prezidenti dünən dövlət müstəqilliyinin... mülkiyyətinin özəlləşdirilməsi barədə fərman imzalayıb". Heç olmasa, mənə görə üzr istəmədi, çünki dəfələrə "letuçka"larda onun efirdən quş buraxdığını üzünə demişdim.

Qalxıb radionu da keçirdim, qazı da, işığı da. Bircə suya dəymədim. "Bu şəhərin ulduzları his eləyir. Gecələr su kranını bağlamayın!" Bu da mənim kolleksiyamın axırıncı cümləsi...

*2001*

## İSA İSMAYILZADƏYƏ MƏKTUB

Bu məktubu ölümünün dördüncü günü yazıram. Sənə yeddində çatacaq. Baş sağlığımı qəbul elə. Sizə "sən" deməyimə təəccüb eləmə. "Qəbul elə, təəccüb eləmə"... Yəqin özün də hiss elədin ki, artıq yoxsan, sağ olsan, qorxundan "elə"-nin birini düzəldərdim.

Mən sizə sən deyirəm. Hərəsi bir dünyada olanlar bir-birinə daha nə deməlidi ki? Bir də o dünyadan çox, o dünyada Tanrının yanındasan. Mənsə, Tanrıya "sən" demişəm, ölənəcən də "sən" deyəsiyəm. İsa müəllim, ancaq öz aramızdı, sən heç ölmək istəmirdin. Niyə də öləydin, axı, Tanrının yer üzündəki ən çox sözü olan adamlarından biriydin. Bəlkə sənin Tanrıya vacib sözün vardı, təklikdə onu çatdırmağa getmisən?! Sən axı şairsən, sən axı sözünü şeirlə göndərə bilərdin. Öz aramızdı, son poeman məni tutmamışdı, səndən çıxmayan iş... Allahnan sənin arandakı rabitə xarab olmuşdu bəlkə, bəlkə təkcə sənin toxuna bildiyin o ilahi bağ üzülmüşdü, bəlkə kodlar bir-birinə qarışmışdı?!Onunçünmü başından getdin İsa müəllim?! Axı sən ürək adamıydın, ürəyiydin başdan ayağa, bəlkə elə ürəyinin başından getdin?.. Doğrudanmı öldün, İsa müəllim?! Doğrudanmı Tanrıya deyiləsi o vacib sözün ancaq ölüb çatdırmaq olarmış?!

Tanrını gördünmü, İsa müəllim?
Sözünü dedinmi, İsa müəllim?
Görüb dirildinmi, İsa müəllim?
Bəs onda nə vaxt qayıdarsan?
Göy üzü talan deyil ki barı?
Allah yalan deyil ki barı?
Nə olsa, biz bəndələrə olsun,
Allaha bir şey olan deyil ki barı?..

Radioda "Ovqat" yazırdın. Səsin Allaha çatırdı onda. Allah səni səsindənmi tanıdı? Bizi soruşdumu, qurban olduğum? Dedinmi,





Azərbaycanı sel-su basıb? Soruşdunmu, bir belə yağışı kimin üzünə yağdırırsan, ay pir olmuş?

Başını ağrıtdım deyəsən, İsa müəllim. Bir əlcə kağız da yaza bilmirəm. Özümüzdən nə deyim? Mövlud Süleymanlı birinci gün çaparaq keçirmədi, sənə görə. Planlaşma elədi, sözarası: "İsa azad oldu, – dedi, – elə deyəsən, mən də". Saday Budaqlı şahmat oynayır, Tahir Talıblı "Budaq" çıxarır, Əhməd Oğuz sağ-salamatdı. "Musiqi" redaksiyası əvvəlki təki işləyir. Səndən söhbət düşəndə hamı sözün azdırır. Bütün bunları nahaq yazıram. Onsuz da ordan özün hər şeyi görürsən. Onsuz da Allah özü hər şeyi görür. Biz isə səni görmürük, özü də təkcə səni yox...

Qayıdıb gələndə "Seçilmiş əsərləri"nə bir də bax, jurnaldakı son poemanı təzə kitabına salma, "Azərbaycan"a bir əl gəzdir. Lap yadımdan çıxmışdı: nə qədər ki, yuxarıdasan, aşağı boylanma! Eldar Baxışa, Tomar müəllimə salam de, bir-birinizdən muğayat olun. Bir də... imkanınız varsa, hələ qayıtmayın...

*16 iyun 1997-ci il*

## QAYIDIŞ

Bakıda quş qəhətə çıxıb. Qabaqlar sahildə "ağxalatlı" qağayılar gəzişərdi: dənizin "nəbzi" bekara zəifləyəndə, yaxud dalğaların "təzyiqi" kəllə-çarxa vuranda və yaxud suyun üzünə neft ləkəsi düşəndə "təcili yardım" kimi cumardılar Xəzərə.

Müstəqillik qazanandan sonra – bir sıra dövlət və millət əhəmiyyətli obyektlər kimi – dənizin də "tibb məntəqəsi" bağlandı, qağayılarsa İrana, Rusiyaya, Türkmənistana... üzən gəmilərə "minib" göyərtədəki "durnagözlü" xanımlara acıq verə-verə, matroslara naz sata-sata dəryanın o üzünə adladılar. Amma onların "qəh-qəhələri" hələ də bulvarın qulaqlarındadı...

Paytaxta təzə gələndə diqqətimi çəkən bir də sərçələr olub, anormal kəndçi marağıyla ətrafı şübhəli nəzərlə süzüb "acı keçmişimi" xatırladan hər xırda detaldan belə özümü gizlətmək (nə var – nə var, deməsinlər "kənddən dünən gəlib)" istəyəndə burunlarıyla yer eşən "kəndçilərimi" görüb haracan dilxor olduğumu izah eləməyə çətinlik çəkirəm – azından ona görə ki, qan təziyiqini ölçən cihaz icad olunsa da, qanqaraçılığı təyin eləyən aparat hələ öz ixtiraçısını gözləyir. On beş il bundan qabaq da, indinin özündə də sərçələr –kənd-kəsək kimi – məni güdür: elə bil, o uzaq dağ köyündən dalımca düşüb şəhərə gəliblər ki, ayağımı cızıqdan qırağa qoyan kimi qınasınlar, artıq-əskik sözümün, hərəkətimin başını böyütsünlər, mən də bu "senzorların" ağzını yummaq üçün onlara telimi dənlədim, gözümün suyunu içirim, uşaqların əlindən quşatanlarını alıb qırım, ayda-ildə bir yol ayağım babat restorana düşəndə menyüdəki "quş əti" sözünü görüb diksinim...

Sərçələr qağayılar gedən gəmiyə "minib" Xəzərin o biri sahillərinə adlamadı, qaranquşların "tərkində" özlərini ekvatorun isti bucağına dürtmədi, Azərbaycana "ilişib" qaldılar – cavanar tələyə ilişən kimi. Bu ölkədə atın, itin, pişiyin də pasportu var, amma





indiyəcən heç birimizin ağlına gəlməyib ki, bir sərçədən "sənəd" istəyək. Görək, onların "pasportuna" yaşadıqları yeri tərk eləməmək barədə möhür vurulmayıb ki? "Qaranquşlar uçub gedər, bizə sərçələr qalacaq" – düz deyiblər. Bakı sərçəli şəhərdi, bir də qarğalı...

Son vaxtlar şəhərdə bir sürü qarğa görmüşəm. Özü də ən müxtəlif yerlərdə: Xırdalandakı pivə zavodunun hasarında, marşrut avtobuslarının damında, Söydümalı kişinin kepkasında, ağzımın içində, TV-nin efirində, Avropa Şurasının Azərbaycana qoyduğu şərtlərdə... Qarğalar dodağımızdan təbəssümü, əlimizdən işimizi, ağzımızdan havanı çəkib sorur. Bir şey tapmayanda sərçələrə hücum çəkirlər.

Hərdən adama elə gəlir ki, bunlar qarğa deyil, İrandan, Rusiyadan, Türkmənistandan... üzüqara qayıdan "ağxalatlı" qağayılardı – bir vaxtlar Xəzərin yarasını sarıyan "tibb məntəqəsinin" üzvləri. İndi ölmüş dənizin gözlərini didməyə gəliblər. Və sahildə səssiz-səmirsiz keçilən şəhəri də salıblar öz qar(ğ)a sıyahılarına...

*2001*

# YARIM KİLO ƏT

*Rumiyə*

Həqiqəti danışdığına görə, sənə heç kəs "sağ ol" deməyəcək. Sən sağ ol ki, həqiqəti deyə biləsən...

Yox, burda Rumilik bir şey yoxdu, sadəcə, öz qənaətim belədi. Axtarsam, ağıllı qənaətlərim çoxdu, amma mən qənaətə də qənaət eləməyi sevdiyimdən onları qələmə almıram. Hekayət olsaydı, başqa məsələ. Təxminən belə hekayət...

Deməli, bir on il qabaq iki dostumla Bərdəyə gedirdik. Yoldan balıq, quş əti, pomidor, xiyar, çörək, kömür aldıq. Guya Bərdəylə Ağdamın arasında kabab çəkəsiydik. Yevlaxdan Bərdəyə gedən yolun qırağında sırayla qoyun əti satırdılar. Düşdüm, iki kilo ət alım. Satıcı dedi, gəl iki yarım elə. Dedim, nolar. Əti bükəndə qayıdasan ki, yarımı mənə halal eləyərsən? Karıxdım, düzü. Dedi, görürəm Allah adamına oxşayırsan, bu satdığım ətdən öyümə apara bilmirəm, günü beş minə ət satıram, bir çətən külfət, qaçqın adam, çatdırıb ala bilmirəm satdığımdan... Əlbəttə, qiyamət günü sümüklərimiz şahidlik eləyəcək bizə, şahidlik eləyəcək ki, biz nə əməllər törətmişik, mən buna inanıram, qiyamət gününəcən ətimizin qalmayacağı da bəlli, amma ola bilər ki, Yevlax-Bərdə yolundakı kişidən aldığımız ət də üzümüzə dursun...

Elə ki Rumidən söhbət düşdü, hamı hekayət danışmaq istəyir, sevmək istəyir, şeir yazmaq istəyir. Mən hekayət danışdım, sən sev, o da şeir yazsın. Amma unutmayaq ki, Mövlana Cəlaləddin Rumi həm də fizikdi: yerin cazibə qanununa qarşı çıxan, insanı daş kimi göydən yerə salan yox, quş kimi yerdən göyə qaldıran fizik. "Mən bir quru ot saplağıyam ki, kainatın cazibəsinə üsyan edirəm!.." O, kimyaçıdı: İki "mən"dən bir "mən" düzəldən kimyagərə özgə nə ad verəsən? "Gələn sənin dostundu, özündən ayrılıb sən olan dostun..." O, filosofdu: "Ya olduğun kimi görün, ya göründüyün kimi ol!", "Başqasının eybini gizlətməkdə gecə kimi ol!", "Mərhəmət və şəfqətdə Günəş kimi ol!". Ol! Ol! Ol! Rumidə "olma!" yoxdu, "ol!" var. Olaq!

*2007*





# MİN ATLIDAN BİRİ

Yaxşısı budu, rəvayəti qısa nağıl eləyim. Çünki ən böyük hikmətlər ən balaca sözlərdə daldalanır – üşüdüyündən yox ha, günlü gündə yağan yağışda adam üst-başını sadəcə toza batırmamaq üçün özünü ağac altına necə verir, bax elə...

Rəvayətin məğzi belədi: deməli, Əzrayıl filan ölkədə filan qədər adamın canını almaqdan ötrü Allahdan izn istəyir. Siyahıya qol çəkdirəndən sonra başlayır qurbanlıqlarının gözünə görükməyə. Biri məsələdən agah olub üz tutur bəhmən ölkəyə. Əzrayıl eşidir ki, ovun biri aradan çıxıb. Allahın mələyi günahkarcasına gülümsünür: "Əşi, onun adı əslində bəhmən ölkənin siyahısındadı, mən az qala çaşıb canını burda alacaqdım..."

Şəhərdə tıncıxanda, özümü "qara siyahı"da olan bəni-adəm kimi hiss eləyəndə kəndə qaçardım.

Baxardım görüm:
kənd yolunun tozu yatmayıb hələ?
Novlu kəhrizin gözü tutulmayıb?
çaylar yenəmi üzüaşağı axır?
Günəş utana-utana, Qızılqayanın dalındamı doğur?
camışlar qızıxanda dam uçururmu?
inəklər təzə gəlini sağmağa qoyurmu?
atlar eşşəklərə tamah salırmı?
Korbulağın gözü açılıbmı?
kişilərdən yenəmi peyin, tütün, kişi iyi gəlir?
qadınların sifətindən qorxu, təlaş, sevgi, kişilik çəkilməyib?

Baxardım... baxardım... özü də eynəksiz. Kənddə gözüm açılardı. Bir də ki, kənddə hər şeyi elə bil əlimlə qoymuşdum: dağ yerində, dərə yerində, düz yerində, qaya yerində, yer yerində. Mən Bakıya gəldim – qayıtdım, onlar heç yana tərpənmədi, mən Orenburqda xidmət elədim – qayıtdım, onlar oturub gözlədi, mən Moldovada oxudum – qayıtdım, onlar yenə yolumu gözlədi, mən kəndi biryolluq tərk elədim, onlar heç qonşu kəndə qonaq da getmədi.

Bircə kənd qəbiristanına baş çəkəndə görürdüm ki, burda da Əzrayılın "qara siyahı"sına düşənlər varmış. Onda gəldiyim yolun

o üzünə adlayardım. Yolda avtobus ayaq saxlayardı, camaat düşüb nahar eləyəndə mən kitablara baxardım. Əlimə bir şeir kitabı keçdi. Müəllifi tanış deyildi:

"...İki dəfə iki altı eləyər
Əgər dörd eləsə, adi həyatdı
Əgər dörd eləsə, riyaziyyatdı..."

Hələ o biri şeiri:

"...Gərək kəndimizdən
çıxmayaydım ..."

Kitabı alıb avtobusda vərəqləyirdim. Oxuduqca qulağıma müəllifin səsi gəlirdi.

Deyirdi:

"– Uzun müddət İrəvanda yaşamışam. Orda da çap olunmuşam, Bakıda da. Özü də hamıdan çox... Bu – çoxdan olub, lap çoxdan..."

Deyirdi:

"– Mən birinci – azərbaycanlıyam, ikinci – yazıçıyam, üçüncü – kommunist deyiləm..."

Deyərdi:

"– Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm..."

Mən ona cavab vermirdim. Çünki avtobusda tək adamın öz-özünə danışmağına o vaxt qarabağlılar yaxşı baxmazdılar. İndi az qala bütün ölkə monoloq deyir. Sözlər adamların ağzından sürüşüb yerə hellənir. Onların ləpirinə düşüb irəliyəndə baxıb görürsən ki, "Burdan min atlı keçib" – ...Səndən əvvəl...

Siz o atlılardan hansısınız, Hidayət müəllim?!





## "TƏNQİDÇİ" ƏLİ KƏRİMİN KİTABI

Əli Kərimlə Cavanşir Yusiflinin arasında qalmışam. Bilmirəm, hansından başlayım? Əli Kərim də dostumdu, Cavanşir Yusifli də...

Biri o dünyada, biri bu dünyada.

Amma ikisi də eyni dünyadadı – ədəbiyyat dünyasında.

Əli Kərimi heç vaxt görməmişəm.

Cavanşir Yusiflini hər vaxt görə bilmirəm!

Əli Kərimlə az qala yaşıdıq.

Cavanşir Yusifli məndən xeyli yaşlıdı.

Amma:

Əli Kərimi hər vaxt görə bilirəm, daha doğrusu, gözümə görünür.

Amma:

Cavanşir Yusiflini özümə tay-tuş bilirəm.

Görəsən, onlardan hansı daha yaşlıdı: 47 yaşlı Cavanşir Yusifli, yoxsa ondan 10 yaş cavan Əli Kərim?

"Azərbaycan poeziyasında Əli Kərim mərhələsi" – təzəcə oxuduğum bu kitabı da heç bilmirəm onlardan hansı yazıb?

Cavanşir Yusifli deyir: Əli Kərim. Diliylə demir, qələmiylə deyir.

Əli Kərim deyir: Cavanşir Yusifli.

Cavanşir Yusifli Əli Kərimin sözündən çıxmır.

Tənqidçi ki şairin sözündən çıxdı, mətnin qiyaməti başlayır.

Cavanşir Yusifli Əli Kərimin sözündən qırağa çıxmır.

Odur ki, onları ayırmaq olmur.

Arada Səməd Vurğun "onların arasına girmək" istəyib – alınmayıb.

Arada mən də bir şeirimlə onların "başını qatmaq" istəmişəm – imkan verməyiblər.

Əli Kərimlə Cavanşir Yusifli bilir, bilməyənlər də bilsin. Bir yol Yazıçılar Birliyində Əli Kərimə həsr olunmuş tədbir vardı,

axırda – ənənəyə uyğun olaraq – sözü Əli Kərimin ailəsinə verdilər. Sözün açığı, istədim tribunaya qalxıb təşkilatçılara təşəkkür eləyəm. Paşa bəy məndən əlli tərpəndi. Fikirləşdim ki, eybi yox, nə vaxtsa Əli Kərimin ailəsi iştirak eləməyən bir məclisdə mən söz alaram. O vaxtdan beləcə ümidlə gözləyirəm.

Cavanşir Yusiflisə gözləmədi. O, Əli Kərimin ailəsi adından kitab bağladı.

Amma:

Şeir övladının, poema ciyərparasının, söz ailəsinin adından.

İndi çoxlu tənqid yazılır. Çoxu da "göy"lə. Kitabı açırsan – sətirlər "göy", örtürsən – üz qabığı. Tənqid indi "göy"ə yazılır. "Göy"ün yoxsa, ədəbiyyatda yerin də yoxdu.

Görəsən, "göy" tənqidi Əli Kərimin sağ olduğundan xəbərdar olsaydı, ondan da nəsə umardımı?

İndi çoxlu, lap çoxlu tənqidçi var. Onlar tənqiddən də yazırlar, şeirdən də, nəsrdən də, dramdan da.

Halbuki:

poeziyadan yazan tənqidçi şair,
nəsirdən yazan tənqidçi nasir,
dramdan yazan tənqidçi dramaturq
OLMALIDI!

Cavanşir Yusifli tənqiddən də, şeirdən də, nəsrdən də dramdan da yazıb və yazır. Yaradıcılığı kimin də olmasa, mənim gözümün qabağındadı.

Əli Kərim təkcə şeir yazıb. Onun da yaradıcılığı ortadadı.

"Azərbaycan poeziyasında Əli Kərim mərhələsi" – Əli Kərimlə şair Cavanşir Yusiflinin birgə məhsuludu.

Mən bu kitabı nəğmə kimi oxudum: sözləri Əli Kərimin, musiqisi Cavanşir Yusiflinindi. Qalır bizim oxumağımız...

*2005*





## ƏLİMİZ ÇATMAYAN ƏLİ KƏRİM

Yazıçıların yubileyi həftəni "işğal eləyib". Yox, gərək belə başlamayaydım. İndi canım da çıxsa, yazmalıyam. Yazmalıyam ki, dekabrın 25-i Yusif Səmədoğlu rəhmətliklə Allah ömür vermiş Famil Mehdinin ad günüydü. Birinin tədbiri qəbir üstdə keçdi, o biri ad gününü deyəsən adi gün kimi yola saldı. Rəsul Rzanın 90 illik yubileyisə dekabrın yaddaşında uzun müddət qalacaq. Təntənə o qədər möhtəşəmiydi ki, hətta polislər yolu da kəsmişdilər. Paradoks! Rəsul müəllimin bütün həyatı yol salmağa və yol açmağa həsr olunmuşdu. Xronologiyanı pozmasam, dünən Yazıçılar Birliyinin Natəvan klubunda düzənlənən "Əli Kərim-70" şölənindən danışmalıyam. Danışım da!

Amma qoy siftə Fikrət Qoca danışsın, həm məndən böyükdü, həm də Əli Kərimin dostudu. Danışdı da! Dedi ki, bu gün 38 yaşlı oğlanın boynuna 70 yaşlı ağsaqqal olduğunu qoymaq istəyirlər: Əli Kərim arıq, uzun adamı əsaya oxşadanda yanında olub; Əlini qoruya bilmədik.

Növbə Anarındı. AYB sədri Rəsul Rza-Əli Kərim dostluğundan söz açmalıydı, açdı; Əlini intihar eləyənlərin, şəhid olanların sırasına qatmalıydı, qatdı; Əli Kərimə yazıçılar ordusu adından rəhmət oxumalıydı, oxudu.

Gerisini Qabil danışsın, Fikrət Sadığı – Səməd Vurğunu şəxsən görmədiyinə görə! – bu gün də qınayan Qabil, Əli Kərimdən çox yaşadığına utanan Qabil, sözün ölməzliyinə Quran ayəsi kimi inanan Qabil.

Sonra da sözünün gerisini miras kimi Arif Əmrahoğluna tapşırdı. Tapşırdı desin ki, ortada Füzuli mifi var, Füzuli yaradıcılığı yoxdu; Əli Kərim mifi var ortada, Əli Kərim yaradıcılığı yoxdu – qanan, bilən, oxuyan ya üç adamdı, ya beş.

Vaqif Yusifli də Füzulini sevdiyini bərkdən desin, Əli Kərimin aşiqi olduğunu yavaşdan; dalbadal şeir oxusun; şair yubileyinə yığışdığımızı yadımıza salsın.

"Əli Kərim-70" tədbirindən danışası olsam, gərək Fikrət Sadığın da adını çəkəm, çünki onun şeirlərini ilk dəfə yubilyar çap eləyib – aralarında cəmi bir yaş (o da Fikrət müəllimin xeyrinə!) fərqi ola-ola. Hələ o biri natiqləri demirəm, hələ Tofiq Abdinlə "sağ-salamat yubilyar" Abbas Abdullanın kürəyimin arxasındakı şirin söhbətlərini dilimə gətirmirəm.

Əli Kərim özü tədbirdə olsaydı, yəqin yarım saatdan çox oturmazdı, çıxıb dəhlizdə siqaret çəkər, ya da şeir yazmaq, borc pul tapmaq, qonaqlıq vermək... haqda düşünərdi. Çox şey düşünərdi, bircə səhhətindən başqa.

Amma mən bir saata yaxın çıxışlara qulaq asdım, tədbirdən çıxanda da ürəyimdəm (beynimdən bəlkə?) tamam ayrı şey keçdi: Əli Kərimin yubileyində xanımıyla oğlu yuxarı başda – Fikrət Qocanın yanında oturmuşdular. Görəsən, Əlinin "tale atası" Mikayıl Müşfiqin bugünkü anım mərasimində necə, "gəlini", "nəvələri" iştirak eləyəcəklərmi?

...Tamam ayrı şey yazacaqdım, alınmadı. AYB-də bir topa yazarla görüşəndən sonra qayıdıb bir şairdən ötrü darıxmaq çətin olur...

*2001*





## HƏMİŞƏ "QAN-TƏR İÇİNDƏ..."

*Əlisəmid Kürə*

Bilirəm axı, incimisən, bilirəm axı küsmüsən, bilirəm axı ORDA adam kimi ömründə bir yol, ay Əlisəmid, bircə yol dizini qatlayıb dostlarını saf-çürük eləyəndə adımı yüz yol, ya Kür, yüzcə yol defisin solundan sağına, sağından soluna fırladıb, ağ-qara başını qələm tutan, bıçaq vuran əllərinlə suyu süzülənəcən sıxıb, axırda hər şeyi fələyin ixtiyarına buraxmısan. Bu da taleyin hökmü! – Uzun illərin ayrılığından sonra rastlaşanda heç nə olmayıbmış kimi görüşdük. Həmişə darıxdığından qara pencəyini əynindən çıxarıb qolun üstündə gəzdirərdin, indi elə bil canını ağzına alıb bu şəhəri dörd dolaşırsan. "– Hara qaçırsan, KENTAVR? Başın bədənindən ayrı, bədənin başından ayrı. Özün özündən qaçırsan, gedirsən qəmin üstünə söyüşə-söyüşə..." Yaşın dişlərinin sayını neçə diş ötüb, Əlisəmid, dişlərin yaşından neçə yaş kəmdir? Zindan divarlarına qanınla yazdığın şeirləri araqla nə vaxt yuyuruq? ORDA "Yol" qəzetini tanıyırdılarmı? Bilirdilərmi, burda biz dəlilərin də gözü YOLdadı? Sən bizimlə olmayanda, sən özündə olanda "Qəzetdə çap edilmiş sevgi şeirlərimi göndərəcəkdim sənə. Nə düşündüm, bilmirəm! Cibimdə qalan son tütünü kəsdiyim qəzet kağızına bükdüm. Sonra gözüm yaşara-yaşara tütünlə alışan şeirlərinin tüstüsünü çəkdim sinəmə". Sonra Maştağa-Nərimanov marşrutuyla irəli-geri şütüyən Sübh yelinin sözün "525-ci" anbarına boşaltdığı "siqaret qutusuna yazılmış şeirlər"ini oxudum. Arabir yuxuma da girirdin, Əlisəmid. Qapalı gözlərimin yaddaşında kimi, nəyisə (əcəli bəlkə?) qabağına qatıb qovurmuş kimi qalmışdın. Səni türmədə, dəlixana divarları arasında görməməyin bircə yolu vardı: sənə baş çəkməmək. Bir də sənin bu boyda zalım olduğunu bağışlaya bilmirdim:

"Neçə ki, fələk qarğıyır,
Hökm edir zalım olmağa.
Yüz əli qılınclı hazır
Bir bənövşə boynu vurmağa".

– bu şeirin eşqinə yadındadır, "Yol"dakı "podborka"nı o ki var tərifləmişdik? Bu nədi, Əlisəmid, fələk qarğıyanda sən özündəmi zalım olurmuşsan (Gerisini demirəm, özün bilirsən)? Həmişə deyirdin, "problem çoxdu". Ayağına görə yorğan istəyirdin, atına görə ot istəyirdin, adına görə iş istəyirdin, ürəyinə görə dərd istəyirdin.

Qurtardımı problem, Əlisəmid Kür?..

Dünyanın bu üzün görmüşdün, dünyanın o üzün görmüşdün, dünyanın hər üzün görmüşdün, dünyanın astarını da görüb dincəldinmi? Di altına bir daş qoy, otur, denən: "Kürəyimin təri, get!"; adın çıxınca, canın çıxsa yaxşıdı, ilişib eləyən olsa, mən ölüm, fikir vermə, ikicə kəlmə denən: "Yeri get", sən Allahın balasısan, Cəfəroğlu, Allah yolu get...

Başladımı problem, Əlisəmid Kür?..

Yenə Qorqudun yalın ayaqları gözünə girirmi, yenə gözlərin – ha yumsan da! – dünyanın əlləm-qəlləm şəklini çəkirmi, yenə söz dalınca duza gedirsənmi?

Başladımı hər şey?!

Hər şey bitdimi?!

Ağlının çəpərindən bəri adladınmı? Ayağına dost ağrısı, düşmən tənəsi batdımı? Gördünmü, ömrün hər bucağı ya kordu, ya da itidi, düz deyil, Əlisəmid, düz deyil.

Kürlük eləmə, Kür! Qoşul yeraltı çaylara! Gör balaca qardaşın sənə nə deyir:

"...Nə baxırsan, xana, bəyə,
Gec də olsa, gəl tövbəyə.
Dizin-dizin dur növbəyə.
Qoy xoş getsin Allahına!"

...Yoxsa özün demisən bunu? Hərdən özünə də qulaq as...

*31 may 2002-ci il*





## AXIR ÇƏRŞƏNBƏ

(*"Ərzi-əsri-hal-namə"dən sətirlər*)

... Peçin odunundan, heyvanın alafından, təndirin çırpısından, maşının təkərindən, çəpərin kolundan kəsib çərşənbə ocağına tədarük görərdilər, kənd dükanında kibritin qiyməti bir qəpikdən on qəpiyə qalxardı, turbadan qayrılmış tapançaların barıtı "qiqant"dan tutulardı, ilbiz qutularını muncuq kimi ipə düzüb Keçələ boyunbağı düzəldərdilər, bayram toyları otuz gecə kəndin sümüklərini oynadırdı, ağacların əzələli budaqlarından asılan yelləncəklərdə qız-oğlan, arvad-kişi növbə ilə uçunar, ağırlığını-uğurluğunu torpağın başına tökərdilər, torpaqsa bir az da ağırlanardı, bir az da uğurlanardı, yelləncəyin qırağında ocaq tüstülənərdi, ocağın başında qorğa yeyərdilər, yumurta döyüşdürərdilər ("Batışaq?" "Batışmıram!" "Batışaq?", "İki aydı, toyuğumuza düyü yedizdirirəm ki, indi sənnən batışam?", "Onda aç ortasın..."), ocaqdan bir az aralı cavanlar güləşər, yaşlılar hakimlik eləyərdilər, çilingin səsi çilingağac oynayanların hay-küyündə it-bata düşərdi, dirədöymədən döyülüb çıxanlar kəhrizin üstündə bu axşamkı marşrutlarını planlaşdırardılar, üzüksalma hər gecə birinin evində keçirilərdi, qadınlar yuxarı, kişilər aşağı başdan bardaş qurub oturardılar, oğlanların çoxu – ədasındanmı, yoxsa həyəcandanmı, bilinmirdi – dik qalardı, ortaya iri kasa qoyardılar, kasanın ağzı yaylıqla örtülərdi, hamı üzüyünü çıxarıb kasaya salardı, növbə ilə bayatı çağırardılar (bayatıların axırı ümidlə qurtarsa, yaxşıydı), dilbilməz bir uşaq bayatı qurtarar-qurtarmaz yaylığın altından əlini kasaya salardı, kimin üzüyü çıxdı-çıxdı, nişanlısı qürbətdə (qürbət də ibarətiydi "sezondan", əsgərlikdən, türmədən, lap elə Bakıdan) olan qız, gözaltısının dədəsi onlara yendirməyən oğlan hələm-hələm üzük salmazdı ki, birdən bayatıları çoxdan çağırılmış olar, üzüksalmaya təkcə onlar yox, ərli arvadlar, nəvəli-nəticəli ixtiyar kişilər də inanardı, odu ki, bir para adamlar üzüyünün yoxluğunu ("qız taxıb aradan çıxıb", "gədə

götürüb gedib üzüksalmaya") bəhanə eləyib qapı pusardı, içəridən qanqaynadan söz eşidəndə qapını ərklə açıb ev sahibiylə hal-əhval tutar, Novruzunu qutlayar, qanqaraldan söz eşidəndə isə barmaqları üstə elə qayıdardılar ki, ev sahibi duyuq düşüb dilxor olmasın, bayram günü latayır danışdığına görə, evdəkilərin gününü göy əskiyə düyməsin, odu ki, fikirlərini dağıtmaq üçün həyətdən oğru kimi sivişib çıxıb özlərini verərdilər bayram toylarına, kəndin də başıyla ayağı bilinməzdi ha, azından beş məhlədə mağar qurulardı, qara zurnanın şadlığından hamıya pay çatardı, mağarın içi nədi, heç yüz metrliyində də aynası açıq olmayan tapmazdın, hərənin də öz havası olardı, heç kəs o birinin sifarişinə qol qaldırıb ortaya düşməzdi, eləsinə yüngülsaqqal deyərdilər, elin töhmətindən can qurtara bilməzdi, mağardakıların oynamaqdan ötrü ürəkləri də getsə, ortadakından təklif gözləyərdilər, ortadakı saqqalı ağarmış da nəbadə bacılarını oynatmış olaydı, görüm kimin hünəri vardı, yerində qurcalansın, dava düşürdü, nə düşürdü, bir də yayda gözün döyüləni axtaranda deyirdilər ki, Novruzdan adam içinə çıxmır, toylarda da ki, dava düşdü, padşahı devirirdilər, fərraş da üzüsulu istefa verirdi, səhəri gün mağarı yeni hakimiyyət idarə eləyirdi, uşaqlar papaqatdıdan gətirdikləri bayrampayını mağardaca xırıd eləyirdilər, hə, bir şeyi də xatırladım: Novruzda adamı heç kimin iti tutmurdu...

*2002*





# MƏNİM ANAM

Həmişə belə olub, həmişə belədi, belə də olacaq, deyəsən: irili-xırdalı bütün işlərimi görəndən, qayğı-qarğaşanı başımdan eləyəndən, darıxmağa və yaşamağa yol, riz, cığır, bəhanə tapmayandan sonra ONU xatırlayıram, arabir haqqında beş-on cümlə də yazıram.

O, yaza bilmir, oxuya bilmir, mənim harda işləməyimdən belə xəbərsizdi, dostlarımı tanıyır, düşmənlərimi tanımır, sınıxdığımı görür, restoranda, kafedə yeyib-içdiyimi görmür, pulsuzluğumu özünə dərd eləyir, əlimə düşəni göyə sovurduğuma görə mənə güldən ağır söz demir, qızlarının yanında da, arxasınca da kürəkənlərinin, oğlanlarının arxasınca da, yanında da gəlinlərinin tərəfini saxlayır, oğlu yerində kürəkənlərindən səksən yaşında da utanıb çəkinir, yalvarsalar da, evlərində qalmır, qalanda da səhərəcən çimir eləmir, kürəkənləri yaşda oğlanlarından hansının qapısını açsa, gəlindən oğrun, nəvədən xəlvət oğlunun kefini soruşur, qənddandan konfet soyub güclə də olsa, yedirir, başını dizi üstə alıb ağ tüklərini sayır, ağır işdən-gücdən qayıdan oğlanlarının tər qoxuyan bədənini gül kimi iyləyir, türk dilində yox, ərəb dilində yox, indiyəcən danışa bilmədiyim, amma anladığım ÖZ ANA DİLİNDƏ Tanrıya bizdən ötrü alxış eləyir, sonra qalxıb beş yol yuduğu qabı altıncı dəfə suya çəkir, ət yemir, dükan malına xor baxır, zavod çörəyinə təzə-təzə öyrəşir.

Heç elə bil bu altı uşaq bu arvadın deyil, heç elə bil ömründə ərdə olmayıb, atamızın adını ömründə dilinə gətirməz, rəhmətlik haqda bir söz soruşanda söhbəti elə ustalıqla dəyişir ki, onun yazıb-oxuya bilmədiyinə inanmaq istəmirsən, amma ötən il xırda gəlininin yanında ağzından qaçırıb ki, bəs qayınatanı yuxumda görmüşəm, gəlin də soruşub, qayınatam kimdi, arvad işini başa düşüb, yuxusunun gerisini nağıl eləməyib, ona görə susub, ona görə atamdan danışmaq istəmir ki, Qulu dədəsinin üzünü görməyib, birdən uşağın ürəyinə dəyər, özünü dost-düşmən yanında arxasız-yiyəsiz görər, sınar birdən...

Heç mən də düz 33 ildi, anamdan atamı xəbər almıram, guya yetimliyimdən xəbərim yoxdu, ana uşağı olduğumu bilmirəm. İndən sonra da anamın ürəyini qırası deyiləm, yazmağıma baxmayın, dedim axı, oxuya bilmir. Qəzeti göstərəndə də şəklimə baxıb uşaq kimi sevinir, gah şəklimi, gah da məni bağrına basır.

...Amma ilk dəfə eşidəndə ki, yazılarımı çap eləyənlər üstəlik mənə qonorar da verir, özünü saxlaya bilməyib ağlamışdı: "Camaat pul verib balasının yazısını qəzetə çıxarır, amma mənimkinin yazdığına qəzetdəkilər pul verir. Bilirəm ki..." "Yetimliyinə görə" demək istəmişdi, qəhər qoymamışdı. Qoşulmuşduq bir-birimizə...

*2002*





## "ÖZÜMƏ BİR AĞIZ LAYLA"

...Hərdən imkan tapıb Bakı şəhərinə, küçələrlə aşağı-yuxarı axan, orda-burda çiləkənləyib lilləyən adamlara, oğlan çağıran barlara, qızları yoldan eləyən, adını üzündən oxuya bilmədiyim restoranlara, asfaltın üstündə oyur-oyur oynayan xarici markalı maşınlara, papağı başdan salan villalara baxanda özümü bir ölkənin vətəndaşından çox, tamaşaçıya oxşadıram.

Elə bil, kinoteatrın bir küncündə büzüşüb hansısa bahalı filmə tamaşa eləyirəm, səhnədəkilər əl uzatsam dəyərmiş kimi yaxınlıqdadı, ancaq sən heç vaxt "kadrın içinə" adlaya bilməzsən; filmin ssenarisi elə yazılıb, rejissoru elə quruluş verib, aktyorlar elə seçilib ki, orda sənə yer yoxdu, filmə uzaqbaşı köhnəlib dəbdən və qiymətdən düşəndən, lap su qiymətinə olandan sonra "Nizami" kinoteatrında tamaşa eləyə bilərsən. O filmdə gözün bir qadını tutsa da, özünə belə etiraf etmək kişilikdən olmaz.

Çünki o xanımı indicə millətin gözü qabağında sevib qurtarıblar. O filmin ən bakir dekorasiyası da ortaya çıxanacan yüz kərə sökülüb yığılıb...

Axı bu lənətə gəlmiş həyatın naz-nemətləri hamı üçündü – kədərlə düşünürəm; – bəlkə Tanrının bölgüsündə mənim adım yoxdu? – şübhə kədərimi dağıdır. Bəs onda heç vaxt görmədiyim, böyür-başımdakıların su yolu elədiyi ərazilər, ölkələr – təzədən cin atıma minirəm – doğrudanmı, yer üzündə doğulanların hamısının alnına yer üzünü acqarına da olsa, tapdamaq qisməti yazılmayıb?! Əgər külli-Adəm övladı eyni cür sevir, darıxır, qəmlənir, etiraz eləyirsə, onda quru torpaqdan ötrü dünyanı fırlanmağın nə mənası? Bəs çaylar, göllər, şəlalələr, dənizlər, insanlar? Onların da hamısı Arazın, Göy gölün, Yardımlı şəlaləsinin, Xəzərin tayı deyilmi? Bircə baxılası okean qalır, onu da təsəvvür eləməyin çox asan çəmi var: Xəzəri ona, on beşə vurursan, olur Hind okeanı. Ya da Xəzəri qoyuram bir qırağa, özümdən bir obraz quraşdırıram. Fransız şairi

Bodler kimi. Ömründə okean görməsə də, albatros quşunu elə ustalıqla nəzmə çəkib ki, müəllif bir tərəfə, oxuyan özünü okean səyyahına oxşadır.

Yaxşı ki, düşüncə var, insan təsəvvürünün imkanları hüdudsuzdu. Xəyalında yaratdığın aləm real dünyaya alternativ olsa da, özün üçün doyunca gəzə, dolaşa, tamaşa eləyə bilirsən. Xoş o adamın halına ki, "xəyal-plov"dan doymaya, yalançı dünyasından qopub ayrılmaya, haman şəxs qələmə sarılır.

Yazı – özünün olmadığın yerləri oxucunun əlindən tutub qarış-qarış gəzdirməkdi, xəyalın xoşbəxtliyindən özgələrinə gerçəkdən pay ayırmaqdı, dünyanın daxılına öz saxta sikkələrini soxuşdurmaqdı, səndən həyatın naz-nemətini əsirgəyən taledən əvəz çıxmaqdı... hər nədisə, ona Allahın var-dövləti başından tökdüklərinin də ehtiyacı var. Yazı – xilas yolu deyil, xilas yollarından vur-tut biridi, ondan əvvəl düşüncə gəlir, təsəvvür gəlir. O birilərinin adını bilmirəm, yuxunu çıxmaq şərtiylə.

Yuxu günahsızları uçurur, günahkarların ayağından daş asır. Onun pisini tərsinə yozurlar, yaxşısından ayrılmaq istəmirlər. Yuxu arzuya aparan ən qısa yoldu, bu dünyada ata-anadan, sevgidən, Vətəndən də çox, ən çox sənin özünün olanındı. Bir az düşüncəyə, bir az xəyala, bir az təsəvvürə bənzəri var, amma analoqu yoxdu. Düşüncə daralır, xəyal itir, yazı solur, yuxusa dağılmır. Dünyanı gerçəkdən, xəyalən, yazıda, lap elə yuxuda gəzib dolaşanlar da axırı əbədi yuxuya gedirlər.

Adamları yuyub basdırınca, basdırıb yusaydılar, bəlkə də diksinib ayılanı olardı...

*2002*





## BUNU DA YAZIRAM AKİF SƏMƏDİN SAĞLIĞINA!

Lənətə gələsiz hamınız! Səni deyirəm – Elçin, səni deyirəm – Mahir, səni deyirəm – Qulu, səni deyirəm... o gün "Ulduz"da nə qədər adam vardı, hamınızı lənətə gələsiz! Demə, heç biriniz bel bağlanası kişilər deyilmişsiniz! Bu qədər dostun içində Əzrayıl adama əl qaldıra bilərmiş...

Çoxdan görmürdüm Akifi. Bir az saralmışdı, arıqlamışdı, amma qocalıb eləməmişdi. Bəlkə də qocalmağa yeri yoxuydu. Qapının ağzında ağır-ağır salamlaşdı, hal-əhval tutdu, kitabını bağışladı, sonra içəri keçib avtoqraf yazdı: "Akif Səməddən Qulu Ağsəsə ürəklə...". Gözümün ucuyla baxdım, görüm nə yazıb. "Ürəklə" sözü xoşuma gəldi. Amma ondan jurnal üçün yazını bir az ürəksiz istədim, açığı. Fikirləşdim, birdən qayıdıb deyər ki: "Ayə, hələ bir çıxarın görüm, nə çıxarırsız". Ondan sonra dilxorçuluq olsaydı, nə mən geri duranıydım, nə də Akif. Dalaşıb-döyüşüb axırı gedib bir yanda "düşmənlərin" sağlığına içəsiydik. Yəni öz sağlığımıza. Mənsə bunu heç istəmirdim. İçməklə qurtarmışam. Qoy qonşular da məndən ibrət götürsünlər...

Haqqüçünə, Akif o saatca razılaşdı, dedi, ikinci gün mənə yazı gətirəcək.

"Nə yazı? Şeir, yoxsa?.."

"Neynəyirsən, yaxşı yazıdı".

Deməli, bizim "Ulduz" xoşuna gəlib, intəhası məni tərifləmək istəmir ki, birdən onu ziyana salaram. Ay Allah, bəlkə Akif də daha içmək istəmirmiş?!

Bir azdan "Natəvan"da hansısa qazaxlı şairin yubileyini aparıb, ona uzun ömür arzulayıb, sonra aşağı enib və Yazıçılar Birliyinin qabağındaca keçinib. Son sözü bu olub: "Məni tutun, gözlərim qaralır..."

Axşam işdən çıxanda gördüm Yazıçılar Birliyi ilə üzbəüz Sahil bağında qələbəlikdi, "təcili yardım" dayanıb. Elə bildim, maşın toqquşub. Baxmağa qorxdum. On addım getməmiş Mahir Mehdi özünü yetirdi: "Qaqa, Akif Səmədlə... Əzrayıl... bağda..."

...İkinci gün Akif Səməd yazılarını gətirdi. Oxudum, xoşuma gəldi. Qonaqlığını görəndə verəcəm.





## AY MAESTRO!..

*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Qulu Ağsəsindi*

Azərbaycanın işıq stansiyasının bir fazası da qapandı. Tofiq Quliyev əlini pianonun çiynindən götürdü, notları elə düzdü ki, bu dəfə sükut nəğməsi çalındı, sonuncu papirosunu külü yaxasına tökülənə qədər sümürüb, tüstünü ilk dəfə ciyərlərində dustaq elədi. Mahnılarından oğul evləndirib qız köçürən yarımış ata kimi arxayın getdi. Getdi torpağın kürəyinə kürək verməyə, layların laylasına uyumağa getdi, qocalıqla barışdı – getdi, ruhlara qarışdı – getdi, belə canım sizə desin, canını götürüb getdi, canı yanımızda getdi, qəbiristandan qayıdanda canı yanımızda qayıtdı. Canı... mahnılarıdı ustadın! Allah öz verdiyini alır, bəndəsinin halal qazancına dəymir. Tofiq Quliyev musiqisi belə baxanda kinodu, zənnlə diqqət yetirəndə rəsmdi, bütün xanalarını açıb-ağardanda (ay bacardın ha!) hikmət evidi, lap əldən-ayaqdan getsən, görərsən ki... "Onu mən də görməmişəm. O, səsdi"...

Tofiq Quliyev musiqisi halal musiqidi, haqqı nahaqqa verməyəndi, ona görə öz halal haqqını alıb.

Südü təmizdi – İnanmırsız, maestronun istənilən mahnısını zümzümə eləyin, ağzınızdan ana südünün qoxusu gələcək.

Suyu şirindi – 60 ildi dadı damağımızdan getmir.

Can məlhəmidi – Odey Mirzə Babayevi qocalmağa qoymur. Yiyəsini ölməyə qoymayan kimi...

Tofiq Quliyev musiqisi monumentaldı, nəhəngdi, caynaqlıdı – ona görə əli hər yana çatır.

Bir suyu cıdır atına çəkib – üzəngisinə hər adam ayaq basammaz, ram eləyənin ayağını son mənziləcən yerdən üzməz. Tofiq Quliyevə

Qərb bəstəkarı demək olmaz – Şərqdən ayıbdı, Şərq bəstəkarı demək olmaz – Şimal inciyər, heç Şimal bəstəkarı da ona yaraşmır – bəs Cənub?! Ustad hər cəhətdən ustaddı və bütün cəhətlərin kompozitorudu.

...Biz dədəmizi öldürüb goruna and içən xalqıq. Amma maestronun ölümündə heç kimin əli yoxdu. Ola bilsin, son vaxlar ağsaqqala bir az etinasız olmuşuq. Neyniyək, başımız musiqiyə qarışıb.

"Musiqisi Tofiq Quliyevindi"...





## RƏMİŞİN NƏŞƏSİ

*Onu Moskva milisi uydurmayıb,*
*o, Moskva milisini uydurub*

Həyat gözəldi, deyirlər. Allahın altında bu çeynənmiş həqiqəti hansısa ölmüş adamın dilindən eşidəydim. Bəlkə də orda, torpağın zibilqabını xatırladan, cəsədlərimizin iylənib çürüdüyü qəbir evində başqa fikirdədilər: Ölmək gözəldi. Bilmirəm... Bildiyim odur ki, adam hər yerdə gözəllik axtarır, nəşə gəzir...

Məni bu soyuq qış günündə yazmağa vadar eləyən də məhz nəşədi. Hərçənd küləyin yumurta qoyub bala çıxardığı on üçüncü mərtəbədə nəşələnməyə hər gün imkan var: bərabərindən süzüb gedən təyyarəyə əl eləməklə, ayağını buludlara sallamaqla... Ancaq məni nəşələndirib varağa çıxaran Rəmişdən eşitdiyim "şok" xəbərdi – gitaraçını Moskvada milis saxlayıb. Özü də nəşə üstündə!

Mən Rəmişi ildən çoxdu görmürəm. Moskvada olduğundan da hamıdan gec xəbər tutmuşam. Halbuki... dostuq. Gitaraçını görməsəm də, necə tutulduğunu təxmin eləyirəm.

Deməli, belə: Moskva milisi hansısa kafenin qabağında var-gəl eləyir. Elə-belə, bekarçılıqdan. Növbəsini təhvil verməyə lap az qalıb. Serjant Aleksandr İvanovun 27 yaşı var. Atası qaraciyər serrozundan vəfat eləyib. Anası xarkovlu qaynaqçıyla yaşayır. Saşa atalığıyla yola getmədiyindən evdən qovulub. Xidmət elədiyi ərazidəki yaşlı tumsatan arvadın qoltuğuna sığınıb. Axşamlar Nadejda Vasilyevna ona tum təmizlədir. Söyüşün də biri bir qəpik. Səhərlər isə serjant İvanov Nadejdanın tum satdığı ərazidən keçəndə zopasını işə salır, arvadın yumşaq yerini və tum bankasını... Bəs necə? Qanun qarşısında hamı bərabərdi! Moskva kimi əzəmətli şəhərdə küçə alveri eləmək olmaz. Olsaydı, Saşanın milisdə nə azarı vardı? Elə tum satardı da!

Axşam serjant zərərçəkənin könlünü necə alır, bu, artıq başqa söhbətdi. Düzünü deyim ki, fantaziyamın əli uzundu, istəsəm, Aleksandrla Nadejdanın intim həyatından dastan bağlayaram. Ancaq qorxuram millətçilər məni düzgün başa düşməsinlər. Həm də serjant olanda nə olar, bədbəxti bayaqdan qoymuşam "ərəseyin düzündə",

yəni kafenin qabağında. İçəridən vur-tut öpüş və sağlıq səsləri gəlir. Birdən səs dəyişir. İvanov diksinir. A-ha! Kafedə nəsə baş verir. Əlinə bir şey keçirə bilsə, axşam Nadejdanı evdə də çırpacaq. Puluna minnət. Qapını ehmalca aralayıb baxır. Gözünə şübhəli heç nə dəymir. İçəri adlayır. Əla! Heç ona fikir verən də yoxdur. Hamı səsə tərəf baxır. Yox, bu, gitara ola bilməz. Bəs onda küncdə oturan uzunsaç kişinin əlindəki nədi? Yox, kimdi? Axı, gitara adam kimi danışa, gülə, ağlaya bilməz. Saşa azmı konsertlərdə olub? Gitaramı görməyib? Bəlkə Nadejda Vasilyevna onu sürüyə-sürüyə diskotekalara aparmayıb? Hələ çalanın gözlərinə bax. Yüz faiz nəşəlidi.

Deməli belə: Moskva milisi Rəmişdən nəşəli olub-olmadığını soruşub və "hə" cavabı alıb. İnandırıram sizi, İvanov həmin gün həmin kafenin daşından-divarından da nəşəli olduğunu xəbər alsa, ona "yox" deməzdilər.

Rəmişin bütün ömrü nəşədi. Rəmişin nəşəsini Moskva milisi uydurmayıb. Rəmişin nəşəsi Moskva milisini uydurub.

Bir ildi Azərbaycan ələm içindədi. Arabir Qədirin, Alimin səsinə nəşələnirik. Bir ildi Rəmişin yolunu gözləyirik. Gözləyirik ki, gəlib bizə nəşə versin. Rəmişin nəşəsi cibində deyil, onu tutmaqla tərksilah eləmək olmaz. Rəmişin "nəşə plantasiyası" görmədiyimiz yerdədi. Biz ancaq onun "makleriylə" alver eləyirik. O "maklerin" adı gitaradı. Qanunla Moskva milisi gitaranı damlamalıydı. Çünki nəşənin iyi gitaradan gəlib. O ki qaldı gitaradan Rəmişin iyi gəlməyinə... Hə, bax, bu maddəylə Rəmişə ömürlük iş də vermək mümkündü. Ancaq bir şərtlə: əvvəlcə gərək dünyanın bütün gitaraçalanları... sənətlərindən istefa versinlər – Rəmişin xeyrinə.

Bir də onu başa düşmürəm ki, bu ruslar haçandan belə intizamlı olublar? Nəşəyə belə pis baxırlarsa, bəs 70 il bizi necə "nəşə içində" saxlayıblar? Rusiyada azərbaycanlıları soymaq üçün ciblərinə iki gündən bir nəşə atan da bəlkə Rəmişdi? Sarsaq suallardı, eləmi?

Bizə sual yox, cavab vermək lazımdı. Cavabısa Rəmiş gitarasıyla verib. Deyilənə görə, onu dindirən polislərin heç birinin başı üstündə durmur...

*2003*





## SİNİFDƏNXARİC OXU

Bəri başdan xəbərdarlıq eləyirəm:

Kamal Abdullanın "Tarixsiz gündəlik" kitabını oxumayan, oxuyub da bəyənməyən adamlar üçün deyil bu yazı.

Getməyə yer tapmayanda "mənim vətənim – mənim uşaqlığımdı" (Ç.Aytmatov) deyənlərdən ötrüdü.

İnsan bütün ömrü boyu qazandığı bilginin 80 faizinə 5 yaşınacan (!) vaqif olur – hikmətinin qabağında susanlardan yanadı.

Dünəni olanların, dünənə dönməyi bacaranlaran şəninədi.

Məktəbli şair Mirzə Nazimin adınadı.

Bəli, bir belədi bu yazı. Rus dili müəlliməsi Mariya Semyonovnanın həqiqəti boyda: "Nə azdı, nə çox – nədisə, odu"...

Bakının 190 saylı məktəbində oxumuş, şeirləri ilə öz çevrəsində Mirzə Nazim ləqəbi qazanmış, hətta çox qısa ömründə televiziyada şeir oxumağa macal tapmış və amansız xəstəlik üzündən 10-cu sinfi bitirməyə imkan bulmamış bir oğlan danışır "Tarixsiz gündəlik"də. O dillənəndə hamı susur. Sinif yoldaşları: Aslan, Azər, gözəllər gözəli Qənirə, Arzu, Şərqiyyə müəllimə, Zərbəli müəllim, guya hamıdan xəlvəti sevdiyi Firəngiz... O özü də hər axşam susur. Düz saat 9-da! Firəngiz zəng vuranda! Amma bu sükutun içində də ən çox danışan odu – məktəbli şair Mirzə Nazim. Bir gün o susacaq. Bax onda hamı danışacaq: sinif yoldaşları Aslan, Azər, gözəllər gözəli Qənirə, Arzu, Şərqiyyə müəllimə, Zərbəli müəllim, guya hamıdan xəlvət sevdiyi Firəngiz, ata-anası, bacısı... Yasında qəmlənəcəklər, ağlayacaqlar... onları təzədən, o dünyadan görməyə gələn ürəyi quş kimi uçub məhəccərə qonacaq... bu vaxt ən doğma adamı özünü ovutmaq üçün göz yaşını silə-silə eyvana çıxacaq... görəcək ki, məhəccərə balaca, ürək boyda bir quş qonub... əliylə o quşu qovub uçuracaq...

Bütün bunlar bir azdan olacaq, lap tezliklə. Hələlik Nazim sağdı: oxuyur, sevir, şeir yazır, şatalçılara qoşulub dərsdən qaçır, az qala hər

ay xəstəxanada müalicə olunur, sinif yoldaşlarının inşa yazılarını yoxlayıb qiymət verir, şatalçıların Sabirin heykəlinin böyür-başında, qala divarlarının hansısa daşının altında, ya da yanında gizlətdikləri qəşəng, xarici siqaretdən çəkir, kiminsə sirrindən ondan xəbərsiz agah olur, "şairəm, çünki vəzifəm budu... ənam alım" atmacalarına gah dözür, gah da yumruq davasına çıxır, hər tədbirdə təzə şeir sifarişi qəbul eləyir, misraları əvvəl xoşluqla çağırır, canına yazığı gələn özünə qamçı vurdurmur, qaçıb gizlənəni qulağından tutub dördlüyün içinə atır, riyaziyyatdan axsayır, Henrix Heynenin yaradıcılığı ilə öz yazıları arasında paralellər axtarır, hamı onu gələcəyin böyük şairi saysa da, o, "həyat dalğadı, hara aparar-aparar" düşüncəsiylə hərdən arzuların ağzını boza verir və günlərin bir günü özündən sonra bir qalaq şeir, bir də "Tarixsiz gündəlik" əmanət qoyub bu dünyadan gedir... Az qala sufi hekayətindəki kimi. Sufi "istəsəm, ölərəm" deyir və ölür... Amma Mirzə Nazim o şeirlərin dalınca qayıdacaq, əvvəl universitetə girəcək, sonra aspiranturaya, ən cavan filologiya elmləri namizədi adını ən qoca kişidən – Dədə Qorquddan alacaq, bir vaxtlar Zərbəli müəllimin köməyi ilə bircə şeir oxuduğu televiziyada veriliş aparacaq, sonra esseistika, sonra doktorluq, dramaturgiya, tərcümə, nəsr və yenidən poeziya... Bu dəfə hamısı bir yerdə – bir SİNİF kimi...

Görəsən, Firəngiz bilirmi Nazimin sağ olduğunu? "Böyük adam olanda bizi (yəni: məni) unutma" – deyərdi Nazimə. Maraqlıdı, onlardan kim kimi unudub?.. Bunları bilməsək də olar. Amma hörmətli Kamal Abdulladan bir xahişim var: Mirzə Nazimin dostlarının siqaret gizlətdikləri qala divarlarının oyuğuna hərdən bir-iki paçka "Kent" alıb qoyun. Həm 190 saylı məktəbin indiki şatalçıları çəksinlər, həm də (və ən başlıcası!) köhnə xatirələrə güvə düşməsin...





## İSİ MƏLİKZADƏNİ ANIM

Bilmirəm, bu ölkədə İsi Məlikzadəni tanıyan var, ya yox? İsi müəllim populyar olmayan çox istedadlı yazıçıdı. Bunu Əkrəm Əylisli bilir, Anar bilir, Vaqif Səmədoğlu... bilir, amma onların çoxsaylı oxucuları bilmir. İndi haqq dünyasında olan İ. Məlikzadənin gözəl bir əsəri təzəcə çap olunmuşdu, ədəbi mühitin bir müddət dilindən düşməyən "Quyu" povestini deyirəm. Rəhmətlik hələ şöhrətinin artezian kimi fantan vuran vaxtları yollanır Ağcabədiyə. Rayonun böyüklərindən biri İsi müəllimlə bu səfər çox ifallı görüşür, ona öz qulluğunu təklif edir, üstündən qayıdıb deyir ki, bəs deməyəsən xəbərimiz yoxdu, Bakıda çox gözəl bir məqalən çıxıb, özü də kənkanlardan yazmısan – sadə peşə adamlarından, gün o gün olsun bizdən də elə bir zarisovka yazasan. Hesabı içəri verən yazıçı katiblə razılaşır, ona təşəkkür edir və raykomun binasından çıxır. Ürəyində "ay Qarabağ camaatı, görən heç yazmasam, məni kimə oxşadarsız?" – deyir. Daxilən həddən artıq həssas olan İsi müəllim sonralar bu olayı tez-tez zarafatla xatırlayıb gülərdi və mən yüz faiz əminiydim ki, İsi müəllim... sınıb, hadisə ona möhkəm yer eləyib.

İsi Məlikzadə ölümündən bir gün qabaq radioya gəlmişdi. Hamıyla salamlaşdı, tanışları doladı, pyesinin qonorarını alıb getdi və... səhəri ölüm xəbərini eşitdik. Yadıma yazıçının "Varyete" və "Yaşasın demokratiya" kimi son klassik hekayələri düşdü, anladım ki, söz adamı ölmür, redaksiyaya yazı gətirən istedadlı və abırlı müəllif kimi əlyazmalarını ərmağan qoyub uzaqlaşır. Amma o yazılar ləyaqətli naşirin gözündən heç vaxt yayınmır...

...Elə bu fikirdəykən şöbənin – mən o vaxtlar radionun ədəbiyyat redaksiyasında işləyirdim – qapısı açıldı, içəri təpilən bazburutlu bir kişi: "Sizə poema gətirmişəm – dedi – içində şeir də var..." Qeyri-ixtiyari gözlərim yaşardı, ağlıma gəldi ki, İsi Məlikzadəni Ağcabədidə məhz JURNALİST kimi dəfn edəcəklər...

*Avqust, 1999*

# MƏMMƏD NAZİMOĞLUNUN SON ZARAFATI

"...Bax, mən öləndə adam kimi yazı yazarsan. Birinci cümlə: Məmməd Nazimoğlu 1959-cu ildə doğulub. "Görkəmli jurnalist" sözü baxır sənin mərifətinə. Jurnalistikanı bitirib. Müxtəlif mətbu orqanlarda çalışıb. Filanıncı ildə... o söz! Dörd cümləni yadda saxlamağa nə var?! Dalısını ürəyin istəyən kimi döşə. Əvvəl camaat bilsin ki, mən... o söz. Yoxsa nədi ağlına gələni yazmısan? Belə də yubiley yazısı olar? Redaktənin kötüyü, ironiyanın cərimə meydanı... İndi xalq nə bilsin, mənim qırx yaşımdı?"

Doqquz il əvvəl – qırx yaşı tamam olan ərəfədə mənə iki "kulok" tum aldı, "bilirəm – dedi – şairlərin maddi durumu ağırdı, ye, əmələ gəl, qırxım çıxır, bir dənə yazı guppuldat, ürəyimə yatsa, səni Azər Hüseynbalaya tapşıracam". Onda bir yerdə işləyirdik – Məmməd, Hüseyn Əfəndi, Zöhrab Əmirxanlı, Qurban Yaquboğlu – Azər Hüseynbalanın baş redaktor olduğu "Şans" qəzetində. Məmməd həmin binada əvvəl "Aydınlıq" qəzetini çıxarmışdı, sonra "Nizami" kinoteatrının o üzünə – "Xalq qəzeti"nə adladı, illər ötdü, yenə geri qayıtdı, həmin binaya, amma bu dəfə "Şans"a. İşdə məni Zeynalov çağırırdı: "Bura səninçün telestudiya deyil, "Şans"dı, ciddi yerdi, familyayla işləməlisən". Yazılarına durğu işarəsi qoymurdu, o, bunu mənasız iş sayırdı, nə səhv olsa, ədəbi redaktorun (mənim) boynuna atırdı. "Mən mübarizə adamıyam, nöqtə-vergül yox. Kimnən mübarizə apardığım heç kəsə borc deyil. Jurnalistlərə sirr açmaq olar? Özü də bizim rayonda durğu işarəsi keçmirlər. Adil Mirseyiddi, mənəm". Mən siyahını uzadırdım: "Habil Əliyevdi. O da kamançanı nöqtə-vergülsüz çalır". Hirslənirdi: "Səninki vergüldü, mənimki vergidi..."

O, yarımçıq ömrünü də bütünlüklə nöqtə-vergülsüz, amma vergili yaşadı. Dostlarının yanında dil qəfəsə qoymazdı, qıraq yerdə səsini





eşitməzdin. Bütün ömrü boyu içindəki hansısa gizli və daimi kədəri ovutmağa, gizlətməyə, bəzən də güldürməyə can atdı. Əslində o, mənim tanıdığım tək-tük kədərli adamlardanıydı – Eldar Baxış kimi, Hüseyn Əfəndi kimi. Üçü də 49 yaşında (!) dünyadan köçdü.

Onu deyirdim axı – doqquz il qabaq bu təkrarsız publisistin, satirikin bir kəlamı dillər əzbəri olmuşdu: "Getdik eyyy". Eldar – Hüseyn – Məmməd üçü də birdən, birdən yox ey, bir yaşdan getdi.

Məni tale şairi adlandırırdı, adəti üzrə stolun üstdəki əşyalara and içirdi ki, Ağsəs imzasıyla ancaq şeir yazmaq olar. "Özü də sənin mən boyda dayağın var. Gündüz məni danışdırıb faktları toplayırsan, axşam nəzmə çəkirsən".

Məmməd – məktəbiydi, binası, qapısı, pəncərəsi, lövhəsi, zəngi, stol-stulu olmayan məktəb. Onun nə qədər tələbəsi vardı! Birinci tövsiyəsi bu olardı: "Dumbadze yazır ki, uşaq vaxtı falçı demişdi mən Amerikanı görəcəm. Budur, mən Amerikadayam. Vsyo, yazı oxundu! Birinci cümləni istedadla qur, gerisi yaxşı olacaq. Sözdən qorxma". Sonra nələrdənsə danışırdı, uşağı su dalınca yollayırdı, bir də görürdün jurnalist hazırdı.

Onu deyirdim axı – Nazimoğlu şəkər tapmışdı son illər. Günahı nədə görsə, yaxşıdı – İlqar Həsənovla Zöhrab Əmirxanlıya salam verməkdə: "Zəhrimar keçiciymiş, bilməmişəm, çalış, mənə salam vermə, ilişərsən".

Bir yol da Ramiz Əsgər Məmmədə zəng vurub ki, ona "VİCEROY", bir də dönər alıb göndərsin. Çünki otaqdan çıxa bilmir, həm də pulu yoxdu. Məmməd də dostunun dediyini eləyib, yəni alıb göndərib, dalınca da telefonla soruşub ki, bazarın günü Jurnalistlər Birliyində nə itiyin azıb? Ramiz müəllim deyib, bəs "Şərq milyonçusu ilə Qərb milyonçusu arasında prinsipial fərqlər" adlı məqalə yazıram. Məmməd müəllim danışanda özü gülməzdi, amma bu əhvalatı nağıl eləyəndə dodağı qaçardı.

Onu da deyim, yaddan çıxmasın: Ramiz Əsgər həqiqətən milyonçu çıxdı, Nazimoğlunu Türkiyədə müayinə elətdirdi, Bakıya ümidlə qaytardı, son mənziləcən böyründən o yana durmadı.

Onu da deyim, qurtaraq: Məmməd Nazimoğlu ömründə bircə yol yersiz zarafat elədi – həyatıyla, dostlarıyla, ailəsiylə, jurnalistikayla, onu sevənlərlə. Çox pis zarafat elədi. Belə zarafata ancaq düşmən gülər.

Ta onu demirəm ki, Məmməd Nazimoğlunun bu zarafatına düşmən də gülmədi...

***P.S.*** Talenin oyununa bax, Məmmədin ölüm xəbərini APA-ya mən verəsi oldum. Amma dörd yox, bircə cümlə ilə: Məmməd Nazimoğlu... o söz.

*2008*





## "ADLERDƏ BİR KÖRPÜ VAR": KEÇİLƏSİ...

– Sabahkı nömrədə təkzib ver! Uşaqlarımın sayını səhv yazmışam...

Bir kəlmə də artırıb-əskiltmirəm, iki-üç il qabaq gündəlik qəzetlərdən birini redaktə eləyirdim, az qala, iyirmiyə yaxın ziyalı mənim xahişimlə qəzetimizə köşə yazırdı, onların çoxu yavaş-yavaş qələmin başını buraxdı, o isə köşə əvəzinə səhifə aparmağa başladı, qəzetin və özünün tirajını artırdı, tezliklə münasibətlərimiz dostluğa çevrildi (düzdü, abi – ?!) və... birdən-birə təkzib davası...

Onu öncə "Şəhərimiz ayaq açır" şeirlər kitabından tanımışam – qiyabi, əvvəl kitabı əlimə alanda adını yanlış oxudum: "Şəhərimiz aya qaçır". "Şəhəri aya qaçan" şairin bir şeiri əlini irəli uzadıb dedi: "Gəlin tanış olaq, Tofiq Abdinəm". Mən o şeirin əlini ərklə sıxdım...

Növbəti tanışlığa səbəb Bəşir Səfəroğludan yazdığı sənət hekayəti oldu; o hekayətin içindəki bir cümlə (bu dəfə mənim adımı xəbər almaq əvəzinə) məndən görkəmli aktyorun soyadını soruşurdu: "Bəşir Səfəroğlunun famili nədi?". "Bilmirəm – dedim – ağlıma gəlməyib öyrənim"...

Sonra – 1990-cı ilin bir yaz günü onu "Avrora" metrosuna enən gördüm: saçları gözünün üstündə, çiyni sumkalı, ədası havanı cıza-cıza. O, mənimlə pilləkəndə rastlaşanda elə bildim salam verəcək, hər ehtimala qarşı, sağ əlimi cibimdən çıxardım da...

Bir də gördüm, mənə faks çəkib, "Qobustan" dərgisinin suallarına cavab istəyir. Yazdım...

Bir də gördüm, onu qəzetimizlə əməkdaşlığa çağırıram. Hay verdi...

Bir də gördüm, evdə arxivi eşələyirəm. "Ulduz" jurnalının 20 il qabaqkı saylarının birində çap olunmuş "Adlerdə bir körpü var" povesti girimə keçdi. Bay, heç bu tanışlıq yadımdan çıxıb ki!.. O, bu

povesti necə yazıb – bilmirdim, ancaq mən sevə-sevə və qırıla-qırıla oxumuşdum.

Sonralar biləcəkdim ki, povest qırıq-qırıq çap olunub və bəlkə də mənim qırıla-qırıla oxumağım bundanıymış. Əsər xoşuma gəlmişdi, bu öz yerində. Ancaq mənə ən çox yer eləyən (sevilən) Qızın povestin axırında (sevdiyi) Oğlanı tanımamağıydı.

Bunindən bir misal: Rus yazıçısının qəhrəmanı, Piterdə təhsil alan Oğlan kəndlərinə tətilə gələndə (əri atıb getmiş) bir Gəlini qaralayır, onu sevir, vüsalına çatanda Gəlin Oğlandan Piterdə çoşkanın qiymətini soruşur və Oğlan intihar edir.

Yaxşı ki, "Adlerdə bir körpü var" povestində Oğlan özünə qıymır, bəlkə də onu atan Qız kafər balası olmasaydı, faciəli final qaçılmazıydı. Bir də müəllif Oğlanı necə öldürə bilərdi ki, Oğlan bəlkə də müəllifin özüydü? O müəllifin ki, Allaha şükür, oğlu-qızı, arvadı, işi-gücü, yeyib-içməyə iştahı və arxa cibində də bir ətək pulu...

Sonra biz Tofiq Abdinlə birlikdə işlədik, özü də "Ulduz" dərgisində. "Adlerdə bir körpü var" əsərinin bütöv, redaktəsiz variantını mənə təqdim elədi. Oxudum, baxdım ki, "Ulduz"un o vaxtkı rəhbərliyi əsəri xeyli qayçılayıbmış, amma heç Tofiq müəllim də onlardan geri qalmayıb – həqiqəti budamaqda, sözü açıq deməməkdə, obrazların arxasında gizlənməkdə...

"Adlerdə bir körpü var" – bir eşq hekayətidi, XX əsrin 70-ci illərinə gəlib çata bilmiş Əsli və Kərəmin Xutor gecəqondusunda çıxardığı pəstahaların gizli və həvəskar kamerayla çəkilmiş görüntüləridi. Səhifələri çevirin, özünüz tamaşa eləyin.

Bu əsər mənə tam aydındı. Mənə aydın olmayan bir məsələdi: "Adlerdə bir körpü var" povestindəki Oğlanla Qızın neçə aylıq yuxusuz gecələrindən, heç olmasa, bir nişanə qalıb, ya yox?..

Ancaq bunu kimdən soruşasan? Zatən şair Tofiq Abdinin hesabdan zəifliyi yazının əvvəlindən də bəlli...





## TAM-dan ZƏRRƏLƏR

Atası Məhərrəm kişi səhər saat neçədə qalxıb traktorunu işə salırdısa, özü də eyni vaxtda oyanıb kompüteri "xodduyur". Onun üçün yazıya gəlməyən söz yoxdu; çaynikdən süzülən çay deyil ki, çayxanada danışılan qiybət deyil ki, hər gün evdən işə, işdən Tofiq Mahmudov adına "Əzizbəyov" kafesinə, ordan da göyün doqquzuncu qatındakı mənzilə qət elədiyi məsafə deyil ki... Sözdü. Söz! Yeriyir-yazır, dayanır-yazır, yazır-yazır, yazmır-yenə yazır. Xalq yazıçısı vermirlər, vermirlər ona, heç olmasa, əməkdar yazıçı fəxri adı versinlər, nolar! Sən allah, bu ad məsələsini qatlayıb qoyaq bir qırağa, yoxsa dilxorçuluq olacaq. Onsuz da bu kişininki – ad sarıdan ha! – heç gətirmir.

Özü də xırda-para yox, TAM gətirmir.

Amma o, ədəbiyyata təzə bir tam gətirib.

O TAM-ın bir adı da elə onun öz adıdı: Tofiq Abdin Məhərrəmoğlu.

Bu istidə məni öldürür ki, yazı yaz. Dedim, yazaram, lap elə səndən yazaram. Deyim, niyə az yazıram, abi? Bizdə bir çoban Həsən vardı, Allah ona qəni-qəni rəhmət eləsin, ömründə dağdan arana enməmişdi. Qaçqınlıqda Bakıya pənah gətirdi. Balalarından yeganə xahişi o olub ki, ona Xəzəri göstərsinlər. Gəlib dərya kənarına, məələ yığışmış mal-qara kimi yatışan dalğalara baxıb-baxıb, nəsə ağlı bir şey kəsməyib bu Xəzər deyiləndən, üzünü balalarına tutub:

– İnandığımız haqqı, bir belə su ömründə içməli olmaz – deyib.

Çoban olanda nolar, rus filosofu Berdyayev ağılda, çəkidə söz deyib kişi.

Yadındadı, abi, dostlarımızdan biri gecə-gündüz nəsə yazırdı, yazırdı, axırı təzyiqi düşdü, ürəyi qısıldı, üstünə "təcili yardım" çağırdılar. Həkim ona bilirsən də nə diaqnoz qoydu:

– Hamısı yazmaqdandı. – Sonra xəstəliyin dərmanını da dedi:

– Yazma!

Canım abi, koridorlarda sülənən "səyyar valyutadəyişmə məntəqələri" də indi gecə-gündüz kitab bağlayır, axırı kompüter sönür, işıq ehtiyatı azuqə kimi qurtarır, kağız qəhətə çıxır, onda cumurlar divara, ələm və nəşə yoldaşlarının ünvanına adlarına layiq iftiralar cızırlar, hansısa ədəbiyyat qazından ötrü küçə döyüşlərində əllərini namuslu sözün qanına batırırlar, sonra həmin əllə sənə salam verirlər, səsini çıxarmasan, səni qucaqlayıb öpürlər də! Tfu! İndi gəl bu murdar əllə qələm götür, yox, mənlik deyil bu, kompüterlə yazmaq başqa məsələ, sən ona görə yazmaya bilmirsən, daha doğrusu, yaza bilirsən – bu qədər iyrənclikləri görə-görə.

Son kitabın – "Ah, İstanbul, İstanbul" "1989-cu ildə İstanbulu yuxuda gördüm" epiqrafıyla başlayır. Tale elə gətirdi ki, sonralar uzun illər yaşadın İstanbulda: "Vətən səndən, sən Vətəndən keçə-keçə yaşadın". Türkiyədə qələmə aldıqların oyatmadı İstanbulu, əvəzində İstanbul sənin özünü yuxuya verdi. "Ortaq türkcə" deyilən bir yuxuya. Ah, Tofiq Abdin, Tofiq Abdin!.. İstanbulun yaxası açıq, amma o, səni yaxasından içəri buraxmaz!

Birinci bölümün çox gözəl, "Mühacirlik... Mühacirlər... Və sairə" – də tanıtdıqlarını səndən özgə kimsə bu cür tanıdammaz! Mühacirlərlə söhbətlərində müəllif müdaxilələri (bağışla ki, bu sözün ortaq türkcəsini tapa bilmədim) heyrətamiz dərəcədə gözəldi. Bu sözü mənim dilimdən eşitmək sənin üçün xoşdusa, bir daha təkrar eləyirəm: Gözəldi! Heyrətamiz dərəcədə! Amma icazə ver, təəssüfümü də qatım bu komplimentin içinə: "azəri türkcəsi" nə deməkdi axı? Sən ki fars deyilsən!.. Ərdəbillisən, türksən, türkoloqsan. Azərbaycan türkcəsi – vəssalam. Kitabına bircə iradım var, o da bu. Korrektura səhvlərinəsə fikir vermədim, tapşırdığın kimi. Diqqətimi çəkən bir də, bilirsən, nə oldu? Nazim Hikmətə sonsuz sevgin, İsa İsmayılzadə, Eldar Baxış, Ağamalı Sadiq Əfəndiyə qürbət ağıların...

Bunlara görə sağ ol! Dirilərin və ölülərin adından sənə təşəkkürlər. ...İstanbul yuxudan ayılsa, səni səhər yeməyinə dəvət eləyəcək bu kitaba görə. Məni də özünlə aparmağı unutma. Danışdıq?!

*2005*





## HƏR GÜN – QİSAS, HƏR YER – XOCALI!

Ötən ay Az.TV-nin reportyoru Fəvvarələr bağında səyyar sorğu keçirirdi; "Sizcə, 20 yanvar hadisəsi neçənci ildə olub və faciəni kimlər törədib?" sualına milli qeyrətləri böyürlərindəki fəvvarədən də bərk fontan vuran azərbaycanlılar ən müxtəlif cavablar verirdilər: "Məncə, 88-də", "Deyəsən, ermənilər törədib", "Gərək ki, olub belə şey". Kəsəsi, demək istədilər ki, "Bizcə, belə şey olmayıb..." Neçə gündü işə gələndə yolumu həmin bağdan salıram və qabağıma çıxanı (arvadlı-kişili) kibrit istəyirmiş kimi ustufca xəbərdar eləyirəm: "Bağışlayın, fevralın 26-sı Xocalı faciəsinin 8-ci ildönümüdü..."

Həyətdə uşaqlar Novruz tonqalı qalayır, dağlarda qışın sazağını yavaş-yavaş sulu qar "müşayiət eləyir". Üzü yazadı!.. Yazın gəlişini ən çox qurd-quş, bir də torpaq duyur. Hamıdan çox sevinənsə qaçqınlardı – qurd kimi, quş kimi çöldə, biyabanda, yayı quru, qışı sulu torpaq üstdə keçirən qaçqınlar...

Ancaq bu sevinc ötəridi, "humanitar" sevincdi. Didərginlərinsə "işğal", "qaçqın" sözlərindən sonra zəhlələri gedən üçüncü söz "humanitar" sözüdü.

Mənimçün Xocalıdan heç kim sağ çıxmayıb, bir nəfər də əsir düşməyib, bir canlı da qalmayıb. Allah qiyamət gününü Xocalıda sınaqdan keçirdi. Xocalılar indi ORDA rahatca oturub, o sınaqdan bizim necə çıxacağımızı – O MÜDHİŞ GÜNÜ gözləyirlər. Qiyamət gününü Xocalıdan başlayan Allah cəhənnəmin qıl körpüsünü Xocalıyla Ağdam arasındakı meşə ağaclarından saldırıb. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecədən heç kim sağ çıxmadı – heç Tanrı özü də!.. Hər halda yuduğu kül meyitlərin suya qarışıb axdığını görən Ağdam məscidinin axundu belə Allahın varlığına şübhə elədi o gün...

Xocalıdan sonra neçə yaz, yay gəlib keçib. Ancaq o günü görənləri bir də heç vaxt, heç bir yaz günü, yay günəşi isitməyəcək.

Kürəyimiz qızsa – sümüklərimiz, sinəmiz isinsə – ürəyimiz üzümüzə duracaq haqq dünyada. Xocalıdan sonra elçiliyə kimi göndərməyin, çöl-darvazanı gecə kimin açmasının, heyvanı kimə kəsdirməyin, nöyütümüzü kimin sümürməyinin fərqi yoxdu.

Hər gün – qisas! Hər yer – Xocalı! Azərbaycanın dərdli başını tükü sanı şüarlardan, plakatlardan, məram və məqsədlərdən... arıtlayıb, əvəzinə qulağında bu sözləri sırğa eləməyin vaxtı deyilmi?!

*Fevral, 2000*





## ŞUŞA TEZLİKLƏ AZAD OLACAQ! ...YADDAŞLARIN MƏHBƏSİNDƏN

Üç-dörd il bundan irəli qəzetdə bu başlıqda bir yazı qaralamışdım; deyilənə görə, yazım Şuşasevərlərin ürəyindən tikan çıxarmışdı, amma üstündən aylar, illər ötəndən sonra anladım ki, əslində, heç zad eləməmişəm! Şuşa bizdən sürətlə uzaqlaşmaqdadı. Qələm-kağızımı, baş-gözümü, əyin-başımı... vaxtın dəyirman pərinə toxuyub onu az da olsa, ləngidə, yavaşıda, Şuşalı illərə, günlərə qaytara bilsəydim... Alınar torpağa güman çoxdu; Şuşanı Azərbaycan əsgəri verməyib, Şuşanı Azərbaycan əsgəri alacaq! Qalalı şəhid anası haqlıdı: "Torpaqları geri qaytarmasaq, ölənlərimizin goru çatlayacaq". Mənsə deyirəm: əsir yurd yerlərimizdəki əcdadlarımızı bu il də ziyarət eləməsək, qəbirlərini "sürüb" o dünyadan da o yana – diriliyində bizim kimi adam olmayanların axirət dünyasına adlayacaqlar...

Şuşanı Bakının hansısa tinindən "idarə"eləyən icra hakimiyyətinin nümayəndəsi orda qalanlarımızı, şəhidlərimizi elə sadalayır, deyirsən, XIX əsr feodalı töycüyığana şəxsi təsərrüfatından gələn illik gəlir-çıxarı xırdalayır. "Şuşa" kinoteatrında bir çal-çağırdı ki, gəl görəsən!.. Şeytanları kar olmasın Yusif Vəzir Çəmənzəminlinin, bir az da bərkdən oxuyun "Bu qız nə qəşəngdi"ni, qoy eşitsin! Eşitsin və bir də o dünyada da deməsin: "Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu, mənim şəhərimdi". Deməsin və yazmasın?! "Şuşa qəribə şəhərdi. Min beş yüz metr hündürlükdə yerləşən bu şəhər əsrlərdən bəri Qafqaz, İran və Türkiyə arasında körpü olmmuşdur. Ətrafını dağlar, meşələr və çaylar bürümüş gözəl bir şəhər... Dünyanın bütün varlı, igid, yaxud başqa cür şöhrətli olan adamları Şuşadan çıxmışdır". Yazmasın və deməsin! – əgər xəbəri yoxdusa ki, Şuşa o gördüyü, dediyi, yazdığı Şuşa deyil, Şuşadan 8 il bundan əqdəm

çıxan varlılarıydı, amma igidlər çıxmadılar, ölüb yerlərində-yurdlarında qaldılar... Gümanım bir Hikmətədi (Sabiroğlu), o da əriyib – çöpə dönüb, küçəni elə adlayır, birində maşın vurmasa, yaxşıdı. Deyən, Hikmətin də ürəyinə güvə düşüb, ta Şuşadan əlin üzüb, Bakıda ölmək istəyir. Bizim rəhmətlik Abdal-Gülablı kəndi eynən Şuşanın bir parçasıydı, görən "Qalaya çəkib" deyirdi, o hesabla kəndimiz Şuşaya bacıoğlu düşür, Hikmət də mənə dayı. O necə, mən də elə. Şuşa harda, Abdal-Gülablı da orda... Taksiyə "Məni Şuşaya apararsan?" deyən kimi maşını "Zavaqzalnı"ya döndərir – restorana sarı, uzağı kinoteatrı "nişan alır".

...Biz səni unuduruq, Şuşa, sən də yavaş-yavaş bizi yadırğa! Deyirlər, torpağın üzü bərk olur. Sal üzünün bərk yerinə, döz! Daşlığa salma ha – sınarsan! Otluğa salma ha – yeyilərsən! Ağaclığa salma ha – kəsilərsən! Torpaqlığa sal! Biz də adamlığımıza salıb dözürük. Görək, axırı nə olur...

*May, 2000*





## ƏSARƏTİN İKİNCİ SİNİF ŞAGİRDİ

(*"Ərzi-əsri-hal-namə"dən qeydlər*)

– Ağlama, o, Allahın yanına gedib...

H. Laksnesin "Lilya" hekayəsi təxminən bu sözlərlə qurtarır. Əsərdə söhbət aydındı ki, ölən adamdan gedir. Ancaq biz 13 (!) ildi ölən torpaqlardan, özü də Şeytanın ayaqladığı yurd yerlərindən danışırıq. "13"-dən sonra nida qoymağıma baxmayın, bu nida durğu işarəsi deyil, biabırçılığımıza işarə əvəzliyidi. Bu azmış kimi, Məmməd Nazimoğludan neçə min işarə yazacağımı soruşdum. O da, səhv eləmirəmsə, beynində ani bir riyazi əməliyyat keçirdi: deməli, Ağdamın işğalından 8 il keçir, sonra... 6 min şəhid veriblər, qəzetin 12 səhifəsi artıq hazırdı, Qulu yazını şənbədən tez gətirən deyil... Axırı 3 min işarəyə razılaşdıq.

Halbuki:

– 3 min adam təkcə Abdal-Gülablıdan perik düşüb, hərəsini min işarəyə vuranda...

– Ağdamda dünyada analoqu olmayan Çörək muzeyi vardı;

– təkcə rayon mərkəzində 3 Şəhidlər Xiyabanı salınmışdı;

– daşa ağac atırdın – budağa dəyirdi, quşa sapand tuşlayırdın – qayaya;

– kişilərin nə pulunun sayı bilinərdi, nə dostunun, nə düşməninin;

– qadına-qıza söz atmaq nədi, dədə-baba qaydasıyla qapılarına elçi göndərməyə də ürək eləmirdin;

– davaları ya Sibirdə soyuyardı ağdamlıların, ya qəbirdə;

– toylarının ağası Arif olardı, Qədir olardı, Şahmalı olardı, Rəmiş olardı, Səxavət olardı...

Hansını sayım, "canım Məmməd, gözüm Məmməd, bir eşmə də ver, yandırım" (E.Baxış). İndi Ağdamı da, ağdamlıları da vaxt araya qoyub. O gün bir tanış danışırdı ki, hansısa qaçqın şəhərciyində beş-on ağdamlı ailəsi var, oranı dağıdırdılar. Gorunuz çat-

lasın, Fred Asif, Allahverdi Bağırov, Şirin Mirzəyev! Sizin yerlilərə çadırda şuluq salmağı da çox görürlər...

Özüm kimi ağdamlı görəndə qorxuram, deyirəm, Qarabağ qayıtmayacaq. Dinməz-söyləməz göyçəliylə rastlaşanda Qərbi Azərbaycandan əlimi üzürəm, fikirləşirəm ki, getdi o yerlər. Vətənə gözüqıpıq, qorxaq vətəndaş lazım deyil, qoy oğulların – niyə ki, lap elə qızların da – qanları damarlarında durmasın, patronları patrondaşında, polis caninin qanına susasın, mitinqçi zopanın, kişiliyimizi gül dibçəyindən, düşməni yataq otağımızdan çıxaraq, Köçəryanı Putinə, Putini ATƏT-ə, ATƏT-i Buşa, Buşu Xalqımıza minnətçi salaq – indikinin əksinə. Bütün bunları tarixin alnına yazmağa beş-üç cansız-cələfsiz qələm əhli həmişə tapılar...

İyulun 23-ü Ağdamın işğalı günüdü – "əsarətin ikinci sinfində oxuyan" 8 yaşlı Ağdamın. Ötən 8 ildə adını xatırlamadığım əcnəbinin ölkə başçısına tutiya kimi təqdim elədiyi "məscid qırığını" nəzərə almasaq, hədəfə doğru "bir mikroskopik addım" (Ə.Kür) atılmayıb, Ağdamın işğalından yayına bilmiş təxminən 20 faizi də bizim deyil. O 20 faiz Şuşaya baxanda özünü azad sayır, Bakıya baxanda girov. O 20 faizin çörəyi Bərdədən gəlir, seli-suyu Qarağacı qəbiristanından. O 20 faiz torpağın xoruzu O TAYDA dənlənir, toyuğu BU TAYDA yumurtlayır. O 20 faiz torpağın camaatı axşam erməni gülləsindən, gündüz ehtiyacdan qorxub-üşənir, əti kiminsə heyvanı minaya düşüb tələf olandan-olana, ürəyini gecə-gündüz yeməklə dolanır.

Ağdamın 80 faizi işğal olunub, qalıb 20 faizi.

Azərbaycanın 20 faizi işğal olunub, qalıb 80 faizi.

Ancaq Qarabağsız Azərbaycan Ağdama daha çox oxşayır, nəinki Ağdam Azərbaycana.

Burası 100 faiz elədi!..

*2001*





## MƏNİ DÜZGÜN BAŞA DÜŞÜN...

Həsən Məmmədov ürəksiz öldü. Düz deyirəm. Ürəkdən ölmək elə olmur. Həsən müəllim yaşamaq istəyirdi. "Hanı dediyim bəy ərənlər, Dünya mənim deyənlər? Əcəl aldı, yel apardı, Fani dünya kimə qaldı?" O, bütün bunları bilə-bilə ölmək istəmirdi. Can üstə olanda televiziya-radio-qəzet-agentliklərdən biri ondan ya gic-likdən, ya biclikdən "gələcək arzularınız" – bizdə dəbdi axı, ölən adamdan arzusunu soruşmaq – kimi absurd bir suala cavab soruşsa, yəqin ki, canını dişinə tutub deyəcəkdi: "Yeni rollara çəkilmək istərdim". Uzağa niyə gedirik, tanınmış muğam ustası Əlibaba Məmmədov xəstə yatağında da oxumaq eşqindən danışır. Halbuki o yaşda adam innən sonra ancaq dincəlmək haqda düşünməlidi. Adam özünə qəsd eləyib bu dünyada dincəlməyəndə Allah onu o dünyada istirahətə göndərir.

Amma Həsən Məmmədov doğrudan da yeni rol istəyirdi. Məncə, teatrda yox, kinoda. Çünki Həsən müəllim kino aktyorudu. O, teatra yaraşmırdı.

Həsən müəllim kinoda yaradıb, teatrda yarıdıb – rejissoru da, dramaturqu da, tərəfdaşlarını da, tamaşaçıları da.

Amma azarkeşləri onun məhz kino qəhrəmanlarının azarlısıydı.

Amma Həsən Məmmədova ər, ata, xalq artisti, dost, qonşu rolları da sərf eləyirdi. Təki ürəyi sözünə baxsın, təki mitildən qalxsın, təki yaşasın!..

Həsən Məmmədov həmişə müsbət rollara çəkilib. Elə adam var, özünü Həsən müəllimə oxşadır, eləsi də var, yaratdığı obraza. Maraqlıdı, məsələn, aktyorun Dədə Qorqudunu yamsılamaq yaxşıdı, yoxsa özünü? Onlar əslində... bir adamdı axı. Bir də görəsən, tutalım, hansısa cavan aktyorun özünü Həsən Məmmədova oxşatmağında pis nə var?

İdmanda kimsə ilk dəfə bir saniyəyə yüz metr qaçıb, kimi də axırıncı kərə iki yüz metr. O da qəhrəman sayılır, bu da. Ta bir adam demir ki, ikinci sprinter plagiatdı, oğrudu, tutuquşudu.

Fizikada Nyuton qədər yenilik eləyən olmayıb. Enşteynin kəşfləri ondan da böyükdü – masştabına görə. Həm də Nyutondan gəlir. Amma heç kim Enşteyni Nyutonçuluqda qınamır.

Ədəbiyyatda niyə idmandakı kimi deyil? Vay odu ağıllı söz deyəsən, o saat qulp qoyurlar ki, atalar məsəlinə oxşayır. Başa düşmürəm, bəyəm biz atalarımızcan yoxuq? Füzuli bir Divanlıq söz deyib, peyğəmbərimiz bir Quranlıq, Səməd Vurğun bir Azərbaycanlıq. Allah üçünə də rəhmət eləsin. Vurğunun dilimizin və dinimizin Peyğəmbərlərinə oxşamağında pis nə ola bilər?..

Mədəniyyətdə niyə fizikadakı kimi deyil? Görəsən, Həsən Məmmədovun kinodakı yerini tutmaq istəyənlərə də oğru damğası vurulacaqmı? Bilmirəm. Yer üzündə heç kim bilmir. Bəs Həsən müəllim? Kitab bizi aldatmırsa, o, artıq Yer üzündə deyil.

...Həsən Məmmədov bu gün tamaşaçıları Akademik Dram teatrına yığmışdı. Mən getmədim. Sevdiyim aktyorların zəif rollarına baxa bilmirəm...

*2003*





## 140 (-60) MİN DOLLARLIQ “MANİFEST”

Eşitdik, Vaqif Mustafayev yeni film çəkir. Dedik, onun əlindən pis iş çıxmaz. Gəldik, tamaşa eləməyə. Gördük, çəkiliş qrupu əməliyyata hazırlaşır. Fikirləşdik, vaxtlarını çox almayaq. Eləcə, filmin adını soruşduq. “Manifest”. Vaqif bəy, haqq üçünə, tez də boynuna aldı: “Vallah, mən yazmamışam”. İkinci hücumda “Manifest”in əsl müəllifinin kimliyi məlum oldu. Sən demə, yazıçı Elçinin əməliymiş. Mustafayev (gözünə döndüyüm) onsuz da yazılanı lentə almır ki. Əvvəl ssenarini oxuyur, bəyənmədi, göydən huri-mələklər də tökülüb gəlsə, əl bulamaz, yox, işdi, döşünə yatsa, onda kamali-ədəblə... qatlayıb qoyur bir qırağa. Sonra başlayır öz ssenarisilə hərəkət eləməyə. Çəkiliş vaxtı öz yazdığını da “unudub” tamam ayrı şey çəkir. Montajdasa ortaya “üçüncü film” çıxır. Ona görə də hərdən adam “Vaqif Mustafayev yeni üç film çəkir” demək istəyir. Hərçənd mənim, tutalım, “Yaramaz”a münasibətim tamam başqadı. Bunu artıq Vaqif bəyin “dördüncü filmi” adlandırmaq olar. Mən öz “çortumda” olum, Yaşar Nuri bizə mane olmaqda, Vaqif bəysə tamaşaçıları bəzi mətləblərdən halı eləməkdə.

– Deyirsiz, bizdə “texniki ağıl” çatışmır. Bizdə, ümumiyyətlə, ağıl çatmır. Çünki “sovet adamı”ndan qopa bilmirik ki, normal adam olaq. Deyirsiz, filmlərinizdə “qəhrəman” yoxdu, “qəhrəman” situasiyasının özüdü. Mən buna görə heç bilmirəm kimə borcluyam. Bəlkə böyüdüyüm “Sovetski” məhəlləsinə, bəlkə “Gürcüstanfilm”in həyətində uşaq vaxtı o tərəf-bu tərəfə qaçmağıma, bəlkə “narxoz”u bitirməyimə? Bilmirəm, bilmirəm...

Mən filmlərimə daha çox psixiatr kimi yanaşıram. “Hər şey yaxşılığa doğru” filmi komediyadı, özü də qarasından. Respublika sarayında prezentasiyası keçiriləndə iki minlik zal Qarabağ faciəsinə gülürdü. Sonra xaricdə göstərildi. “Hər şey yaxşılığa doğru” yeganə filmdi ki, dörd mükafat alıb. Nəysə, gəlin, öz işimi özümə şərh elətdirməyin, bu, kinoşünasların işidi. Səd heyif ki, bizdə kino

tənqidçisi yoxdu. Amma Gürcüstanda yazmışdılar ki, "Hər şey yaxşılığa doğru" müharibədən çəkilmiş çox cəsarətli filmdi, gürcü rejissorlarının Abxaziya münaqişəsindən belə film çəkməyə cürətləri çatmazdı. Maraqlı təhlildi, eləmi?..

"Manifest"də sağlam adam yoxdu. Film kütləvi psixoz haqqındadı. Kim onu başa düşsə, deməli, sağlamdı, "virusa" yoluxmayıb. Qanmayanın vay halına!.. Olur ey belə şeylər. Soruşurlar ki, filan filmdə nə demək istəmisən? Adamın əli üzündə qalır. Deyirəm, aha, "maraldı"... Yumoru duymayan adam bədbəxtdi.

Kənardan Yaşar Nurinin replikası: "Onu mən çox demişəm".

– "Manifest" dövlət sifarişidi. Pul azdı, cəmi 140 min dollar. Onun da 25 faizini "Azərkinovideo" qapazlayıb, 10 faizini kinostudiya. Yerdə 80 min dollar təmiz pul qalır. "Syomka"ları dost-tanışın ofisində çəkirəm ki, xərcimiz çıxmasın. Gürcü aktyoru da dəvət eləmişəm – Aftandil Maxaradze! "Pokazaniye" filmində görmüsüz yəqin, çox məşhur aktyordu. Baş rolda Yaşar Nuridi. Yerdə qalanlar da talantlı adamlardı: Səriyyə Əhmədova, Nuriyyə Əhmədova, Əjdər Həmidov... Cəmi 25 nəfər. Həmişəki ansambldı. Növbəti çəkilişdə sizi də dəvət eləyəcəm. Gəlib öz "kinonuzu" çəkərsiz...

Vaqif Mustafayev bu yaxınlarda qızıl medal alıb. Daha doğrusu, 11 il əvvəl qazandığı mükafatı ona indi göndəriblər. Özü də Moskvadan. Hərçənd festival Neapolda keçirilibmiş. 1989-cu ildə. Özü iştirak eləmədiyindən "Yaramaz"ın ənamını Moskvaya göndəriblərmiş. Axır ki, bu il hansısa "Yarayan"ın rəhmi gəlib, qızıl medalı sahibinə yollayıb. Təbriklər, Vaqif bəy, özü də eşidən kimi...

### Sonuncu kadr

"Silah-sursatı" yük yerinə qablayan sürücü (yəqin ki). Çəkiliş maşınına əyləşən qrup (Yaşar Nuri başda olmaqla). Əlini maşının qapısına sonuncu uzadan Vaqif Mustafayev (rejissor). Kameranın (diktofon) obyektə son "naezdi". Ekran qaralır. Lent boşuna hərlənir. Jurnalist diktofona sarı əyilir: bir, bir. Alınmadı.

*2000*





## HƏYAT AKADEMİKİ

İkinci Fəxri Xiyaban bir az da yiyəsizlər evini xatırladırdı: daşın üstündə oturmaqdan böyrəkləri soyuq çəkmiş, gözlərinin altı tuluqlanmış, əlində Quran mürgü döyən molla da, xiyabanı süpürə-süpürə "hər gün təmizləyirəm, yenə xeyri yoxdu" (görəsən, buranı kim zibilləyir?!) deyinən ortayaşlı qadın da, bizi gülərüzlə qarşılayıb, "xoş gəldin" eləyən gülsatan oğlan da çoxdan görmədikləri doğmalarını tapan adamlar kimi əl-ayağa düşdülər. Mərasimə tez gəldiyimdən xiyabandakı qəbirlərə göz gəzdirdim. Doğrusu, mərhumların bir çoxunun adını indi eşidib, üzünü birinci dəfə görürdüm. Ürəyindən burda dəfn olunmaq keçənlərin qulağından iraq, xiyabanda əməllicə basırıqdı. Uzaqbaşı, aşağıdakı dərədən torpaq gözaltı eləmək olar. Oranı da deyirlər, milyonerlər zəbt eləyib...

Xudu müəllim akademiklərin sırasında dəfn olunub. Onun ziyarətinə gələnləri Xan Şuşinskinin nurlu çöhrəsi qarşılayır. Xudu müəllim Xan əmini çox istəyirdi. İndi gor qonşusudurlar. Xan əminin adını anıb gələnlər Xudu müəllimə də baş çəkir, Xudu müəllimi ziyarət eləyənlər Xan əmiyə də rəhmət oxuyurlar. Xudu müəllimin abidəsi də özünəməxsusdur. Hətta adama elə gəlir ki, akademik qəbir daşını özü düzəltdirib. Xiyabanda üstündə sahibinin şəkli həkk olunmayan ikinci abidəyə rast gəlmədim. Xudu müəllim həyatda da beləydi: sadə, təvazökar, kameradan, obyektivdən yayınan...

Anım gününə yığışanlar danışmaq istəmədilər. Düz elədilər. Ağızlarını açıb nəsə desəydilər, Xudu müəllim elə biləcəkdi ki, Qarabağı işğaldan qurtarmışıq. Odur ki, susdular. Məğlub kişilərin sözü olmur... Molla ərəbcə Quran oxuyurdu. Arxa sıradakı qəbirlərdən birinin üstünü rusca yazdırıblar. Toplaşanların sükutu isə türkcə idi. Xudu müəllim bizə türkcə danışmağı öyrətdiyi kimi, türkcə susmağı da öyrətmişdi sağlığında.

...Quran oxunduqca eşitdiklərimi xatırlayıram...

Dəlidağa növbəti səfərlərinin birində dostları o ki var yeyib-içirlər, Xudu müəllim dilinə içki vurmadığından, təbii ki, sağlıq da deyəsi olmur. Geri qayıdanda, rəhmətlik maşını saxladır, baqajdan hərəyə bir armud gətirdir, sonra əlindəki armudu piyalə kimi yuxarı qaldırıb deyir: "Gəlin, bu armudları yeyək Dəlidağın sağlığına, Allah ona dəyməsin..."

...Molla oxumağına davam eləyir...

Həkim Nurəddin Rza Bəxtiyar Vahabzadəylə Xudu müəllimi rayona – Gədəbəyə qonaq aparır. Kənd camaatı bu üç ziyalıdan ötrü əldən-ayaqdan gedir. Kəndin ağsaqqalları dirənir ki, bunların ayağının altında qoyun kəsilməlidi. Bəxtiyar müəllim razılaşmır. Ağsaqqal əl çəkmir. Onun bir işarəsiylə cavanlar qoyunu yerə yıxırlar. Şairin təkidiylə bıçaqlar qatlanası olur. Xudu müəllim Bəxtiyar Vahabzadəni ərkyana qınayır: "Onun canı qoyun olmaqdan qurtaracaqdı. Niyə imkan vermədin?.."

...Molla qiraətini başa vurur...

"İnsan səhər yerindən durur ha, yerindən durub corabını geyənəcən nə vaxt keçir ki, – heç nə! Bax, həmin vaxtdan roman yazmaq olardı" – bu da Xudu müəllimin sözüdü.

...Çoxdandı, armudla sağlıq deyilmir...

...Çoxdandı, qoyunları qoyun olmaqdan qurtaran yoxdu...

...Çoxdandı...

Xiyabandan çıxanda bir nəfər soruşdu ki, deyirlər, Xudu müəllim yetim olub, düzdü? Dedim, Xudu Məmmədova arxa çevirən millət yetimdi, Xudu müəllim niyə yetim olur?..

Deyəsən, gurultulu çıxdı, odur ki, dərhal sözümü dəyişib müsahibimin dediklərini təsdiqlədim. Bu dəfə o mənimlə razılaşmadı...

*2006*





## PANOKTİKUM ÜÇÜN EKSPONAT

"Broy and Panoktikum"!

Yəni: Etimad Başkeçid kimi ləng adam axır ki, ildə qırxı ötdü...

Hər bar öz ağacına oxşar. Etimad barlı ağacdı – Hacı Tələtin Abşeronda əkdiyi feyxoa kimi barlıdı, yeddi-səkkiz il gözləməsən, nübarı ağzını sevindirməz.

Etimad köhnə yolçudu – çörəyə gedəndə aşağı hellənir, ürəyə gedəndə yuxarı millənir, heç hara getməyəndə yerindəcə şellənir. Onun üçün sol da sağdı, sağ da! Şaiq Vəlinin izi ilə varıb "Veyil dərəsi"nə yollananda elə bilirmiş ordan bir qarlı "podborka" gətirəcək. Şair ayağı dəyən yerdə şeir bitmir, urasından-orasından-burasından bir hekayəlik loda (tayacıq) vurasan, ya vurmayasan, onu da Allah bilir...

Etimadı görəndə gah gürcü çaxırı yadıma düşür, gah da gürcü şeiri. Çaxırı süz, Başkeçid balası, şeiri deyim:

Kim,
Kim baxıb
Tuneldən çıxan qatara
İlk insan heyrətiylə?!

Yaxşı, indi mən süzürəm, birini də sən de, amma öz şeirin olsun. Bilirsən hansı – "Zəvvariyyə"ni deyirəm, o ki müsəlmanlar ziyarətdə şeytanı daş-qalaq eləyirlər ey, sonra da məlum olur ki, ara yerdə özləri itki veriblər, səbəbi də çox sadə: sən demə, bizimkilər şeytanı daşlayanda şeytan da onları nişan alırmış! Əla şeirdi, çaxırla gedər...

"Broy and Panoktikum"!

Yəni: Broy və Açıq Səma Altında Muzey...

Düzü, "broy" sözünü Etimad mənə izah eləsə də, bir şey anlamadım, odur ki, "and"in sağ sahilinə üzüb keçdim. Panoktikum nə

Panoktikum! Yəni: Muzey nə Muzey! İçində nə qədər əski türk sözləri-çəpərə alınası, qorunası, işlənəsi, təzədən ağıza atılası... Elə təzə eksponatlar da az aşın duzu deyil. Etimad onları özü icad eləyib, ya hardansa qazıb çıxarıb – demək çətindi.

Etimadın muzeyinə bir eksponat da mən bağışlamaq istərdim. Amma söz yox, hadisə qismində.

...Qonşuda yas düşmüşdü, mən də balkondan baxırdım təsadüfən, gördüm ölü yiyələri pəsdən ağlaşırlar. Həyətdəki ağacın yarpağı da tərpənmədi, asfaltın rəngi də ayazımadı bu səsdən, bu arada mağar maşını gəldi, maşındakılar deyə-gülə çadır qurdular, getdilər, bir də üçündə gəldilər, yas yerində şivən səsi kəsilmişdi artıq, ağlayıb-sıtqayıb kirimişdilər, kişilərdən biri sayıb mağarın pulunu verdi, üstündən necə manatsa çatmadı-nədi, mağar yiyələri elə ağladılar, asfalt ağardı, ağacın yarpaqları biz-biz oldu...

Bir eksponat da bağışlayım muzeyinə?

"Broy and Panoktikum"!

Yəni: bu günlük bəsdi...

*2006-cı il*





## BAKI-KİYEV-BAKI

"Ola bilməz. Doğrudanmı, Bakıdan gələn hansısa azərbaycanlı Bulqakovun ev muzeyini ziyarət eləyə bilər?" Maraqlı sualdı... Ustad yazıçı Mixail Bulqakovun 1906-1919-cu illərdə yaşadığı ev-muzeyinin bələdçisinə həm də ona görə cavab qaytarmadım ki, xəyal məni bir anlığa üç gün bir vaqonda zülm çəkdiyim yol yoldaşlarımın yanına apardı. "Apardı" dedim, yadıma düşdü: nə vaxtsa yazmışdım ki, çörəyə aparan yol üzü aşağı gedir, haqqa aparan yol üzü yuxarı. O hesabla mənimlə eyni vaqonda Bakıdan Kiyevə təpik döyənlərin (bu əziyyəti başqa cür adlandırmaq olmaz, baxmayaraq ki, bizim vaqon Lvov qoşqusu olduğundan qatarın gözü sayılırdı) hamısı üzü aşağı gedənləriydi. Təkcə müğənni Əliyar Məmmədovla bəndənizdən başqa. Biz unudulmaz xanəndəmiz, bu payız 50 illik yubileyinə hazırlaşdığımız Səxavət Məmmədovun diskini çıxarmağa gedirdik. "Çıxarmağa" deyəndə ki, diskin bütün xərcini Ukraynada yaşayan həmyerlimiz Burzu Əliyev (indi o, Ukrayna yanacaq və energetika nazirinin müavinidi – müəl.) çəkir. Bizi diskin tərtibatına və korreksiya olunmuş kasetlərin keyfiyyətinə nəzarət eləməyə çağırıb. Bir də mən mətn hazırlamalıyam. Əlbəttə, buna çörək qazanmaq demək olmaz. Bu, kiminsə xəbər yaydığı müalicə və ya Nazim Sabiroğlunun dediyi kimi, Ağdamın işğalı günü Nabranda istirahət eləmək də deyil. Səfərdi, işgüzar səfər. Üç günə burdan Kiyevə, üç saata ordan Bakıya.

Yox, Bulqakovun ev-muzeyinin kandarında çox xəyala dalmaq olmaz. Onsuz da içəri girəndən mənimki gətirməyib. Qapıçı qadın əvvəlcə gəlişimizin səbəbini (?) soruşdu. Sonra qiymətləri nəzərimizə çatdırdı, elə-belə baxmaq 2 qrivnya, ekskursiya 8 qrivnya. Biz ikinci variantı seçdik. Fikirləşdim ki, bu yoğun hahol arvadı yumşalacaq. Amma hara?! Qapıçı bizə gözləməyi əmr elədi. Amma kimi?! Sual verməyə qorxurdum. Çünki bir həftə əvvəl məni içəri buraxmamışdılar. Demişdilər ki, get, 15 dəqiqədən sonra gələrsən.

Hə, elə bu arvadıydı. Gözləyəsi olduq. Burzudu, Əliyardı, mənəm. İçəri iki qız girdi. Muzeyə baş çəkməyə gəliblər. Əla! İndi onlara qoşulub biz də içəri keçəcəyik. Tərslikdən onlar ekskursiyaya çıxmaq istəmədilər. Qapıçı qadın ayağımızın birini götürüb birini qoyduğumuzu görüb yumşaldı: “Üç adamla ekskursiya olmaz. Bu qızlar da sizə qoşulsaydı, başqa məsələ”. Dinməzcə onların da pulunu ödədik. Heç tükləri də tərpənmədi. Elə bil, bizim Qorqud dədəmizin bunların Xmelnitski babalarına borcu varmış. Üç nöqtə. Keçək reportaja.

Yuxarıdan ağ geyimli bir qadın düşür. Bizi çəkələk geyməyə dəvət eləməyindən başa düşürük ki, bələdçidi. Çəkələyin ipini Andreyev enişindən boşlasan, Dnepr çayının ortasına kimi çatar.

Gəl indi bunu elə bağla ki, ayağının altında qalıb səni biabır eləməsin. Vəssalam. Fikrim qalacaq çəkələyin yanında. İkinci mərtəbəyə qalxırıq. Hər yer ağappaqdı. Bələdçi danışır: “Siz indi Bulqarovun sənədli və obrazlı dünyası ilə tanış olacaqsınız”. Çox sarsaq cümlədi. Allahın altında bu mənim mədəniyyət müxbirim olaydı. Beynimdə redaktə eləyirəm. Qrup içəri adlayır. Bulqakovun qonaq otağı. Aha! Pis yaşamayıb. “Ağ qvardiya” romanının qəhrəmanları da burdadı ki! Bu da bacısının otağı. “Onu Yelena çağırırdılar”. Çələlək andır az qala məni yıxmışdı. Sual vermək istəyirəm. İçəri bir dəstə adam doluşur. Bu nə biabırçılıqdı? Ekskursiya başa çatmayıb axı?! Bunlar hardan dürtüldülər içəri?! Bələdçi tövrünü pozmur: “Özümüzünkülərdir”. Özümüzünkülər. Yox, bir Bulqakovun nəvələri... Bələdçi rus dilindən imtina eləyir. İndi gəl Ukrayna dilində anla görüm, bu nə danışır. Bulqakovun yataq otağına keçirik. Çarpayı da ağdı.

İki gün qabaq Ağkilsə rayonuna getmişdik. Bizi qonaq çağıran ev sahibinə başa saldım ki, bizdə də Ağkilsə kəndi vardı. Aşıq Ələsgərin vətəni. Ermənilər işğal elədilər. Özüm Ağdam rayonundanam. Oranı da ermənilər işğal eləyib. Atamın adı Ağsəsdi. Onun da qəbri işğal olunub. İndi də Bulqakovun muzeyi. Buranı Ağ ev adlandırmaq daha düzgün olardı.





Kitabxanaya adlayırıq. Bələdçi üzünü bizə tutub rusca deyir: “Bulqakovun vaxtında Kiyevdə kitabxana yoxuydu”. Rəfdəki kitablara göz gəzdirirəm. Bibliya, Puşkinin, Dostayevskinin əsərləri... Bu da Bulqakovun yemək otağı. Əlimi yemək stoluna söykəyirəm. Bələdçi özündən çıxır: “Burda heç nəyə toxunmaq olmaz! Burda hər şey ağ olmalıdı!” Olsun! Özün də ağ eləmisən! Bir azdan saatı göstərir: 12.28-də vaxt dayanıb. Zəngi qurdalayır. Səsi çıxmır. Qrupa göz gəzdirir: “Kiminsə mənfi enerjisi var”. Allah, sən saxla! Birdən məni deyər! Xəta sovuşur. Qadın birdən pıçıltıya keçir: “Bulqakovun kökü türküydü”. İstəyirəm, qışqıram: “Biz də türkük!” Yox, ayıbdı, çıxanda deyərəm. Sən demə, möcüzə geridəymiş. O möcüzəni eşitmək istəyirsizsə, gözləyin. “Sizə doğrusunu, ancaq doğrusunu deyirəm” (İncil)...

* * *

...Deyəsən, oxucuları çox gözlətdim. Hər şeyi olduğu kimi yazmaq istədiyimdəndi. Ancaq bu, sadəcə, mümkün deyil. Çünki kimlərinsə xətrinə dəyməlisən. Ən azı, sənə uzaq ölkədə “xoş gəldin” deyənlərin. Onların sözünə inansaq, Ukraynada beş yüz min azərbaycanlı yaşayır. Diaspor adına Kiyevdə təşkilatlar var: Ukrayna Azərbaycanlıları Konqresi. “Azərbaycanın səsi” adlı qəzet çıxarırlar. Özü də iki dildə (Azərbaycan və Ukrayna). Ukraynada nə qədər soydaşımızın yaşadığını deyə bilmərəm, amma Konqres və qəzet elə bil... “nəzakət xətrinə” fəaliyyət göstərir. Zəifik, burda da zəifik...

Möcüzədən danışacaqdım, axı. Bulqakovun ev muzeyini az qala gəzib qurtarmışıq. Yemək otağında baş verənləri ötən həftə qısaca təsvir eləmişəm. Reportajıma davam eləyirəm. Bələdçi balaca bir oğlanın əlindən tutub güzgünün qabağına gətirir: “Qoy bu uşaq ömürlük xatırlasın”. İşıq sönür. Bələdçi hamını divardan asılan güzgünün ətrafına çağırır. Onun dişləri qaranlıqda fanar kimi işıq saçır. Eynəyimin ağarmağını gözləyirəm.

Ötən həftə optikaya baş çəkmişdim. Gözlərimi yoxlamamış eynək satmadılar. Gözəlim Bakı! Burda eynəyi ayaqqabı kimi satırlar.

Səfərdən qabaq "xameleon"umu dəyişmək istəyirdim, vaxt olmadı. Fikirləşdim, Ukraynadan təzəsini alaram. Doktor Zunkina gözlərimi müayinədən keçirəndən sonra başını buladı: "Sən bunlarla neyləmisən". Sonra dava-dərman yazdı. Eynəyi isə on günə hazırlayacaqdılar. "Mən tələsirəm – dedim – Bakıya qayıtmalıyam". Zunkina deyəsən, indi başa düşdü ki, qonağam. "Sizdə yenə Əliyevdi?" Cavab vermədim. Çünki təsdiqə ehtiyac yoxuydu. Pul çekini görəndə gözlərim əməlli-başlı... açıldı: 1300 qrivnya. Məlumat üçün deyim ki, Ukrayna qrivnyası Azərbaycan manatından az qala min dəfə dəyərlidir. Belə. Ayaqda 20 dollarlıq ayaqqabı, gözdə 250 dollarlıq eynək. Haqq-ədaləti nə içində qorumaq olur, nə də çölündə...

Güzgüdə görə bildiyim odur ki, stol yırğalanır. Üstündə də mistik əşyalar. Bələdçi danışır: "Bulqakov dünyanı təqib eləyən təhlükəni görürdü. O, cahan savaşlarını irəlicədən xəbər vermişdi. Budur, Bulqakovun ruhu narahatdı, o, Yer kürəsinin təlatümə gəlməsini göstərir". Televiziyada işlədiyim illəri köməyə çağırıram, dekorasiyanın tərifini yadıma salıram, xeyri olmur. Bu, mistikadı, yoxsa reallıq? Əgər rejissor əməlidisə, niyə qrupun hamısı sehrə düşüb özləri də bilmədən yırğalanır? Qəfil işıq yanır. Təzədən özümüzə qayıdırıq. Amma çox çəkmir. Bələdçi Bulqakovun divara yazdığı hərflərin şriftini açır: "Baxın, "a", "i", "d". Bu, əslində "ad" kimi oxunmalıdı. Bulqakov cəhənnəmi nəzərdə tuturdu". O biri hərflərdən söz düzəltmək istəyirik. Alınmır. "Cəhənnəmdən" çıxmaq vaxtıdı. Ayrılanda buklet almaq istəyirəm. Bəlkə o, köməyimə çatar. 8 qrinvya ödəmək lazımdı. Kimsə bələdçidən avtoqraf alır. Mən də ondan geri qalmıram. "Azərbaycan, Bakı haqda nəsə yazın".

Bələdçi mənə şifahi avtoqraf-sual verir: "Ola bilməz. Doğrudanmı, Bakıdan gələn hansısa azərbaycanlı Bulqakovun ev-muzeyini ziyarət eləyə bilər?"

Cavab qaytarmıram. Bir səbəbini ötən həftə yazmışam, o biri səbəbi... Fakt göz qabağındadı: OLA BİLƏR! DOĞRUDAN DA BAKIDAN GƏLƏN HANSISA AZƏRBAYCANLI BULQAKOVUN EV-MUZEYİNİ ZİYARƏT ELƏYƏ BİLƏR! Ay sizin...





Bulqakova baş çəkmək də 70 dərəcə Ukrayna "samaqonu" içmək deyil ki, təkcə sizin əlinizdən gələ. Guya qonağa hörmət eləyirlər. Az qala boğulmuşdum. Bu haqda sabah...

* * *

Ukraynayla tanışlığım Bakının dəmiryolu vağzalından başladı. Kiyevdən Lvova gedəsi qoşqu tərtəmizdi. Bələdçilər də vaqonlardan geri qalmırdılar. Əyin-başlarını deyirəm, rüşvətə gəlincə... bizimkilərə şükür! Vaqonda bilet alan cəmi iki sərnişin olduğundan elə Yalama gömrük məntəqəsində xəbər tutdum. Azərbaycanı keçənə qədər özünü kupenin sahibəsi kimi aparan Valeriya isə Dontsova adlı yerlisinin dedektivini elə zəndlə oxuyurdu ki, kitabı əlindən alıb vərəqləyəsi oldum. Elə bil, üç yüz səhifəlik müsahibədi! Camaat təsvirdən bezib, dialoqa qaçır. Dontsova bu acı həqiqəti göydə tutub. Dedektiv, özü də dialoqla süslənmiş. Əsl yol malıdı! Valeriya fikrimlə razılaşsa da, məni sancmağı unutmağı da unutmadı: "Bakıya gələndən başım ağrıyır. Sizin ölkəniz dəhşətdi, nəfəs almaq olmur". Mən onun paytaxtdan özgə haranı gəzməyiylə maraqlandım. Nabran, İsmayıllı, Abşeron... Sumqayıtın zavodlarını görəndə əməlli-başlı qorxub. Könlünü almaq üçün ona telefon, nərd, daha nə bilim nələr bağışlayıblar. Onu Bakıya kim çağırıb – demir. Sənəti nədi – sirdi. Hər halda, təzə sənətə oxşamır...

Valeriya bir azdan qonşu kupeyə keçdi. Onu hərdən görsəm də, demək olar ki, salamlaşmırdıq. Bu pişiyə oxşayan qərbi slavyanlını bir də üç-dörd gün sonra – "Ukrayna yeməkləri" restoranından çıxanda xatırladım.

"Ukrayna yeməkləri" Kiyevin ən bahalı restoranlarından sayılır. Burada hər şey haholcadı. Milli musiqi, milli geyimli ofisiantlar, milli menyu, qədim Ukrayna məişət əşyaları. Yaxşı dincəlməli yerdi. Mərdimazarlar qoymadılar. Musiqi onsuz da başımızı dəng eləmişdi, bir yandan da on-on beş nəfər gəlib qonşu stolda əyləşdi. Boğazlarını yaşlayan kimi də oxumağa başladılar. Ən yaxşısı, təmiz havaya çıxmaqdı. Ofisiant qadın ilişdi bizə: "Siz niyə oxumursunuz? Siz niyə oynamırsınız? Siz niyə gedirsiniz?" Birtəhər aradan çıxdıq. Bir də gördük düşüb dalımızca. Əlində də məcməyi. İçində

cürbəcür içkilər. Buranın əcnəbi qonaqları mütləq dadına baxmalıdı. Ofisiantın könlünə dəyməmək üçün piyalənin birini başıma çəkdim. Nitqim qurudu. Üzümü turşutdum. Arvad cin atına mindi: "Belə gözəl içkidən sonra üz turşutmaq olar? Mən sizə 70 dərəcəli təmiz Ukrayna "samaqonu" vermişəm. Bilirsiniz, bu nədi?" Bilmirdim, bildim. Payın artıq olsun. Yox ey, ofisiant dirənib. Axırda dedim ki, mən içən deyiləm, sizin arağınızasa söz ola bilməz. Bizdə beləsi yoxdu. Arvad yumşaldı.

Valeriya yadıma düşdü. Çingiz Abdullayevlə Dontsovanı müqayisə eləyəndə o da möhkəm əsəbiləşmişdi.

Valeriyanı bir azdan yenə xatırlayacam:

– Səxavət Məmmədovun diskinin tərtibatını hazırlayan LeArso reklam agentliyinin direktoru Yuliya Regent dizaynla bağlı iradımı təpkiylə qarşılayanda,

– Qonaq getdiyim Buşevo kəndindəki dərinliyi 60 metrə çatan gölü videoya almaq istədiyimi görüb bir dəstə hahol üstümə hücum çəkəndə,

– "İnter" televiziyasının əməkdaşı, bizim çıxarmaq istədiyimiz diskin muzdlu səs rejissoru Aleksandr Tadosov məni müqavilənin tarif qiymətləriylə tanış eləmək istəməyəndə,

– Küçəyə pasportsuz çıxmağa qorxanda,

– Avtobusda qoca arvada yer verdiyimə görə salondakılar gözünü bərəldəndə...

Görəsən, Valeriya necə, məni xatırlayırmı? Ağlına gəlirmi ki, ömründə öz ölkəsində mətbuata çıxmayan adi, bəlkə də avara bir qadının adı yatıb yuxusunda belə görmədiyi Azərbaycan qəzetində bu qədər hallana bilər?..

* * *

Müğənni Əliyar Məmmədovla Kiyevi başdan-ayağa gəzdik. Ağkilsə şəhərində Leninin heykəlinə tamaşa elədik. Raketna rayonunda dəvəquşu fermasını videoya aldıq. Buşevo kəndinin yaxınlığından axan Ros çayını – rəvayətə görə, ukraynalılar rusları bu çayın o biri sahilinə qovublar, "rus" sözü də buradan yaranıb –





fotoaparatın yaddaşına köçürdük. Prezident Aparatına, parlament binasına tamaşa elədik. Heç yerdə Kuçmanın şəklinə rast gəlmədik. Ukrayna prezidentinin hazırda yaşadığı bağ evi qonşularından elə də fərqlənmir. Kiyevdə hamının "Mamed Mansuroviç" deyə hörmətlə müraciət etdiyi Tibb Universitetinin professoru, görkəmli cərrah, əslən Gədəbəy rayonundan olan Məmməd Bağırov yaşadığı ölkənin rəhbəriylə demək olar ki, qonşudu. Aralarından cəmi bir neçə yüz meyvə ağacı keçir (Onu da deyim ki, Kiyev Dneprin bir sahilində özünü günə verir, o biri sahilində əkib-becərir. Burada meyvə itinə tökdü. Amma kimdi ərindiyindən itə meyvə verən?! Küçədə itlər özləri budaqları yerə dəyən meyvələrin dadına baxır. Kiyevin bütün bağlarına it dəyib. Təbin çəkirsə, gərək ağaca dırmaşasan).

Məmməd müəllim qəribə ziyalıdı, hərdən adama azərbaycanlı olduğunu çoxdan unutmuş, hərdənsə Gədəbəydən Kiyevə təzəcə qonaq gəlmiş adam təsiri bağışlayır. İxtisasıyla maraqlananda "ciyər işinə baxıram" dedi. Xanımı gürcü qızıdı. İki ovladı var. Timurun sənətiylə maraqlanmadım, amma eşitdiyimə görə, qızı da cərrahdı. Namizədlik və doktorluq işlərinin hər ikisi komissiyanın rəyini gözləyir. İyulun 23-ü professorun bağındaydıq. Gözəl meyvələr əkib. Əriyin dadından heç doymaq olmurdu. Məmməd müəllim bizi Azərbaycan əriyinə və mahnılara qonaq elədi: Əlibaba Məmmədov, Arif Babayev, Aşıq Ədalət, Səxavət Məmmədov. Televizoru qurdalayıb Azərbaycan kanallarını axtardıq. Hə, Kiyevdə ATV-dən başqa, bütün kanalları seyr eləmək mümkündü. Təbii ki, "sputnik"in köməyilə. Kanallar Ağdamın işğalından danışırdı. Biz susurduq. ANS Gədəbəydən erməni tərəfə 130 qoyunun adladığını xəbər verdi. Məmməd müəllim köksünü ötürdü: "Sağ əlləri bizim başımıza"...

Səhəri bütün günü İnternetin qabağında keçirdim. "Ayna" – "Zerkalo"dan savayı, heç bir qəzetin saytı açılmadı. Yorulub əldən düşəndən sonra xatırladım ki, dünən Ağdamı almamışıq, vermişik. Qəzetlər də uzaqbaşı bunu yazıb.

Bir abzas Kiyev KİV-i haqqında. Qəzetlər 1 qrivnyaya satılır. Təxminən 1000 manata. Reklam o qədər çoxdu ki, yazıya yer

qalmır. Ən çox rast gəldiyim Şevçenkonun ismidi. İndi Ukraynada ondan populyar adam yoxdu. 7 nömrəli "Milan"lının formasına şəhərin hər yerində rast gəlmək mümkündü. Elektron KİV-ə gəlincə, təkcə paytaxtda 20-ə yaxın telekanal efirə çıxır. Onların da reklam sarıdan problemi yoxdu.

Bir abzas bazar barədə. Azərbaycanlı olduğumdan bazara baş çəkməyi özümə borc bildim. Əyin-baş ucuz olsa, alacaqdım. Lukyanov bazarı bahalıqdı. Ancaq şalvarlara söz ola bilməz. Axır ki, birinin üstündə dayandım. Satıcı dirəndi ki, əladı, al. Mən başa saldım ki, geyinib baxım, sonra. Qız razılaşdı. Xeyli dayanıb bir-birimizə tamaşa elədik. Mən gözləyirdim ki, soyunub-geyinmə otağını göstərsin. Bəs bu nəyi gözləyirdi? Axırı dilləndim və... Burda xəlvətdə şalvar dəyişən nə gəzirmiş?! Əynindəkini çıxar, vitrindəkini geyin. Kimdi adama baxan? Camaat lüt gəzir. Şalvarı yerindən asıb bazardan uzaqlaşdım. Qız heç nə anlamayıb arxamca qışqırdı: "Qorxma, qiyməti razılaşarıq"...

Bir abzas da bizimkilərdən: Ukraynada çox ləyaqətli insanlar yaşayır. Onlar Azərbaycanı layiqincə təmsil eləyirlər. Yaxşı oğlan olduqlarına görə adlarını yazmıram. Həm də özləri belə istədilər.

Və sonda: Ukrayna Azərbaycandan iki saat geri qalır...

*2003*





## MUĞAMAT YAQUB

Şuşinskidən soruşurlar ki, Xan sağ olsun, özündən sonra yerində-yurdunda bir qaraltıdan-zaddan nə qoyub gedirsən? Ustad cavab verir: "Niyə, niyə, Allah verəndən oxuyurlar, amma bir ağcabədili oğlan var, ümidim onadı, o da..." "Nə o da?" Xan əmi qəlyanını körükləyir: "Nolasıdı, qılçın çirməyib bağ suvarır, tay demir Allah maa bu cür səs verib..." Xan Şuşinski qəzet-kitab oxuyan olsaydı, Taqordan misal çəkərdi, deyərdi: "Batan günəş soruşdu: Mənim işimi kim davam etdirəcək? Paslı çıraq cavab verdi: Əlimdən gələni eləyirəm, hökmdar!.." Yaxşı ki, bəndənizin gündəlik qəzetlərin gündəliyinə "2"-dən, "3"-dən yazmağa vaxtı çatır, onları varaqlayıb da dünyanın bəzi mətləblərindən hali olur. Dünən xəbər tutdum ki, şair Nəriman Həsənzadəylə xanəndə Yaqub Məmmədova "Şöhrət" ordeni verilib. Nəriman müəllimi çoxumuz tanıyırıq, hətta ədəbiyyatdan bixəbərlər onu nazir müavini kimi yüksək qiymətləndirir. Allah Həsənzadənin ömrünü şeiri boyda eləsin. Ona lap "İstiqlal" da düşür. Məni heyrətləndirən Yaqub müəllimin – unudulmuş da, atılmış ustadın, Xanın Bəy varisinin birdən-birə xatırlanmağı və eyni vaxtda iki mükafata: "Şöhrət" ordeninə və Prezident təqaüdünə layiq görülməyidi. Şükür kəramətinə, Xudaya! İnnən sonra sənətkarın da "Şöhrət"i obaya, işləri yoluna düşəcək. Yoxsa, bir az da belə getsə, Məmmədovun da səsi hansısa kef məclisindən, kafedən, pavilyondan gələsiydi. Hətta bir ara kafedə oxuduğunu da danışırdılar. Kafedə oxuyanda nolar, barı qoyaydılar ürəyi istədiyini oxuyaydı. Rəhmətlik Vahid Abdullayevi belə şeylərin dərdi öldürdü. Biçarəyə muğam sifariş verən olmadı. Axır, ürəyi tablamadı...

Bir milyon manat yaxşı puldu, Yaqub müəllim, istəsəz heç oxumazsız. Onsuz da sizin vaxtınız keçib. İndi hamı Faiq Ağayevə baxmaq istəyir. Əslində Alim Qasımova da qulaq asmırlar. Eləcə baxırlar. Xan əmi dörd saat dik oturub oxuyarmış, tərpənməyə qorxarmış ki, deyərlər oturduğu yerdə qurcuğur. İndi xalça-palaz, döşəkçə, mütək-

kə dəbdi. Bir azdan yorğan-döşəyin arasında zəngulə vuracaqlar. Ayaqlarını vannaya qoyub "daley-daley" çağırmaq da olar.

Amma sizin Ağcabədidə ayaqyalın bağ sulamağınıza Xan əmi irad tuturdu.

İndi muğamın yarasına duz basırlar, sənətkara baldız boyu sevdirirlər, səsiniz çıxmır. Bilməyən bilməsin, qanmayan qanmasın, bilən bilir, qanan qanır ki, Yaqub Məmmədov yaşayan ölkədə hesabı içəri verərlər, klipə yox, səsi içəridən qazıb çıxararlar, basıb çıxarmazlar, ustadın hüzurunda atdan düşüb bağır basarlar, "Mersedes"lə siqnal verməzlər. Qədir Rüstəmovun zamanında, "Qədir Qızılsəs" təxəllüsü götürmək heç kəsin ağlına gəlməməliydi – gəlib, müğənni, qaynının adını fəxri qonaq kimi afişaya vurmamalıydı – vurub, Aygünün təpiklə açdığı Respublika sarayının qapısında Aşıq Ədalət gözləməməliydi – gözləyir, fonoqramla oxuyanlar efirə buraxılmamalıydı – buraxılır... Hətta iş o yerə çatıb ki, qadasını şarlatanlar almış mollalar da minarəyə fonoqramla çıxırlar, iraq olsun, çaşıb kaseti səhv salsalar, Allah evindən azan səsi əvəzinə İranın dövlət himni eşidiləsidi. Necə ki küçələrdə keçirilən bayram tədbirlərində fonoqramı dolaşan müğənnilərimiz dəfələrlə özlərini biabır eləyiblər...

...70 yaşlı xalq yazıçısı Sabir Əhmədli indi etiraf eləyir ki, "adam söz sənətində öz bağının bəhərini dadmır". Qorxuram, onun yaşında xalq artisti Yaqub Məmmədov da günlərin bir günü deyə: "Nahaq o vaxtı Xanın sözünə qulaq asıb ayağımı sudan çıxardım..."

*5 dekabr 2001-ci il*





# KÖHNƏ TƏZƏ İL

...Meşələr –
qışda öləziyən
Günəşə
odun atmaq üçündü,
Yaydan çıxan oxlar –
payıza
çatmaq üçündü...

2006 böyrümdən küçük kimi sivişib keçdi, mən hərdən – qorxa-qorxa da olsa-bu it uşağının üzünə baxmaq, qabağına yal, arxasınca təpik atmaq, kefimin kök vaxtında lap belə buduma qonaq eləmək, bir də ondan mötərizənin arasındakı (eşitməmisiniz, deyirlər, atnan it igidin dayağıdı) kişinin, həmişə eyni tezliklə açılıb-bağlanan ANS ÇM-in sözü olmasın, əhvali-ruqiyyə xanımını xəbər almaq istəyirdim ki, kopoolunun itcəbalası donuza döndü. Cümlənin sintaksisi şəhadət gətirir: ötən il ürəyimizcə olmadı. Ümumiyyətlə, hər ilin sonunda milli nostradamusumuz Səbuhi Rəhimli efirə (hardasan, ay Şura hökuməti?!) çıxıb, növbəti ili hansısa heyvana oxşadanda özümü zooparkda hiss eləyirəm: qəfəssiz bir sürü heyvan, sən də qoltuğunda bir şiş ət qalmısan bu vəhşilərin əlində, hansını doyurasan ki, basıb sənin özünü yeməsinlər. Öz aramızdı it ilindən yaxşı nə gözləmək olardı? İndi də donuz gəlir. Ver yesin, batırsın, sonra da batırdığını yesin, təzədən yediyini batırsın. Çox şey yazmaq mümkündü hələ, sadəcə, operator xanıma diktə eləmək məsələsi gözümə durub. İlləri başqa adla çağırmaq lazımdı, konkret layihəm də var, amma üzə çıxarmağa qorxuram, məndən qabaq bu işə rəhmətlik Türkmənbaşı girişmişdi, yaxşı da başlamışdı aylardan, ilə keçməmiş astroloqlar aradan götürdülər. Hərçənd "Ruhnamə"nin müəllifin ölümündə şair Məhdimqulunun fanatlarının da adı hallanır...

İt ilinin ən faciəvi hadisəsi isə İraqın keçmiş prezidentinin qətli oldu. Adama elə gəlir ki, Səddam Hüseynin nəşini dar ağacından düşürüb, it ili itinin qabağına atdılar...

ƏRƏBİ ÖLMÜŞ DƏVƏDİ İRAQ – SƏDDAM HÜSEYNDƏN SONRA, İNGİLİS DÜŞƏR, AMERİKAN MİNƏR... İnnən belə bu torpaqda qazılan bütün quyulardan Səddam Hüseyn fontan vuracaq. İRAQ OLSUN AMERİKA! – sünnilərin yeni duası bu... İt ilindən söz düşmüşkən, İRAQ İTƏ-İTƏ HÜRR OLUR: İraq Sünni Respublikası bir ayrı, İraq Şiə Respublikası iki ayrı, İraq Kürd Respublikası üç ayrı, İraq Türkmən Respublikası dörd ayrı. Qalır onların dördünə də istədiyini verən adam tapmaq. "Divarlar arasındakı həqiqət bağı"nda olduğu kimi... Fars, türk, ərəb və yunan – dördü bir yerdə səfərə çıxır, pulları qurtarır, əllərində qalan cəmi bir manata nəsə almaq istəyirlər, fars ənqur, türk üzüm, ərəb innab, yunan stafıl eşqinə düşür; bir yolçu söhbəti eşidib onlara yaxınlaşır, bir manatı alıb azuqə dalınca yollanır, dörd salxım üzümlə geri dönür, farsa: "bu, sənin ənqurun", türkə: "bu, sənin üzümün", ərəbə: "bu, sənin innabın", yunana: "bu, sənin stafılın" – deyir. Dörd dilbilməzin dördü (əslində, hamısı eyni şeyi istəyirdi) də ondan razı qalır...

İndi İraqın dağılmağını uman bir sünni, bir şiə, bir kürd, bir türkmən kifayətdi ki, onların bu arzusunu pulsuz həyata keçirən tapılsın. Öz aramızdı, Corc Buşun bir manata nə ehtiyacı ola bilər?..

*2007*





# "RƏMİŞ, SƏN DƏDƏNİN GORU, GÖZLƏRİNİ AÇ!.."

## BİRİNCİ HİSSƏ

– Ə, niyə görünmürsən, qardaş?

Türkiyənin STV kanalıyla yenicə seyr elədiyim gitaraçı Rəmişə zəng vuranda ondan nəyi, nəyi, bu sözü gözləmirdim, çünki GÖRÜNMƏK onun xassəsidi: toyda, məclisdə, efirdə, ekranda, dildə, ağızda, lətifədə, əfsanədə hətta. Bu bir kəlmə isti söz bəs elədi ki, səhərisi gün görüşək. Fotoqraf Elxan bəy "Jiquli"sini və "Kodak"ını axşamdan "döyüşə hazır vəziyyətdə" saxlamışdı, "çatan kimi çəkirik, on dubl, on beş dubl, necə ürəyin istəyir".

Görüşə bir saat qalmış Rəmişlə dübarə zəngləşdik, bəlli oldu ki, "Mersedes"i xərifləyib, Əzizbəyov şosesindəki "Maralgöl" restoranında dayanmalı olublar. Bizi orda gözləyir. Yol boyu Elxan bəy Rəmişlə ilk tanışlığından danışır. Sən demə, Rəmiş haqda ilk dəfə "Ulduz"da çap olunan məqalə üçün şəkli o çəkibmiş, sonralar bir neçə məclisdə özləriyçün yaxşıca oturublar. Kəsəsi, Rəmiş bəyi görən kimi tanımalıdı: "Baxma ya, deyərəm səniynən yaxçı-yaxçı söhbətlər eləyər". İşin tərsliyindən Rəmişi tapa bilmədik. Restoranın işçiləri onun "zapçast" dalınca getdiyini dedilər. Elxan bəy "Jiquli"nin başını geri döndərdi. Mən gözləməliyəm. Arxa otaqda Rəmişin həyat yoldaşı Gülü xanımla hal-əhval tuturam. Gülü məni gitaraçı Qəhrəmanla tanış eləyir. Qəhrəman dayı mənə Səttar Bəhlulzadədən, Niyazidən, bir də Rəmişdən iri oçerk yazmağı tapşırır. Mətbəxdəki aşbaz həmyerlim pişiyin üstünə qışqıran ofisiant qadını danlayır ("Sən Quranı öz dilimizdə oxumusan? Onda niyə pişiyə su atırsan? Nətər nə dəxli var?"). Muğam ustası Əlövsət müəllim istedadlı qaçqın işaqların gələcəyindən narahatdı. Rəmiş gəlir. "Zapçast" tapa bilməyib, son-on beş dəqiqəliyə bir "Moskviç"

alıb qayıtmaq fikrindədi. Mənə darıxmamağı bərk-bərk tapşırıb, dostunun maşınıyla restorandan uzaqlaşır. Qəhrəman dayı gözlərinin şahidi olduğu əhvalatı danışır...

Bağda yaxşı oğlanlarla yeyib içirmişlər. Rəmiş səsgücləndiricini ağacın budağından asıb gitaranı bağrına basır. Bah! O tamaşanı təsvir eləməyə Qəhrəman kişinin qüdrəti hardaydı? Xülasə – nəysə, Rəmiş çaldıqca ağacın altındakı "ovçarka" özünü didib tökür, zəncirə çırpır, gözə soxmaq istəyir. Ay soxdu ha! Rəmiş olan yerdə itə fikir verən kimiydi. Axırı "ovçarka" zənciri qırır, güllə kimi cumur düz Rəmişin üstünə. Qəhrəman dayı elə bilir ta Rəmişin qanı getdi. İt gözünə döndüyüm (ifadə kimindi, xatırlaya bilmədim –müəl.) Rəmişə çatar-çatmaz dayanır, "əllərini" qaldırıb gitaranın üstünə qoyur, diliylə simləri yalayır...

Bu hində Rəmiş içəri girir, Gülüdən "qopardığı" yüzlük dolları özünə qaytarır. "Moskviç"i bəyənmədiyini deyir, məni ac saxladıqlarına görə hamını danlayır, yemək sifariş verir və Qəhrəman dayıyla məni lap yaxından tanış eləyir...

Qəhrəmanın yaxşı bir atası varmış, qıçının da biri dibindən kəsikmiş. Ta insanın işinin adı nədi ki – ölməkdi də, kişi də elə heylə eləyib. Qəhrəman kişiyə mağar qurdurub, adam yollayıb ki, qəbir qazsınlar, atasını məscidə aparıb, mollanı "görüb", mürdəşirə növbə çatanda əlin qısıb. O da nətər olub, deməli, mürdəşirnən siftə, yəni meyiti görməmiş yüzə razılaşıblar. Sonra Qəhrəman yetmiş beş manat verib, bir qıçın pulunu hesabdan çıxıb...

Rəmiş sözünü qurtarmamış ortaya çörək gəlir, "bismillah" eləməmiş ustadın bakılı dostları. "Bunu da içək jurnalistlərin sağlığına!", "Bunu da içək dağlıların sağlığına!", "Bunu da içək bağlıların sağlığına!" (Tostları Rəmiş deyir –müəl.) Sən demə, dağlılar arasında Rəmişin ayrıca hörməti varmış. Qonaqlardan biri ondan Yasamaldakı hansısa toydan epizodu danışmağı xahiş edir...

Günlərin bir günü yaxşı oğlanlardan birinin toyunda dağlıların sayılıb-seçilən cayılları oynamaqçün ayağa dururlar. Aşıqlar "Vağzalı" çalmalıymışlar ki, qoçular bəyin başına şabaş atıb getsinlər. Vəli bir ucdan "Tərəkəmə" püləyir, qoçular dilxor olurlar. Rəhmətlik





Cavanşir əlini atır naqana, "atım" deyəndə Rəmiş irəli durur, bir qolunu salır lotunun naqan tutan tərəfdən çiyninə, o biri əliynən bir "Vağzalı" başlayır ki, bütün ansamblın səsini batırır. Cavanşir naqanı qaytarıb yerinə taxır, şabaş atıb toydan çıxır...

Rəmiş söhbəti dəyişir, oğlanlar getmək istəyirlər, cib telefonu da bir yandan ara vermir, axşam da ki, yavaş-yavaş qapıdan girməkdə... Rəmişi əlli yerdən qonaq çağırırlar, restorandakılarınsa nəinki onu, heç məni də buraxmaq fikirləri yoxdu. Axşam ziyafət olasıdı. Əvvəl yerlilərimi dilə tuturam, sonra Rəmişi, nəhayət, taksi tuturam. Gülü xanım Rəmişin pencəyini qolunun üstünə atır ki, əzilməsin. "Avropa"ya şəkil çəkdirməyə gedirik, onca dəqiqə də söhbət, sonra Rəmişnən geri qayıdacağıq. Taksiyə bu şərtlə minib, vaxtı hardadı, yolüstü "qorotdel"ə də dəyməlidi, dostuynan xırda bir işi var, bəlkə "zapçast"ı o tapar Rəmişə. Arabir sürücüynən məzələnir, narkotikdən uzaq olmağı tapşırır, sürəti artırıb irəlidə şütüyən xarici markalı maşına çatmağı xahiş edir. Cib telefonundan zəng eləyib qabaqkı maşını saxladır, düşüb öpüşürlər, təzədən harasa dəvət alır, "probka"da hansısa bankın qabağında ilişib qalırıq, şüşəni açıb polisi yanına çağırır, "mənə ordan bir xeyli müftə pul verə bilərsən?" – soruşur, dalı-dalı qayıdan polis Rəmişi tanıdığını başa salır, dəqiqələr ötür, "Ya Allah!" – məni düşürürlər, taksi uzaqlaşır...

Bir saat keçməmiş telefon zəng çalır, Rəmiş qapının ağzında durub, Gülü də yanındadı, pencəyi qolundan yerə qoymur, haykүynən içəri dəvət eləyirik, Elxan bəy Rəmişi sorğu-suala tutur, Rəmişin gözü otaqdakı royalı alır, əllərinin cibdən çıxmağını görürsən, təkrarsız melodiyanın içində hərdənbir Elxan bəyin "Kodak"ının çıqqıltısı eşidilir.

Axır ki, diktafonu işə salıram. Gülü Rəmişin şubasını çıxarıb səhərdən qolunda saxladığı pencəyi onun əyninə keçirir, fotoqraf yenə dinc durmur. Rəmişi lap yaxından nişan alır. Gülü böyürdən yalvarır: "Rəmiş, sən dədənin goru, gözlərini aç!.."

Mənsə ilk sualımı gözüyumulu verirəm:

– Rəmiş, son vaxtlar Türkiyənin televiziya kanalları sənə yaman maya qoyur. Dünən də STV-də "Həkim qızı" səsləndirirdilər. Özünün xəbərin olur, izləyə bilirsən TV-ni?

Rəmiş yorğun-arğın cavab verir:

– Mən elə yollarda oluram. Dəniz qırağına gedirəm tez-tez. Uşaqlar zəng vurub deyirlər ki, baxırsan televizora? Deyirəm, siz baxın, sonra mənə danışarsız. O mahnıları İstanbulda olanda yazdırmışam. Sağ olsun türk qardaşlarımız, məni yaddan çıxmağa qoymurlar.

– Ötən il Türkiyəyə getmişdin, eləmi?

– Hə.

Aha! Növbəti sual üçün "münbit zəmin" yaranıb.

– Sənin ötən iləcən pasportun yoxuydu, düzdümü?

– Düzdü.

Rəmişin cib telefonu zəng çalır. Gülü ekrandan adı oxuyur: "Rəmiş, İsrafil müəllimdi ey, danış". Rəmiş danışır, diktofon yazır: "Bəli. Salam. Nətərsən, qadan alım? Niyə, ordaydım. Müsahibə verirəm. Yox ey, öz qardaşımdı, "otkaz" eləyə bilmərəm. Qurtaran kimi gəlirəm. Jdi menya. Məndən icazəsiz pul xərcləmək olmaz. Sağ ol, sağ ol, sağ ol".

Sonra mənə tərəf dönür:

– Türkiyə məsələsi belə oldu də, Getdim "OVER"-ə, Hafiz müəllim kömək elədi, əlli neçə yaşımda ilk dəfə pasport aldım.

– "Əlli neçə yaş" nədi, ay Rəmiş? Neçə təvəllüdsən ki? Qırx beş?

– Yox, qırx dörd. Təmizin mamam bilər... Uşaq vaxtı mənə deyirdilər ki, səni alçanın dibindən tapmışıq, mən də inanırdım.

İndi də mən zarafata keçirəm:

– Rəmiş, biz xarici pasportu olmayanı "Avropa"ya buraxmırıq, ha!.. Çalış itirməyəsən.

Rəmiş Türkiyəli günlərə qayıdır:

– Çox mahnılar ifa elədim, hə, bir də padşahımızın çox sevdiyi "Küçələrə su səpmişəm"i ürəkdən çaldım orda. Qayıdanda təyyarədə mənə təşəkkür eləyənlər çox oldu. Rasim Balayev dedi ki, konsertin bir yana, prezidentin havasını da çox yerində çaldın. Dedim, sizi bilmirəm, mən o kişini əvvəldən çox istəyirəm. Çünki atam da Əliyev kimi zabitəli kişi olub: Həşim oğlu Hüseyn deyərdilər ona.

– Eşitdiyimə görə, ANS teleşirkətinin rəhbərliyi prezidentlə görüşəndə ona iki qızıl disk hədiyyə olunub: Bülbülün və Rəmişin...





– Hə, gərək ki, Mirşahin verib onu. Əliyev alıb diskləri, deyib Allah ikisinə də rəhmət eləsin. Əliyevin milyon işi var, o, nə bilsin Rəmiş ölüb, ya qalıb?

Sənətkarı "provakasiyaya" çəkirəm:

– Bəlkə Türkiyədə prezidentin sevdiyi mahnını çalmaqla özünü kişinin yadına salmaq istəmisən?

Rəmiş ciddiləşir:

– Yox, qardaş canı, yox, nə danışırsan? O havanı Amerikada müalicə olunduğuna görə, bir də "Küçələrə su səpmişəm"i ürəkdən sevdiyinə görə çaldım.

– Görəsən, indi bilirmi Rəmiş sağdı?

– Xəbərim yoxdu. Yalan nə deyim? Mənə nə var, aşıq adamam, harda olsa, sazımı çalıb başımı saxlayacam...

## İKİNCİ HİSSƏ

...Rəmiş siqaret yandırır, bayaqdan yerində qurcuxan Teymur fürsətdən – mənsə elə bilirdim, sual vermək istəyir – istifadə eləyib aradan çıxır, Gülünün gözlərindən "qorxma, mən səninləyəm!" havası yağır, "Avropa"nın ərazisində sükut mürgü döyür... Allahın altında Rəmiş gəlməmiş bu otağı görən, qapını ondan qabaq açıb içəri girən olaydı: mübahisədən, mükamilədən, müqayisədən... ağız deyəni qulaq "dadmırdı", otaqda sözün əlindən barmaq qoymağa yer tapmazdın, mebellərin üstü səsdən aşıb-daşırdı; stəkana bir qaşıq çay tökməmiş dolurdu, külqabılara siqaretin burnunun ucunu göstərməyin bəsiydi ki, külü yerə tökülsün. Rəmişin əlini royala toxundurmağı hamını, hər şeyi yat-yüt saldı, hər şeyin, hamının köpün aldı, doları dolmaz, doyarı doymaz elədi. Bayaqdan cızığından çıxmış külqabıya Rəmiş bir qutu siqaret kötüyü basır – dolmur, bir çaydan suyu bir stəkana əndərirəm – yarı olmur.

... Harda qırıldı uşaqlar, söhbəti niyə yarımçıq kəsdik? Deyən, prezidentdən danışırdı, axı. "Bilirsən, qabaqlar camaat padşahnan görüşməkdən ötrü növbəyə düzülərdi, qırğın salardı, nə bilim, göyə quş buraxardılar. Amma Əliyev həmişə xalqın arasındadı, bir dəfə televiziyaynan göstərdilər, baxdım, danışdığı yerdə gözləri yaşardı. Ona görə kişini çox istəyirəm".

Bəlkə soruşum:

– Rəmiş, mən elə bilirdim sənin gitaradan özgə sevdiyin yoxdu. İndi məlum olur ki, üstəlik şahsevənmişsən. Gülünü də, maşallah, yağ içində böyrək kimi saxlayırsan. Siyahı uzanır, ha...

Lap elə soruşdum, noolsun, guya Rəmiş söz altda qalacaq? Uzaqbaşı deyəcək ki:

– Hərdən mənə deyirlər, dur bir söz de. Üzlərindən keçə bilmirəm, nəysə deyirəm – sağlıqdan – zaddan. Sonra da qayıdırlar ki, ə, sənin gül kimi nitqin varmış, bəs niyə danışmırsan? Deyirəm, mənim sözümü barmaqlarım deyir də, hərifəm dilimə əziyyət verəm? Ağzıma güc eləsəm, enerjim dağılıb gedəcək, axı...

Qoy ondan xəbər alım ki, yol polisləri ona niyə "Maradona" deyirlər, bəlkə bir əhvalat danışdı...

– Bir yol zəng elədilər, durub getdim. Ağdamlıların məclisiydi, Adil də – mən "avariya" eləyəndə başımın üstünü birinci kəsdirən o olub, canlara dəyən oğlandı, (Gülüyə) yadıma sal, Qulu müəllimnən tanış eləyəcəm – ordaydı, Nofəl də. Abdal Nofəli deyirəm e – Xaspolad kişinin oğlunu, onnan da görüşdüm, öpüşdüm. Abdallar hamısı qohumdu, axı. Sözüm onda deyil, məclisdə xeylax da polkovnik varıydı, heç biriynən hal-əhval tuta bilmədim. Vaxt yoxudu, mən hava çalmalıydım. Keçdim yuxarı, birdən Adil qayıtdı ki, gərək Həsən müəllimnən də əl tutaydın. Dedim, o kimdi? Qayıtdı ki, Ağdamın raykomudu. Dedim, noolsun katibdi, ona qalsa, mən dünya çempionuyam. Onacan yerdən çapan çaldılar. Sonrasına qalanda da, dedim, qurdalasan Sarıyev yaşda məndən xırda olar, özü də sabah işdən çıxarılanda ona salam verən tapılmayacaq, amma məni eyy yüz ildən də sonra dinləyəcəklər. Bunu mənə uşaqdan tutmuş generalacan deyən olub.

Generaldan söz düşmüşkən, bəlkə soruşum ki, eşitmişəm Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov sənə sponsorluq eləyir, aranızdan su keçmir, görən nə deyər?..

– Yalan söhbətdi. Kəmaləddin müəllim – özü deyib mənə müəllim de – cavan vaxtı mənim azarkeşim olub. Bütün otağını şəkillərimlə bəzəyibmiş. Bəzən məclislərdə görüşürük. O, mənim musiqi cümlələrimi, musiqi fikirlərimi oxuyur. Onun səkkiz yüz işçisi var,





vaxtı nə gəzir adamnan görüşməyə? Bir dəfə istədim ona dəyim, dedilər, qəbulunda yüz əlli nəfər növbəyə dayanıb. Qayıtdım geri. Amma dəqiq bilirəm ki, mənim sənətimin ölüsüdü, musiqini sevən adamdı. Öz aramızdı e, o cürə vəzifən ola, Rəmişi anlayasan, sevəsən, hər adam bacarmaz bunu. Elə oğlanlara ürəyim qurban...

Qurban inciməsin, bu sözdən heç xoşum gəlmir. Necə yəni "ürəyim qurban?" Ondansa dostları Rəmişə bir ev bağışlasınlar. Bu boyda sənətkarın restoranda gecələməyi ayıbdı, vallah, ayıbdı. Özünə də demək olmur. "Ə, sən də qəribə adamsan, kimin nə dərdinə, Rəmiş harda qalır?". Yaxşısı budu, gitarayla uşaq yatırmağını xəbər alım...

– Bərdədə toydaydım, altıaylıq uşağın səsi toyxananı başına götürmüşdü, dedilər, bəs qulağı ağrıyır. Uşağı gətirdim, qoydum "dinamik"in yanına, ustufca bir "Segah" çaldım, başın qoydu yatdı...

Gərək ki, Rəmişin nəvələri də var. Görən onlardan nə xəbər?

– İyirmi ildi tək yaşayıram. Uşaqlar böyüyəndə ailədə konfilikt yarandı. Dədəm mənə demişdi ki, ərindən icazəsiz çölə çıxan arvadı içəri buraxan kişinin papağına... O, ayrı cür dedi, bilirsən də, bizimkilər söyüşcül olurlar, amma mən o dediyi kimi elədim.O vaxtdan Gülü yanımdadı. Onun heç kimi yoxdu. Qardaşlarım ona görə məndən inciyibsə, özləri bilsinlər. Belə pis çıxmasın, o qədər qız-mız var, başıma hərlənir. Amma Gülü mənim canım-ciyərimdi. Döyəndə döyürəm, söyəndə söyürəm, heç nə demir. Nə tutdurur, nə də qarğış eləyir. Əlli yaşında "Zaqs"a düşmüşük, özü də bahalı "Zaqs"a e, əldəqayırmasına yox. Hələ Gülünü Amerikaya da aparacam. Bir şəkili dostum var, Vaşinqtonda yaşayır, çağırıb ki, gəl görüşək, həm də konsert məsələsi...

Balam, Rəmiş Gülünü nə çox istəyirmiş. Bir dəfə danışırdı ki, Gülü verdiyim pula özünə heç nə almır, hamısını mənə xərcləyir. Gecələr səhərəcən yatmır, mənə ana uşağına baxan təki baxır. Bir bədbəxtliyi odu ki, qabağıma mən çıxmışam: vaxtında yemir, yatmır. Yenə nəsə demişdi e...

– Gülünün bir xasiyyəti də var, məndən ötrü hamıynan dalaşmağa hazırdı. Birdən narkomanlar-zad mənə şey təklif eləyəndə söyüb qovur onları... Nəşəylə bağlı bir əhvalat danışım. Lenin sarayında

konsertdəyik, mən də Zeynəbin ansamblında işləyirəm. Hələ oxuyan ayrısıdı, bizimkilər bekardı. Səhnənin arxasında dayanıb söhbət eləyirik, Zeynəb yaxınlaşdı mənə, qayıtdı ki, qərdeş, mən bilirəm bunuynan – əliynən göstərdi – özüvü "qubit" eləyirsən. Canıva xeyirdi, ziyandı, özün bilərsən, – dayım da "işlədib" onu bir vaxtlar, – amma təhəri var də: girərəm tualetə, çəkərəm, söndürərəm, çıxaram, heç kim də bilməz. Vəli dedi ki, Zeynəb xanım, Rəmişə mən öyrətmişəm bu "sənəti". Dedim, bajı, p... olsun heylə nəşənin içinə ki, onu tualetdə çəkəsən. Nəşənin adı var, sanı var, onu gərək bahalı yerdə çəkəsən. Zeynəb əlini əlinə vurdu, dedi ki, qərdeşimsən...

Mənsə sadəlövhcəsinə inanırdım ki, Rəmiş keçmişindən qopub, bir də o günlərə "düşməyəcək". Dediyinə görə, heç əzəldən narkoman olmayıb. Hərdən dostlarla əlli-əlli vurmağı var, şey çəkməyisə uşaq vaxtı "pristupnı mir"in cayıllarıyla oturub-duranda öyrənibmiş. Iki ildi hamısını tərgidib, yaşına yaraşdırmır. Lənətə gəlsin bu nəşə məsələsini, lap "narkobaron" olub getdik. Yaxşısı budu, Rəmişdən soruşum, görüm Qədir Rüstəmovla niyə yola getmir?

– Mən açığı, gürzə ilanla da yola gedənəm. Qədirin xasiyyəti bambaşqadı, o da heylə olmalıdı də. Çünki... tək Qədiri demirəm, Allah bütün sənətkarların gözünü puldan doyursun, onda hamı birbiriynən uyğunlaşacaq, yola gedəcək.

...Bayaqdan mürgü döyən sükut, deyəsən, "gözlərini açır": stəkan daşmaq, külqabı dolmaq, qonşu otaqdakılar nəfəs almaq istəyirlər. Gülü Rəmişin pencəyini çıxarıb, şubasını geyindirə-geyindirə "Onun hər yaşına bir qoyun qurban demişəm, nə qədər ki sağdı, ad günləri kəsəcəyik" – deyir. Rəmiş sağ əliylə sinəsinin üstdən basır, elə bil gitaranın yerini rahlayır. Mənsə öz xəyalımda BMT-yə, ATƏT-ə... Rəmişin lent yazılarını yollayıram; içində də bir cümləlik kağız: "Bu səsin yeri-yurdu işğal altındadı..."

*Fevral, 2000*





## PAMUKUN PORTRETİ

Sizə hardan xəbər verim, buzov minib çay keçənlərdən, yaba ilə dovğa içənlərdən, xoruz belinə bostan əkənlətdən... Lənət – quyruqlu yalana, rəhmət – quyruqsuz doğruya, bir qoz – pozana, iki qoz – düzənə. Rəhmət – yazana, lənət – pozana. Söz qalsın, insan getsin, yaxşılıq qalsın, pislik getsin. Dost var olsun, düşmən puç olsun, ağıllı yesin, ağılsız hesablasın. İndi gələk mətləbə...

Ötən əsrin 80-cı illərində Abdal-Gülablı sovxozuna bir "Kuban" avtobusu bağışlamışdılar, çöl işinə üstüaçıq yük maşınında yollanan camaatın sevincdən əl-ayağı yerə dəymirdi, tezliklə məlum olanda ki, "Kuban"la ancaq qonşu kəndə pambıq yığmağa gedəcəklər, onda bəzilərinin burnu sallandı. Əsl və kütləvi dilxorçuluq bir azdan başlayacaqdı. Lənətə gəlmiş "Kuban"ın arxasında çox adam oturanda qabağı qalxırdı, qabağında oturanda arxası. Naəlac qalan şofer fəhlələri iki bərabər hissəyə bölməli olurdu ki, bu da indiyəcən belə şey görməmiş camaatı həm "Kuban"dan, həm də pambıqdan soyutdu.

Məşhur türk yazarı Orxan Pamuk Nobel mükafatı alanda nədənsə (bəlkə təxəllüsünün Pamuk – Pambıq olduğundan?!) o günləri xatırladım.

Ondan yazmağımınsa bir neçə səbəbi var.

Birincisi, Fəxri Uğurlunun muştuluq-mesajı: "Orxan Pamuk NOBEL aldı. Təbrik! Göndərən: +99450-321-99-92. 12 ekim 2006, 16:19:20." (Cavabında yazdım: "Daha başımızı Nobel Pamukuyla kəsəcəklər").

İkincisi, Rəşad Məcidin zəngi: "Ağsəs, bilirsən də, mən bir Orxan Pamukla çəkdirdiyim şəkli böyütmüşəm, bir də səninlə. Pamuk Nobel aldı, gör sən neynirsən..." Rəşada da borclu qalmadım, dedim ki, Nobel müəllim türklərə bir də yüz il sonra qiymət verəcək, hövsələni bas, Allaha yalvar, onacan heç birimizə dəyməsin, tapşırığına əməl eləyərəm...

Üçüncüsü, Orxan Pamukun portretinin "Ulduz"un kitab rəfində gizlənpaç oynamağı... 2004-cü ildə Bakıya – Azərbaycan Yazıçılar Birliyinin son qurultayına təşrif buyuran Orxan bəy ona yaxınlaşan

hər kəslə şəkil çəkdirməyə razılıq verirdi, görünür, Azərbaycanda ona Orxon-Yenisey abidəsi kimi baxılmağı ləzzət eləmişdi. Pamukun çoxsaylı azəri həmşəkillilərindən ikisi də Elçin Hüseynbəyliylə Əyyub Qiyasıydı. Elçin "Ulduz"a baş redaktor gələn kimi bu şəkli böyütdürüb, həm kitab rəfinin, həm də üzü kitab rəfinə sarı subartinativ qaydada əyləşən Qulu Ağsəslə İlqar Fəhminin "gözünə soxdu". Üstündən az keçməmiş, Pamukun sol qolu (yəni Əyyub Qiyas) tutuldu, dalınca da özü türkləri erməni və kürd qətliamında günahlandırdığına görə, sağ qolunun (yəni şəkildə ondan şərqdə lövbər salan Elçinin) qəzəbinə tuş gəldi, ünlü türk yazarı türk məhkəməsindən canını qurtarsa da, portreti rəfdəki kitabların ayaqları altda can verəsi oldu. Ancaq ona da Pamuk deyərlər, tezcənək Avropada hansısa ödül qazandı, xoş sədası virtual dünyanı başına götürdü, xəbər gəlib "Ulduz"a çatan kimi Elçin Orxanı həbsdən çıxarıb, əvvəlki yerinə qoydu və başladı o biri həmşəkillisi Əyyub Qiyasın türmədən çıxmağı üçün yollar axtarmağa. Az qala tapmışdı ki, "adı qırmızı" Pamuk yenə dilini qarnına qoymadı, türk terrorundan növbəti "qara kitab" bağladı...

(Orxan Pamuk bizim KİV-i izləməsə də, bir məsələni istedadlı nasirin nəzərinə çatdırmaq istərdim. Terror – milləti, cinsi müsadirə olunmuşların əməlidi. Terroru balacalar böyüklərə qarşı işlədir, böyüklər balacalara qarşı yox! Türkiyə də böyükdü: ermənidən, kürddən, yunandan, fransızdan, Pamuka ödül verən isveçlidən də! Hətta Orxan Pamukun Nobel almağı da Türkiyənin nəhəngliyinin növbəti təsdiqidi.)

Bu dəfə E. Hüseynbəyli Pamuku şkafın ayağı altına salmaq istəyirdi, xoşbəxtlikdən andırı qaldıra bilmədi. Odur ki, təzədən "karsa" göndərməklə kifayətləndi. Pamuk Nobel alan günəcən orda üstünü toz basdı. Oktyabrın 12-də təzədən azadlığa çıxdı. Bu dəfə bəlkə də həmişəlik! Çünki Nobel mükafatçısının portretiylə zarafat eləmək olmaz...

Amma elə yaxşı ki, Pamuk bizim KİV-i izləmir. Yoxsa, portret əhvalatını oxuyub, terror haqda təzə bir bəyanat hazırlayardı. Özü də bu dəfə türkün türkə terroru haqda...

*Oktyabr, 2006*





## FAHİŞİZM

(*"Ərzi-əsri-hal-namə"dən qeydlər*)

Səs deyilir və eşidilir. Söz yazılır və oxunur. Səsi eşidilən fahişəliyin daşıyıcısı danışan adamdı. Yazılan, oxunan, gözlə görünən əxlaqsızlığı yazan, oxuyan, gözüylə görən adamlar yayır. Hayıf ki, onlara qarşı iynə, dava, dərman tapılmayıb. Əslində, var. Axtaran yoxdu.

Ən namuslu fahişələr bədəniylə alver eləyənlərdi. Çünki bu, onların yeganə qazanc yeridi. Əli hər yerdən üzülən adamın gücü ancaq özünə çatır. Kişilər intiharı, qadınlar "can sevdası"nı seçir. Mötərizəsiz və bəlağətsiz deyim ki, "kişi" və "qadın" sözləri bu məqamda cinsi göstərici rolunda çıxış eləmir. Üstəlik, intiharın özünü də kişi işi saymaq qəliz məsələdi. Elə fahişəlik də kişilikdən deyil. Heç qadınlıqdan da! Nəsə, havadan, sudan, mühitdən, şəraitdən, bir az da qandandı.

"Havadan, sudan" deyəndə Stepanakerti nəzərdə tuturam. Bu viran olası türk oylağına gavur ayağı dəydiyindəndi, ya nədəndisə, erməni axçiləri (yaşından asılı olmayaraq) cənnəti kişilərin, üstüörtülü desək, altında görürdülər.

"Mühitdən"di – ona görə ki, əvvəl gəlinlər qayınatalarının yanında uşaqlarını qucaqlarına götürməzdilər. İndi gəlinlə qayınata çimərlikdə bir-birini quma basdırır. Bu harasıdı? Cavan qayınata imkanlı ailədən olan gəlininin impotent oğlundan boşanmağının qabğını almaq üçün onu ginekoloqa aparıb öz sağlam cinsiyyət toxumlarının gələcək nəvəsinin – yəni ki, uşağının! – anasına köçürülməsini təklif edir və təklifi qəbul olunur. Özü də hər iki tərəfdən...

"Şəraitdən" deyəndə şəraitsizliyi – kişilərin arvad-uşaq yanında üzqaralığını, oğulların ölkədən baş götürüb getmələrini və bütün bunların müqabilində zərif cinsin maddi-mənəvi-hüquqi... tələbatlarını ödəyə bilməmələrindən doğulan "bic şəraiti" nəzərdə tuturam.

"Qana" gəlincə, bir neçə il əvvəl bu mövzuya toxunanda fahişəliyin artıq terminə (fahişizm) çevrildiyini qeyd etməklə yanaşı, "...ölkədə çoxlarının tanıdığı elə nəsil var ki, bu nəsildə hamı bir-birinin əri, arvadı, baldızı, qaynı, oynaşı, məşuqəsidi" yazmışdım. İndi təzədən qan məsələsini qurdalamaqla heç kimin qanını qaraltmaq istəməzdim.

Və bütün bunlardan sonra yenə irəliki qənaətimə qayıtmaq istəyirəm: ən namuslu fahişələr bədəniylə alver eləyənlərdi. Kübar, adlı-sanlı, ərinin qabağında cangüdənlər qulluq eləyən qadının bir baxışıyla özünü toyda kiməsə satdığını, rəisinin itinin adını madar balasına qoymaqla şöbə müdirliyindən rəis müavinliyinə sıçrayan kişi qırığını, məşuqəsini məclis əhlinə dayısı qızı kimi təqdim eləyən milli Don Juanı, siyasətə hansısa liderin döşəkağısını dəyişməklə qədəm qoyan partiya funksionerini, televiziyalarda gözəllik müsabiqəsi adı altında pullu oğlanlara – daşınmaz və səyyar pritonlarsayaq – cavanlar təşkil eləyən media kapitanlarını, axşam batalyonu yığıb sabahkı maaşa bəri başdan qol çəkdirən, elə həmin gecə həyəcan siqnalıyla əsgərlərini döyüşə qaldırıb qəsdən düşmənə təslim eləyən komandirləri, Qarabağın dağını aranına qatıb qızıl sinidə Köçəryana bağışlayan rəhbərləri, hakimiyyətdə olanda Əliyevin canına, işdən qovulandan sonra Elçibəyin ruhuna and içənləri görənlər yəqin ki, məni fikrimdən döndərmək eşqinə düşməzlər.

Belə eşqə düşənlərə sonüncü arqumentim: namus qadının (elə kişinin də!) yalnız bir yerində olmur. Ya hər yerində olur, ya da heç harasında olmur.

...Mən bu yazını xeyli özümə dərd eləyib sonra yazdım. İstərdim, siz də oxuyub bir qədər dərd çəkəsiniz. Yaxşı ki, Səhiyyə Nazirliyi dərd çəkməyi qadağan eləməyib...





## DİLİNDƏN YATAN ŞAİR

Yazının adını nahaqdan belə qoydum. Ariflər o saat tutdu ki, kimi deyirəm. Azından, Sabir Rüstəmxanlının kəlbəcərli xatirələri bir az da saraldı, Bəhmən Vətənoğlunun qanı bir az da qaraldı, Akif Səmədin infarktı ağrıdı, Miraslan Bəkirlinin ssenarisi...

Amma arif olmayanlar da biləcək söhbət kimdən gedir... Dünən "Azərbaycan" jurnalında kiçik bir "dəyirmi masa" keçirildi. İntiqam Qasımzadə, Tofiq Abdin, Elçin Hüseynbəyli, Əsəd Cahangir və bəndənizin iştirak elədiyi "toplantıda" Vaqif Yusifli qəfildən üzünü Yusif Səmədoğlunun portretinə tutub: "Azərbaycanda dissident ədəbiyyatı yoxdu, müəyyən işartıları var" – dedi. "Masabəyi" başda olmaqla, bütün məclis əhli tənqidçinin dediyini təsdiqlədi. "Bəs Alqayıt, Bəhmən, Sücaət necə olsun?" – söz ağzımdan çıxmağıyla "menyüdə" ılıq təbəssüm peyda oldu. Birdən Sücaəti xatırladım...

Onunla ötən il tanış olmuşduq. 5 nömrəli xəstəxanada ürəyindən yatırdı. "Oyadıb" dərdləşdim, mən palatadan çıxıb ondan yazmağa, o isə İrana – ürəyini yardırmağa yollandı. O vaxtdan bir-birimizi görmədik. Amma onun bir misrası arada yadıma düşür: "Deyin ki, Sücaət hələ yaşayır..." Sücaət "tirajına" görə bir vaxtlar heç bir xalq şairindən geri qalmırdı. Onun şeirləri toyları, şənlikləri bəzəyirdi. Sücaətin azarkeşləri içərisində türmədə yatanlar da vardı. "Deyir, dustaqları buraxacaqlar..." Sücaət nə vaxtsa həbs olunmuşdu. Türmədə yazdığı şeirləri onun nüfuzunu birə-beş artırmışdı. "Aşağılarda" – Ağdamı deyirəm – onun haqqında belə danışırdılar: yeyən, içən, ilhamlı, dostcanlı, sovet hökumətini vecinə almayan... Sücaət mənimlə ötən ilki söhbətində "yeyib-içən" obrazını itirmiş, sovet hökumətinin nostaljisiylə yaşayan adamı xatırladırdı. Yerdə qalırdı ilhamı – o da qalırdısa, dostcanlılığı – hanı, heç Sücaətin öz canı da qalmamışdı... Bəs yerdə qalan nəydi? Sücaətin özü, ağrıları, həsrəti... Bunu xəstəyə deməzlər, odu ki, susdum. Fikirləşdim, sağalıb gələr, oturub bir yaxşı söhbət eləyərik. Axı, İran həkimləri onun dərdinə əncam çəkməyə söz vermişdilər.

İki il bundan irəli eşitdim, Sücaət beynəlxalq təşkilatlara müraciət eləyib. Müraciət eləyib ki, öləndə onu Kəlbəcərdə basdırmağa imkan yaratsınlar. Bu da axırı!.. Neçə illər əlləş-vuruş, müstəqillik qazan, sonra da ATƏT-ə, BMT-yə, Avropa Şurasına yalvar ki, mən öz torpağımda dəfn (ölmək yox ha) olunmaq istəyirəm, kömək eləyin. Bu da axırı, Sücaət kişi!.. Mən elə bilirəm, bu sözdən sonra Sücaətin ölməyə haqqı yoxdu. Amma mənim sözümü kimdi saya salan?! Sücaət yenə xəstəxanaya düşüb, ürəyi bir az da kürlük eləyir, dünən Yazıçılar Birliyindən qayıdıb gələndən sonra zəng eləyib halını soruşanda heç məni xatırlamadı da, eləcə, görüşə çağırdı.

Sücaət tək-tük adamlardandı ki, bu son illərdə dediyinin üstündə durur. Daha doğrusu, ona buna ürəyi vadar eləyib. Yazırdı ki, Kəlbəcərsiz tablaya bilməz, budu, tablamır. Yoxsa bu birilər kimi...

Sücaətin ürəyi onun dilinin bəlasına düşüb. Sücaət ürəyindən yox, dilindən yatır. Sonra da deyirlər ki, Allah şairləri eşitmir...

*2002*





## UÇULASI "UÇURUM"

Əlabbasın təzə kitabı çıxıb. Dost-tanışa əlbəəl özü paylayır. Hərəyə də beş-üç kəlmə avtoqraf yazır. İndi çoxları avtoqrafı oxuyur, kitabı yox. Əlabbasın da başına belə vaqeə gəlib. Xəbəri yoxdu. Amma mən bilirəm. Özümə gəlincə, "Uçurum"dan uçmuşam. Vur-tut bir gecəyə. Yaxşı qurtardım. Kitab məni əzmədi, mən kitabı əzdim...

Əlabbasın – bu yanımcıl oğlanın, "şifahi nitq ustasının" yazıda itkilərini görürəm. O, danışdıqlarını qələmə almağa ərinir. Mən də eləyəm. Halbuki, lazımdı. Söhbət nəsrdən gedir. Əlabbasın – "şalvarının ütüsü xoruz başı kəsən" sabiq kənd müəlliminin nəsri kiməsə dərdini danışan və dərdini danışdığı adamın dərdini çəkən adamın sözarası köks ötürməyidi. Əlabbasın – dünyanın gərdişindən get-gedə daha çox baş çıxaran, baş çıxardıqca qələmdən geniyən bu Allahın balasının sözə iddiası qış günü kimi gündən-günə qısalır. Əlabbasın – üz-gözünə həyatın əksər əzablarını torpağa su kimi hopdurmuş bu zirək suçunun "Uçurum"unun dibində müəllif qollarını açıb öz qurbanını – özünü gözləyir.

"Sənə həyatımdan elə şeylər danışaram ki, tüklərin biz-biz durar..." Əlabbasın "keçəl" personajı özünü oxucuya belə təqdim eləyir, "üçbarmaq" obrazı dünyanı beş barmağı kimi tanıdığından dəm vurur. Bu adamları Əlabbas özündən uydurmayıb, onlar yazıçının qələminin bacasından özləri hekayəyə düşüblər. Nasir onları qovub çıxaranacan povest bitib, hekayə başa çatıb. Əlabbasın kitabında özünə əl qaldırdığı yerlər də var. O, hərdən özüylə də üzləşmək istəyir. O, hərdən yalan da yazır. Məsələn, "süpürgəçidən" mən şübhələnmişdim ki, onun dilindən müəllif özü danışır. Bir az oxuyandan sonra gördüm, bu arvaddan heç "müstəntiqin" də ağlı bir şey kəsmir və axırda onu qovur. Evrika! Müəllifin yalançı obrazının paxırını onun doğruçu personajı açır. Əlabbassa onların işinə qarışmır...

"Uçurum"da ən xoşuma gələn müəllifin ön sözüdü. Onun nəsrdən getmək istəyini çıxmaq şərtiylə. Əlabbasa elə gəlir ki, o, özündən daha istedadlı adamın yerini tutub. Halbuki, ədəbiyyatın qanadları altında hamıya yer var...

Eşitdiyimə görə, Əlabbas haçansa biznesə qurşanmaq fikrinə düşüb, borc-xərc Rusiyaya bir maşın təzə pomidor vurub. Dağıstanla sərhədə çatmamış mal lalıxlayıb, maya batıb... Əlabbas bəzən ən yetişmiş sözləri, cümlələri, abzasları prozanın baqajına basıb hədəfə yollayır, onlar da, eynən qırmızı pomidor kimi, mənzil başına çatmamış rəngini, qoxusunu, dad-tamını itirir. Və qəribədi ki, Əlabbas bunun əksini də uğurla bacarır. Hərdən mənə elə gəlir, bu, Əlabbasın yazıdakı hobbisidi. "Uçurum"da yetişmiş və kal yerlərin olmağı bundandı.

Bir Allah şahiddi ki, mən bu kitabı oxuyub sevinmişəm! "Uçulası Uçurum" adlı bir yazı da başlamışdım, nəsə, yarıyolda dirəndim. Elə bu yazını da redaksiyanın hay-küyündə yazıram. İçimdəki saysız-hesabsız uçurumları ölən vaxtın cəsədiylə doldura-doldura...

Kitabdakı əsərlərin adlarını qəsdən çəkmədim. Qoy zəhmət çəkib oxusunlar. Yoxsa ki, bu yazıçıların bir çoxu avtoqraf azarkeşi olmaqdan yana, həm də "resensiyabazdı". Resenziyadan bir-iki hekayə adı öyrənib müəllifdən qonaqlıq qoparırlar. Mən Əlabbasın əlini cibinə salmağına qıymıram.

Və sonda: Əlabbası çoxları Bağırov famili ilə tanıyır. Deyilənə görə, o özünəbab təxəllüs tapmadığından eləcə "Əlabbas" yazır. Növbəti kitabı çıxarmaq ondan, təxəllüs məndən...

*7 dekabr 2001-ci il*





## "ÇƏTİN SUAL", ASAN SEÇİM

BBC radiosundan çoxdan nəsə yazmaq istəyirdim – bir "havası" "Space" televiziyasına, bir çınqısı "mərhum" "Panorama" qəzetinə, bir dalğası "Xəzər" jurnalına çəkən BBC-nin bir torpağı Şekspirin vətəninə oxşayır. Bu radionun sözü səsdə elə müşayiət olunur ki, keçid musiqisindən keçib uzaqlara – hələ səsin səs, sözün söz olduğu gözəl günlərə gedib çıxırsan. BBCnin "mətbəxindən" "peşəkarlıq" qazanının "zəhmət" adlı acı soğandağına vurulan "istedad" tikələrinin xoş ətri gəlir. Amma hamıya yox – səsi və sözü qananlara...

Srağagün gecə işdən evə qayıdırdım; avtobus sürücüsü BBC-ni fırlayıb tutanda Zülfüqar Rüfətoğlunun "Çətin sual"ı təzəcə başlayırdı: keçmiş "Azəriform"un keçmiş direktoru Azad Şərifov 20 noyabr vertolyot qəzasından nəsə deyirdi ki, kanalı dəyişdilər. Təxminən bu yerdə. Zülfüqar bəy soruşurdu: "Azad müəllim, sizcə, Qarakənd səmasında vurulan vertolyota niyə bu qədər dövlət adamı minmişdi, niyə onları müşayiət eləmək heç kimin ağlına gəlməmişdi, niyə?"..

Sürücü hansısa kanalda Faiq Ağayevi "tutdu" və mən yazıçı marağıyla salonu gözdən keçirdim. Adamların üstündən elə bil dağ götürülmüşdü. Adamlar faciədən beziblər. Salonda bəlkə də axtarsan, hər partiyadan adam vardı, BBC danışanda onlar da danışırdılar, Faiq oxuyandasa hamı susdu. Elə mən də. "Doğrudanmı, daha Azərbaycanı fəlakət, terror, itki, dərd yox, əyləncə birləşdirir? Musiqi yox ha, musiqi birləşdirsə, nə vardı, məhz əyləncə"...

Yaxşı ki, BBC saat 23.00-da "Araz"ın yatağından bir də axır. "Çətin sual"a təkrar qulaq asdım. Təbii ki, bütöv. Bilmədim, bir vaxtlar söyüb yamanladığım, 1991-ci ilin 20 noyabr (vertolyot), 1992-ci ilin 26 fevral (Xocalı) faciələrini ört-basdır eləməyə çalışan keçmiş "Azərinform"un keçmiş rəhbəri Azad Şərifovun taleyinə acıyım, yoxsa Zülfüqar bəyin müsahib tapmaq və danış-

dırmaq bacarığına sevinim?.. Azad müəllim günahlarının bir qismini boynuna alsa da, Tofiq Kərimovu "yıxıb-sürüməkdən" özünü saxlaya bilmədi. Sonra Yaqub Məmmədovun əmriylə ad günündə işdən azad olunmağından, sonra hansısa neftçıxarma idarəsində qara fəhlə işləməyindən, sonra rəhmətlik Elçibəyin onun ardınca adam yollayıb işə dəvət eləməyindən, sonra mayor oğlunun müəmmalı qətlindən, sonra həyat yoldaşının insult keçirməyindən, sonra müəllim işləməyindən, sonra... nikbin adam olmağından danışdı. Mən onun səsində insan əzabının "kəllə-çarxını" gördüm...

Zülfüqar Rüfətoğlunun "çətin sual"larına asanlıqla cavab almağısa araşdırma mövzusudu. Efir dalğasında özünü suda balıq kimi hiss eləyən Rüfətoğlu tək-tük radio jurnalistlərindəndi ki, onun əlində qələm tutduğunu görə bilirsən, onun yazı adamı olduğunu duyursan, onun yaxşı yazdığına görə yaxşı danışmağının fərqinə varırsan. Zülfüqar bəyin pauzaları çox dəqiqdi, hərçənd radio pauzanı sevmir, efir bir an olsun dayanmamalı, ürək kimi aramsız döyünməli, səslənməlidi, amma pauza da radiojurnalistikanın mühüm elementlərindəndi, bunu kim bilməsə də, Zülfüqar bəy yaxşı bilir. Mən bir anlığa şəxsən tanımadığım Rüfətoğlunu BBC-dən "çıxarıb" ayrı kanala salıram, görüm, üzə bilər, ya yox? İnanmıram... Sözsüz ki, əvvəllər qəzetlərdə çalışmış Zülfüqar bəy binadan istedadlıdı. Amma mən onu radioda, özü də BBC-də görüb tanıdım.

İlin sonunda jurnalist təşkilatları partapart mükafat paylayır. Mənim "jürimin" qərarına görə, ilin radiosu BBC, ilin jurnalisti Zülfüqar Rüfətoğludu. Biri Azərbaycanı yaxşı göstərdiyinə, o biri radio efirindən göründüyünə görə...

*2002*





## TORPAQLI YAZI...

Xatırınızdadısa, yeni minilliyə Qarabağsız adlamayacağımıza söz vermişdik: prezidentdən tutmuş Tuğ türkünə kimi. Yəqin o da yadınızdadı ki, Azərbaycanda yeni əsri iki dəfə bayram elədilər: 1999-ci ilin 31 dekabr gecəsi və 2000-ci ilin lap axırında. Özü də efirdən. Efir çox xatalı şeydi, ordan deyilən söz əvvəl ərşə qalxır, sonra aşağı enib ölkənin belinə kəmər kimi dolanır, dağların başında şimşək olub çaxır, dərələrin arasıyla suya dönüb axır, torpağın bağrını yarır. O sözü ağaclar budağında yelləyir, qarışqalar dən yerinə yuvasına daşıyır, arılar çiçəyin yaxasına taxır, otlar qulağında sırğa eləyir, torpaq dalına alır. Sözümüz yalana çıxanda təbiət qəzəblənir: dağlar dərələri ildırımla şallaqlayır, dərələr suyunu üzü yuxarı qovur, ağaclar budaqlarını kəsib atır, arılar çiçəyin yaxasını cırır, otlar qulağına daş yamayır, torpaq üstündəkiləri ayağının altına salır. 2001-ci ilin 25 noyabr gecəsi necə, xatırınızdadımı: torpaq bizdən hayıf aldı. Torpaq efirdən deyilən yalanın dalınca düşüb dü-ü-z Bakıya gəldi. Yatanları oyatdı, oyananları küçələrə tökdü, Ağ evdə lövbər salmış prezidentdən tutmuş başkənddə müvəqqəti daldalanan Tuğ türkünə kimi... hamının, hamının dediyi sözü, verdiyi vədi yadımıza saldı. İki il bundan irəli Bakıda ayağımızın altından qaçan da Qarabağ torpağıydı, srağagün şəkililəri ev-eşikdən perik salan da!

Hələ daşqınlar! Deyirik, Neftçalanı, Salyanı, Qazağı Kür basıb. Bəs Kürü məcrasından çıxaran nədi? Bəlkə İsa bulağıdı? Bəlkə İstisudu? Bəlkə Murovun göz yaşlarıdı? Bəs bu çəyirtkə hardan çıxdı? Ağdamla Ağdamın (?) sərhəddində əyilib torpağa qulaq asmısız? Dədə Süleyman qulaq asıb. Dediyinə görə, torpaq adamı söyür. İnanıram.

O üzdəki torpaq bizi çağırır, bu üzdəki torpaq bizi götürmür, ortadakı torpaq bizi söyür. Torpaq ortada qalmaq istəmir. Biz tor-

pağımızı ortada qoymuşuq. Torpaq arada qalmaq istəmir. Biz torpağımızı araya qoymuşuq.

Neçə vaxtdı, bu boyda ölkə bir ovuc çəyirtkənin əlində girinc qalıb. Qovurlar, öldürürlər, qaçmır. Sünbül hər yerdə var.Sadəcə torpaq şirindi...

*2003*

## ...VƏ HƏRBİ YAZI

Sarağagün 16 saylı islah-əmək müəssisəsində atışma olub. Yox, dustaqlarda təpər hardaydı, "zon"u qoruyan əsgərlər bir-birinə silah qaldırıblar. 19 yaşlı Ömər Əliyev aldığı yaradan keçinib. O Ömər ki, orduya doğulduğu Qarabağı işğaldan azad eləməyə gəlmişdi. Şuşada şəhid olmalıydı. Düşmən gülləsindən. Bakıda vuruldu. Əsgər yoldaşının avtomatıyla...

Ta srağagün Daşkəsəndə başqa bir əsgərimiz silahdaşlarını qumbaraya tutmuşdu. Yaxşı ki, ölən olmadı. Hərbi prokurorluq onu həbs elədi. Torpağı həbsdə olan ordunun cinayətkar əsgərini...

"N" hərbi hissəsində zabit əsgəri güllələyir. "M" alayında əsgər komandiri partladır. "R" qarnizonunda silah oğurlanır. "B" hərbi məktəbində qiyam qaldıran kursantlar ordudan qovulur.

"Düzlən!", "Farağat", "Azad!". Ordu leksikonunda bu söz kəlməbaşı işlənir. Amma bizdə... On ilə yaxındı əsgərlərimiz düzlənib... farağatca dayanıblar. Onlara bir "Azad!" deyən tapılmır. Harda görünüb ki, ordu həmişə "Farağat" dura?! Yox, ordu "Azad"da durmamalıdı, ordu azad eləməlidi! Yoxsa, ildə dörd yol xalqın balalarını Biləcəriyə nədən ötrü çağırırlar?! Əgər Azərbaycan əsgərinə "Azad" komandası verilməyəcəksə, ordu sadəcə dövlət atributu naminə toplaşırsa, onda hərbi hissələrə silah paylanmasın.

Fakt göz qabağındadı. Azərbaycan əsgəri daha "Farağat" dayana bilmir. Bir-birini güllələyir, minaya salır, qumbarayla o dünyalıq





eləyir. Belə baxanda... avtomat "Yanıq Kərəmi"çalmaq, qumbara qoz daşlamaq, tank sərnişin daşımaq üçün deyil. Əsgər "Farağat" dursa da, silah dinc durmayacaq. Bəlkə də srağagün 16 saylı islah-əmək müəssisəsində heç əsgərlər bir-birinə atəş açmayıb, silahlar özləri atışıblar?!

Vaxt gedir. Bir azdan qumbaralar bir-birinin üstünə tullanacaq, toplar bir-birini topa tutacaq, təyyarələr bir-birini bombalayacaq. Vaxt gedir. Orduya "Azad" komandası vermək lazımdı. Vaxt gedir...

*2003*

# TƏZƏ SƏTİRDƏN, ABZASDAN...

*Fatih Terimə və*
*Adil Qaçayoğluna*

Təəssüf ki, Türkiyə yığması dördqat dünya çempionunu dörd qatlaya bilmədi...

Yaxşı ki, ay-ulduzlu taqım məhz Skolarinin yetirmələrinə məğlub oldu...

Bu, dünyanın ən uduşlu məğlubiyyətidi – dosta arzulanası...

Günəşin övladları Gündoğana Günəş kimi doğdular...

Sabah Türkiyə-Cənubi Koreya qarşılaşmasında ev sahiblərinin qismətdən yumulu gözləri heyrətdən açılacaq...

İstedadlı adam əlini nəyə vursa, danışdırır: biz meydanda topu topa tutan millətik...

Türkiyə yığması beş oyunu on nəfərlə yola verdi – Hakan Şükür naşükürlük elədi, oynamadı...

Şenolçular Braziliya yığmasıyla srağagünkü mübarizədə meydanı iki oyunçunun umuduna qoydular – Rüştüylə Hakanın...

Rüştü qapısını it kimi qoruyan nadir qapıçılardandı...

Keçəl Həsən Şaş nakişi keçəl Həsəni beş kişidən biri elədi...

Əmrə özündən çıxmasa, əmrə tabe olsaydı...

İlhanın qolu qolun ilhamından yeydi...

Umud Davala innən belə kəkilinin tükü sanı qol vurasıdı...

Baştürk rəqibini aldatmadan topu əlindən alan duznəqulu oyunçudu...

Türkiyə yığması Məğlubiyyət dənizində batan azərbaycanlıların əlindən tutub onları Sahil bağına çıxardı...

Ay-ulduzlu taqımın qələbəsinə sevinənləri görəndə inandım ki, Azərbaycanda xırda xalq yoxdu...

Və dünya gördü ki, biz görürük ki, dünya bizi görür...





Nə vaxtsa türk süvariləri Yer yumrusunu top kimi atlarının ayağında oynadıb...

Türklər uzun illərdi, vaxtını qonaq ötürən kimi ötürüblər, indi vaxtın türkə qayıdan dəmləridi...

Bizim ki başımızla ayağımız qoşalaşdı, qurtardı getdi...

Tanrı türkləri gözütox yaradıb, amma ürəyimiz bir şeyi istədisə, vəssalam, ona çatasıyıq...

Türkiyə futbola nə can qoyub ki?! – olsa-olsa, tarixindən bir sətir, musiqisindən bir not, şeirindən bir misra ayırıb...

Ay-ulduzlu taqımın futbol geyimləri 250 milyon türkün dualarıyla süslənmişdi...

Türkiyənin yendiyi komandaların azarkeşləri də Anadolu türklərini alqışlayırdılar...

Türkiyə yığması sübut elədi ki, onu hesabda qabaqlamaq olar, amma meydandan çıxarmaq olmaz...

Türkiyənin qələbəsi Azərbaycanı Azadlıq meydanına çıxardı...

Azərbaycanın topu Ermənistanın sərhəd torunu dəlib keçəndə sevincdən Ankaranın altını üstünə çevirəcəyik...

Türkiyə Azərbaycana mesaj yolladı: Qarabağı on bir fanatla da qaytarmaq olar...

Allahın altında Azərbaycan bütöv Koreyayla cəngə girəydi, neyləyək ki, biz öz meydanımızda qələbə qazana bilmirik...

Ermənilər üzümüzün "sevinc buludunu" elə bil topla vurub dağıtmışdılar, Türkiyə top vuranacan üzümüzdən sevinc yağmırdı...

Qardaş olanda nə olar, biz Türkiyəyə bir "yağış" borclu...

Sonda: arzum budu ki, Braziliya dünya çempionu olsun...

2006-cı ildə Günəşin övladları beşqat dünya çempionunu beş qatlayacaqlar...

P.S. Türkiyə udanda özüm yazmırdım ki, düşər-düşməzi olar. Ta qorxusu yoxdu. Türkiyə qalibdi! Bu isə mənim idmandan ilk yazımdı. Oxşayır?..

*28 iyun 2002-ci il*

## ANAM ABDAL, ATAM GÜLABLI

Abdal-Gülablının işğalından 10 il də belə keçdi...

...Gərək heç nə yazmayaydım. İndiyəcən yazdığımın nə xeyri olub?!

Yazmışdım ki:

... Kəndimiz dağın döşündəki taxıl zəmisinə oxşayırdı, adamlar sünbül yeyən quşlara. Bir gün dağın o üzündən bir dəstə əlisilahlı yalı bəri adlayıb zəmini odladı. Quşlar uçub pərən-pərən düşdülər. İndi hərəsinin nəğməsi bir diyardan gəlir...

Yazmışdım ki:

...Abdal-Gülablının arasından su keçmirdi, hava keçmirdi, Günəş keçmirdi, canbir qəlbdəydilər, təndiri biri qalayırdı, çırpını o biri daşıyırdı, külfəni qonşu qonşuya açdırırdı ki, tüstüsü düz çıxsın, xeyir işləri olanda toy yiyəsinə aman vermirdilər ki, doyunca oynasın, yasda ölü yiyəsi camaata toxdaqlıq verirdi, "Allah özü bilən məsləhətdi – deyirdi – Allah eşqinə, özünüzü həlak eləməyin". Abdal-Gülablının arasından bircə torpaq yol keçirdi, həmin yolu hansısa dil müəllimi götürüb iki kəndin arasına qoymuşdu, yazanda Abdal-Gülablının arasından defis keçirdi, danışanda Abdal Gülablının təyini rolunu oynayırdı...

Yazmışdım ki:

...Camaat Günəşlə yatıb Günəşlə qalxırdı, şər vaxtı qeybət eləməz, qapı ağzında oturmaz, çörək üstə susar, ağsaqqal görəndə atdan düşər, maşınla keçəndə özündən böyüyü siqnalla salamlamaz, ocaq başında latayır danışmaz, arvadlar kişi görəndə yaşmanar, kişilər il uzunu papağı başından çıxarmaz, xalçaçılar hananın, bənnalar hörgünün ipini asılı qoyub evə tələsməzdilər. Sonuncu adətin qədimqayım fəlsəfəsi vardı: ip hananın, daşın üstündə asılı qalanda şeytan adamı yuxuda səhərəcən basıb işlədir...

Yazmışdım ki:

... Əsgərlikdən təzəcə qayıtmışdım. Abdal-Gülablıdan çıxmaz iş, yer-yurd alışıb yanırdı. Köhnə dostum aşıq Məmmədlə (universitetdə





müsabiqədən keçə bilməyəndən sonra mənimlə fəxr eləyən o kəndin acığına sovxozda fəhlə işləməyə başladım. Hər səhər arvadlara qoşulub fəhlə maşınına minəndə Soltanın bağının başında mənimlə rastlaşan müəllimlərim üzümçü Qulunu görəndə xəcalətlərindən yolun o üzünə adlayırdılar... Qərəz, əsgər getməmişdən aşıq Məmmədlə eyni briqadada çalışırdıq, onun bir qoca atı vardı, odur ki, işə maşınla gedib-gəlmirdi, aşıqla kələsərin arasında o qədər dərdləşmişdik ki, hərdən Məmməd kişi Mirzə Ələkbərin məşhur "Fəhlə" şeirini mənə dedirtməklə yaramın qaysağını qoparırdı: "Sən canın onu başdan de: "Fəhlə, özünü sən də bir insanmı sanırsan?!" Məndən ötrü deyib, bajoğlu, məndən ötrü deyib... "Həm də məndən..." – özümü üzümlüyün arasına verib bellə tənəyin gövdəsini kəsik-kəsik eləyirdim) rastlaşanda kişi atı özündən elə araladı ki, deyəcəyi sözü ikimizdən başqa bir canlı eşitməsin:

– O dədəmin goru, kənddə üzünə yağış dəyəsi adam qalmayıb, başını götür qaç, bajoğlu... Belimizdən xəlvət gələnlər bizi aşkar qırajaqlar...

Yazmışdım ki:

...Abdal-Gülablı Şuşanın "n" dəfə kiçildilmiş formasıdı, Abdal-Gülablı Şuşanın bacısı oğludu, oğul dayısına çəkər, 1992-ci ilin mayında əvvəl Şuşa əlimizdən getdi, sonra Abdal-Gülablı, bir gün keçməmiş Abdal-Gülablının külünü birtəhər geri aldıq, sentyabrın 4-də isə... külümüzü göyə sovurdular...

Yazmışdım ki:

...Gələn il bu vədə kəndimizdəyik.

...Bayrağımızı Şuşaya sancmağa az qalıb.

...Azərbaycanın möhtəşəm ordusu var.

...Gərək bu yazını da yazmayaydım.

Amma eşidəndə ki, "DQR" rəhbərliyi xaricdən gələn erməniləri kəndimizə yerləşdirmək istəyir, dözmədim. Koroğlu goru çatlamışın, altından Qıratını qaçıran keçəl Həmzəyə ismarıcı yadıma düşdü:

Canım Həmzə, gözüm Həmzə,
Həmzə, incitmə Qıratı...

## "BATAN SƏS OLDUN..."

Dünən "Yeni Yüzil" qəzeti xəbər yaydı ki, Flora Kərimovanın səsində problem yaranıb. Müğənni bunun əsəblə bağlı olduğunu deyib. Vəssalam...

Gün batanacan Flora xanımı evində tapmaq mümkün olmadı. Axşam Ülviyyə Sabirqızı xəbər gətirdi ki, müğənniylə yenicə danışıb, telefonda səsi güclə eşidilirdi, həkimlər ona nəinki oxumağı, hətta danışmağı da qadağan eləyiblər. Bəs Flora xanım bütün günü haradaymış? – Aydınlar Birliyinin növbəti toplantısında. Bəs Kərimova harda, nə vaxt, nədən ötəri əsəbiləşib? – ADP-nin ötən şənbə keçirmək istədiyi "qadınlar aksiyasında", "qaçqın" arvadların təhqirlərinə dözmədiyindən. Ülviyyə soruşdu ki, Qulu bəy, bunları hara yazım, geri səhifələr doludu? Dedim, siyasət səhifəsinə, çünki bunlar hamısı siyasətin fəsadlarıdı.

Mən həkim deyiləm, amma Flora xanımın diaqnozunu verə bilərəm:

1) istedadın təyinatına görə sərf olunmaması;
2) özünü özgə meydanda sınamaq cəhdi;
3) azarkeşlərin qınağı;
4) dünyanın faniliyini faciəyə çevirmək;
5) Şuşa həsrəti;
6) həssaslıq.

Və bütün sadaladıqlarımdan sonra Flora xanımı məhkəməyə vermək pis olmazdı. Qoy o, Rəmzi Ana Yasa Məhkəməsində cavabdeh kimi dindirilsin, Allah vergisini bəndələrə xərclədiyinə görə haqq divanına çəkilsin. Bəlkə də Flora Kərimovanın səsinin batacağı xəbəri onun xələflərini sevindirib, indən belə əl-ayaqlarının bir az da açılacağından toy-bayram eləyirlər. Tanınmış futbolçu İsgəndər Cavadov çoxdankı müsahibələrinin birində boynuna almışdı ki, "biz – "Neftçi"nin adlı-sanlı oyunçuları səbirsizliklə gözləyirdik, Banişevski yüzüncü qolunu vurub meydanı tərk eləsin. Banişevski gedəndən sonra isə "ötməyə" adam tapmadıq, bizdə





arxayınçılıqdan doğan tənbəllik yarandı"... Bu mənada Flora Kərimovanın neçə vaxtdı sənətdən az qala uzaqlaşmağı həmkarlarının ürəyincədi, o ki ola səsinin batmağı xəbərini eşidələr. Ancaq onları da İsgəndər Cavadovun taleyi gözləyir – bu sənətçilər heç vaxt Flora Kərimova olmayacaqlar!..

Müğənninin səsini batıran amilləri sayanda siyasəti qəsdən qələmə almadım. Çünki bu məsələyə təzə sətirdə, abzasda toxunmaq istəyirəm. Flora xanımın aktiv siyasətə qoşulmağı "inqilaba yardım" baxımından bəlkə də lazımdı, heç kəsə sirr deyil ki, müxalifətin mitinq və aksiyalarına qoşulanların bir çoxu əslində Flora Kərimovanı ziyarət eləməyə, ona doyunca baxmağa gəlir. Müxalifətdən olsa, əlbəttə, Habili, Qədiri, Alimi, Möhləti, Rəmişi... "Qələbə"yə çağırar, onların pərəstişkarlarının hesabına "20 Yanvar"dan kinoteatra kimi yolu bağlatdırardı. Bu üsuldan iqtidar da uğurla bəhrələnir. İntəhası, YAP-n yanında olmaq nə qədər can rahatlığıdısa, Müsavatda külüng çalmaq bir elə ağırdı. Xüsusilə qadın üçün. Özü də Flora Kərimova kimi. Səsini indən sonra qoruyası olduğu halda, "küləkli havalarda, yağışlı havalarda" istefa tələb eləyən müğənni gec-tez əsəbinin güdazına getməliydi. Flora xanım dünən əsəblərini "itirdi", bu gün səsini itirir, sabah biz onun özünü itirə bilərik.

Kimsə, nə vaxtsa hakimiyyətdən getsin deyə...

Kimsə, nə vaxtsa hakimiyyətə gəlsin deyə...

Mən həkim olsaydım, Flora Kərimovaya "s" hərfiylə başlayan bütün sözləri qadağan eləyərdim – hayıf ki, müğənninin adaşı – Sevgi də bu hərflə başlayır.

İş də orasındadı ki, həkim deyiləm, xəstəyəm – səsin və sözün xəstəsi. Allah mənə baxıb Flora xanıma şəfa versin...

*2002*

## "MEYVƏLƏRDƏN BİR MEYVƏ VAR"

Ötən həftə "kraskadan" təzə çıxmış bir tanış "manıs" xalq mahnılarını mənə xeyli təriflәyəndən sonra axırı qərara gəldi (yəqin şair olduğuma görə) ki, konkret misalla fikrini isbata yetirsin. Düzü, mən evə tələsirdim, təsadüfən rastlaşanda elə bilirdim hərif salam verib ötəcək, üstəlik, həkimdən kağızım da var ki, "kraska" iyi gələndə məni qaşınma tutur, bu zalım oğlu da qabağımı, türkün sözü, elə yerdə kəsdi, ta aradan çıxmalı deyildi, həm də söhbət xalq mahnılarından getdiyindən marağım artdı, çünki "manısların" çox gözəl və son dərəcə milli özəlliyindən az-çox xəbərdaram, əgər xalq mahnılarını təriflәyirlərsə, dalınca mütləq kimlərisə yıxıb-sürüməlidilər. Məsələn, estrada müğənnilərini: "niyə onlar estrada oxuyurlar?"Vay o gündən, hansısa estrada müğənnisi muğam oxuya: "niyə o, muğam oxuyur?" Bu cür suallar qəlbimi riqqətə gətirir, fəxr eləyirəm ki, dünyada bizdən başqa belə ağıllı söhbət eləyən yoxdu. Bağışlayın, "manısın" sözünü ağzında qoydum, hə, dedi, müəllim, şeirdə hikmətə bax: meyvələrədən üç meyvə var, biri heyva, biri nar. Dedim, qardaş, iki oldu axı. Bəs alma? Dedi, almayla qurtardıq. Bekara meyvədi. Almanın ki, üz-gözündən "Şur" tökülmədi, apar tök "Vosmoy"un axşam bazarına. Dedim, narı da rədd elə, o da yeyiləsi oburcubur deyil. Heyva bəsimizdi. Nəysə, Allah qapılarımıza şadlıq qismət eləsin, belə məlum oldu ki, "Meyvələrdən üç meyvə var" mahnısının bəstəkarı və müəllifi olan Xalq əməlli-başlı yanılıb. Dilxorçuluqdan sağollaşmadan ayrıldıq. Yolda murdarın birinə rast gəldim. Həyasızcasına salam verdi, mən də aldım. Bu yazını oxuyan kimi özünü tanıyacaq. İstəyirəm onu muştuluqlayım. Ötən həftə onun salamını aldığımdan işlərim tökülüb qaldı. Mən murdar şey toxunmuş ələ qələm götürmürəm. İyi çəkilib gedənəcən. Bəlkə də inanmazsız, həmin axşam kafedə İngiltərə çempionatını izləyəndə Rəmişlə rastlaşdım. Gitaraçı gileyləndi ki, onu qəzetdə bir nəfər biabır eləyib. Gülünün





sumkasından tapıb çıxartdığı "zapiska"da Seymur Baycanın adı yazılmışdı. Əlbəttə, mən Seymuru tanığımı boynuma almadım, çünki "Çelsi" "Liverpul"u qapıya dirəmişdi, mən Sissokonu onların hər ikisindən çox istəyirəm, ən azı ona görə ki, Rəmişdən bir neçə veriliş, beş-altı yazı qələmə almışam – qoltuğunda Seymur Baycanın yazısını gəzdirir, Seymur Baycan qonaqlığı məndən istəyir, yazını Rəmişdən yazır.

...Ötən həftə muğam üstdə ötdü...

Axır ki, "narodniklər" də köşklərə yanaşdılar, qəzet aldılar, höccələdilər, oxudular, heyrətləndilər, söydülər, tüpürdülər, qəlyan çəkdilər, redaksiyalara zəng vurdular, etiraz elədilər, mətbuat konfransı keçirdilər, gərnəşdilər, gəyirdilər, qımıldandılar. Nə var-nə var, hansısa bir cavan uşaq bostanlarına daş atıb. "Alma" əl-əl gəzdi. Muğamçıların mövqeyini müdafiə eləyən qəzetlərisə alıb oxumadılar. Oxumayacaqlar da! Ona görə, altı qitə – altı materikin adını soruşanda mikrofonu qaval kimi başları üzərinə qaldırıb, şəstlə kameraya deyirlər: "Yeni Zellandiya, Skandinaviya, Yupiter, Mars və Yuri Qaqarin..." Gülağa Tənhanı böyük şair adlandıran xanəndədən ta nə gözləyəsən?!

...Mən muğamatı xanəndələrdən az istəmirəm. Mənim muğam yazılarım onların çoxunun muğam oxularından yaxşıdı. İndiyədək muğam haqda yazdıqlarıma ancaq qələmdaşlarımdan reaksiya görmüşəm. Vəssalam. Görünür, muğam oxuyanlar muğam yazısı oxumurlar. Məni şou-biznes əhli maraqlandırmır. Məndən olsa, onlar nə mahnı oxuyarlar, nə qəzet. Muğam ustaları, hərdən yazı da oxuyun. Özü də təkcə Yeniseyin yazısını yox...

*Fevral, 2008*

# XƏRÇƏNGDƏN QORXANLAR

“Budu ilin dörd fəsli:
Yay, Payız, Qış,
Bir də Sən...”

Qapımı şəstlə açıb içəri girdi. Salamlaşandan sonra kitabımın çapı ilə maraqlandı. Tənbəlliyimə görə, məni qınadı da! Dedi ki, “Adiloğlu”da tanışı var. Mənə kömək eləyə bilər. “Görəsən, sözünün canı nədir bunun? Axı biz heç fərli-başlı tanış da deyilik”. Yerimdə qurcuxmağım xoşuna gəlmədi. Özü kimi səliqəli portfelindən (“O, portfelin içində nə gizlədir?”) bir kitab çıxarıb mənə uzatdı. Sonra geri alıb avtoqraf yazdı. “Qələm dostum gözəl şair... dərin hörmət və ehtiramla. Müəllifdən xatirə. 08.07.2002.” Bir də ev telefonu. Mən bu nömrəyə heç vaxt zəng vurmadım. İndən sonra da vuran deyiləm. O, sağ olanda mən nömrəni yığmağa ərinirdim. İndi bəlkə də o, dəstəyi götürmək istəmir. Ola bilər, nömrəsi dəyişib. Bu dünyada çox şey mümkündü. O dünyanı deyə bilmərəm.

“Hamı halına acıyır,
Dost kimi, tanış kimi.
Sonra da dönüb gedərlər
Heç nə olmamış kimi...”

Tofiq abi dedi ki, Böyükxan sənin kitabını istəyir. Özü də deyir, mən Quluya nə cür kitab bağışlamışamsa, həmin qaydada da əvəzini çıxsın. İş elə gətirdi ki, “Qobustan”a gedəndə rastlaşdıq. “Natəvan” klubunun qabağında dayanıb qadın yazarlardan biri ilə söhbət eləyirdi, daha doğrusu, ona nəyisə başa salmağa çalışırdı. Bir dəfə də müşahidə eləmişdim, Böyükxan Pərviz qabağındakına nəyisə başa salmaq istəyən adama oxşayırdı, bu da bəs eləyir ki, ondan gen qaçım. Görəsən, mən ona nə yazıb verdim? Xatırlamıram...





“Hə, nə başını ağrıdım?
Dedikcə söz uzanır.
İndi hamı çörəyini
Susmaq ilə qazanır.”

Böyükxanla görüşümüzdən bir ay keçməmiş həmin “Natəvan” klubunda kitabımın təqdimatı keçirildi. Tədbir bir az çox çəkdi. Oturduğum “şahlıq taxtında” duruş gətirə bilmədiyimdən tənqidçi dostum, tədbirin aparıcısı Arif Əmrahoğlundan yekunlaşdırmağı xahiş eləyirdim ki, Böyükxan söz istədi. O, bir ay qabaq “Natəvan”ın çölündə qadın həmkarına başa sala bilmədiyini indi “Natəvan”ın içində, deyəsən, mənə anlatmaq istəyirdi.

Qeydləri yerinə düşmədi. Həm də ona görə ki, sözünün bir ucu Tofiq abiyə bağlanırdı. Biçarə Tofiq bəy! Hərdən onu əl-üzyuyana oxşadıram. Hamı içinin kirini, pasını ora axıdıb təmizlənir.

Böyükxanla növbəti rastlaşmamızda onun xətrinə dəyməyi planlaşdırdım.

“Dost, burda hər yer bağlıdır,
Açılmaz, ha döyələr.
Sən heç “qapılar açılır”
Eşitmisən deyələr?”

Böyükxan məni qabaqladı. Onun əcələ belə asan can verməyi xətrimə dəydi. Dili bizə çıxırmış. Böyükxan oxatan bürcündəndi. Kitabını oxuyanda bildim. Oxatan xərçəngdən güclü olmalıdı. Böyükxan bundan niyə xəbər tutmayıb?..

“Qabağında bir az şərab
Bir az dünənki şordan.
Hələ günah etmək olar
Xəbərin yoxsa gordan”.

“Ədalət” qəzeti elə belə də yazmışdı: “Böyükxan Pərviz öldü”. Bir gün irəli Mürtəza vay xəbərini gətirəndə inanmadım. Bütün

gecəni Allaha yalvardım ki, Böyükxanı bizdən ayırmasın. Səhər köşkdə qəzetləri varaqladım, gördüm salamatçılıqdır. Onu qəzetlərdən "Ədalət" "öldürdü". Gördüklərindən ədalətsizlik.

"Günahım səni sevməkdi" kitabında Böyükxan yazır:

"Arxada qalan ömürdü
Qarşıdan gələn daşdı.
Bir şərəfli ölüm vardı
Ölmədim, ucuzlaşdı".

O, həvəslə hazırlaşdığı əlli illik yubileyinin astanasında vaxtsız və bəlkə də şərəfsiz ölümə ürcah oldu. Öldü, bahalaşdı...

...Bu dünyada xərçəngdən təkcə oxatanlar qorxmurlar...

*20 may 2003-cü il*





# NADİR – REJİSSOR

Mənim cavanlığın qocalığıyla, qocalığın cavanlığının tən ortasında dimdik dayanan personajımın təvəllüdü imkan verir ki, istəkli oxucum onun siluetini oktyabryat, pioner, komsomol... (kommunist yox, ondan kommunist olmazdı) nişanında təsəvvür eləyə bilsin. Əgər onun milli damarı nə vaxtsa (heç olmazsa, bir aylığa!) tutulsaydı, əlinə K. Marksın "Kapital"ını götürüb türkçülüyə heç də üzqaralığı gətirməyən bu sözləri oxuyardı: "Ən pis memar da ən yaxşı bal arısından onunla fərqlənir ki, memar hələ mumdan şan qayırmazdan əvvəl onu öz beynində tədarük eləyir".

O, Marksı oxumayıb!

Ancaq Q. Myasnikovun kino sənəti haqda qənaətini mütləq bilməlidi! "Hər hansı filmi (verilişi, süjeti, kadrı – Q.A.) çəkməkdən, kinoaparatla əks elətdirməkdən qabaq onu GÖRMƏK lazımdır!.."

Bəlkə axır ki, gələk mətləbə?!

Gələk...

Gələk, görək Nadir Diridağlı 20 ildi televiziyada nə çəkir...

"Ömrün ayları", "Yol", "Molla Nəsrəddin", Qarabağ müharibəsindən sənədli filmlər, Novruz bayramına, Yeni ilə həsr olunmuş kütləvi verilişlər və... əziyyət. Ayağında "krassovka", əynində saysız-hesabsız cibi olan "cins" kostyum, üzündə eyni biçimdə saqqalı, saqqalın altında təbəssümü, aşıb-daşan enerjisi, təsvirdən bayılmağı, sözə dözümsüzlüyü... İlk dəfə onunla "Yol"un ssenarisini müzakirə eləyəndə az qaldıq dalaşaq. Əlimdəki səhifələr və mətnin poetikası onu hövsələdən çıxardı. Mən Nadirin yanında bəraət qazanmaq üçün Paustovskidən bir misal gətirib dedim ki, hər bir sənət, o cümlədən, Az.TV özündə dərin şeiriyyət ehtiva eləyir. Əsl mərəkə də elə bundan başladı. Diridağlı bədbəxt Paustovskinin (Allah günahımızdan keçsin!) ölüsünü, dirisini qəbirdən çıxarıb Az.TV-nin çayxanasının qabağına düzdü, onları mənə bir-bir

saydırandan sonra çıxıb getdi. Bir saat keçməmiş radiodakı otağıma gəldi, heç nə olmamış kimi mətni üzümə zəlil elətdirdi, əzbərlətdi və biz beləcə birgə "Yol"a çıxdıq. Montaj günləri o, heç kimə salam vermirdi, gecələr yatmırdı, çörək yemirdi – özü bilərdi, neyləyim, – pis oydu ki, mən qapının arasında qalırdım. Gah məni içəri çağırırdı, gah da çölə qovurdu. Mən də dinc durmurdum, növbəti çəkilişdə kadrda qəsdən yüz kərə karıxırdım ki, heyfimi çıxım.

Biz bir-birimizə çox toy tutmuşuq...

Biz bir-birimizə toy eləmişik...

1996-cı ilin mayında Eldar Baxış ölüm ayağında olanda bütün ölkəni sarsıdan o məşhur süjeti Nadir Diridağlı kameranın arxasında yumruqlarıyla gözlərinin yaşını silə-silə, yox-yox, gözüyumulu çəkmişdi...

Şahmar Ələkbərzadənin vəfatıyla bağlı – mənim ssenarimlə – çəkdiyi verilişdəki kadrlardan birində – Rəmişin gitarasının simini qırıb şairin qəbrinə basdırdığı səhnədə də Nadir kameranın arxasında "yoxuydu". Həddən artıq vasvasılığı üzündən "sam sebe operator"luq eləyən Diridağlı texnikanın dilini bəlkə də öz dilindən yaxşı bilir!

O günü eşitmişəm ki, Az.TV-dən çıxıb. 20 il veriliş, film və əziyyət çəkdiyi yerdən. Keçib İctimai Televiziyaya...

Ona heç vaxt xoş söz deməmişəm. İndi deyirəm. Nadir – rejissordu. İTV-ni izləyəcəm ona görə.

Əgər bu yazını oxusa görəcək ki, K. Marksın da, Q.Myasnikovun da, lap elə o biçarə Paustovskinin də dediklərinin ona dəxli var. Nadir heç vaxt müsahibə verməyib, kadrda görünməyib, ondan yazmağa qoymayıb. Bu yazıyla mən onun qarşısında günah işlədirəm. Nadir bu günahı mənə bağışlamayacaq – bilirəm.

Əgər bazar günü köşklərdən "Alma" tapmasanız, deməli, Diridağlı qəzetin bütün saylarını alıb gizlədib...

*2007*





## QADIN MƏNİMÇÜN KİMDİ...

– Qadın mənimçün Anadı – doqquz ay sərasər bətnində böyümüşəm, döşündən süd əmmişəm, laylasına uyumuşam, dizinə baş qoyub yatmışam, saçını ağartmışam, namusunu qorumuşam, təqaüdünə göz dikmişəm, alxışı üstümdə olub və s...

Qadın mənimçün Sevgidi – həmişə vüsalına can atdığım, başına döndüyüm, qadasını aldığım, gecəmi səhər eləyən, yatanda üzümü Allaha çevirən, sirrini ölüncə anlamadığım Sevgi...

Qadın mənimçün Şeytandı – insanları yolundan çıxaran, müharibələrə sürükləyən, kanonları və qanunları pozan, hər şeyi öz iradəsinə tabe elətdirən, bəzən nə istədiyini özü də bilməyən mələksimalı Şeytan...

Qadın mənimçün Koddu – yığıb da heç yerə düşmədiyim, hər qatının altında bir qat da gizləyən, hərdən Allaha, hərdən Şeytana yığılan Kod...

Qadın mənimçün Örnəkdi – mən Kişiliyi arabir ondan öyrənirəm...

*04 mart 2000*

## "CANIMDA CAN..." AĞRISI

(*absurd təəssürat*)

...Amma yox, möcüzə-filan gözləmirdim, onsuz da köhnə dostum İbrahim İbrahimlinin istedadına az-çox bələdəm, Vaqif İbrahimoğlunun öz "bədən quruluşuna" bənzər quruluş verdiyi tamaşaların bir çoxuna – gözümün ucuyla da olsa – baxmışdım, teatrşünas olmadığımdan qələmi əlimə alıb nəsə yazmaq istəyəndə "Yuğ"un yaxşısıyla yamanı mürəkkəb kimi varağın üstünə dağılıb, düşüncələrimi alt-üst eləyirdi.

Tamaşanın "alt başlığı"ndakı "iki hissəli əsassız epikriz" sözlərisə bir azdan gələcəyim qənaətlərimdə bəri başdan təbəddülat yaradır, səhnədə striptiz göstərən aktrisa xanım barədəki söz-söhbətlərə qarışıb məni işdən Azdramaya aparan yoldan eləmək istəyirdi.

...Odu ki, beş addımlıq yolu taksiylə gedəsi oldum. Və iş elə gətirdi ki, məni lap qabaq cərgədə otuzdurdular, o qədər qabaqda ki, mən az qala tamaşaçılardan çox, aktyorların arasında idim, "Yuğ"un qaranlıq səhnəsində ağlını itirən Canlı Canın (Kamran Yunis) başına ağıl qoymaq, onun kölgələrini ayağımın altına salmaq, arabir – tamaşaçıların arasında çox güman ki, şəstlə oturan müəllifə baxıb "dünyanın ipini boş burax, qağa" demək istəyirdim. Qəhrəmanın ağrıları, qarabasmaları niyə belə tanışdı, yoxsa nə vaxtsa mən də belə gicləmişəm? Cavanşir Quliyevin musiqisi bəlkə qulaqlarımda tamaşadan əvvəl də səslənib? Görən, Əlisəmidi boşladılar? Deyirlər, o da pyes yazır...

Yox, məni heç kim saxlaya bilməz, Vaqif İbrahimoğluna əsl eksperimentin nə olduğunu göstərməyin vaxtı çatıb, ayağa qalxıb şəstlə – eynən İbrahim kimi – səhnənin ortasında üstünə parçalar bağlanmış ağaca sarı addımlayır, qalstukumu boynumdan açıb "niyyət budağının" alnına çalıram: İlahi, bizə rəhmin gəlsin, səndən bu millətə ağıl istəyirəm... El bil, hamı irəli düşəni gözləyirmiş: kimi dəsmalını, kimi şərfini, kimi pencəyini, kimi şalvarını çıxarıb





ağacın başına atır. Aktyorlar əl çalır, tamaşaçılar baş əyirlər. Vaqif İbrahimoğlu İbrahim İbrahimliylə nəsə xısınlaşır. ANTRAKT!..

Çıxıb bir az hava alsaq, yaxşıdı. "Yuğ"un havası tənəffüsdən ötrü deyil, yox, havalanmaqdan ötrüdü. Bir nəfəs, iki nəfəs, üç nəfəs... Nəfəsdi, bəsdi, gedək ikinci hissəyə baxmağa. Lazım olsa, özümüz də oynayarıq... Yenə mehmanxana, yenə şair, yenə kölgələr dördlüyü, yenə qarabasma, yenə qapıçı və yenə Cavanşir Quliyevin adamın əsəblərində çalınan musiqisi. Dəli ağıllanmır, kölgələr qaranlıqda belə yox olmur, əlində gül dəstəsi tutan qızsa ilim-ilim itib. Deyəsən, birinci hissədə şairi "bişirmək" istədiyinə görə onu işdən çıxardılar. "Bəlkə mənə qadın nəvazişi lazımdı?" – kölgə olanda nə olar, ağıllı söz deyir. Bir azdan "itən" qız peyda olur, "tül gərdəyin" arxasına keçib qara paltarını soyunur. Bir, iki – bizimki, üç, dörd – Vaqif bəy, ayıbdı, qızın üstünə bir şey ört!.. "Bu qız heç vaxt əxlaqsızlıq eləməyəcək!.." – bunu şairin ağrıları deyir, dili demir. Dili deyən kimi ağıllanacaq. "Qızı soyundurmaqla Vaqif İbrahimoğlu nə demək istəyib?" – tamaşaçının gözü "Yuğ"un bədii rəhbərinin ağzındadı, bilə-bilə ki, Vaqif bəy ən sakit tamaşaçıdır, zalda daşdan səs çıxsa da, ondan səs çıxmaz. Bayaq da bir iş idi, tamaşaçıların oyunu onu karıxdırmışdı – İbrahimlə xısınlaşmaqlarını deyirəm.

...Axırı yaxşı oldu, "Canımda Can..."ın qarabasmalarını Azərbaycan Dövlət Radiosunun xəbərləri qovub dağıtdı. Diktor Eldost Bayramın oxuduğu son xəbərlər, xüsusilə Heydər Əliyevin Rusiyaya səfərinin uğurla davam etməsi xəbəri Canlı Canın ağlını başına gətirdi.

Düz deyiblər ki, şairlərin hərəsi bir cür dəli olur. Hərəsi də bir cür ağıllanır. Məsələn, mən vaxtilə ağılla-başla işlədiyim radionun səsini indi eşidəndə başım xarab olur...

# ÖLÜMLƏ GİZLƏNPAÇ OYNAYAN

– Dostlarla qurtardım, hamınıza nifrət eləyirəm! – Yeddi ildə yetmiş dəfə eşitmişəm bu sözləri: təxminən beş dəqiqə söyüb-söylənib, yumruğunu havanın alnına döyəcləyirmiş kimi dirsəyini büküb, qolunu başı bərabəri qaldırıb, hikkəylə sümürdüyü siqaret tüstüsünü ciyərlərində həbs eləyib, dodağımın çənədən aşağı düşdüyünü görüncə hirsini tüstüqarışıq havaya püləyib, başlayıb, nə başlayıb: "Deyəsən, yuxusuzsan? Evədə nə var, nə yox? xətrinə dəyən varsa, salım ayağımın altına! Maa bax, "iki şirvan"a harda oturmaq olar?.."

Zakirdən danışanda yadıma Vaqif Səmədoğlunun Anar haqda yazdıqları düşür. Çox xırda bir improvizədə: Zakir Sadatlı gözəl jurnalistdi – kimsə deyə bilər ki, nəyi gözəldi, on ildi Az.TV-də işləyir, heç üzünü də görməmişik; onda Zakir Sadatlı yaxşı şairdi – kimsə deyə bilər ki, nəyi yaxşıdı, AYB-nin soraq kitabçasında adı da yoxdu, onda Zakir Sadatlı orijinal nasirdi – yenə kimsə deyə bilər ki, kitabını qoy ortalığa, deyim hə; iş ki belə oldu, Zakir nümunəvi ailə başçısıdı – onda da Vətəni (oğlunun adıdı) görənlər daş atıb başını tutacaq; Zakir yaxşı oğlandı – məsələ bitdi, ta heç kim səninlə söz güləşdirməyəcək! O qədər yaxşıdı ki, Anar Niftəliyev kimi zəhər tuluğu Zakirin başına fırlanmaqdan yorulmur, desəm inanmazsız, hələ onunla şirin-şirin danışır da!..

Zakir Sadatlı həm də:

– doğan Günəşə "Allah balanı saxlasın" deyən;
– sinəsini sərinlədən bulaq suyunu pivəyə qonaq eləyən;
– dərdi araya qoyub özünə güldürən;
– gəncliyini Əfqanıstan çöllərində qocaldıb heydən salan;
– istedadını abrının qoltuğunda daldaladan;
– dost üçün – filtrsiz siqaret kimi – hər iki ucundan alışıb yanan;
– potensialının cüzi bir hissəsini dövriyyəyə çıxaran;
– dillə başa salmadığını əllə qandıran... kişidi.





Zakir danışdıqlarını olduğu kimi yaza bilsə, dahi olardı. Zakir dahi olsaydı, adamlığından kəsib qələminə yedirərdi. Əgər belədisə, Zakir heç vaxt dahi olmayacaq...

Zakir – hərb mütəxəssisidi. "Müharibənin estetikası"ndan indiyəcən niyə əsər yazmayıb – anlamıram...

Zakir – əsl döyüşçüdü. İşə ancaq metroyla gedib-gəlir ki, özünü səngərdəki kimi hiss eləsin...

Zakir 40 yaşınacan bəlkə 40 dəfə ölümlə gizlənpaç oynayıb: uşaq vaxtı dostu Sabirlə, Əfqanıstanda ağdamlı Bakir Qəmbərovla, türkmən balası Amangəldiyevlə, rus zabiti İzmalkovla, Qarabağda rejissor dostu Taleh bəylə... Və hər dəfə elə yerdə gizlənib ki, ölüm onu tapa bilməsin. Bu, çox xatalı və sadə oyundu: ölüm həyatda gizlənənləri dərhal tapır, amma ona sığınanları özündə axtarmağı ağlına da gətirmir...

Zakir – qırxını ayaq üstə üstə mərdi-mərdanə çıxaran tək-tük adamlardandı. Mən hərdən Allaha yalvarıram ki, Zakir dostlarına doğrudan nifrət eləsin və indiyəcən boğazından kəsib bizə yedirtdiklərini indən sonra qələminin qabağına töksün...

*May, 2001*

## 33

Uçulacaq suvaq kimi
töküləcək gün işığı.
Çox gəlmişik, çox gəlmişik,
Allah baxır üzü aşağı...

***Qurban***

14 mart Qurban günüdü. O, ədəbiyyata göylərdən gəlib...

Atası Yaqub kişi üç gecə yuxusunda oğlunu qurban istədiklərini görür. Üçüncü gecənin səhəri uşağın əlindən tutub Söz dağına çıxarır. Uzaqda heyva kimi bərq vuran Sarı Torpağı göstərib deyir: "Mən çobanam, oğul, peyğəmbər deyiləm. Qəssabam, qatil deyiləm. Başını kəsmirəm, amma səni Sözə Qurban deyirəm. O görükən Sarı Torpağı tutub get"... Qurban Sarı Torpağı adladı, çəmənliyin maviliyində üz-gözünü islatdı, yolu yorduqca dizinin təpəri artdı, ürəyini çiyin sumkasına büküb əvvəl özünü Ay işığına vurdu, sonra "Xəzər"ə, burnunun qanını axıda-axıda dan yerini qızartdı, "Ağ yol"da "dikinə misralanan quyuları" quyudan çıxarmaq, "suvağı tökülən gün işığını" təzədən göy üzünə yapmaq istədi. "Allah mənim son mənzilimdi – dedi – kim mənə yoldaşlıq eləyər?" Özünü Qurbana qurban deyən qadın elə bil köksündən qopub gəldi. O, Qurbandan nə istəyirdi görən – bilmədi. Bəs Qurban? – "Bəlkə öləm – onda biləm, Nə umuram qadından..." Bir azdan qadına iki uşaq da qoşuldu. O gündən Qurban getdiyi yoldan qorxmağa başladı. Geriyə – öz "Eqo"suna çəkildi. "Adaşım yox – bu mənəm, Məni də gör, İlahi..." Tanrı Qurbanı görürdü: ona qələm verdi – Gülnara bağışladı, kağız yolladı – Könül cırdı, hövsələsini genəltdi – oturub qəzet çıxardı. Beləcə, neçə illərdi Qurban özünü sözə yox, sözü özünə qurban verməklə məşğuldu. Şair taleyindən qorxur, nəsr yazmağa səbri çatmır, Yaqub kişinin yuxusunu tərsinə yozmaq istəyir...





Bu gün Qurbanın günüdü. İrəlidə azından yüzlərlə, minlərlə belə gün var. 33 yaş nədi ki? Amma onu arxayın görəndə dilxor oluram. "Bütün günü ov kimi həyəcanlı olmuşam..." Qurbanın təbii halı bax, budu! Çoxdan yazmaq istədiyi romanın bütün tikinti işləri hazırdı, bünövrəsi tökülüb, bircə daşını qaldırmaq, üstünü örtmək qalır. Malanı rahla, palçığını qat, Qurban! Roman – sənin təzə evindi. Evgördüyə nə vaxt gəlirik?..

Bir də: Qurban əcnəbi sözüdü. Həm də yox. "Qur" – tik, düzəlt deməkdi, "ban" – yük yeri. Deməli, Qurbanın bir mənası da "yük yeri düzəldən"di. Yəqin ona görə özüm başda olmaqla dostların çoxu içinin zəhrimarını – ürəyinin sevinci qarışıq – hamıdan qabaq ona yükləyir.

Yükün ağır olsun, qadoyu alım!..

*Mart, 2001*

# KÖHNƏ BAYATI

(*"Ərzi-əsri-hal-namə"dən sətirlər*)

...Məktəbin həyətində sıraya düzüldük. Hamımızın əli qoynundaydı. Yəni ki, təəssüflənirdik: on il nə tez ötüb keçdi, İlahi? İlahi?! Yox, bu söz çoxumuzun ağlına da gəlmirdi. Biz nümunəvi sinif idik. Yaxşı oxuduğumuzdan Allaha o qədər də inanmırdıq. Ancaq o gözəgörünməz kişinin möcüzəsi göz önündəydi. Biz bir daha bu sınıq-salxaq məktəbin dəmir qapısından içəri adlamayacaqdıq! Balaca bir uşaq – orta məktəb hesabıyla o, birinci sinif şagirdi olmalıydı – dəmiri dəmirə döyəclədi. Yəni ki, son zəng çalınır. Sonra bizə gül bağışladılar. Birincilər şeir dedilər. Müəllimlər bizə mütləq instituta girməyi tapşırdılar. Amma əvvəlki hökmlə yox, utana-utana. Biz də utana-utana başımızla razılığımızı bildirdik. Müəllimlər bizi unutmayacaqlarını söz verdilər. Uşaqlar kövrəldilər. Qızlar döşlükləri ilə gözlərini qapadılar. Yəni ki, "biz oğlanlardan da etibarlıyıq". Oğlanlardan kimsə burnunu çəkdi. Hesab bərabərləşdi. Sonra qızların göz yaşında boğulmuş döşlüklərinə qəhərdən islanmış ürəyimizin sözlərini yazdıq. Vəssalam! Pis oxuyanlar üçün məktəb qurtardı. Yaxşı oxuyanlar imtahana hazırlaşmağa getdilər.

Ucaboy ədəbiyyat müəllimi məni qırağa çəkib dedi:

– Sən yaman böyümüsən!

O, məndən çox uzun idi. Odur ki, mənim böyüməyimə onun həsəd aparmağı ürəyimcə oldu. Ədəbiyyat müəlliminə yuxarıdan aşağı baxıb susdum və dönüb getdim. Sonrasını bilənlər bilir. Attestatıma ədəbiyyatdan "üç" yazmışdılar. Cavid Əfəndidən sərbəst inşa yazdığıma görə ailəmin kimliyini yoxlatdırmışdılar. Məndən xəbərsiz. İmtahanda yazdığım sərbəst inşa rayonda xüsusi komissiyaya təqdim olunmuşdu. Kimlər təşkil eləmişdi bunu – sinif yoldaşlarım hər şeyi bilirdilər. Elə bilirdim, məni müdafiəyə qalxacaqlar. Axı onlara qoşulub mən də çox oyunlardan çıxmışdım. Yoldaşlıq na-





minə, dostluq eşqinə. Heç kimin səsi çıxmadı. Məndən köçürənlər "yaxşı", "əla" qiymətlər aldılar. Halalları olsun! Ancaq gərək halallıqlarını özləri istəyəydilər.

Attestatı alıb məktəbdən çıxanda onu möhkəm yerdə gizlətdim ki, görən almasın (universitetdə müsabiqədən keçməyəndə də sənədləri həmin yerdə "ört-basdır" eləmişdim). Geri dönüb məktəbin üzünə baxmaq istədim. Məktəb üzünü yana çevirirdi...

Nə vaxtsa! hamısını! yazacam! hamısını! öz adıyla! Sakitlik vaxtı. İndi zəngin səsi mane olur. Son zəngin yox, işğal zənginin...

Yaxınlarda Yaşar yanıma gəlmişdi. Neçə illərdi, bir-birimizi görmürdük. Yekə kişi olub. Bərdədə mühasib işləyir. Deyir, balalarım səni çox istəyir. Deyir, səninlə fəxr eləyirəm. Deyir, sinif yoldaşlarımız səndən inciyib. Deyir, niyə demirsən, harda itib-batmısan? Xaliqi xatırladıq. İçimizdə ən sakit uşağı. Sakitcə dərsini oxuyurdu, sakitcə şəkil çəkirdi, sakitcə orduya getdi, sakitcə döyüşdü, Ağdamın işğalı günü sakitcə də yoxa çıxdı. Sağ olsaydı, sakitcə hamımıza baş çəkərdi.

Yaşarla iyirmi üç nəfəri güclə sayıb qurtardıq. Az qala hər addan sonra ikimiz də tutuquşu kimi eyni sözü işlədirdik: "Görsəm, bəlkə də tanımaram". Qızlardan birinin əri müharibədə həlak olub. Biri də bu yaxınlarda dul qaldı. Ordan-burdan eşitmişik. Yaşar köhnə macəralarından da söz açdı. Gülə-gülə, elə-belə. Danışdıqca uzaqlaşırdı, doğmalaşırdı, yaddaşımızı suya çəkdikcə ikimiz də durulurduq.

Ayrılanda Yaşara İsa İsmayılzadənin bir şeirini xatırlatdım:

"On yeddi il keçib o vaxtdan bəri.
Deyimmi kim kimi sevirdi, qızlar?"

Yaşar and verdi ki, bu may uşaqları bir yerə yığım. Oturub yaxşıca dərdləşək, yeyib-içək, susaq, ağlaşaq. Təki on yeddi ildən sonra yarım saat bir yerdə olaq. Mən razılaşdım. İndi baxıram ki, günah eləmişəm. Ötənləri heç varaqda da bir yerə yığmaq olmur...

*24 may 2003-cü il*

# ADAŞIM... MÜBARİZ ÜÇÜN

Əzizim Mübariz Süleymanlı!

Görünür, mən də artıq (artıq yox, bu sözdən zəhləm gedir, elə “yerində” desəm, yaxşıdı) yaşlaşıram, yoxsa dostumun 50 yaşı olmazdı, dost kimi sən mənim başqa bir adımsan, həm də mənim ilk adım elə Mübariz olub, daha doğrusu, Zeynalov Mübariz – o vaxtın məşhur futbolçunun şərəfinə Ələmdar qardaşım məni belə çağırıb, sonra Həsən əmim yaş kağızıma “Qulu” yazdırmaqla məni “Mübariz” olmaqdan yayındırıb, odur ki, mən bu həyatda Mübariz ola bilmirəm, yəqin heç o biri həyatda da hər dana başına bir çatı salmayacam;

amma öz aramızdı, heç sən də anti-Mübarizlikdə məndən geri qalan deyilsən, yəni: Mübarizdən çox, Qulusan – Allahın Qulu, Dostun, Ailənin, Sözün Qulu... belədə ikiqat adaş oluruq, sən Qulu Mübariz kimi, mən Mübariz Qulu kimi, ya da elə əksinə;

səni radioda görüb tanıdım, kim deyir axı radio göstərmir – göstərir! kim deyir axı radio eşitmir – eşidir! radio göstərməsə, mən səni görməzdim, radio eşitməsə, deməzdim: “Radio, Mübarizdən müğayat ol”; radio jurnalistinin işi danışmaqdı, öz təcrübəmdən bilirəm bunu, amma sən danışan yox, dinləyən kişisən, bu da bir işdi, kişi işidi;

Hegel deyirdi ki, “Həqiqət – böyük sözdü, amma Əməl ondan da böyükdü, kimin qəlbi, ruhu təmizdisə, bu sözü eşidəndə köks qəfəsi qabarır”, mən sadəcə “köksü qabarır” deyərdim, amma neyləyim ki, Hegeli tərcümədən belə oxumuşam, sən Əməl adamısan, Mübariz kişi, iş görən, dada çatan, haya yetən oğlansan;

deyir: bir yolçu ağsaqqaldan soruşur, Səmərqəndə neçə günə gedə bilərəm, ağsaqqal cavabında qayıdır ki, beş addım at, deyim; sən yerişindən Əməl adamısan, dayanıb lillənməkdən, iylənməkdən qorxan su misalısan, bir də Həqiqətə çatmaq üçün ikicə addımın gərəkdiyini irfan əhlindən öyrənmisən, yəni bir addım bu dünyadan, bir addım o dünyadan atsan, olarsan Həqiqətin yanında;





bu dünyadan atdığın addımları saymaq üçün gərək sayğac qurasan, o dünyadan atdığın addımları özün say, zəhmət olmasa, dostlarına ümid olma, onlar öyrəşiblər ki, sən onların əziyyətini çəkəsən, məclisi –üns olduğundan deyirəm bunu, elə o cür xəstəliyindən xəbərimizin olmamağını da bir yol üzümüzə vurmadın;

Allah rızası, haralarda yatmamısan: İran xəstəxanası, Rusiya xəstəxanası, indi şükürlər olsun, sağalıb durmusan, xəstəlik nə saçından bir tel ağardıb, nə qanından bir damla qaraldıb, hər şey – qaydasında, hər gün – iş, tədbir, qovhaqov, qaçhaqaç, qayğılar, hər yer – sən...

ömrün qapısında möhkəm durmağı da unutma, 50 yaş o deməkdi ki, Vaxt topu qova-qova sənin meydanına adladıb, kiçicik bir faul cərimə zərbəsiylə nəticələnə bilər, bir də gördün top toru silkələdi, o toru ki onun içində biz də varıq, adaş...

## CÜT SABİRDƏN BİRİ

Ötən əsrin əvvəllərində bir şair vardı, klassik şeirin, qəzəliyyatın tək səbir gətirdiyi yerdən başlamışdı onun yaradıcılığı. O, gözünün qabağında inləyən insanı qoyub, dağda gül dərməyə, bülbülün solo-konsertinə qulaq asmağa meyllənmədi, sabununu bişirib, satirasını yazdı Tək Sabir. Sələflərinin ağladığına dodaq büzdü, əruzun damarından aşiq qanı əvəzinə mazut, neft, tiyan kəfi axıtdı. O, Azərbaycan şeirində yeni bir məktəbin himini qoydu, himnini oxudu, qəzəlin qolundan darta-darta onu şah sarayından kəndli tövləsinə, fəhlə gecəqondusuna gətirib saldı. Günlərin bir günü özü də sələfə çevrildi, ona da ağız əydilər, lağ elədilər, amma Tək Sabir olduğunu dana bilmədilər.

Sa-bir
Sa-tira
Sa-bun

Bu üç söz hələ uzun müddət bizi təmizliyə səsləyəcək. Boğazı gəlincə səsləyəcək. Amma biz onları eşitməyəcəyik, inşallah!

Sabirin bir təkiynən qurtardıq.

Keçək ikincisinə.

Hə, zülm indən belədi. Ölüdən yazmağa nə var?! Oğulsan, diridən yaz. Tərs kimi onlar çoxdurlar (səhv etmirəmsə, söhbət Mirzə Ələkbər Sabirin adaş xələflərindən gedir). Amma məni bu dəqiqə onlardan biri, daha doğrusu, cüt Sabirdən ikincisi narahat eləyir.

Yusif kişinin oğlu Sabir. Cəlilabadlı balası. Qaşları həmişə çatılı. Elə bil indicə nəyəsə etiraz edəcəkmiş kimi. Emosional. Çılğın. Əsəbi. Mühəndis. Publisist. Şair.

Operator, mühəndislə publisisti poz, şairi saxla! Sabir Yusifoğlu şairdi. Mirzə Ələkbər Sabirə – böyük sələfinə ilk baxışdan heç bir dəxli olmayan şair. Xəzəlin altındakı meyvə kimidi Sabirin şeirləri. Onu tapıb yesən ağzın, tapdalayıb keçsən ayağın dada gələr. İndi əziz oxucu, özün bax gör neynirsən?! Nümunə üçün sənə Sabirin bağından bir meyvə təklif eləyirəm:





Ya dəli ol, ya dərdli ol,
Biri bilsə, beşi bilməz.
Bu küləkdə hönkürtüylə
Ağlasan da eşidilməz...

Görürəm, qiymətlər qalxandan mer-meyvə üzünə həsrətsən, umsunma, boş qabını ver, doldurum.

Bağışla, gülüm, sənsiz də
Axşam olur, səhər olur,
Sənsiz yaşamaq budusa
Bəs ölüm nə təhər olur?

Səni gəzən fikirlərim
Döngələrdə çaşıb qalır.
Gecələr bir mən oluram,
Bir də küçə işıqları.

Nə varsa dəyişir dadı,
Bu dünya birtəhər olur.
Bağışla, gülüm, sənsiz də
Axşam olur, səhər olur.

Sən nuş elə, əziz oxucu, mən də yazımı yekunlaşdırım. Çünki arsenalımda deməyə söz də saxlamalıyam – fevralın 10 – u Sabir Yusifoğlunun 45 yaşı tamam olur axı. Maşın tapıb Sumqayıta getməliyəm. Sumqayıta gedən bütün yollar həm də Sabir Yusifoğluna aparır, Mənim nəzərimdə. Düzü, əvvəl istədim onu Bakıya çağırım, sonra Sabirin bir şeiri məni fikrimdən daşındırdı:

Tanrı ucalığıynan,
Ulduzlar uzaqlığıynan
Sevilir.
Sən də uzaq ol...

*Fevral 2007-ci il*

## YOL

...Bütün ömrüm YOLda keçib. Orta məktəbdə oxuyanda Ağdam RPK-nin inşa elədiyi "Lenin YOLu"nda külüng vurmuşam. Əsgərlikdə şaxtalara asfalt YOL çəkirdik. İki ilə yaxın YOL – tikinti idarəsində çalışmışam. Günlərin bir günü "Ağ YOL" birliyi yaratdıq. "YOL" qəzetində çıxan şeirlərim ödül qazanıb. Teleradio şirkətində səsli və görümlü "YOL" proqramlarının aparıcısıyam.

Bir də YOLa çıxanlar üçün "hava haqqında məlumat"ın müəllifi...

...Qədim Şərq aforizmində deyilir: "Hər şey yoldan başlayır". Hamımızın canında bir səfər ovqatı var. Əslində səni çəkən yol deyil, yolun havasıdı. Əvvəl ürəyin atlanıb yola düşür, sonra ayaqların... Yola çıxırsansa, ayaqlarını özbaşına buraxma, qoyma ürəyini tapdayıb keçsin! Əyri yola düşmə, addımlarının üzünə qayıtmağından qorx!..

Çalış yolu başa varasan, getdiyin yol öz yolun olsun! Yolu yormamış "yoruldum" demə, yolu yumrulmuşlardan gen qaç! Unutma ki, bütün yollar Tanrıdan keçir, ancaq bütün yollar Tanrıya aparmır...

Çörəyə gedən yol üzüaşağı gedir, haqqa gedən yol üzü yuxarı! Yol səni özü seçibsə, ömrünü taleyin ixtiyarına burax! Yolu özün seçməli olsan, təkcə ürəyinə güvənmə! Yolunun yükü olma, yükünün yolu ol! Unutma ki, getdiyin yol – gəldiyin yoldu. Onu da bil ki, sən bu yola özxoşuna çıxmamısan, səni bura yollayıblar.

Yolun şaxtasına yaxanı aç, istisində öz kölgənə daldalan! Yolkəsən olmaq asandı, çalış Yolçəkən ol! Yola çıxdınsa, demək dünyanın xoşbəxtisən. Qorxma, arxanca atılan suyun duruluğu səni hər şeydən qoruyacaq... Yola çıxdınsa, bircə şeydən qorx! Qorx ki, səni yarıyolda saxlayıb soruşan olar:

– Qardaş, sən nə Yolun yolçususan?!

*1997-ci il*



# "POEZİYADA BƏMBƏYAZ BİR SƏS..."



***Fikrət Qoca***
*xalq şairi*

## "SƏNSƏN HƏR YER..."lə SÖHBƏT

*Qulu Ağsəsin yeni çapdan çıxan şeirlər kitabından doğan düşüncələr*

Gecə yarını keçib, evimdə Prezident təqaüdü alan cavanlardan biri ilə söhbət edirəm. Onun açıq, mərd söhbəti, cəsarətli fikirləri məni sevindirir. Aşağı-yuxarı baxmadan, yaşımdan, saqqalımdan çəkinmədən ürəyindən keçənləri olduğu kimi açıqlayır. Yaxşı söhbət yoldaşı imiş bu Qulu Ağsəs. Söhbət edirik deyəndə, mən Qulu Ağsəsin mənə yenicə bağışladığı "Sənsən hər yer" şeirlər kitabını nəzərdə tuturam. Kitabı varaqladıqca, oxuduqca gənclərə Prezident təqaüdü adlı yardımın nə qədər gərəkli, lazımlı, müdrik qərar olduğunu ürəyimdə bir daha təsdiq edirəm. Hər on nəfər gəncdən üçünün belə səviyyəli kitabı işıq üzü görsə, böyük qazancdır, böyük nailiyyətdir. Ədəbiyyatımızın işıqlı, böyük ümidlər verən gəncliyi – gələcəyi var.

Yaradıcı adamla söhbətin, səmimi söhbətin ən yaxşı növü onun əsərlərini oxumaqdır. Öz əsərləri haqqında danışan və yaxud danışmağı sevən istər gənc, istər yaşlı yazıçılar, deməli, yazmaq istədiklərini tam ifadə edə bilməyiblər və bunu özləri də bilir. Həmin o boşluğu ədəbiyyat, ədəbi cərəyanlar haqqında danışmaqla doldurmaq istəyirlər. Adamlar öz hiss-həyəcanlarını istədiyi kimi, həm də rahatlıqla sözə döndərə biləndə, yazıb ürəyini boşaldanda elə rahatlıq tapır ki, sonra özü kimi bir söz adamı ilə yaradıcılıq sirləri barədə ağız-ağıza verməyə nə hövsələsi, nə də vaxtı olur. Ən yaxın söhbət yoldaşı kitabdı. Çünki kitab yazılı mənbədir, hər

zaman qayıdıb barmağını həmin sətirlərin üstünə qoya bilərsən. Vaxt keçirmək üçün isə söhbət yoldaşı ağacdı, daşdı, quşdu, sudu, bir də sənin sənətindən olmayan az danışan adamlar. Ədəbiyyat ətrafında yazanların, xüsusi ilə dil boğaza qoymayıb danışanların çoxu söz köpükləndirənlərdir. Bu adamların bir qismi danışdıqlarını, yazdıqlarını, mülahizələrini ədəbiyyatşünaslıq sayır. Bir qismi indiyə kimi yazılanları, olanları danışmaqla, onları inkar etməklə özünü təsdiq etmək istəyir. Bunlar yalnız yeniyetmələr deyil, bunlara qoşulub qocalığında yorğalıq eləyənlər də var.

Birinci, ədəbiyyatşünaslıq və ədəbi tənqid haqqında; əgər ədəbiyyat yoxdursa, hansı ədəbiyyatşünaslıqdan söhbət gedə bilər? Ədəbiyyatşünaslıq ədəbi məhsulları səliqəyə salan, növləşdirən, onu janrlara, mərhələlərə, hətta səviyyələrə ayıran bir elmdir. Təbii ki, bu yazılmış ədəbi əsərlər əsasında ədəbiyyatşünaslıq yaranır, ədəbiyyat inkişaf etdikcə ədəbiyyatşünaslıq elmi də inkişaf edir. Əgər bütöv bir sovet dövrü ədəbiyyatını inkar edirsənsə, onda nəyin əsasında şünaslıq edirsən?

İkinci, əgər ədəbi tənqid varsa, deməli, ədəbi tərif adlı bir şey də olmalıdır. Ədəbi tənqidin də, ədəbi tərifin də içində subyektiv münasibət olduğuna görə bunun əsl ədəbiyyata dəxli yoxdur. Ədəbi təhlil olmalıdır, yəni yaranmış əsərlərin ədəbi təhlili. Bəli, bu ciddi bir yaradıcılıq növüdür. Amma bu da bədii əsərlər üzərində yaranır və inkişaf edir.

Bu gecə elə tıncıxır
Adam lap dava axtarır.
İsaq-Musaq quşu çıxıb
Ağacda dəvə axtarır.

Bu şairdəki incə yumorla xalq yaradıcılığına qızınma, sığınma adamı valeh edir. Qulu Ağsəsin başqa bir şeirindən:

Baxırsan dirənib hamı
Hamı canıyla əlləşir.





Kimi ağzının ucuyla
Kimi Tanrıyla əlləşir.

Başqa bir adsız şeirindən:

Çırtlayıb atdığım sözlər
Ürəyinə dəyər birdən
Ayaq üstə ölmüşəm ki,
Götürən olmasın yerdən.

Bu yerdə Qulu Ağsəs şeir yazmaqla bərabər, həm də sözlə necə işləyə bildiyini nümayiş etdirir, sözə həssaslığını xüsusi qabardır. Quluda, ümumiyyətlə, bu var. Bəzən son dərəcə zərif, kövrək hisslərlə şeir yazır. Bəzən isə pişik yumaqla oynayan kimi sözlərlə oynayır, əylənir, sözlərin yerdəyişindən də şeir düzəldir:

Nəfəsim də çatmır barı
Boğulanda qışqıram.
Mən indi yaşamaqla yox,
Ölməməklə məşğulam.

Başqa bir şeirdən:

Dil də bilmirsən, ay zalım,
Dil deyim ağladım səni.
Dərdin, azarın tökülsün,
Üstümdən adladım səni.

Görünür, şeirin bu aydın, gözəl dilini, doğrudan, hər adam bilmir. Ona görə də çoxları yazmaq əvəzinə, cığallıq edir.

Qulu Ağsəsin bir saat ərzində oxuduğum kiçik həcmli kitabı haqqında saatlarla, həzz ala-ala, ləzzətlə danışa bilərəm, qəsdən danışmıram ki, oxucular özləri oxuyub həzz alsınlar.

Prezident təqaüdçüləri arasından mən biri haqqında yazdım. Onlar ədəbi ictimaiyyətin diqqətindən kənarda qalıb. Yaxşı, bu istedadlı

gənc şairlər daha neyləməlidirlər ki, onları görsünlər, qeyd etsinlər. Bu gənclər Yazıçılar Birliyi tərəfindən Prezident təqaüdünə təqdim olunub. O müddətdə yazdığı əsərlər Prezident Aparatı humanitar şöbəsinin köməyi ilə ayrıca kitab halında çap edilib. Bu dövr ərzində onlar bir qədər məişət qayğılarından azad olub. Yeni əsərlər yazıblar. Zaman keçdikcə hər şey xərclənir, amma yazılan əsərlər təqaüdün barı, bəhrəsi kimi qalacaq. Bir də hamı nankor olmur, illər keçəndən sonra onların da bəziləri keçmişdə qolundan tutan, yardımçı olan Prezident təqaüdünü minnətdarlıqla xatırlayacaqlar. Nə olsun ki, bu təqaüdü cəmi altı ay alıb. Adamı ehtiyac bəzən bir saatın içində alçalda bilər. Bir az kənara çıxdım. Yaxşı kitablar çap olunub. Qəzetlər susur, televiziya kanalları onları təbliğ və təqdim etmir. Akademiyanın müasir ədəbiyyatla məşğul olan alimləri özlərini görməzliyə vururlar. Farsın məşhur məsəli yada düşür: "Necəsən qanmayım, atan yansın", axı doğrudan da, bu istedadlı cavanların biganəliklə atasını yandırırsınız. Onlar ruhdan düşür. Nəinki onlar, hətta Fatma xanım Abdullazadə də gördü ki, çap etdirdiyi kitablara məhəl qoyan yoxdur. O da həvəsdən düşdü. Hamı qəzetlərdə, özəl telekanallarda söz köpükləndirən, ara qarışdıran üç-dörd adamı ortada oynadıb meydan qızışdırır, şou düzəldir. Doğrudur, son vaxtlar Anarın, Elçinin, Ramiz Rövşənin silsilə məqalələri çap olundu. Bu məqalələrdə ədəbiyyat söhbəti, təhlil, ədəbiyyata can yanğısı vardı. Bu, başlanğıc kimi çox yaxşıdı. İndi söz yaxşı mənada tənqidçilərin olmalıdır. Təhlil olunası, araşdırılan əsərlər, kitablar çoxdur. Müasir ədəbiyyatımız buna imkan verir. Uğurlarımız, şübhəsiz var, istedadlı gənclərimiz çoxdu, problemlərimiz də az deyil. Gözəl şair dostum Ramiz Rövşən məqaləsinin bir yerində təqliddən danışanda "bir var M. Rahimi təqlid edəsən, bir də var M. Arazı" deyir. Hər iki halda təqlid pisdi. Kimi təqlid edirsən et, sən özün deyilsən. Özün olmayandan sonra nə fərqi var kimi təqlid etmisən. O gözəl silsilə məqalədə bu kiçik məqamı ona görə qabartdım ki, bu məsələ bizim ədəbiyyatın ən ağrılı yeridir. Rus ədəbiyyatında Puşkin, Yesenin, Mayakovski təsiri altında yazan minlərlə insan olub. Onlardan heç birinə şair deyilməyib, yazdıqları şeir kimi də qəbul olunmayıb. Bizə şair xalq deyənlər səhv edir. Bizim şairlərimiz azdır. Məşhur şairlərimizi yamsılayanlar çoxdur. O da məhəbbətdən irəli gəlir. Çox gözəl, yazsınlar. Bunu heç kəs qadağan edə bilməz. O da bir hobbidir. Lakin bir böyük şairin üslubunu mənimsəyib özlərinə şair deməsinlər. Hər şairin öz intonasiyası, öz melodiyası var. Şairi iki-üç misrasından tanımaq olur. Bu yamsılamaq virusu gənc poeziyaya da düşüb, sürətlə yayılır.





Yazılanlar qiymətini almalıdır. Yaxşı da, yaman da öz adı ilə çağrılmalıdır. Mən öz dövrümün və dövranımın adamıyam. Mənim yazılarımın üstündə öz dövrümün, dövranımın möhürü var. Dövr də başqa müstəvidə vətəndir. Mən öz dövrümdən fərarilik etmək fikrində deyiləm. Bugünkü gənc istedadların da öz dövrü var, ətraf-mühiti var. Tapdaq altında olan vətəni, piri, milyon qaçqını, əsirlikdə olan anası, bacısı, qardaşı, atası... Bəzi işçilərin bu ağrını görməmələri öz dövründən, dərdindən fərarilikdi. Bəs əlli il bundan gələcəyə sən bu dərdlərsiz gedəndə ordakı oxucular sənə necə baxacaq? "Sən dövrün hansı kəsiyindəsən?" sualına necə cavab verəcəksən? Sən tarix içində özün də bir tarixsən. Hər bir istedadlı insan özü yaşadığı zaman haqqında bir tarixi həqiqətdir. Bugünkü gəncliyin yaradıcılığındakı havasızlıq bəlkə zamanın ağırlığındadır, bunu başa düşmək olar, bəs mövzu kasadlığı, mövzusuzluq hardandır?

Bu və ya buna bənzər problemlər, ədəbiyyatşünaslığımızın, ədəbiyyatımızı tənqid, tərif, təhlil edən alimlərin yaradıcılığında öz həllini gözləyir və gecikir.

Qulu, çox sağ ol ki, sənin kitabın bu fikirlərimi söyləmək üçün mənə imkan yaratdı.

*14 yanvar 2003*

***Çingiz Əlioğlu***
*şair*

## DÜZ SÖZÜ AZ DEYİRLƏR

*Qulu Ağsəsin "T.O.Ç.K.İ" kitabına ön söz əvəzi*

...Onun ruhu candan uzun müddət kənarda yaşayıb və işıqlı dünyaya da tənindən xeyli əfzəl gəlib, bir xoşbəxt doğuşdan sonra tapışıb-qovuşublar gerçəkdə...

...bəlkə bu üzdən, çox zaman üzülmüş canını dişində gəzdirirmiş kimi görünür mənə, bu ruhu olduqca diri adam...

...dünyanın süzülmüş astarından avandına baxır bu işi avand olmuş, özü astardan ayrılmağa qoymur; mif, əsatir düşüncəsindən çözülən bir sapla tikir dünyanın astarını üzündə, hər sözə don biçən şeir dərzisi. Köhnə formalara əl atanda da söz qotmanlayır, dərz bağlayır dərsini qədim aşıqlardan almış bu şeir aşiqi...

...zərrənin içində zər axtarır gözü zərrəbinli... zər tapıb söz oynadanda da atdığı zər "şeş qoşa"dır çox zaman, özü bundan xəbərsiz zalım...

...ismarıcla gəlib dünyaya, ya göndərişdi, bir tək özü bilir, amma bunu hamıdan möhkəm gizlədir...

...görməyənlər görür onu, görənlər əksərən görmür, tərsinə çevrilmiş durbindən baxanı çoxdur...

...çoxunun bilmədiyi nələrisə bilir, di gəl, rəhmdildir, xəsisliklə deyir, insanları özlərinə istətməyə çalışır...

...daha nə istəyir bu özüylə yola getməyən adam?! Özünün özünə gücü çatmır, indi istəyir ki, biz gələk yaxasını əlindən alaq?!

...yox, qardaş, yükün altına girdin, daha demə ki, təpərim çatmır; o var ki, heç deyən də deyilsən, heç kimə yetməsə, özünə gücün yetir... özündən özünün yetərincə qisasını alasan, hamıynan düzünəqulu, təkcə öz başını aldadansan...

...mənim bu dünyada daima içdən gənəşdiyim – daxili dialoq da deyirlər buna – iki-üç adamdam birisən; yaxşı məzələnirsən





mənnən, biznən; ürəyimizə girib, gözümüzdən çıxan adam – bəzən yaş kimi, bəzən qupquru qum kimi, kəsək kimi, allaha qiyam elan etmiş tifil!..

...tiftik-tiftik ürəyini yolların, çığırların altına basdırmısan, nə qazanırsan bu ürəyinin üstündən keçib-gedənlərdən, tapdaqlardan savay?!

...bir də, ruhu cisminə tiyan, qazan qaynadanların nə olur qazancı qiyamdan ayrı?!

...bəlkə havayı cəhddi bu pırsımış havanı dəyişmək həvəsi, əbəsdi?!

...havalanmış qovaqsan, Qarabağ qovğaları qovub səni, yağışa dönüb ovdanlardan suyu süzülə-süzülə çıxan insan; ovutmaq, başını tovlamaq mümkünmü sənin?!

...doğma yurdu parça-parça, tikə-tikə tənindən-canından soyub qopardılar, nə yaxşı ki, dərisi diri-diri soyulan Nəsimi geni var qanında, ağrıdan kirimiş bağırsan da, çatlamadı bağrın...

..."ürəyim yoxdur", "canımın yarısı yoxdur" – deyir bu tavanasız, ruhu cismilə yola getmir; hamımız öləriyik, yüz il sonra da dünyasını dəyişəndə, mağarı önündə gələnləri əlində "bir stəkan araqla" ruhu qarşılayacaq gülə-gülə, "bu yarım da belə getdi" deyəcək... "qurtardı bu xarabadan"...

...yorğun ruhu bu dünyada il yaşadacaq, "nə olur ona, haqq olur"!..

...bu da belə xoşbəxtlikdi, "öz xoşuynan gəlmişdi", "öz kefiynən gedəcək"...

...əlbəttə ki, Qulu Ağsəsdən danışanda şeirin semantik strukturlarından, diskursdan, anjebemandan, hiperbola və metaforalardan da söhbət açmaq olardı, ancaq bu girdirmə alınardı; nə qədər istənilən Vitqeynşteyndən, Kyerkeqordan, Heyzinqadan, Derridadan, Haydeqqer, Bart... misal gətirirsən gətir, yapışmazdı şeirin bətninə...

...onu deyirdim axı... səndən az yazdım, bu yerdə bir az özünə oxşadım, deyən...

...bir də, düz sözü indi az deyirlər...

...deyə bildiklərim demək istədiklərimdən çox olub həmişə...

*2 iyun 2007*

***Tofiq Abdin***
*şair*

## ŞAİR QULU AĞSƏSİN KİTABINA DOĞRU...

Ah, yenə də bu Dan üzü, bu Dan üzü... Uzaqda bir Azan səsi yüksəlir və bu Azan səsi də Dan üzü yenə otağıma axır narın-narın və mən dünəndən oxuduğum bir kitabın bir çox şeirinin ab-havasında oyanıram və qalxıram, yazmağa başlayıram və yazının adını da o saat tapıram.

Təxminən iki il əvvəl Türkiyədən qayıtdığım ilk günlərdə mən "Qobustan" jurnalı üçün bir sorğu keçirdim. Və mənim suallarıma cavab verənlərdən biri Qulu Ağsəs oldu. Onu yaxından tanımasam da, İstanbulda olarkən mən onun bir şeirini ortaq türkcədə "Yeni Asiya" qəzetində çap etdirmişdim. Qulu çox orijinal cavablar vermişdi və biz də bir hərfinə belə toxunmadan onu çap eləmişdik.

Sonra bu şairin adını adda-budda eşidirdim, bir çox məqamlar mənə yavaş-yavaş aydınlaşdı, öyrənirdim ki, Qulu Ağsəs çox maraqlı şairdir və maraqlı bir insandır və bu dava-dalaş, bu didişmə ortamında, ədəbi camidə öz yerini bilən və öz yerində heç kəsi görməyən (və çox haqlı) bir yaradıcı olaraq bizim bu ədəbi camiənin çox ciddi yaradıcısı kimi sevilir və bir az da sevimli bir qısqanclıq yaradan sevgi ilə seçilir. Allah daha çox eləsin və bir də hörmətli yazar Nərgiz Cabbarlı çox sanballı yazı yazıb, düz bir səhifə. Və onu da nəzərə alaq ki, hər kəs onun qələminə tuş gəlmir.

Yazı da məhz Nərgiz xanım yazdığı üçün çox maraqlı bir yazıydı və nəhayət ki, bu dar macalda onun bir şeir kitabı və kitabın içində də haqqında iki yazı (biri olsun şair Mahir Mehdinin, o birisi olsun Bayram Əvəzoğlunun) şairanə desək, bu Bakı havasının ağırlığını udmağa başladı...

Daha maraqlısı sonra oldu. Qulu gəldi Yazarlar Birliyinə və orta boylu bu şairin kiçik ciblərinə yerləşmiş kitablardan birisini çıxarıb





verdi mənə, o birisini isə Ələkbər Salahzadəyə və iki yoldaşı da axtardı, onlar yox idi və sonra bu iki yoldaş da gəldi: birisi olsun Vaqif Yusifli, birisi olsun Əsəd Cahangir ki, onlar da dövrümüzün sıra ilə ən üzdə olan tənqidçiləri. Kitaba xüsusi maraq artdı və bu marağın bir ucu onun haqqında yazmaqla bağlı idi – kim daha tez yazacaq məsələsi də maraqlı idi. Güman (və eləcə də oldu) ki, Əsəd Cahangirin ədəbiyyat səhifəsi Vaqifinkindən daha tez çıxdığı üçün məndən aldığı kitabı bir gecədə oxuyub şair Qulu Ağsəs haqqında maraqlı bir yazı yazdı.

Və sonra da tənqidimizin ağır toplarından Vaqif Yusifli yazdı onun haqqında və güman ki, o da pis yazmayacaq, çünki mən bu yazını yazanda hələ onun yazısı çap olunmayıb və mən inanın ki, tələsmədən bu yazını yazdım və görürsünüz ki, yazı tam öz dəstixəttimə uyğun bir şeydir. Mən Qulunun şairliyini sevən birisiyəm və oxudum onun kitabını aramla. Məni son dərəcə ağrıdan şeirlər var ki, bunu yalnız öz mənini və öz şəxsiyyətini anlayan və bilən bir insan yaza bilər. Bunu yalnız və yalnız şəxsiyyətinə hörmət edən, şəxsiyyətini sevən yaradıcılar etiraf edə bilər ki, bizim yazı dünyamız hər zaman bu etirafdan yoxsul olub, çünki bizim tərbiyəmiz buna imkan verməyib ki, içimizi yazaq həmişə. Beləliklə, onun-bunun içi ilə maraqlandığımız üçün öz içimizin kifləndiyindən xəbərimiz olmayıb və beləcə də yazıq olmuşuq...

Amma Qulu Ağsəs mən bilən bu yazıqlığı bəlkə də ilk görənlərdən biri olmasa da, yaşıdları arasında ilk duyanlardan birisidir ki, onu bacarıb və məhz bunu bacardığı üçün də mən onun şeirlərini və guşə yazılarını çox sevirəm.

Məni son dərəcə ağrıdan şeirlərdən birini mən bu yazımın sonunda tam vermək ümidindəyəm və and içirəm ki, mən Qulu Ağsəsin bu kitabı haqqında çıxan yazıları oxumamışam, bu yazını yazana qədər və onlardan yazımın işarətlərini artırmaq üçün və fikrimi sübut etmək üçün örnəklər də verən deyiləm, amma bir daha onu əlavə eləyim ki, gözəl şair, mətbuatda və Yazarlar Birliyində bir o qədər də görünməyən Akif Səməd Qulu haqqında yazmaq üçün sırada duranlardan biri idi...

Bəs bu nə sehrdir, qardaşım...

Kimdi bu Qulu Ağsəs? Kimdi bu sısqa vücudu ilə və əbədi camiədə bir o qədər də fiziki görünməyən bu qaçqın bir ailənin uşağı (Qulu özü qaçqın deyil, çünki Qulu Bakıya daha əvvəllər gəlmiş, məncə, gəlməyə də haqqı vardı bizim hər birimiz kimi və daha çox haqqı varmış, indi bunu da bildik)?

Oxuyun bu kitabı!..

Mən bu dəfə şair Qulu Ağsəsin heç bir misrasını və heç bir şeirini misal gətirməyəcəyəm və ancaq onu deyim ki, məndən onun kitabını alan tənqidçi Əsəd Cahangir o kitabı qələmlə pis günə qoyub və görünür yaddaşına bir qədər də etibar etmədiyi üçün (mənim kimi) qeydlər eləyib və baxıram ki, 15 şeir seçib və onları da nömrələyib ki, bunlar demək onun zövqüncə şeirlərdir və ya bir az yazısına səmt misralardır və o şeirlərə mənim də heç bir etirazım yox, amma bir 15 şeir də Vaqif Yusifli seçmiş olsa və bir 15 şeir də hörmətli Akif Səməd seçmiş olsa, təxminən 65 şeirdən ibarət olan bu kitabın artıq 45-i öz oxucusunu və öz professional ünvanını tapıb. Belə deyək...

Soyadı qədər şeirləri də gözəl olan bu şair, nə gözəl şair, qardaşlar!

Soyadı qədər guşə yazıları da çox gözəl olan bu qəzetçi nə acılar çəkmiş, ya rəbb...

İyirmi min şəhid verdim-topağımı qorumada(n): gecələri qələm çaldım, duymadan dan yerini...

"...özümü hər gün axirət anına hazırlayıram – başımı bulamaqla, çiynimi çəkməklə məşq edirəm..."

Və Qulu Ağsəsdən bir şeir.





**MƏN VƏ O**

Mən
Onun qucağını sevindirə bilmədim
O
Məni ata eləmədi
Tanrı gördü
Dinc bəndələrik
bizə baş "ağrısı" əta eləmədi.
Mən
Onu itiyim kimi sevdim
O
Məni tapdığı qədər.
Arabir fişəng atırıq
Aramızdakı sərhədə.
Mən
Onu atıb gedərəm
Zatım qırıqdı, bilir.
Başını qaldırıb soruşuram:
– Sən necə?
Gözünün yaşıyla
Eynəyimi silir...

***Vaqif Bəhmənli***
*şair*

## "SƏNSƏN HƏR YER..."

*Qulu Ağsəsin kitabı barədə düşüncələr*

Yarandığı zamanın yaxın və ya uzaqlığından asılı olmayaraq hər şeir oxunan anda insanla üzbəüz olan, qaynayıb qovuşan canlı yaddaş parçası, ürək çırpıntısı, ruhun vəziyyətidir.

Əslində obrazlı deyim, ifadə vasitələri, ahəngdarlıq, eləcə də qələm sahibinin əməl elədiyi digər sənətkar öhdəlikləri məhz həmin deyilən canlı yaddaşa, çırpıntıya, ruhi vəziyyətə əbədi yaşamaq haqqı vermək, seçilmiş düşüncəni, belə demək mümkünsə, sənədləşdirmək üçündür. Ona görə seçilmiş düşüncə dedim ki, insan yaşantıları bütün ələşən-küləşəni ilə, küll halında poeziyanın predmeti ola bilməz. Çünki poeziyanı yaradan seçilmiş insandır.

... Poeziya isə məlumdur ki, seçilmiş duyğular haqqında elmdir!

Və həqiqət budur ki, ürəkdən gələn, ruhun təravətini, istisini çatdıran, ən gizlin qatdakı yerini hələm-hələm nişan verməyib ilahi bir qığılcım hökmüylə işıqlanmaq fürsəti bulan duyğuların Sözü böyük zamanın yol yoldaşına çevrilə bilir.

Hər kəsin bildiyi həqiqətləri təkrarlamaqla yaşarı bədii sözü müəyyənləşdirən meyar təklif etmirəm. Fikrimcə, ilk dəfə nəzərdən keçirilən ədəbi nümunənin ürək və düşüncə yaddaşında hansı izləri qoyduğu barədə nəzər-nöqtəsinə malik olmaq sadə bir oxucu borcudur.

Məsələn, mən 5-6 il öncə yazıları ilə tanış olduğum, görkəmli Azərbaycan şairi Şahmar Ələkbərzadə adına mükafatın laureatları sırasında "Sənsən hər yer..." adlı ilk kitabını çap etdirən Qulu Ağsəsin şeirlərini oxuyandan sonra duyduğum həmən borc hissinin təsiri altında bu sətirləri yazıram.

Səs zil də ola bilər, pəs də, gur da ola bilər, zərif də. Qulu Ağsəsin səsinin ladını göstərmək cəhdi bəlkə də əbəsdi. Amma bu səsin, bu





nəfəsin çağdaş şeirimizdə yeni olduğu göz qabağındadır və mən bu keyfiyyəti bəri başdan qeyd edirəm. "Sənsən hər yer" isə orijinal bir topludur. Adətən kitab, yaxud bədii təxəyyülün məhsulu olan hər hansı bir əsər ictimai fikrə təqdim olunur, rəğbət qazanır, diqqət çəkir və əgər qismətdə varsa öz müəllifinə tamaşaçı, oxucu, dinləyici sevgisindən savayı bir mükafat da qazandırır. Bu kitab isə deyildiyi kimi, 2001-ci ildə Şahmar Ələkbərzadə adına mükafatı qazanmış şairin kitabıdır. Rəhbəri şair Elçin İsgəndərzadə olan Beynəlxalq "Vektor" Elmi Mərkəzi mükafatı verərkən və bunun ardınca "Sənsən hər yer"i çap edərkən yanılmayıb.

Kitab şairin oxuculara düşərli bir salamıdır. Budur, istiqanlı, səmimi, qohum qədər ərkyana, arıq bir bir oğlan sənə yaxınlaşıb deyir: "Bütün səmavi kitablar göydəndüşmədi. Mənsə bu kitabı zülmlə yazmışam. Sən də canına cəfa bas, oxu".

Zarafatyana deyilmiş bu avtoqraf – ön sözdən sonra kitabla başbaşa qalan oxucu görür ki, Qulu Ağsəsin şeirləri insanla zarafat eləyən, lakin zarafat götürməyən şeirlərdi. Çünki onlar həqiqətən də zülmlə yazılıb. Məhz yazılıb, sözün yaxşı mənasında peşəkarlıqla yazılıb. Elə buna görə də "Sənsən hər yer"dəki uğursuzluqlar belə, kitabın uğurlu olmağından irəli gəlir.

Etiraf edim ki, hər hansı bir şairin ilk qələm təcrübələrini oxuyub onun sonrakı mərhələlərdə necə böyüdüyünü müşahidə etməkdən zövq alıram.

"Sənsən hər yer" isə püxtələşmə prosesini izləmək üçün heç bir imkan yeri qoymur. Orada ilk qələm təcrübəsi, yenicə dil açan şair eyforiyası yoxdur. Əksər şairlər poeziyanı, yaradıcılıq ustalığını yaza-yaza anlayır, müəyyən səviyyə qazanır. Və bu proses şeirdən-şeirə, kitabdan kitaba görünür. "Sənsən hər yer"i oxuyandan sonra belə təsəvvür yaranır ki, Qulu Ağsəs ümumiyyətlə, ilk qələm təcrübələrinə malik deyil. Sadəcə o günlərin bir günü qələmdən yapışaraq bütün yazılarını eyni zaman aralığında və eyni emosional ovqat cazibəsində yaratmışdır. Çünki kifayət qədər yetkin düşüncələr işığında sanki hazır şair olan Qulu Ağsəs hazır sözlə, hazır dünyanı təqdim edir. İlk qələm təcrübəsi daxil edilmə-

yən bu kitabda Qulu Ağsəs qələminin nəyə qadir olduğu haqqında son qənaəti açıqlayan seçmə şeir nümunəsi axtarmaq cəhdi də havayı işdir. Gərək ki, 64 şeirdən ibarət toplu bütövlükdə şair ömründən alınan ibrətamiz, bir-birinə sıx bağlı fraqmentlər şəklində düşünülüb. Bəlkə də belə deyil. Bəlkə də şeirləri ayrı-ayrılıqda nəzərdən keçirmək də olar. Məncə, bu halda Qulu Ağsəsin kədərli nəğmələri gözəgörünməz tellərlə bir-birinə bağlanan xırda çərçivələrdəki miniatür rəsmlərə bənzəyərdi. Və mən deyə bilmərəm ki, həmin miniatür lövhələrin eyni vaxtda, eyni sərgi salonundan asılmağı şairin gücüdür, yoxsa gücsüzlüyü?

Emosionallıq, coşqun ruh, isti ahəng türk şeirinin tanınma nişanlarından biridir. Qulu Ağsəs isə pıçıltı şairidir. Bəzən o, başa hava gətirə biləcək qədər çəkilməz bir ağrını pıçıltıyla çatdırır. Şeirlərin bir çoxunda temperament, daxili cərəyan (başqa ifadə tapmadım) sanki sıfır fazasındadır. Qoy olsun. Dərdini aram-aram anladan bir şairdən uma bilmərik ki, bağırsın.

Həm də görün sıfır fazasında Qulu Ağsəsin duyğuları necə də aydın eşidiləndi:

Canımdan çıxan ay tikan,
Yerin yurdun hamardımı?
Ürəyim qan ağlayanda
Ürəyinə damırdımı?

Və yaxud başqa bir misal:

Atdı məni o ağıllı
Atmayıb neyləyəsiydi.
Təzədən mən divanəni
Dəlimi eyləyəsiydi?

"Sənsən hər yer" kitabında Qulu Ağsəs lakonikdir, səmimidir, obrazlı düşünür, poeziya dili ürəyəyatandır. İlk kitab üçün bunlar nəinki azdır, hələ çoxdur. Qulunun şeirlərində keçmiş də, gələcək də indiyə məxsusdur.Bəlkə də buna görə şair kitabın lap axırında: "Hər şey ürəyimin ovcunda, heç nəyi xatırlamıram. Halım bütün





ovqatlara çevrilmədə, tərcümeyi-halımsa yoxdu. Tərcümeyi-zalımı hal aparıb" – deyə sirli kəlmələr yazaraq oxucudan ayrılır?

Tərcümeyi-hal, əlbəttə ki, var. Lakin Qulu Ağsəs tərcümeyi-hal imtiyazını keçmişə və gələcəyə deyil, indiyə, indiki yaşantılarına verir. Və bu zaman "Sənsən hər yer"in müəllifi daha inamlı görünür. Şair "Məni mənlə" şeirində sanki hamisindən qopan bir uşaq kimi, çıraqdan ayrılan bir işıq zərrəsi kimi rica edir ki," məni mənlə tək buraxın". Bu təklik Quluya indisini yaşamaq, özü özü ilə duelə çıxmaq, özü öz qulağına sirr demək üçün gərəkdir.

Qulu şeirin çətin yolunu seçərək möhtəşəm zamanın monumental obrazını deyil, şeirləri kimi körpə anların obrazını yaradır. Bu, zamanın içindəki insan deyil, əksinə insanın içindəki darıxan, ağrıyan, sevən, inanan, aldanıb peşiman olan andır. Bu an isə dediyim kimi keçmişə və gələcəyə yox, indiyə aiddir.

Dost toyundan qayıdır
Ləpələnən göy üzü,
Ovxarlanıb tökülən
Buludlar yerə yatmır.
Nə vaxtsa gecələrin
Süd göləndə ay üzüb
Ruhumuz kilidlənib,
Duamız heç nə dadmır.

Diksinirəm küt gedən
Arzuların səsinə.
Qarğanmış ömür təki
Ümid andıra qalır.
Bəxt arxa çevirəli
Naşükür bəndəsinə
Əcəl də yiyə durmur,
Əlac kəndirə qalır.

Bu sayaq kədərli və sonda kəndirə əl atmaqdan özgə bir əlac tapmamaq dərəcəsində faciəvi ruhi vəziyyəti yalnız Qulu Ağsəs

düşüncəsinin bir görüntüsü adlandırsam, şeirin ümumiləşdirmə imkanını daraltmış olaram. Şübhəsiz ki, şair bu məqamda eyni keçilməzliyə dirənən insanlar qrupunun ovqatını ifadə edir. Yenilik isə şairin bədii təhkiyəsində, obrazların, insani duyğuların ahəngdar düzümündədir.

Dünya köhnə dünyadır. Onun mövzuları da köhnədir. Qulu da başqa şairlər kimi köhnə mövzularda yazır; Tanrıdan, sevgidən, ölümdən, göz yaşından, ümiddən, mələklərdən, axşamdan, sabahdan, torpaqdan. Fəqət yaxşı şairlərin hər birində olduğu kimi Qulu Ağsəs şeirində də duyum və deyim təzədir. Nə iqtidar, nə müxalifət olan, çox yorğun, bir az da əsəbi Qulu Ağsəs...

Yorğun və əsəbi Qulunun poeziya və insaniyyət amalı isə ciddidir. O, Tanrını, inandığını durduğu ucalıqdan da yuxarı qaldırmaq istəyir:

Ömrü sürürəm hələ ki,
Verdiyin gündən yuxarı
Hərdən qaldırmağım gəlir
(döşənib ayaqlarına)
Səni özündən yuxarı...

Bizdə belə bir təsəvvür var ki, insan öz təmizliyi, xeyirxahlığı, bir sözlə saf qəlbi və dərin idrakı ilə daim Tanrının dayandığı ucalığa doğru can atır. Ən yaxşı halda halal insan haqqa haqq dünyasında qovuşur. Budur insanın yüksələ biləcəyi ən son mərtəbə, Tanrı dərgahı... Buna baxmayaraq, həqdən insaniyyətin tükənməz gücünə inam ifadə edərək daha nikbin düşüncəyə tapınmaq böyük yaradana da xoş gedər. O düşüncə budur: məqam yetişər, insan elə bir ali mərhəmət duyğusuna sahib olar ki, məhz o mərhəmət duyğusunun qüdrəti sayəsində Tanrını durduğu yerdən yuxarı qaldıra bilər.

Qulunun poetik etirafına görə isə, onun nəinki Allahı durduğu yerdən yuxarı qaldırmağa, hətta Tanrı dərgahının əl-ətəyinə yetişməyə belə halı yoxdur. Bu – ictimai mühitin, çağdaş insanın həyat dramının bədii ədəbiyyatda reallıqla üst-üstə düşən ifadəsidir. Baxın, axşamdan iki misra şeir yazan şairin barmaqları tövşüyür, canı-başı,





ruhu tıncıxır və deyilən obyektiv səbəbə görə Quluya elə gəlir ki, canda canı tıncıxan yalnız o deyil, "hamı canıyla əlləşir".

Qulu Ağsəs üçün yazmaq nə qədər əzablı olsa da, "məgər bu yazmaqdı" deyə verilən sualı sualla cavablandırsa da, şair bu yorğun candan ayrılan bir çox poetik lövhələri elə mükəmməl estetik dəyərdə təqdim edə bilib ki, onun özünün, yaxud hər hansı başqa bir qələm sahibinin həmin poetik ovqat həndəvərində nəsə ayrı bir söz, duyğu parçası əldə etmək düşüncəsi boşuna bir zəhmətdir. Misallar çəkirəm:

Kimsə dartıb kəfkirin
divar saatı kimi
Quracaq ömrümüzü
Ölüm zənginə qədər
(“Az qalıb”)

Əcəl ütü çəkəcək
Əzik taleyimizə.
(həmin şeir)

Eləcə də bəzən məhəbbətdən də qüdrətli olan ilahi mərhəmət hissinin "Mən və o" şeirindəki fövqəladə zəriflik, həssaslıq, ləyaqət, tale və qismət qəmi ilə dolu bir tərzdə ifadəsi az-az şeirlərin yüksələ bildiyi tamlıq, kamillik timsalıdır.

Mən onun qucağını sevindirə bilmədim
O məni ata eləmədi
Tanrı gördü dinc bəndələrik
Bizə "başağrısı"əta eləmədi.

...Mən onu atıb gedərəm
Zatım qırıqdı, bilir.
Başın qaldırıb soruşuram
Sən necə?
Gözünün yaşıyla
Eynəyimi silir...

Sözümün əvvəlinə qayıdıb də təkrar edirəm ki, Qulu Ağsəsin "Sənsən hər yer" şeirlər toplusu orijinal bir kitabdır. Mən bu kitabda istedadla yazılmış misralardan düşən işıq altındakı darıxan, inanan, sadəlövh, ölümdən qorxmayan, zalım zaman və zalım dünyanın təpkiləri qarşısında çarəsiz qalan bir şairi, bir insanı gördüm. Bu insan mələklərin günahını göz yaşları ilə yuya biləcək qədər günahsız və pakdır.

Əlbəttə ki, sonda kitabın nə üçün "Sənsən hər yer" adlanması barədə də düşündüm. Kitabda bu adda bir şeir var. Bu bədii parça Tanrı obrazını ümumiləşdirir. Mən isə düşünürəm ki, "Sənsən hər yer" kəlmələrinin açmasından alınan cavablar daha konkretdir. Sənsən hər yer – sevgi rəmzidir, həyat rəmzidir, ölüm rəmzidir. Sənsən hər yer – dost kürəyidir, dərd sinəsidir. Sənsən hər yer – poeziyanın özüdür. Və bunlardan daha çox Qulu Ağsəsin üz tutduğu hər yer onun öz qəlbi, öz içidir. Şair üçün isə sevgiyə, həyata, Tanrıya, dosta, şeirə, hətta ölümə yol elə o şairin özündən başlanır...

*26 mart 2003*





***Qurban Bayramov***
*tənqidçi-ədəbiyyatşünas*

## ÇAĞDAŞ POEZİYA – ƏDƏBİ İSTİQAMƏTLƏR

...Qulu Ağsəs öz qələm dostları arasında, yeni nəsil şairlər arasında sayılan, seçilən, indiki məqamda flaqman şairdir. Haradasa, deyərdim ki, yaşından böyük şairdir. Yaxşı təxəllüs götürüb - Ağsəs. Şeirlərindən, ümumi yaradıcılığından görsənir ki, yeni nəsil şeirinin tərtəmiz ağ səsidir. Süd təki ilım-ılıq, mayalı ağ səsdir, üzə duran, gerçəyi deməyi bacaran, prinsipial, ədalət naminə üzə ağ olan ağ səsdi, öz yaradıcılıq nəslinin üzünü ağardan Ağsəsdir...

Müasir poeziyada tez-tez işlədilən "göy üzünün şairi" (ilk dəfə Vaqfi Bayatlı Odər işlədib) ifadəsini onun haqqında işlədə bilmirəm. "Göy üzünün şairləri" yerdən göyə çıxıblar, indinin özündə də yerə qayıda bilmirlər, çəkisizlikdən asılı qalıblar, "skafandırdı" – kürəkləri yerə tərəf, gözləri sonsuzluqda...

Qulu Ağsəs mənə elə gəlir ki, göy üzündən yerə gələn inoplanetiandır, yer adamı deyil, yerdə sahman yaratmağa gəlib. Mən onu görəndə (cəmi iki dəfə görmüşəm), lap elə xarici görkəmcə də, Lütfü Zadə yadıma düşür, qeyri-səlis nəzəriyyənin banisi. Lütfü Zadə də yer adamı deyil, inoplanetiandır. Qulu Ağsəsin "Həzarat" şeirinə ("Ulduz" 6) nəzər salaq:

Həzarat!
Cəmi beş suala cavabdı həyat:
Kim?
Heç kim.
Nə?
Heç nə.

Hara?
Heç hara.
Nə cür?
Heç cür.
Nə vaxt?
Heç vaxt...

– budur, qeyri-səlis poetik nəzəriyyənin riyazi düstur qədər mənalı, qısa, konkret poetik düsturu. Simvolika, abstrakt təfəkkürün dərinliyi, eksperimental modern düşüncənin o tərəfi. Yaxud, başqa bir şeirində insanın bir ömürlük faciəsi, gözəlliyin kədəri, qadın həyatının tragik itkisi necə gözəl, həyatdan gələn gerçək detalın simvolikası ilə əksini tapıb: "Tağda bir xanım şamama gördüm – sinəsində siqaret söndürməyə çatıbmış kiminsə kişiliyi. Hər yandan şamama ətri gəlirdi. Şamamadan tütün iyi...". Qulu Ağsəsin kiçik bir şeiri var: "Bura bir dağ döşüdür... mən süddən yanıq bir uşaq. Burdan lil axır, hayıf, burdan süd axmır ancaq...". İnanıram ki, "bu süddən yanıq uşaqlar" müasir modern poeziya süd bulağının mənbəyini tapıb, çeşmənin gözünü açıblar, onu poeziyanın gur ağ süd bulağına çevirəcəklər...





***Vaqif Yusifli***
*tənqidçi*

## BU, QULU AĞSƏSDİR...

Yaşamaq!
– Dünyanın ən zor işi!
Yaşamaq!
– İrəli qovaraq keçmişi!
Fəqət
İstəyirəm əcəl gələndə
Qarşımda heç nə dayanmasın.
Məni elə çağırsın ki,
Sevgilim yuxudan oyanmasın...

Bu misralar Qulu Ağsəsindir. Şeirlərində o dünyadan, axirətdən söz açan Qulu yaşamağın bu dünyada zor iş olduğunu söyləyir. Yazır ki, "özümü hər an axirət anına hazırlayıram – başımı bulamaqla, çiynimi çəkməməklə məşq edirəm".

Qulu Ağsəsin "Sənsən hər yer" kitabından sonra (2002) bir sıra silsilə şeirləri çap olunub. 37 yaşlı şairin vur-tut bircə kitabının çap olunmağı indiki dövrdə təəccüblə qarşılana bilər. Amma Qulu həm özü az yazır, həm də o, şeirə vicdan işi kimi baxır. Əslində, şairliyin "təsdiqi" üçün heç kitab çap elətdirmək də lazım deyil.

Bir Bayram Əvəzoğlu vardı, vaxtilə "Azərbaycan" jurnalında işləyirdi. O, Qulu Ağsəsin haqqında, onun şeirləri barədə belə yazmışdı: "Hazırkı məqamda onun şeir yaradıcılığı iki müxtəlif qaynağa söykənir: klassik – milli və modern – qeyri-milli. Gümana görə, gənc şairin əsl yaradıcılıq yolu məhz bu iki qaynağın (istiqamətin, meylin) vəhdətindən yaranmalıdı, yəni klassik nəfəs modern – Ağ nəfəslə qaynayıb-qovuşmalı və bu möhkəm vəhdət ədəbiyyat tariximizə Qulu Ağsəs üslubunu gətirməlidi..."

Amma mən Qulunun şeirlərinə tamam başqa nöqtədən yanaşıram. Qulunun şeirləri müasir şeirlərdir, elə hesab edirəm, Azərbaycan şeirinin yaxşı mənada son durumunu ifadə edən məqamlardan biridir. Doğrudur, Qulunun şeirlərində klassik-milli örnəklərə bağlılıq güclüdür. Qulu həm də modern şairdir. Amma bu təyinatlarsız da keçinmək olar. Nazim Hikmət təxminən belə bir söz söyləyib: "İstər qışqır, istər pıçılda, istərsə də fəryad çək. İstər qırıq-qırıq yaz, istər hamar yaz... nədən yazırsan-yaz, təki yazacağın şeir olsun". Qulu Ağsəs şair doğulub. Onun şeirini oxuyandan sonra nəsə onun istiqamətini də müəyyənləşdirmək olar. Axı, söhbət şairdən gedirsə, o, təkcə şeir yazmır, həm də dünya poeziyasını, klassik və müasir poeziyasını mütaliə edir, təbii ki, təsirlənir də. Amma hər halda, söhbət ilk növbədə, onun yazacağı şeirin bədii səviyyəsindən getməlidir.

Qulu o şairlərdəndir ki, özü ilə Dünya arasında harmoniya axtarır, daxilindəki dünya ilə böyük Dünya arasında vəhdətə can atır. Amma təbii ki, hələ bu vaxtacan heç bir şair bu harmoniya və vəhdətə nail ola bilməyib. Qulu da elə.

Rəngsizdi, tamsızdı,
ətsiz-qansızdı,
allahsız, imansız,
Mən çəkən dərdlər.

Nə ət deyil,
nə siqaret
Deyəsən çəkildi, qurtardı.
...Dünya, Tale, Tanrı deyilən
Nə var hamısı günahkardı –
Mən çəkən dərdlərə...

Təbii ki, Qulu Ağsəsin dünyasında böyük Dünyanın yaratdığı təlatümlər, fırtınalar, kəskin izlər təsirsiz deyil. Amma bu böyük Dünya anlayışı mücərrəd deyil, o anlayışda adi bir koldan, nərgiz





çiçəyindən tutmuş müharibələrə qədər, sevgidən tutmuş köksü şəhid qəbiristanlığa dönmüş Vətənə qədər hər şey var.

Qulu üçün dünyada nə varsa ya sirdi, möcüzədi, ya da adi nəsnələr. O, sirrin-möcüzənin adiliyinə, adiliyin sirrinə-möcüzəsinə can atır.

Yad şəhər...
Bir yanda
ağlar məhəlləsi:
Tanış balkonu
doğum evinə göndərməyə hazırlaşır
gecə serenadası.
Bir yanda
qaralar məhəlləsi:
Milli Qəhrəmanın
xatirə lövhəsi altında
dilənən qadın duası: –
...Yalandı!
Yalandı!
Dünyaya ən şirin şey
Vətən deyil,
Dünyada ən şirin şey
İnsandı...

Dünyada ən şirin şey Vətən deyilsə, dünyada ən şirin şey insandısa...

Qulu ideal insan modelini yaratmaqdan imtina edir. Belə bir insan yoxdur. İnsan aləmi çeşid-çeşiddir. Və Qulu bu mürəkkəb insan aləminin seyirçisi deyil, o, insan hisslərinin, duyğularının sözlə rəsmini çəkməyə can atır. Onun şeirlərinin hamısı bütövlükdə qırıq-qırıq, kəsik-kəsik cizgilərin sərgilərin sərgisidir. Hisslərin, duyğuların rəngi də çoxçalarlıdır.

Hər hansı bir şair bir az filosofluq etməyi sevir. Qulu da hakəza. Amma unudulur ki, poeziyada ifadə olunan gerçəklik fəlsəfədə

izhar olunan gerçəklik qanunlarından daha səmimidir. Çünki fəlsəfə hissdən, duyğudan, ürək yaşantılarından məhrumdur, poeziya isə həyatı bütün gözəllikləri və naqislikləri ilə sənətə gətirir. Məncə, heç bir filosof deməz:

Quş quşla ötmür, balası,
Şair şairlə dilləşmir.
Quş budaqda oxuyur,
Şair varaqda.

Qadına yalan danışmazlar,
Həqiqət kişidi, səhv eləmirəmsə
Əlbəttə, kişi lazımdı qadına.

Kişiyə gerçəyi deməzlər,
Yalan qadına oxşar daha çox.
Ona görə hər kişinin ürəyindən
Baxmaq keçər yalanın dadına...

Məncə, Qulu Ağsəs həyatı, içindəki dünyanı və böyük dünyanı cizgilər, ştrixlər və fraqmentlər kimi təsvir etməyi sevir. Bəzən bir görünüş, bir təbiət lövhəsi, içini yandıran və sərinlədən bir duyğu Qulunu həyəcana gətirir.

Çöldə istidi
Evə qaçırsan.
İçəri od tutub yanır
Pəncərəni açırsan;
Çölün istisi
içərinin istisini
soyudur.
Evli adamın sevgisi
Təxminən bu boydadır –
budur!





İstəməzdim ki, bu yazıda Qulu Ağsəsin şeirlərini klassik sovet tənqidində olduğu kimi mövzulara böləm. Deyəm ki, Qulu hansı mövzuda daha çox özünü təsdiq edir. Zənnimcə, Qulu heç bir şeirində həyatın, zamanın diqtəsi və sifarişilə, ya hansı bir ideologiyanın təsirilə diqqəti cəlb etməyib. Şairin şeirlərində zaman və həyat, dünya və gerçəklik onun özündən asılı olmayaraq yaşayır.

...Qulu Ağsəslə eyni gündə doğulmuşuq, mən 1948-ci ildə, Qulu 1969-cu ildə – 20 apreldə. Bəlkə də Qulunun şeirlərini mənə sevdirən 20 apreldir.

Anama: “sevin”, – dedilər,
“Bu, oğlun, evin”, – dedilər.
Mən doğulan gün dedilər
Aprelin 20-nə.

Bu boş ömrümə tüpürdüm,
Doğulan günə tüpürdüm,
Tüpürdüm, yenə tüpürdüm
Aprelin 20-nə.
İstədim öləm, qoymadı,
Lap nahaq yerə qoymadı.
Tanrım bir daşı qıymadı
Aprelin 20-nə...

...Mən bu yazıda sevdiyim bir şairin portretini çəkmədim, onun yaradıcılığından ətraflı söhbət açmadım, ədəbi nəsli içərisində yerini sonuclamadım. Mən sadəcə olaraq ŞAİRdən danışdım. Əsl ŞAİRlərin sayı isə bizim məmləkətdə çox azdır...

*5 avqust 2006*

***Rüstəm Kamal***
*tənqidçi-ədəbiyyatşünas*

## QULU AĞSƏS: ÖMRÜN MİQYASINI ANLAMAQ CƏHDİ

Qulu Ağsəs yaradıcılığını maraqla izlədiyim şairdir. Qulu Ağsəs ilə eyni bir nəsildən olub, oxşar tərcümeyi-hal ilə, poetik texnologiyalarla ədəbiyyata gəlmiş bir qrup şair var ki, adı (təxəllüsü) sözündən qabağa düşür, ya da əksinə. Qulu ədəbiyyata adı (Qulu Ağsəs) və sözü ilə bir yerdə, bir vaxtda gəldi.

Qulu Ağsəs öz tərcümeyi-halının təsirini ömründə və sözündə həmişə hiss edib. Ömür onun üçün mücərrəd anlayış deyil, konkret bir obyektdir. "Ağsəs" Qulunun sadəcə adı deyil, həm də ilk şeiridir. "Ağsəs" assosiativ başlanğıcdır və sondur. Kitabının üzqabığında yazır: "1969-cu ilin 20 aprel günü atam Ağsəs Cəfərqulu oğlunun əcəl elçisi kimi bu dünyaya təşrif buyurdum. Kişi məni ixtiyar yaşında dünyaya gətirdiyinə görə hakimi-mütləqin qəzəbinə tuş gəldi və qara-qırmızı vərəqəylə oyundan uzaqlaşdırıldı. Odur ki, özümü yaşamağa deyil, boşluğu doldurmağa məhkum olunmuşlardan sayıram". Qulu Ağsəsin ömürdən danışması ölümü unutmamasıdır. "Ağsəs"– ömrünün və sözünün miqyasını müəyyənləşdirir. Onun üçün ömür ata ölümündən başlayır. Poetik ömür Ağsəs kişinin ölümünün davamıdır.

Qulunun müdrikliyi şair pozası deyil, təcrübənin paylaşması cəhdidir. Ömür, ölüm, sevgi haqqında ona görə danışa bilir ki, təcrübəyə malikdir. Təcrübə yaşla əlaqədar deyil, şairin içində qalaq-qalaq yığılan səs və sözdür, ömrün dərkidir.

Bu axşam bir niyyət tutaq:
Gün batsın, qürub qalsın.
Bəs ömrü nəylə qorxudaq-
Yerində durub qalsın?!





Yaxud:

Bir udum havaya veririk ömrü
Mənzilə çatmamış o da qurtarır.
Gündüz havalanır...
amma ki, ölmür,
Hava qaralanda adam qurtarır.

Onun poetik dilində etnoqrafik-məişət substrat çox qabarıqdır. Dil oyunu "etnoqrafik məna zonasını" başqa kontekstə salır. Qulunun getdiyi yol – dilin poetik yaddaşını şeirin qrammatikasına tabe etdirməkdir, metonimiyanın imkanlarını genişləndirməkdir. Məsələn: Axır çərşənbədə od üstündən tullanmaq mərasimi öz metonimik həllini belə tapır.

Dərdin, azarın tökülsün
Üstümdən addadım səni.

Qulu Ağsəsin "saxladığı məsafə" (distansiya) mənalararası distansiyadır. İstənilən şeiri götürün. O, sətri, sözü bir-birinə bağlayan məsafəni həssaslıqla duyur, bir-birindən uzaq, yad mənaları belə tamamlaya bilir, əlbəttə, yerində və vaxtında tapılmış (deyilmiş) bənzətmələr və paralelizmlər hesabına!

Qulu Ağsəs poetik dilinin özəlliyi – frazemləri, ideomatik deyimləri, nitq etiketlərini şeirin toxumasına ustalıqla yeridə bilməsidir:

Kimsən, nəçisən, ay Allah,
Heç səndən baş tapammadıq.
Özün qurduğun dünyada
Sənə bir iş tapammadıq...

Yaxud:

Eşit, yoldadır artıq
Çapır çin atım sənə.
Söz atıb tutammadım,
İndi can atım sənə...

Burada alliterasiyalar, iç qafiyə kiçik mətn məkanında necə də "dil tapır" – bu, şairin sənətkarlıq göstəricisi, sözlə işləmək qabiliyyətidir.

Şair, mənaları dilin ümumi hakimiyyətindən aralayıb başqa məna zonasına – poetik obraz zonasına gətirmək istəyir. "Birgə yaşayışı" mümkün olmayan mənaların üz-üzə gəlib toqquşdurma obrazı (metaforanı) təzələmək məqsədi güdür. Bir neçə örnək gətirək:

Xatirəyə çöküb səsim
Paslı tüfənglər kimi.

Yaxud:

Ləpələr uğunub gedir
Külək ağzın açmamış.

Bunların arasında "statistik fəallığı" ilə seçilən gecə zülməti, qaramat, qara tüstü, bayquş, it ulaması ölüm obrazlarıdır. Qara rəngin simvolikası obrazları bir az da qatılaşdırır.

Hər yeri qaramat basıb
Ağzımda dişə qədər...

Yaxud:

Mən də qara tüstü kimi
Çıxım başından, qurtaraq.

İt ulaması, bayquş ulaması bir çox xalqların mifologiyasında ölüm xəbərini, bədbəxtliyi bildirir (XIX əsr rus alimi Vs. Millerin "Mifoloji inanclarda it obrazının mənası" mövzusunda araşdırması da var).

Bayaqdan bayquş ulayır
Qonşu itinin üstünə.





Yaxud:

Bu itlər niyə kirimir
Alır sükutu əlimdən.
Dərdi boşqaba çəkirəm
Gələn bax budu əlimdən.

Peyzaj obrazların psixoloji durumunu əks etdirir. Elə burdaca – qeyd edək ki, Qulunun poetik peyzaj duyumu narahat – mistik, hətta deyərdim ki, bədbin əhvalının işarəsinə çevrilir. Üzdən sakit, rahat görünsə də, sözdən (içdən) bir xaos boylanır.

İtirir yarpaq balasın
Yaxasın cırır ağaclar.
Külək dil qəfəsə qoymur
Təntiyir axır əlac da.

Ölüm mövzusu Azərbaycan ədəbiyyatında fəlsəfi refleksiyanın predmetidir. Oktavio Pas bir essesində inandırır ki, "dərin, ümumbəşəri kult olan ömür kultu həm də ölüm kultudur. Onları bir-birindən ayırmaq olmaz. Ölümü inkar edən sivilizasiya əvvəl-axır həyatın inkarı fikrinə düşəcək".

Açıq danışaq: son 10-15 ildə poeziyamızda ölüm mövzusunun bayağılaşması, ontoloji mənadan məhrum olması prosesi gedir. Ölüm fəlsəfi kateqoriya kimi deyil, mənasız, profan bir nəsnənin adı kimi poetik kontekstə salınır, nəzmə çəkilir. Bu, şeirin fəlsəfi strukturunu xeyli zəiflədir.

O nədi gendən ağarır?
Çatıb axırın çağırır.
Məni çağıran çağırır-
Açın yaxamı, gedim.

Qulu Ağsəsdə ölüm intim hadisə kimi yaşanılır. Ölüm dərk olunan, yaşanılan yoxluqdur. Yuxu, ölüm-itim mövzuları mətnlərə

bir sufi ovqatı ("xalq sufiliyi"), bir nisgil-xiffət gətirir. Bu, Qarabağ müharibəsində itgin düşən məktəb dostu Xaliqə həsr etdiyi şeirində aydın sezilir:

Allaha baxmasaydım,
Girməzdim yuxuma da.
Torpaq kimi soyuyur –
Ən isti, yaxın adam.

Antitezalar bu bəndin (şeirin), o cümlədən başqa şeirlərin də fəlsəfi məna düzəninin əsası olur.

... Diri yuxarı sığınır
Ölü torpağın təkinə.

...Toyuna çağırmadın,
Vayına çağır məni.

...Mən onu itiyim kimi sevdim,
O məni tapdığı qədər...

Onun şeirlərində Allah – Mənadır. Mənanın mövcudluğu – dünyanın mövcudluğudur. – "Sənsən hər yer..." kitabın adı yaxşı seçilibdir. O hər şeyi anlamağın ilk fokusudur. "..Səndə nə var çəkir məni". Sorğu-sual, heyrət-təəccüb, şübhə, giley-güzar... – hamısı bu fokusa bağlıdır. Onun varlığının təzahürünün mümkünsüzlüyü də Mənadır.

Azərbaycan şairi Qulu Ağsəs daim məna axtarışındadır. Məişətdə bilmirəm, Sözdə bu axtarış görümlüdür: bəzən poetik inanc səviyyəsində təzahür edir, bəzən də deklorativ səviyyədə bəyan edilir.

Qulu Ağsəsin Allaha bu qədər ərkyana davranışı genetik inanc yaddaşından və bir də türk düşüncəsinin tipologiyasından irəli gəlir. "Türklər qədim dövrlərdən başlayaraq, öz Tanrıları ilə sıx mənəvi-





ruhi təmasda olmuş, ondan qorxub çəkinməmiş, əksinə, ona könüldən bağlanmış, İslamı qəbul edəndən sonra həmin sadəlövhlük, səmimilik müsəlman Allahına münasibətdə də özünü göstərmişdir" (Nizami Cəfərov).

Qulu Ağsəsdə Tanrıyla ünsiyyətdə rəsmiyyət yoxdur. "Mən – Sən" ünsiyyət kanalı özünü, dünyanı... anlamaq durumudur. Və anlamaq aktı o zaman başlayır ki, "Mən" "Sən" məkanına daxil olunur. Mən-Sən bir medalın iki üzüdür, eyniliyin işarəsidir.

Demə, nə eşidirsən
Nə səsin çıxır sənin.
...Beləymişsən, yaxşı ki,
Tanıdım axır səni.

Bu tipli şeirlər (inanıram ki, onun ömür fəlsəfəsinin tərkib hissəsidir) onun fiziki-mənəvi-psixoloji varlığının hüdudlarını müəyyənləşdirir. Bu şeirlər şair Qulu Ağsəsin yaşam sadəlövhlüyünün poetik isbatıdır:

Nə boydasan görən heylə?
Bir ölçüyə gəlmirsən.
Baş çəkmirsən qullarına
Bizə niyə gəlmirsən?..

"Kitabi-Dədə Qorqud"da Oğuz bəylərinin Uca Yaradana duası-yalvarışı belə səmimidir:

Ucalardan ucasan!
Kimsə bilməz necəsən!
Əziz Tanrı!
Sən anadan doğulmadın.
Sən atadan olmadın.
Kimsə rizqin vermədi
Kimsəyə güc etmədin

Qamu yerdə əhədsən,
Allahü-səmədsən!

Qulu Ağsəs Böyük Ənənənin içindədir. Yəni Qulu Ağsəs özündən əvvəlki şairləri tanıyır. Bilir ki, bu ədəbiyyatda Füzuli, Nəsimi, Vaqif, Xəstə Qasım, Dədə Ələsgər olubdur. Bilir ki, ondan sonra da şairlər olacaq. Yunus Əmrələr, Aşıq Veysəllər, Qaracaoğlanlar, Səməd Vurğunlar yenə də gələcək.

Qulu Ağsəs öz adına, ömrünə və sözünə hörmət qoyan şairdir.

*17 fevral 2007*





***Orxan Aras***
*Almaniya*

## QULU AĞSƏSİN POEZİYASI

Onunla keçən ilin martında Azərbaycan Yazıçılar Birliyində təsadüfən rastlaşmışdım. Yazıçılar Birliyinin katibi Rəşad Məcid qapının yanında dayanmış eynəkli, gənc, arıq bir adamı göstərib "tanış ol, bu, Qulu Ağsəsdir" demişdi.

Əvvəllər onun bir neçə şeirini oxumuşdum. O vaxt geniş söhbət eləməyə vaxtımız olmadı. Amma Qulunun eynəyinin ardından baxan utancaq gözləri bir müddət yadımdan çıxmadı.

Bu ay onun bir şeirini bizim Avropada yayımlanan "Baxış" qəzetində çap etdik.

Yazırsan, "ölürəm"
Min şükür, alqış!
Nə yaxşı ki, sevgidən ölən hələ var,
Demə kişidən də mələk olarmış,
Əzrayıl olanda axı nə olar.

Qəzet çıxar-çıxmaz Azərbaycanı görməyən, Qulu Ağsəsi tanımayan dostlar mənə zəng etdilər. Dedilər ki, demək, Azərbaycanda da sevgisizlikdən şikayət edirlərmiş, buna çox təəccübləndik.

Doğrusu, mən də onların dediyinə təəccüb etdim. Çünki sevgisizlik və sevgiyə xəyanət hər yerdə var. İnsanlıq, sevgi, dürüstlük hansı ölkədə tapdanmır ki?

Amma məni ən çox sevindirən bu azərbaycanlı gənc və utancaq şairin duyğularının və ifadə tərzinin qürbətdə də əks-səda doğurması idi.

Təəssüf ki, mənim əlimdə onun heç bir kitabı yoxdur. Dostum Qalib Toğrulun şeirlərlə birlikdə göndərdiyi tərcümeyi-haldan bili-

rəm ki, Qulu Ağsəsin iki kitabı çap olunub və şeirləri bəzi mükafatlara layiq görülüb.

Onun şeirlərində təmiz dil, sakit bir ifadə tərzi var. Mənim tez görüşüb, tez də ayrıldığım o sakit şairin baxışları sanki şeirlərinə də keçib. Qulu Ağsəs sevgini sanki qırıq bir qəlblə anlatmağa çalışır. Oxucu Qulu Ağsəsin şeirlərini oxuyanda onun duyğularını bir axar su kimi sevgilisinin qəlbinə axıtmaq istədiyini düşünür.

Bir qız bir oğlana çoxuymuş, demə
Sevdim təklənəsən...
Çoxaldın, gülüm.
Açdım ürəyimi yoldan ötənə,
Təki səni ordan çıxardım, gülüm.

Şairin oxuduğum şeirlərinin əksəriyyətində eşq, ayrılıq və yorğunluq var. Bəzi şeirlərində isə təbiət və təbiətin qoynundakı şair tənhalığı çox usta şəkildə təsvir olunub. Tənhalığı daxilən yaşamayan bir insanın şair olması mümkün deyil. Tənhalıq insanın özüylə qarşılaşması, özünü sorğu-suala tutması və özündən hesab sormasıdır. Şairlər adətən tənhalığın qoynunda özləri ilə haqq-hesab çəkərkən, sevgililərini də suçlamağı, sorğu-suala tutmağı və ya göylərə qaldırmağı unutmurlar.

Qulu Ağsəsin tənhalığı isə fərqli tənhalıqdır. O, tənhalığı həyatın dərdlərindən, kədərlərindən və yalanlarından uzaqlaşmaq üçün arzulayır. Onun tənhalıq arzusunun içində bir ovuc rahatlıq istəyi var.

Yatasan torpağa, yatasan dağa
Əzrayıl minnətə gələ, durasan.
Bir ağ kağız ola quş qayırmağa
Bir şey tapmayasan, tələ qurasan...

Tələ qurmaq şairin işi deyil. O sadəcə öz könlü ilə döyüşə bilər. Könlün isə sevgidən başqa silahı yoxdur. Bir də silaha nə ehtiyac var ki? Kağızdan quş qayıran bir əl silahı necə tuta bilər ki? Şair əbədi bir rahatlıq arzusundadır. Rahatlıq torpaqla, dağla, sis-





dumanla söhbətdir. Rahatlıq özünə qayıdış və bir damcı yağışın yarpağın üstündən üzə damcılamasıdır.

Meşəni əynindən soyunub burda,
ilan vuran kimi oyanıb burda
Təzədən yatasan...
Ağacın altında, torpağın üstdə,
Yağış damcılaya yarpağın üstdən...

Qulu Ağsəsdə şeir bəzən şikayət, bəzən tənhalıq, bəzən də rahatlıqdır. Onun şeirlərini oxuyanda içimdə sərin bir küləyin əsdiyini hiss edirəm. Gözlərimi yumub xəyalən meşələrə üz tuturam. Ağaclar, quşlar və həzin-həzin yağan yağış üzümü-gözümü oxşayır. Daxilimdəki rahatlıq və sakitlik şeirlərlə birlikdə məni məndən alıb Qulu Ağsəsin yurduna aparır.

*2008*

***Elxan Zal Qaraxanlı***
*şair*

## "SƏHƏR – KÖRPƏSİDİR DOĞAN GÜNƏŞİN"

"Ulduz" jurnalında Qulu Ağsəsin "Müharibə əlili" şerini oxudum, mənə çox təsir etdi. Çoxdan idi ki, müharibə gercəklikləri barədə belə real, canlı yazı oxumamışdım.

İki balam gözü yaşlı,
Arvadım başı daşlı...
Yazıq hər əmrə müntəzir...
Həm məni gəzdirir...
həm özü gəzir.
Süfrəmdə haram var,
dinmirəm,
İki ac balam var,
dinmirəm,
Dinmirəm gül ağzı açılanda heyrətin;
"Vətəni qorudun, bəs öz qeyrətin?!"
...Üzdü ayaqlarımı Vətən yolu,
Bu da mənə "sağ ol"u...

İndi yazı yazan çoxdu. Bilmirəm nədəndi, amma söz cütləmək də pul qazanmaq kimi dəb halını alıb. Sözə hörmət, demək olar ki, çox az adamda qalıb. Kimin ağlına nə gəlir, onu da yazır. Qəzet bol, jurnal bol, ştatlı məddahlar da nə qədər desən. Hara baxırsan, cızmaqaraçı "şedevr" ustaları haqqında palaz-palaz yazılardı. Meydan həyasızlığındı. Ədəbiyyat dəllallarının KİV-də yaratdığı qarşılıqlı dəstək maşını, gecə-gündüz istedadsızlığın dahiliyi barədə yazılar üyüdüb tökür. Neynəyək, hələlik ədəbiyyatda və mətbuatda anarxiyadır. Qulu Ağsəs kimi adamlar da qapanıb öz dünyasına,





yaxşı zamanları gözləyir. Gözləmək bacarığı özü də bir istedaddır. İstedadsızlar tarix boyu ortalıqda fırlanmağı bacarıblar. İstedadlılar isə ortaya sənət nümunəsi qoyur:

Elə sərindi ki, torpağın üstü,
Altı cənnət olsun, nəyimə gərək.

Qulu Ağsəs sözə hörmətlə yanaşan və onu yerində işlətməyi bacaran bir şairdi. Şair, yəni şeir yaradan. Fikrimcə, şeir təhtəlşüurda gizlənmiş sözlərin duyğu süzgəcindən keçərək maddiləşən formasıdır. Onların qeyri-adiliyi də, ovsunkarlığı da məhz təhtəlşüurdan gəlmələrindədir. Yoxsa, kompüterlər gecə-gündüz şeir ştamplayardı, heç şairlərə də ehtiyac olmazdı. Hərdən mənə elə gəlir ki, bugünkü gənclik insandan daha çox elektron maşın üçün yazır – duyğusuz, zövqsüz söz yığını. Olsun ki, nə zamansa onları oxuyacaq robotlar da icad olunacaq. Amma hələlik şeir insan üçün yazılır və yer üzərində axırıncı insan qalana qədər şeir də oxunacaq. Nə qədər kamil robot olur-olsun, Qulu Ağsəsin şeirlərindən yaza bilməyəcək. Çünki bu şerlər insan tərəfindən insan üçün yazılıb.

Qəflətən bir çağa salar hay-həşir,
Səhər, körpəsidir doğan günəşin...

***Nərgiz Cabbarlı***
*tənqidçi*

## ONUN ŞEİRLƏRİ ALLAHLA SÖHBƏTİNİN YALNIZ BİR QİSMİDİR

*"Şair başqalarından daha artıq dərəcədə təbiətin ruhunu öyrənməli, təbiəti sevməli və təbiətə acımalıdı..."*
**Belinski**

Bu fikrin ardınca "Ədəbiyyatla bağlı arzular" məqaləsində əsl şairin daxilən bakirə və başqalarından daha artıq dərəcədə təmiz olmalı olduğu haqqında düşüncələr var. İkinci fikirlə o qədər razılaşmasam (gözəl şairlərdə bəzən o bakirə və təmiz qəlbin olmaması da mümkündü və bu təmizlik anlayışı üzərində mübahisə etmək olar) da, birinci fikirlə çox şərikəm. Təbii ki, Belinski təbiət dedikdə onun birbaşa dərk edilən mənasını nəzərdə tutmayıb. Burada insanın təfəkkürünə, eqosuna sığışa biləcək qədər böyük Təbiət anlamından söhbət gedir. O fikrə əlavə etmək istədiyim yeganə bir ştrix də var – öyrənmək, sevmək və acımaqdan əlavə, şairin başqalarından fərqli müşahidə etmək bacarığı olmalıdı. Xüsusilə də ona görə ki, zərgər dəqiqliyi və şair gözüylə edilən bu fərqli müşahidənin poeziyaya gətirdiyi nə qədər gözəl çalarlar ola bilər...

Bəzən poeziyada fəlsəfə və dərin məna axtarmaq istəyi bizi üzdə olan və az qala gözə girən gözəllikdən zövq ala bilməmək, o gözəlliyi görməmək həddinə gətirib çıxarır. Halbuki əsl poeziya məhz onların vəhdətidi – sadə gözəlliyin və dərin mənanın. Ən sadə və ən maraqlı gözəllik isə təbiətin yaratdığı və şair gözlərilə görülə, duyula bilən gözəllikdi. Təbiətlə iç-içə, nəfəs-nəfəsə, göz-gözə və duyğu-duyğuya bir qalmaq mümkün olduğu halda, nə üçün bütün şairlərdə bu müşahidə qabiliyyəti hiss olunmur? Amma haqqında yazmaq istədiyim şairin yaradıcılığında duyduğum müşahidə qabiliyyətinin fərqliliyi məni daha çox heyrətlənməyə vadar edib.





Mən bu şairin yaradıcılığı haqqında yazılan iki məqalə ilə tanış olmuşam. Çox maraqlıdı ki, bəzi məqamlarda onun yaradıcılığı haqqında danışanlar sufilik anlamına qədər gedib çıxır, bəzən isə onda olan etiraz və narazılıq notları qabardılır. Bunları danaqmı? Əsla! Hər ikisi mövcuddu, amma yalnız bir qədər dərin qatlarda. Bütünlükdə bu şairin yaradıcılığını təhlil etmək istəyən o qatlara keçid elə asan olmur...

Müasir poeziyaya Ramiz Rövşən, Vaqif Səmədoğlu və Vaqif Bayatlı Odər yaradıcılığının havası ilə gələn axını izləyənlər üçün heç də sirr deyil ki, poeziyanın az qala etalonuna çevrilmiş mövzular – Ölüm, Qorxu, Etiraz, Tanrı, Şikayət – əsas koloritdi. Əlbəttə, bu fikrə etiraz eləmək istəyənlər üçün bir yol var – adı çəkilən mövzuların bəşəri olması iddiası. Razılaşıram. Amma müasir poeziya nümayəndələrinin həmin mövzulara az qala eyniləşmiş və ştamplaşmış münasibəti narahatlıq doğurur. Çünki onsuz da hər bir nasir və şair yaradıcılığında bəşəri mövzuya müraciət edir və bununla da eyni mövzuda öz sözünü deməyə çalışır. Yəni müraciətin özündə təbiilik var. Həmçinin cəmiyyətin düşdüyü və çabaladığı axın, ədəbiyyatın keçdiyi etaplar və özündən əvvəlki ədəbi nəslin təsiri həmin mövzuların şairlərin yaradıcılığında özünə əsaslı yer tutmasına səbəb olur. Ən əsası odur ki, bu mövzulara özünəməxsusluq gətirən, öz rəng çalarını vuran şairlər də var, ümumi axında seçilə bilməyərək deyilənləri az qala sözbəsöz təkrarlayanlar da. Hər halda, məlum dövrün senzura qoyduğu mövzulara cəmiyyətin və ədəbi ictimaiyyətin aclığını doyurmaq üçün bu maraq labüd idi.

Haqqında yazdığım şairin yaradıcılığı həm mövzu fərqliliyi, həm də müşahidə etmək qabiliyyətilə diqqəti çəkir. Özünə və ətrafına ironiya, özünə və ətrafına (Tanrısına belə) ərkyana münasibət, özünə və ətrafına fərqli məhəbbət... Qəribədir ki, bu münasibətlərin hər birində özüylə – daxili, məni ilə ətrafı – sevdiyi və Tanrı arasında fərq qoymur bu şair. Onun məhəbbəti, ərki, acığı, bəzən nifrəti, ironiyası özünə, ətrafına – Sevgisinə və Tanrısına da eyni hərarətlə etiraf edilir. Və bu etirafda, bu duyumda ən əsası səmimiyyətdi. Amma səmimiyyət məqamından danışmağa tələsməyək. Öncə Tanrıya münasibət...

## TANRIYA FƏRQLİ ETİRAZ MƏQAMI – “ATA-OĞUL” MƏHƏBBƏTİ

Mən bilərəkdən bu şairin adını çəkməyə tələsmirəm. Mətbuatda və ədəbi mühitdə şeirləri az görünən – imzası ilə tanınan şairi tapmağa cəhd etməyinizi istərdim. Daha doğrusu, siz cəhd edin, mən isə məqamı açıqlayım.

Bu məqamdan yəqin ki, birinci söz açılmalıdı. Çünki bu şairin yaradıcılığında Tanrıya sevgi də var, etiraz da, qəzəb də, inciklik də. Amma onu fərqli edən əsas kolorit ərk və uşaq sadəlövhlüyü, uşaq cığallığı və uşaq inadıdı... Həm də məhz Tanrıya münasibətdə olan uşaq inadı...

Yaradıcı insanın öz yaratdığını Tanrı yaratdıqlarıyla müqayisə etməsi, bəzən Tanrıya şərik çıxmaq istəməsi həmişə olub. Yaratdıqları, rəngdən-rəngə, cilddən-cildə saldıqları sözü ona pıçıltı, dua ilə söyləmək istəmələri də müasir poeziyada çoxdur, bəzən Yaradanı postundan düşürmək arzusunun ifadəsi də. Bütün bu fikir və emosiyaların Sözdə təcəssümünə gəlincə, qəzəb də duyulub, inciklik də, xəyal qırıqlığı da hiss olunub, nifrət də. Amma ata-oğul münasibəti və ərk yox... Hətta müəyyən şairlərimiz “Tanrıya küfr yazanda da sevdiyimdən ərk etdim” fikrini desələr də, şeirdə-sözdə bunun ifadəsi olmayıb.

Tanrı mövzusunun bu qədər dəb olduğu bir dövrdə bu şairin Tanrıya poeziyada yeni münasibət gətirdiyini desəm, yanılarammı? Məncə, yox... Bu münasibətdə ifadə edilən yalnız ərk deyil. Yəni sevənin sevdiyinə etdiyi ərkdən söhbət getmir. Burada daha çox yaradılanın (övladın) Yaradana (Ataya) münasibətindən danışa bilərik. Bu münasibət həm dəcəl və şıltaqdı, həm də incik və cığal.

Mən şeytan balanam, Tanrım,
Ölü ver, diri qaytarım.
Sən ordan bir boş şey göndər,
Doldurub geri qaytarım.
Ömrü sürürəm hələ ki,
Verdiyin gündən yuxarı.





Hərdən qaldırmağım gəlir
(döşənib ayaqlarına)
Sən özündən yuxarı...

Yaxud bir qədər ifadəsinin tonu, intonasiyası əzizlənməkdən hədəyə, barmaq qıcamağa doğru yol almış bir bənd:

– Demə, nə eşidirsən,
nə səsin çıxır sənin.
...Beləymişsən, yaxşı ki,
tanıdım axır səni.

Onun bütün yaradıcılığı boyu Tanrıya münasibətdə bu qabarma və çəkilmələr özünü göstərir. Bəzən nisgil və kövrəkliklə əvəz olunur.

Çıxmaq istəyirəm üzü qüruba
Apar dərgahına, məni, Yaradan.
Kimsəni yarıdammadım,
Bəlkə səni yarıdam.

Hərdən acıq və qəzəb ifadə edilir:

Yastıq qoyub başımıza
Əcəb yatırdın bizi.
Aç gözünü, qaranlığın
Qırıb batırdı bizi.

Milyon illərdi yeyirik
Süfrənin qırağından.
Çörək bizi tutar deyin,
Dinmirik qabağından.

Nə boydasan görən heylə?
Bir ölçüyə gəlmirsən?
Baş çəkmirsən qullarına
Bizə niyə gəlmirsən?

...Özünü görməsək də,
Xofun yamandı, Allah!
Bizi qırıb qurtarmamış,
Ölmə, amandı, Allah!..

Bəli, məhz acıq! Hər bir insanın düşdüyü çətin məqamda kin və qəzəbini özündən sonra ünvanladığı son mənzil olan Tanrı! Hər birimiz qəzəbli anımızda onu qınayırıq. Amma bu şeirdə maraqlısı odur ki, düşünülən acizlik məqamında övlad məhəbbəti ilə əziz bir kəsi – Onu günahlandırma yox, həm də haqq qazandırma mövcuddu: “Əcəb yatırdın bizi”deyib incidiyi O, həm də günahsızdı. Çünki bu qaranlıqdan xəbərsiz olub və şairin “Aç gözünü!” nidasını eşitməlidi. Mən “Ata-Oğul” məqamından danışdım. Özünüz fikir verin: Bənzətmədə II bənddə “süfrənin qırağından yeyirik – dinmirik qabağından”, “baş çəkmirsən qullarına, bizə niyə gəlmirsən?”, “özünü görməsək də, xofun yamandı” ifadələri hansı təsəvvürü yaradır? Bir ağsaqqal ata – nəsil başçısı, ocaq sahibi obrazını. Qəribədir ki, bu şairin poeziyasında Ona ünvanladığı şeirlərdə bu cür “Ata-Oğul” münsibətinin müxtəlif çalarlarını görmək mümkündür.

Bu da mənim baxtımdandı,
Gözüm Tanrı taxtındaydı
Onun da yeri boş deyil...

Bəlkə də bu misraları hansısa dinə inanan kəs “küfr” adlandıra bilər, elə deyilmi? Amma...

Başım qarışmışdı yaman
Allah olmaq istəyirdim.
Xofunu
Bəd uğurumun
Arxasında gizləyirdim.
Nə yaxşı ki, dözəmmədim,
Qayıtdım mən yolun azmış.
Məndən adam olmadı heç
Məndən Allah da olmazmış...





Misralarında özünün Tanrı olmaq istəyinə ironik münasibətilə əvvəlcədən yaratdığı təsəvvürü dəyişir. Həmin ironik münasibət bəzi şeirlərində daha da kəskinləşir. Hətta bəzən bu münasibətə görə şairi qınayırsan da:

Kimsən, nəçisən, ay Allah –
Heç səndən baş tapammadıq.
Özün qurduğun dünyada
Sənə bir iş tapammadıq.

Günün necə keçir barı,
Can verib, can almağınan?..
Səni nəynən bəndə salaq,
Tutaq hansı qarmağınan?!
Görsək heç nə eləmərik,
Bir özünü göstər bizə!
Yaxşı günün əgər busa,
Yaman günü göstər bizə!

...Neynəsən sevirəm səni,
Qulunam, gəl min boynuma!..
Bu şeiri də sən yazmısan,
Babalı mənim boynuma...

Əlbəttə, tanımaq və öyrənmək, Ona bələd olmaq istəyindən əhval-ruhiyyə ilə yazılmış bir şeirdir. Sanki bir uşaq öz uşaq sadəlövhlüyü ilə görmək, öyrənmək istəyi nəyisə tələyə salmağa çalışır. Məhz gülüşü, zarafatı və şirin dili ilə. Amma birdən-birə (həm də bu şairin yaradıcılığına məxsus bir gedişlə) şeirin sonunda oxucu üçün iki gözlənilməz keçid edir. “Neynəsən sevirəm səni” ifadəsini oxuyarkən “barış” məqamının yetdiyini və sevginin vurğulandığını güman etdiyin halda, birinci gözlənilməz keçid baş verir: “Qulunam, gəl min boynuma” – kobud münasibətin, qəzəb və narazılığın fon-

tanlı ifadəsi...İkinci gözlənilməz keçid isə bu münasibətdən sonra acı söz demiş, günah işləmiş uşağın şıltaq təbəssümünə bənzəyir: “Bu şeiri də sən yazmısan, babalı mənim boynuma”.

Bir də “Səni nəynən bəndə salaq, tutaq hansı qarmağınan?” ifadəsi haqda deyim: bu, şairin yaradıcılığında bol olan bir duyum və içində uşaq dünyasını hələ də gəzdirən böyük obrazının mövcudluğunun sübutudur. Tanrıya ərkyana və cığal uşaq münasibəti öz kulminasiya nöqtəsinə uşaqlıqdan kənar hiss və düşüncələrlə yazılmış bir etiraf şeirində çatır:

...Mərhəmətin neyləsəm də,
günahımı aşmada.
Çoxdandı ki, içimdə bir
yalvarış dolaşmada: –
Gedib tövbə eləməyə
mənə yer ver, İlahi!
Elə yer ki, baxıb görüm
sənsən hər yer, İlahi!..
Günahımı nəylə desən
razıyam yuyum orda,
Əgər gücün çatsa məni
özündən doyur orda...

***P.S.*** Söhbət şair Qulu Ağsəsin yaradıcılığından gedir.

*21 sentyabr 2002*





***Xuraman Hüseynzadə***
*şair*

## POEZİYADA BƏMBƏYAZ BİR SƏS

*Qulu Ağsəsin doğum gününə*

“1969-cu ilin 20 aprel günü atam Ağsəs Cəfərqulu oğlunun əcəl elçisi kimi bu dünyaya təşrif buyurdum... Ömürlüyüm kökaltı ifadəyə bənzər; surətini çıxarmaq mümkün olsaydı, yaxamdan asıb diyarbadiyar gəzərdim”.

Bu sözlər sabah növbəti doğum gününü qarşılayacaq şair Qulu Ağsəsin bu dünyaya etiraz notları üstə kökləyərək dilə gətirdiyi tərcümeyi-halındandır. Dəqiq bilirəm ki, qələm dostumuz bu dünyayla dil tapsaydı, şair olmazdı, ədəbiyyatımız da yepyeni bir nəfəsin hərarətindən məhrum olardı.

“Hazırkı məqamda onun şeir yaradıcılığı iki müxtəlif qaynağa söykənir: klassik-milli və modern-qeyri-milli. Gümana görə, gənc şairin əsl yaradıcılıq yolu məhz bu iki qaynağın vəhdətindən yaranmalıdı, yəni klassik nəfəs modern – Ağ nəfəslə qaynayıb-qovuşmalı və möhkəm vəhdət ədəbiyyat tariximizə Qulu Ağsəs üslubunu gətirməlidi” (Bayram Əvəzoğlu).

Qulunun yaradıcılığı haqqında zərgər dəqiqliyi ilə deyilmiş sözlərdir. Zaman-zaman ədəbiyyat tarixində iz qoymuş əksər şairlərə xas məziyyətlərdən biri olan üsyankarlıq müasir poeziyamızın öndə gedən isimlərindən olan Qulu Ağsəsdə daha qabarıq şəkildə hiss olunur.

Kimsən, nəçisən, ay Allah –
Heç səndən baş tapammadıq.
Özün qurduğun dünyada
Sənə bir iş tapammadıq.
Günün necə keçir barı,
Can verib can almağınan?..

Səni nəynən bəndə salaq,
Tutaq hansı qarmağınan?!

Görsək, heç nə eləmərik,
Bir özünü göstər bizə!
Yaxşı günün əgər busa,
Yaman günü göstər bizə!..

Neyləsən, sevirəm səni,
Qulunam, gəl min boynuma!..
Bu şeiri də sən yazmısan,
Babalı mənim boynuma...

Deyərdim ki, şair üsyanı bütün üsyanlardan dəhşətlidir: çünki şairlər heç vaxt məğlub olmurlar. Yaradan sevimli bəndəsi olan şairlərə həmişə güzəştə gedib: çünki şair özü də elə yaratmaqla məşğuldur. Sözlə nəsə qurub yaratmaq böyük ustalıq tələb edir. Qulu ustalar ustasıdır – yaratdığı poeziya istehkamı dolğun fikir təməli üzərində qurulur.

Bunu ancaq sənə danışıram –
bircə balama
Kasıb evində bağlanmış
Turşu bankasıdı atan.
ağzı hərdən açılır –
bayramdan bayrama.
Sənin dünyaya gəlişin də
Bayramdı deyə
Bir-iki sözüm olacaq
Allah eləsin oxşamasın
sağlığa,
nəsihətə,
öyüdə,
gileyə.
Bəlkə haçansa dadına çatdı
çətin gündə, bərk ayaqda.





Quş quşla ötmür, balası,
Şair şairlə dilləşmir.
Quş budaqda oxuyur,
şair varaqda.

Qadına yalan danışmazlar,
Həqiqət kişidi, səhv eləmirəmsə.
Əlbəttə, kişi lazımdı qadına.

Kişiyə gerçəyi deməzlər,
Yalan qadına oxşar daha çox.
Ona görə hər kişinin ürəyindən
baxmaq keçər yalanın dadına.

Bir də unutma,
Mən kimsəsizliyimdən bənzərsiz oldum,
Sən deyəsən atana oxşayacaqsan.
...Bu qədər, balası.
gecdir, uyu.
Gör göy üzü nə qayğıkeşdir,
gecənin kürəyinə
ulduzdan piltə qoyur...

...Bu, nağıldır. Qulu Ağsəs gerçəyin sərt üzünü tərsinə çevirib nağıl astarını balasına anladır... Gerçəyin sərt üzü nağıllaşarmış, insanı şipşirin röyalara qərq edərmiş – insanın xoşbəxtliyə qovuşduğu yeganə dünyaya – röyalara... Həcmindən, vəznindən asılı olmayaraq, onun bütün şeirlərini suya təşnə adamlar kimi birnəfəsə içirəm, yalan olmasın, nəfəs almadan, göz qırpmadan oxuyuram. Bu, şair xoşbəxtliyidir. Bəlkə də şairlər yeganə varlıqdılar ki, xoşbəxtlikləri öz bədbəxtlikləri üzərində qurulur. Bədbəxt ikən xoşbəxt, fani ikən əbədi, qara ikən ağ, zülmət ikən aydınlıq və s. – bunlar şairlərin – gerçək şairlərin alın yazısıdır.

Qulunun şeirlərini oxuduqda həmişə düşünmüşəm ki, nə yaxşı bu dünyada şər, şeytan, ədalətsizlik var – səhv etmədiniz – nə yaxşı

bütün bunlar zamanla, dünyayla birgə yaranıb və biz bu ədalətsizliyə qarşı şair üsyankarlığını görə, oxuya bilirik!

Ya Allah!
Yer üzündə
Ədalət yoxa çıxıb.
Düzdü,
Hələ biri qalır –
O da Qazaxda saz çalır...

Bütün şairlər kimi, yəqin ki, Qulu Ağsəsin də payıza şairanə bir sevgisi, məhəbbəti var. Qulu Ağsəsi baharda bu işıqlı dünyaya bəxş edən Tanrı, alnına şair taleyi yazacağı üçün özünü sığortalamaq istəyib bəlkə də. Axı bahar sevgilərin, oyanan torpağın, gülün, çiçəyin, bir sözlə, gözəllilərin fəslidir. Və şair Qulu Ağsəs doğum gününü belə bir zamanda qeyd eləməyə məhkumdur. Məhkumluğun mübarək, Qulu Ağsəs!

*19 aprel 2008*





***Balayar Sadiq***
*şair*

## SÖZÜN BEŞİNCİ FƏSLİ

Qulu Ağsəs çağdaş Azərbaycan poeziyasında yaradıcılıq imkanlarının genişliyi, özünəməxsus təfəkkür tərzi, fikrin emosional tutumu, ədəbi fərdiyyəti ilə seçilən aparıcı ədəbi simalardan biridir. Şeirlərinin təravətli və təkrarsız obrazları, orijinal bədii sözün keyfiyyətləri, həmçinin daxilindəki əsrarəngiz məna gözəlliklərini sərgiləyə bilmək məharəti onun həqiqi istedadının göstəricisidir. Maraqlıdır ki, bu bədii nümunələrdə ənənəvi Şərq üslubunun qeyri-adi təzahürləri ilə rastlaşırıq. Poetik nəfəsin yeniliyi, dilin ifadə zənginliyi, incə lirizm əlvanlığı kimi yüksək sənət faktorları təqdim etdiyim misraların bədii-fəlsəfi ümumiləşməsində özünü tam parlaqlığı ilə ehtiva edir.

Görsən hər tərəfdən əlin üzülür,
Görsən üşüyürsən...
yandır özünü...

Bu misralarda poetik fikrin məna dərinliyi, dilin səmimiyyəti sənət uğuru kimi dəyərləndirilə bilər. Təkcə elə bu misralar öz müəllifinə ədəbiyyatda, ümumiyyətlə söz, düşüncə dünyasında əbədi yaşam hüququ qazandırır. Ümidsizliyin, tənhalığın ümid dolu təsviridir bu misralar. Qeyri-adi poeziya nümunəsi yaratmaq faktoru bu cür əyaniləşir. Belə poetik fikri ədəbi təhlil müstəvisinə çəkmək naşılıq əlamətidir. Kütlə dünyagörüşü ilə tərs mütənasibdir bu poeziya.

Q.Ağsəsin şeirlərində zamanın təlatümləri yeni ifadə tərzində, obrazların rəngarəngliyində, mövzuya uyğun formanın əlvanlığında, fərdi duyumun poetik naxışlarında gerçəkləşir.

Qorx ki, yenə yerdən çıxa,
Buluddan dama adam...

Yaxud:

Baş açmazsan:
yaşdı, ya daş?! –
Damarında qan durar.
Gözündən düşən nədisə,
Ayağını sındırar...

Və yaxud:

Qoşulub göyün quşuna
Üstündən saat ötər...

Qulu öz estetik məramını, poetik niyyətini dolğunluqla reallaşdıran, bədii sözün saflığını qorumaqla, sözün yükünü, çəkisini önəmsəyən şairdir. Qələmə aldığı hər hansı yazını özünəməxsusluq etiketi ilə təqdim etməyi bacarır. Onun yaradıcılığında poetik təfəkkür, ideya-estetik təfəkkürü tamamlayır, dolğunlaşdırır.

Maraqlı sənətkarlıq məziyyətləri, fəlsəfi məfkurəsi, poetik düşüncəsi onu Şərq poetik təfəkkürünün parlaq nümayəndəsi kimi diqqətə çatdırır. Yaradıcılığı zəngin xalq düşüncəsindən qaynaqlanan obrazlı dil faktorunun ən gözəl numunəsidir. Qulunun şeirləri hər cür süni boyalardan, sintetik fiqurlardan, soyuq bənzətmələrdən uzaq, doğma dilin saflığını, hərarətini, həzinliyini, zərifliyini öz ruhunda, qanında yaşadan yüksək bədii dəyərin ehtivasıdır.

Yallar yaşılbaş sona
dərələr gölmüş kimi,
Quşlar pəsdən oxuyur,
boğazı gəlmiş kimi.

Yaxud:

Dumanı şumlamağa,
bir xırman vəli ola,
Holavar çağırasan,
yamaclar dəli ola.





Bu misralarda orijinal metaforaların, rəngarəng epitetlərin zənginliyi yüksək sənət arqumentidir. Burada təbiət, insan və zamanla bağlı düşüncələr aşılanan ideyanın mühüm tərkib hissəsi kimi heyranedicidir. Ənənəvi mövzuda yazılmasına baxmayaraq, yığcamlıq, konkretlik, obrazlılığın yeniliyi – qeyri-standart forma mərhələlərində deyil, forma və məzmunun vəhdətində şeirin bədii keyfiyyətini və sanbalını səciyyələndirir. Əsərin yüksək lirik ahəngi mövzunun poetik həllində güclü element kimi çıxış edir. Təbiət həmçinin insanın özünüdərkinə xidmət vasitəsi kimi canlanır. Bu şeirdə xalq həyatının dərki, qan yaddaşının bərpası, bir növ xəlqiliyin və müasirliyin yeni formatda harmoniyasıdır. Şairin obrazlar sistemi onun poetik təfəkkürünün fərdi-bədii xüsusiyyətlərini bütün çalarları ilə üzə çıxarır. Bu obrazlılıq sayəsində onun özünəməxsus sənətkarlıq cizgiləri aydın şəkildə ədəbi müstəvidə yeni bədii keyfiyyət kəsb edir.

O, hansı vəzndə yazmasından asılı olmayaraq, həmin vəznin məxsusi imkanlarından yaradıcı, sərbəst şəkildə yararlanır, həm də həmin formanı fərdi poetik xüsusiyyətlərlə zənginləşdirir. Ənənəvi şeirdə yaratdığı yeniliklərlə yanaşı, forma baxımından, daxili məzmunun təqdimatındakı modern nüanslarla avanqard təfəkkür imkanlarını da ortaya qoyur:

Yalın ayaqlarına
ocaq çatıb cocuq
Bir ayağı üstdə yatıb cocuq...
Üzündə
yay uzunu həsrət qaldığı
sevinci, gülüşü
Əlindəki dondurma
əriyib ocağa düşür...

Dərin həyat müşahidələrini poetik tabloda heyrətamiz ustalıqla canlandırmaq məharəti Qulu Ağsəsin qeyri-adi istedadını şərtləndirən amillərdən biridir. O, Şərq poetik təfəkkürünün hələ açıl-

mamış qatlarına misra-misra işıq salan şairdir. Yeni nəfəs, milli kolorit, milli duyum, səmimi özünüifadə manerası onun şeirlərinin alın yazısıdır. Çox dolğun və zəngin qafiyə sistemi bu şeirlərin əsas məziyyətlərindəndir. O, xarici və daxili qafiyələrdən, cinaslardan, sərbəst və uzaq qafiyələrdən bəhrələnir. Dilin fonetik qaydalarına yaradıcı formada riayət edərək, təravəti və təzəliyi ilə könül oxşayan qafiyələrin seçimlərinə xüsusi diqqət yetirir. Məsələn:

Başının uğultusu
alnında şırım açan
kotandandı...
Səni
qoluna girməyə çağıran
Vətən-dəmdi...

Yaxud:

Yatasan torpağa, yatasan dağa,
Əzrayıl minnətə gələ, durasan.
Bir ağ kağız ola quş qayırmağa,
Bir şey tapmayasan tələ qurasan.

Bu misralarda poetik məna gözəllikləri dilin ehtiva etdiyi bədii söz incəlikləri ilə müşayiət olunur. Qulu çox qədim fəlsəfi düşüncələrə yeni poetik biçimdə, modern düşüncəylə yanaşır. Bu məqamda onun obrazlı təfəkkür genişliyi, səmimi özünüifadə ovqatı böyük heyranlıq doğurur. Məsələn:

Qış günü soyuqdan ölən ağacın,
Yasına mart ayı yarpaq yazdırıb...

Yaxud:

Bircə eybi var ki, Dünya gözəlin,
Məni qucağına qonaq yazdırıb...





Və ya:

Şükür adımızı öz jurnalına
Əcəl adqoydudan qabaq yazdırıb...

Bu qənaətdəyəm ki, istənilən ədəbi-bədii nümunə, janrından asılı olmayaraq, ən yüksək sənət tələbləinə cavab versə də, əgər öz məzmununda, mahiyyətində ictimai-fəlsəfi, həmçinin milli keyfiyyət elementləri daşımırsa, bütün gözəlliklərinə rəğmən onu kamil sənət nümunəsi saymaq olmaz. Digər tərəfdən, yaradıcı şəxsiyyətin dövrün, zamanın ağrı-acısına öz düşüncə prizmasından yanaşmaq hüququ da mövcuddur.

"Müharibə əlili" şeiri öz bədii dəyəri, ideya-ictimai qayəsi baxımından ədəbi müstəvidə ənənəvi olmayan, fərqli bir baxışın təqdimatıdır. Bu şeirdə şair öz sənətkarlıq məziyyətlərini yeni rakusrdan sərgiləməklə, çevik və elastik dil elementlərindən, ironik detallardan istifadə məharətini də aydın şəkildə nümayiş etdirir.

İki balam gözü yaşlı,
arvadım başıdaşlı...
Yazıq hər əmrə müntəzir:
həm məni gəzdirir
həm... özü gəzir...

Sərbəst vəznlə heca vəzninin qaydalarından konkret bir poetik nümunədə sənətkarlıq səriştəsi ilə istifadə olunması, heca vəzninə xas poetik intonasiyanın ritmikliyi, ahəngdarlığı, həm də ironik emosionallığı şeirin özünəsəxsusluğudur. Bu detallar əslində şairin işıqlandırmaq istədiyi mənanın mahiyyətinə xidmət edir. Şairin poetik priyomu maraq doğurur.

O, müharibənin insanlara gətirliyi böyük bəlanı bir fərdin, yəni əlil döyüşçünün taleyi fonunda, milli-mənəvi və əxlaqi dəyərlər kontekstindən təsvir edir. Şeirin dilindəki pulbisistik çalar, məhz ideyanın, mənanın məğzini daha səlis və aydın açıqlamaq cəhdidir.

Deyərdim ki, uğurlu cəhddir. Əslində bu şeir modern düşüncə müstəvisində əsl vətənpərvərlik şeiri kimi səciyyələnməlidir. Bu poetik nümunədəki vətənpərvərlik duyğuları Mirzə Cəlilin, M.Ə.Sabirin vətənpərvərliyi ilə əkiz, yaxud da qan qohumudur. Məhz bu şeir ədəbiyyatımızdan müharibənin acı həqiqətlərini şablon ənənəçilikdən və yalançı vətənpərvərlikdən uzaq bir poetik emosionallıqla canlandırır. Məncə, bu şeirin poetik mahiyyətinin əsas məqsədi həqiqi vətənpərvərliyə çağırışdır.

Qulu Ağsəsin şeirləri həyatın özü kimi rəngarəng, zəngin və mürəkkəbdir, həm də özünəməxsus olduğu qədər fəlsəfidir.

Nədir bu özünəməxsusluq?

Bədii predmetə yanaşma tərzinin yeniliyi, mövzunun bədii həllində işlətdiyi təsvir və ifadə vasitələrinin orijinallığı, sözün böyük məsuliyyətini anlamaqla yanaşı, sözə ehkam kimi baxmaması, körpə kimi onun nazını çəkmək, sözün könlü açılsın deyə onunla çox zərif və incəliklə oynaya bilmək məharəti, yazı manerası və digər sənətkarlıq xüsusiyyətləri Qulu Ağsəs yaradıcılığının orijinal fərdiyyətini şərtləndirən əsas atributlardır. Dilindəki həzinlik, kövrəklik, şirinlik onun poetik ruhunun bulaq kimi saflığından, ədəbi istedadının qeyri-adiliyindən xəbər verir. Bütün bu yüksək sənətkarlıq keyfiyyətləri Qulunun ədəbiyyatımızdakı özünəməxsus ədəbi simasını rəmzidir.

Bunu da demək yerinə düşər ki, şair Qulu Ağsəs bütün böyük istedadlara xas olan təvazökarlığı və insani səmimiyyəti ilə seçilir. Yaradıcılığını maraqla izlədiyim, sevə-sevə oxuduğum şair dostumun yeni sənət inciləri yaradacağına, poeziya zirvələrindən enməyəcəyinə əminəm. Ulu sözün aydın səmasında şair dostuma böyük uğurlar arzulayıram.

*2008*





**_Cavanşir Yusifli_**
*tənqidçi*

## ANADİLLƏRDƏN SORUŞDUĞUM YOL...

SƏNSƏN HƏR YER... Qulunun bir kitablıq şeiridir. Bir kitaba sığışmayan şeiridir. Burası da var: Qulu bu bir kitabın içindəki şeirləri on...neçə ilə yazıb. Yaza bildiyi qədər yox, poza bildiyi, imtina edə bildiyi qədər yazıb... Bir şeirin yaratdığı kitabda Qulunun özcə nəfəsi var, bu nəfəsi onun şeirdə getdiyi, gözü işığa düşüb azdığı, sonra... anadillərdən soruşub tapdığı... yoldur. Qulunun şeirinin nəfəsi bütövdür, bəzi yerlərdə nəsildaşları arasındakı intonasiya oxşarlığını çıxmaqla zəhlətökən dərəcədə orijinaldır. Qulunun xarakterindəki dolamaq havası şeirində də var: ətrafındakıları, özünü, zirvədə, qar əriməyən yerlərdə duranları...

Qulunun şeirinin öz xasiyyəti var, başqalarında olduğu, yaxud olmadığı kimi... Birincisi, o, səninlə özü arasında distansiya yaradır. "Axıbqarışma, bir-birinə nüfuz etmə" məsələsindən söz gedə bilməz, bunun özü isə Qulunun təsvir predmetinə xüsusi ölçülü-biçili münasibətindən irəli gəlir. Bədii mətndə bu tipli münasibət qəribə effekt yaradır; Ramiz Rövşəndə də belədir, oxuduğum zaman bu distansiyanı həmişə hiss etmişəm. Bu iki şairdə, hər şeydən öncə söhbətimizin predmetini təşkil edən şairdə belə bir əlahiddə münasibət tipi nə ilə şərtlənir? Hər şeydən öncə bunu deyək ki, Qulu təsvirə (tam şərti-!) aldığı predmeti bütövlükdə yox, onun daxili strukturunu bəlləyən ana elementi götürür, şeirin həcmindən asılı olaraq mətnin içində fizika, akustika diliylə desək, "ən yüksək tona (səs ucalığına)" malik olan bu element mətn boyunca "lallığa" qədər "sürülür", bədii effekt "küyün", necə deyərlər, lal dərəcəsindən yaranır:

Darıxanda
Nədən sevincək olur,

Əli-ayağı
Yerə dəymir
Vaxtın?...

Bu, birbaşa ruhun içindən, onun təbəddülatlarından doğan şeir-dir. Qulu, təəssüf ki, bu yolla yolu düşəndə gedir. Bu şeirlər dönə-dönə oxunmaq istəyir, şırımlar açıldıqca dərinə işləyir:

Üstünü
Toz basmış
Səs saxlancıdı
Lal gözləri.
İndicə dinəcəkmiş kimi
Güdükdə "Tanrı" kəlməsi...

Qulu olur ki, hərdən bu "marşurutdan" çıxır, demək istədiyini primitiv formula dirəyir. Sonda adicə hesab əməli alınır: 2+2=.... bunu hamı bilir, ancaq Qulu məndən də yaxşı bilir ki, şeirdə elə hamının bildiyi şeyi də təkrarlayıb möcüzə göstərmək olar. Ancaq hərdən unudur ki:

İşığı sovulmuş dəyirmi otaq...
Nə göz gözü görür içəridə,
Nə divar divarı.
(bəndəsinə baxıb
Allah da dağıtmır
Bu xarabazarı...)
Bir damla Göz yaşı verin,
Silib, təmizləyib tavandan asım.
(bəlkə işıqlana, bəlkə qızına)
Yox! Yaş da isitməz bu evin dərdin
-Bu dərdi çəkmək üçün
Sözü aparıb qoyacam
Rəssamlıq Akademiyasına!..





Bu tipli şerlərdə bədii mətn bir laydan (şəffaf-!) ibarət olur, bu sayda "sonluqları" istənilən sayda qurmaq olar. Qulunun şeirləri rəngarəng, çoxsuallı poetika vəd edir. Bu mənada onun hər bir şeirini götürüb ayrılıqda təhlil etmək lazımdır. Kitabdakı şeirlərin içində elələri də var ki, belə demək olarsa, şeir olmazdan qabaq ... intonasiyadar, xüsusi bir intonasiya... Belə bir intonasiya modeli mənaya "çatmaq" azarını öldürür, adicə bir səsin, "səs qırığının" "mənası" üstündə köklənir.

Dan yeri – gecənin göydə od tutan
Bağrıdı. Xəbərin varmı?
– Bilmirəm.
Bir də yarpaq salma külək poçtuna
Bağlıdı. Xəbərin varmı?
– Bilmirəm.
Ürəyin – içəri qapındı sənin,
Aç görək, nəyin var qabında sənin?!
Ömür-gün bölünüb... qalıqda səni
Saxladı. Xəbərin varmı?
– Bilmirəm.
Hərəmiz borcludu bir can ölümə,
Ölsək də, tapmarıq əncam ölümə.
Tanrı qırmır bizi... ancaq ölümə
Yoxladır. Xəbərin varmı?
– Bilmirəm.

Qulu, necə deyərlər, "özünə sıxılmış" şeirlər yazır. Hiss hissə, duyğu duyğuya calanır, sual və məchullardan daha dəhşətli çıxıl-mazlıqlar yaranır, sözün meydanı o qədər "daralır", darısqallaşır ki, necə deyim, bədii məntiqin özü dil açıb danışır: "Həyat suyu arxa-sınca getdim, gətirdim. Sözdən sözə adlayanda Yolu itirdim." Qulu indiyə qədər yazdığı bütün şeirlərdə bir mətləbi (mən bunu şərti, yoxsa şərtsiz deyirəm?!) canlandırıb görükdürmək istəyir: tale nədir, Allah nədir, ölüm nədir... yəni, poeziyanın ənənəvi üçbucağı:

həyat-eşq-ölüm... Bayramın gördüyü ekzistensiallıq (yeri gəlmiş-kən Bayramın kitabda gedən gözəl yazısı iri həcmlidir və mən onu oxumuşam) burdan mayalanır. Məncə, bunun özü də Qulunun po-tensial eqzistensialist olmasını isbatlamır, ona qalsa, Salamdan Böyükxan Pərvizədək gərək hamını elə beləcə adlandıraq... Qulu, aşağıdakı şeirdən də görəcəyimiz kimi, ağla ilkin gələnləri nəzərdə saxlayıb, şəxsən özünün görmək marağında olduğu şeyləri "dartıb" gətirir. Gücü çatınca. Bəzən gücü yetmədikdə dayanır, şeirin özü ilə bunu etiraf edir. Şeirin içindəki bu etiraf Qulunun gözəl şeirlər yaz-maq üçün xilas yoludur. Fikir verin:

Ha satıb-sovdum özümü
Taladım, qurtarmadım.
Ölmədim, ölüm deyilən
Tələdən qurtarmadım...

Bu, Qulunun həmişə dediyi sözdür. Sözünün, kitabının "duvaq-qapmasıdır". Başqa sözlə, Qulunun şeir yazanda hər şeydən əvvəl xilas olmaq istədiyi duyğudur. Sonra:

Dərdə, sevgiyə, qismətə,
Sözə bulandı canım.
İstədim ki,
Qanad çalam
Toza bulandı canım...
Baxdım, elə görən kimi
Gözüm doydu dünyadan.
Qaçıb qurtula bilmədim
Özüm boyda dünyadan...

Qulu ruhunda cövlan edən çıxılmazlıq ovqatını gözəl təsvir edir, təsvir "danışıqdan", "nəqletmədən" dönüb sözün əşyalaşma-sına doğru proyeksiyalanır. Son bəndin birinci hissəsi ilə ikinci his-səsi arasındakı "uyuşmazlıq" buna tam imkan yaratmır: "Xatirəyə





çöküb səsim Paslı tüfənglər kimi.Gözümdən yağan yağışdaSuçlu mələklər çimir..."

SƏNSƏN HƏR YER... Qulunun bir kitablıq şeridir. Bir kitaba sığışmayan şeiridir. Burası da var: Qulu bu bir kitabın içindəki şeirləri on... neçə ilə yazıb. Yaza bildiyi qədər yox, poza bildiyi, imtina edə bildiyi qədər yazıb... Bir şeirin yaratdığı kitabda Qulu-nun özcə nəfəsi var, bu nəfəsi onun şeirdə getdiyi, gözü işığa düşüb azdığı, sonra... anadillərdən soruşub tapdığı... yoldur.

*2002*

***Şərif Ağayar***
*şair*

## HEYİF APRELİN 20-nə...

*Qulu Ağsəsin ən kədərli gününə ithaf edilir*

Hər dəfə aprelin 20-ci günü bacamızdan sallanan kimi Qulu Ağsəsə yarpaq boyda kağız yazmaq keçir ürəyimdən. Və bu yarpaq boyda kağızı "külək poçtu"na salıb göndərmək istəyirəm ona.

Di gəl ki, könlün istəyən sözlər "qələmə tutduq vermir". Qalıram qırıla-qırıla... Açığını deyim, buna görə özümü qınamıram. O səbəbə ki, bəzən yazmamaq yazmaqdan daha gözəl olur.

Amma yaman adamdı ha, Qulu...

Əlini ürəklə sıxdığım çox az SÖZBAZlardan biridi. Ona görə yox ki, aprelin 20-ni tüpürə-tüpürə məşhuri-cahan eləyib və bir çox seçilmişlər kimi doğum gününə asi düşüb. Yox!

Ona görə ki, dənizin dalğa vaxtı sahildəki adamları necə "yuyub apardığını" öz gözləriylə görüb.

Görə bilib!

Yoxsa hardanıydı o lətafət, o şəhdi-şəkər ki, oxuduqca qardaşımın ocaq iyi verən əlləri qədər doğma gəlsin mənə?! Yurd yerində bağlı qalan sahibsiz itlərin ulartısı qədər dəhşətli görünsün. Bununla da çoxdan bəri dinlədiyim qulaqbatırıcı sükutu pozsun.

Yadıma qəriblikdə yana-yana can verən nənəmin nainsaf bayatıları düşsün və eləcə alnımı varaqlara çırpa-çırpa hönkürmək istəyim.

Axırda da özüm öz doğum günümə tüpürüm və müəllifə haqq qazandırım.

Dərk edim ki, alatoran bir dam altında nənəsi üçün iynə saplaya-saplaya noğul kimi şirin nağıllara qulaq asan, gündüzlər məktəb əvəzinə keçi otarmağa gedən bir tifilcən də olmadıq.





Odur ki, Qulunun 20 apreli ilin ən kədərli günü kimi qeyd etməsinə şəkk-şübhəm yoxu. Özü də bu elə kədərdi ki, ondan araq rumkasıyla da qorunmaq olmur. Lap belə "sırtıq" dostlarla şit-şit zarafatlar da kara gəlmir.

Heyif aprelin 20-nə... Heyif ki, bu gül kimi gündə sinəsi qızmar kürə kimi közərən bir şair gəldi dünyaya və başladı Allahın işlərinə qarışmağa. Sözü ağzından, qucağı qollarından, addımı qıçlarından böyük bir şair... Nə olandan sonra, bu günün səhər obaşdan yorğun-yorğun ağaran üfüqlərinə bir dəstə çiçək qoymaq istərdim.

Özü də Qarabağda-Ağdamda-Gülablı kəndində bitən çiçəklərdən.

...Quludan sizə əmanət, dil bilməyənlərin yanında dil deyib ağlamayın.

Kim deyir ki, bu gündə, bu taledə doğulub, çölün düzündə su köşkü axtaran insanlara səadətin dəli köhləni üzəngi verməz?

*20 aprel 2001*

***Etibar Cəbrayıloğlu***
*publisist*

## QULU AĞSƏSİ MƏĞLUB ETMƏLİ...

Nə aşağı dartmalı ayağı var Qulu Ağsəsin... Gücün çatdıqca dartasan-dartasan şeir-filan yaza bilməyə. Yoxsa yaman bərk gedir. Belə də iş olar? Bambalaca boyu var, bazarkom Nadir demişkən, yüz əlli qramlıq da bir kitab çap etdirib. Amma hamı Quludan danışır. Dünya qocala-qocala lap başını itirir.

Boyumun hündürlüyündən "Qazel"ə minə bilmirəm, metro vaqonuna minəndə xeyli əziyyət çəkirəm. Üst-üstə qalaqlayan olsa, 500-600 kiloqramlıq qəzet həcmində yazı yazmışam. Amma Yazıçılar Birliyinin sədri Anar məni tanımır. Onun katiblərindən biri – Fikrət Qoca bir dəfə də olsun adımı çəkməyib. Katiblərdən digərinə, məsələn, Arif Əmrahoğluna gündə on-on beş dəfə salam versəm, yenə tanımaz. Amma onların hər üçü Qulu Ağsəsin "Sənsən hər yer..." kitabının təqdimat mərasiminə gəlirlər. Üstəlik çıxış da edirlər. Məni də yandıran odur ki, hələ bir çıxış edib bolluca tərifləyirlər.

Niyə də hirslənməyim axı. Anar boyda yazıçı deyir ki, Qulu Ağsəsin dünyaya şair kimi gəlməsi həqiqətdi. Fikrət Qoca kimi tanınmış şair mənə lap çarpaz od vurub. "525-ci qəzet"də Qulunu tərifləməyi az deyil, hələ çıxıb tribunadan da xoş sözlər deyir. Fikir məni yaman əldən salıb. Nə edim, necə edim ki, Akif Səməd kimi koloritli şair məni də tərifləsin. Beş yox, otuz beş qonaqlığa da hazıram. Bir şərtlə, orda-burda mənim haqqımda yaxşı sözlər desin.

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru var e, Vüsalə Mahirqızı, tədbirdə durub deyir ki, Qulu Ağsəs köşə yazısı yazanda bütün redaksiya barmaqları üstündə yeriyir. Gör necə bəxti var... Mən köşə yazanda redaksiyada elə bil müxalifətin mitinqidi. Bəxt məndən yaman üz döndərib. Hamıdan, bütün dostlarımdan küsmüşəm. Lap elə Seyran Səxavətdən də. Qulu Ağsəsi o qədər tərifləyir ki... Qardaş, məni niyə tərifləmirsən? Əsgərlikdə olmuşam, rus dilini bilirəm. Qulu Ağsəs Xırdalanda yaşayır, mən isə şəhərin lap mərkəzində – "Elmlər Akademiyası" tərəfdə.

Ərkim sənə çatır, Tofiq Abdin. Əfəndim, bəs niyə məni tərifləmirsən? Nədi ki, Qulu Ağsəs bir şeir yazıb, adı da "Mən və o". Öz canım üçün deyirəm. Günü sabah "Mən, o, sən, onlar, bizlər, qonşular, qohumlar və hamımız" adlı yazı yazaram, bütün aləm pulunu itirən kasıb kimi mat qalar.

Belə olmaz, bu işlərə bir əncam çəkmək lazım olacaq, özü də təcili qaydada. Duam gedib heç "JEK" müdirinə çatmır. O qədər yalvarırdım ki, Ramiz Rövşən "Sənsən hər yer..." kitabının təqdimat mərasiminə gəlməsin. Amma sözüm eşidilmədi. Ramiz Rövşən gəldi, hələ bir üstəlik Qulu Ağsəsi bir xeyli təriflədi də. Bütün ümidlərim "BARMEK"in fəaliyyətinə dözə bilməyən elektrik naqilləri kimi qırıldı.

Mən indi nə yazım, necə yazım? Kimdən xahiş edim ki, Qulu Ağsəsi öz qəzetində yaxşıca tənqid eləsin? İkimizi də qəzetdə dialoqa çağırsın. Yanaşı duraq görək kim hündürdü... "Sənsən hər yer..." çıxıb, bütün aləm qarışıb. Kimi danışdırırsan, Qulunu tərifləyir. Elə bil prezidentliyə namizəd olacaq. Amma bir dəfə də olsun mənim adımı çəkən yoxdu. Yoxdu... Belə getsə, qəzetlər hər gün "Qulu Ağsəs" deyib hay-küy salacaqlar, bizə heç salam verən də olmayacaq.

O gün Yazıçılar Birliyinin Natəvan adına klubunda xeyli diqqətlə baxdım. Aşağı dartmalı yaxşı ayağı var, Qulu Ağsəsin. Qoy şənbə-bazar günləri ötüşsün, gələn həftənin əvvəlində başlayıram Qulu Ağsəsin ayağından dartmağa.

Ya ona verən Allah, ya mənə...

*2003*

***Ceyhun Musaoğlu***
*publisist*

## TANRINI HƏSRƏTDƏ QOYAN QULU AĞSƏS

Onsuz da heç kim bu dünyanın adamı deyil. Heç bu dünyaya adam da lazım deyil. Amma neyləsin ki, yaxasını biz şüurlulardan qurtara bilmir. Dartındıqca cırıq-cırıq olub yaxası. Cır-cındır içində qalıb. Hələ bunlar azmış kimi boynuna da “atom” adlı xalta salmışıq. Klouna döndərmişik dünyanı.

Əylənirik kloun dünyayla. Günümüzü belə keçiririk. Vaxtın necə keçdiyini bilməyənlər xoşbəxtlərdi. Bizim də başımız dünyaya elə qarışıb ki, olumla ölüm arasındakı məsafəni sürünürükmü, iməkləyirikmi, yeriyirikmi, uçuruqmu – xəbərimiz yoxdu. Bəxtəvər başımıza, Tanrı! Nə yaşamaqla məşğuluq, nə də ölməklə. Ancaq oynayırıq. Özü də Tanrı havasına oynayırıq. Qiyamətini hazırlayırıq. Amma o qiyamətə hazırlaşmırıq. Elə bil, hamı imtahandan keçəcəyinə, əla qiymət alacağına arxayındı. Adamlar yarandıqları gündən özlərini elə aparırlar ki, elə bil mələklər “dayday”larıdı. Bir də ki, Allahın oğru kimi tanıdığı Adəmi peyğəmbər kimi çağıran insanlar üçün əlbəttə imtahan-zad boş şeydi. Ümumiyyətlə, göydə Tanrıdan, yerdə sözdən başqa dolu heç nə yoxdu. Təkcə sözə gücümüz çatmır. Get-gedə həndəvərinə də fırlana bilmirik. Lap az adamlara sözə yaxınlaşmaq, sözlə söhbət eləmək cəsarəti qalıb. Qalanlarımız dünya bizdən qorxduğu qədər qorxuruq sözdən. Ona görə də əjdaha bildiyimiz sözün əlindən tutub kirayənişin qaldığımız dünyanı elədən eləyə, belədən beləyə gəzən adamları görəndə təəccüblənirik, təəssüflənirik, təkəbbürlənirik. Təəccüblənməyimiz görməmişlikdəndi. Təəssüflənməyimiz paxıllıqdandı. Təkəbbürlənməyimiz yarınmağımızdan. Bu hissləri özündə yaşadan şüurluya inanmıram Allah adam desin. Adam olduqlarını da onlar özləri uydurublar.





Deyəsən, bu yazı uzandıqca mən də uydururam axı. Bir az da belə getsə, oxucunun “bu nədi, ağzına nə gəldi yazırsan” iradı ilə razılaşmalı olacam. Əslində doğrudan da ağzıma nə gəldi yazıram. Çünki ağlımla yazıram. Başqalarına fərqli olaraq dünyaya baxanda ödüm yox, ağlım ağzıma gəlir. Dünyanı iyrənc vəziyyətdə görən hansı ağıl yerində oturar ki? Heç kimin xətrinə dəyməsin, kimin ki ağlı yerindədi, o, dünyanın düşmənidi. Çünki dünyanı idarə eləmək istəyir. Daha başa düşmür ki, Allahın məkanını hara itələsə də, hara sürükləsə də, yenə gedib Allahın yanına çıxacaq. Yeni dünyanın yolu budu.

Bu yazını dünyanın yolunu tanıyan, bu yolla gedən, adamsız dünyanın adamı olmaq üçün sözə bürünən Qulu Ağsəsə həsr eləyirəm. O, ruh adamıdı. Ruhun adamıdı. Ona görə hər yerdə Tanrını görür. Dünyanın yox, Tanrının içində yaşayır. Tanrını içində yaşadır. Sabah Qulu Ağsəs əbədilik Tanrısına qovuşana qədər yaşamağa məhkum edilmiş illərin 33-dən ayrılacaq. Ayrılığın mübarək, şair qaqam. Xoşbəxt adamsan ki, Tanrını həsrətdə qoymusan. Qulu Ağsəs həsrətində.

*2004*

***Şaiqə Həmzəqızı***
*ədəbiyyatşünas*

## SÖZÜNDƏN DOYULMAYAN ŞAİR

1998-ci ilin bir yay günündə ilk tanışlığım, ilk təmasım başladı Qulu Ağsəs şeirlərilə. Maraq necə adlatmışdısa şeirdən-şeirə məni, bir də gördüm sonuncu şeirdəyəm.

Kimsən, nəçisən, ay Allah
Heç səndən baş tapammadıq.
Özün qurduğun dünyada
Sənə bir iş tapammadıq...

Doğrusu, o vaxtacan mən Allahla belə nümayişkaranə şəkildə, ərkyana danışan görməmişdim. Bəlkə də beləsi, ya belələri olmuşdu, amma hər halda, mən rast gəlməmişdim. Həm bir maraq bürümüşdü içimi, həm də bir qorxu – o misraların müəllifinə görə. Allahın bu şeirlərin müəllifinə qəzəbindən qorxurdum, amma etiraf edim ki, çox maraqlıydı şeirləri, məni özünə çəkirdi. Çünki hər misra bir gözlənilməz məna ilə yüklənmişdi.

Yastıq qoyub başımıza
Əcəb yatırdın bizi.
Aç gözünü, qaranlığın
Qırıb batırdı bizi...

Bu ilk və maraqlı tanışlıq artıq bəs idi. Sonra elə hey imzasını, şeirlərini aradım. Və budur, bu gün, nəhayət, "Sənsən hər yer" adlı şeirlər kitabı qarşımdadır. Artıq Qulu Ağsəsin Allaha bu qədər ərkinin Ona sonsuz sevgidən doğduğunu gördüm. Şeirlərini ilk oxuduğumda yaşadığım qorxu məni tərk elədi. Allaha bu qədər





yaxın olmaq, Onun dərgahına üz tutmaq istəyi yaradandan doyumsuzluqdan irəli gəlirmiş, sən demə. Bəli, Qulu Ağsəs sözü yaddaşda ilişib qalandı. Çünki bu söz insanı qanadlarına alaraq səmanın ənginliklərinə qaldırır. O ənginliklərə ki, ordan yerə enmək istəmirsən. Buna səbəb Qulunun məhz Allah tərəfindən şair seçilməsidir. Və bu kifayətdir ki, sözün və mənanın ağası olasan.

O xoşbəxtdir. Xoşbəxtdir ki, Allahla təması var və Allahın pıçıldadıqlarını bəndələrinə yetirir. Bir də o uca varlığa təzim edir şeiriyyəti.

Gedib tövbə eləməyə
mənə yer ver, İlahi,
Elə yer ki, baxıb görüm
sənsən hər yer, İlahi!
Günahımı nəylə desən,
razıyam yuyum orda,
Əgər gücün çatsa, məni
özündən doyur orda...

...Əgər gücün çatsa məni sözündən doyur, şair...

*2005*

***Elsevər Məsim***
*şair*

## QULU AĞSƏS POEZİYASI HAQQINDA SÖZ

Müasir Azərbaycan poeziyasında özünəməxsus mövqeyi ilə, dəst-xətti ilə seçilən ədiblərimizdən biri Qulu Ağsəsdir. Qulu Ağsəsin poeziyası haqqında ilkin deyəcəyim fikir, söz o ola bilər ki, Qulu Ağsəs söz xatirinə şeir yazmır.Müasir ədəbiyyat cəbhəsində bu şeir yazmaq bir növ vərdiş halını alıb. Qulu Ağsəs isə, klassik şairimiz Bağdadinin dediyi kimi, qələmə ayrı cür sarılıb:

Oxumaqla kişi kamilmi olur?
Mən "ərəf" sirrini biləndi kamil.

Biz bu barədə Quluyla söhbət eləmişik. Mən Bağdadinin adını çəkən kimi o, məndən tez mənə bu misalı çəkdi. Sözümün canı odu ki, yəni Qulu ədəbiyyatın nədən ibarət olduğunu və hansı amala qulluq elədiyini bilən şairlərimizdəndir.

Sözün düzünü deyim ki, Qulu Ağsəs hər bir Adəm övladında olan mənfi və müsbət xüsusiyyətlərə malik ola bilər, bu, təbiidir. Ancaq mənim bir insan kimi bu şəxsdə sevdiyim üstün cəhətlər nədir?! Birinci növbədə, hər bir kamil Tanrı bəndəsinə xas olan mədənilik və səbrlilik.

Müasir yaşadığımız həyat şəraitində hamı bu cür nə düşünə bilir, nə də yaşaya. Məncə, bu da bir yüksək qəhrəmanlıq xüsusiyyətidir. Qulu Ağsəs bu cəhətləri öz şair dünyasına sığışdıra bilib. Keçək Qulu Ağsəsin poeziyasına. Mən Qulu Ağsəsin bircə kitabı ilə tanışam: "Sənsən hər yer..." Oxuduqca həzz alıram. Olduqca doğma şeirlərdi. Bir qədər öz şeirlərimin ruhuna yaxın olduğu üçün





mənə müsbət effektli təsir göstərir. Ancaq İlahiyə qarşı iradlı duyğularında bir qədər şair ərkyanalığını zəif başa düşürəm. Düzdür, bunu da mənə şair özü "Ata-övlad münasibəti" fonunda izah elədi, amma mən daxilən həddindən çox mömin ruhlu olduğum üçün bir qədər bu duyğunu həzm etməkdə çətinlik çəkirəm.

Qulu Ağsəsin poeziyasında şifahi ədəbiyyatımızın, eyni zamanda, yazılı klassik ədəbiyyatımızın rəngarəng işığı parıldasa da, bir özünəməxsusluq var. Bu cəhətin daxilində də müasir dünya poeziyasının tələblərinə cavab verən modernizm duyğuları dayanır. Məhz bu yetkin cəhətləri özündə sferik halə şəklində birləşdirdiyi üçün Q.Ağsəs poeziyası oxunaqlı və tam müasir oxucu zövqünə cavab verən poeziyadır.

Mənim misal gətirdiyim bu realist cəhətlər şairin "Sənsən hər yer..." kitabına yazdığı "Oxucuma avtoqraf əvəzindən" sözü ilə tam aydın olur: "Bütün səmavi kitablar göydəndüşmədi. Mənsə, bu kitabı zülmlə yazmışam. Sən də canına cəfa bas, oxu..."

Qulu Ağsəs klassik ədəbiyyatımızı öyrənən şairlərimizdəndi. Şeirlərində bəzən rişəsi klassik şeir düşüncəmizdən gələn elə açıqlamalar var ki, bu fikirlərin kökünün məhz klassik şeir xəzinəmizdən gəldiyini asanca anlamaq olur.

Şairin "Dur(y)ğu işarələri" silsiləsindən yazdığı şeirləri bu cəhətdən daha çox səciyyəvidir. Bir növ kökü qədim fəlsəfi düşüncə sistemlərindən gələn bu ideyalar çox maraqlıdır. Məsələn, şairin:

Nöqtənin başdaşıdır –
Nida

– misrası hürufulik ideyalarından alır öz ilkin rişəsini. Bu misra yadıma İmadəddin Nəsiminin

"Dünyanın zatında bir əlif yoxdur"

– misrasını salır. Bir növ iki şairin duyğuları oxşar səslənir. Bəzən Qulu Ağsəsin iddialı şeirlərində də bir Nəsimi ruhu duyulur. Lakin fərq bundadır ki, Qulu fəlsəfi mənaları olduqca sadələşdirir. Müasir qloballaşma prosesinin poeziyada əks olunan rəssamlıq təsvirini onun şeirlərində aydın duymaq olur:

Mən şeytan balanam, Tanrım,
Ölü ver, diri qaytarım!..
Sən ordan bir boş şey göndər,
Doldurub geri qaytarım...

Bu kitaba ("Sənsən hər yer...") toplanmış şeirləri oxuduqca Qulu Ağsəsin müasir Azərbaycan poeziyasında özünəməxsus şeir dəstxəttinə malik olduğu gizli qalmır. Eyni zamanda, müasir tənqidimizin görkəmli nümayəndəsi Vaqif Yusiflinin Q. Ağsəs haqqında fikrini yada salmaq istəyirəm: "Qulu anadan şair doğulub".

Anadan şair doğulmaq həqiqətdir. Bir zaman mərhum şairimiz Səyavuş Sərxanlı da elə-belə şifahi olaraq mənə demişdi bu sözü. Ancaq məşhur olsun və ya təvazökar bir qələm sahibi olsun, aralarında bir qısqanclıq duyğusu var. Məncə, bu – günahdı. Çünki kimin şair olduğunu və olmadığını bir olan Allah bilir, ədəbiyyatın sərhəddi yoxdur axı...

Necə ki Qədim Şərq (Misir) ədəbiyyatında belə bir fikir var:

Müdrik söz zümrüdtək gizlində qalar,
Dən üyüdən qulda da taparsan onu.

*2007*





***Anar Mahmudoğlu***
*ədəbiyyatşünas*

## ŞƏXSƏN QULU AĞSƏSƏ ÇATACAQ!..

(*Ədəbi-bədii-publisistik-linqvistik-komik-həqiqi-dostvari-dramatik-epik-lirik-təhlilsiz-tənqidsiz və şəkilli, cizgili, zarafatlı, esse xarakterli təbrik*)

### BİRİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Adi günümüz belə dərd-qəmə batırılıb hüznə çevrilən indiki durumumuzda kiminsə görəndə yüngülləşməyin özü böyük şeydi. O ki qala sözün həqiqi mənasında hüzr mərasimi ola və kimisə görəndə nəinki yüngülləşə və yaxud gülümsəyəsən, hətta uğunub gedəsən – gör O, nə qiyamətdi...

Beləlləri var! Və durumundan, ovqatından, psixoloji vəziyyətindən, təmsil olunduğun "məclisdən" asılı olmayaraq əlini çənəsinə dayayaraq "qəmli" duruşuyla gözlərindən çıxan "cini" gizlədə bilməyən – heç ona cəhd də etməyən – bu cür dostları görəndə adamın çiçəyi çırtlayır. Belə "tarixi xoşbəxtlik missiyasını" öz cılız çiyinlərində, "cini" minus 5,5 optik şüşənin arxasında daşımasına baxmayaraq, gözündən heç nəyin, sözündən heç kimin yayına bilmədiyi, "min başlı" və zəqqum atmacalarını da ətrafındakılara bal kimi təqdim edən və "prikolların"dan incimədiyimiz dostlarımızdan biri – bəlkə də elə yeganəsidir Qulu Ağsəs ki, bax, məhz BU GÜNƏ ("Mən doğulan gün dedilər, Aprelin 20-ə") tüpürəcək qədər ("...Tüpürdüm, yenə tüpürdüm Aprelin 20-nə...") cəsarətlidi!

İKİNCİ ŞƏKİL

Məmməd Nazimoğlunun təbirincə desək (sitat: "Allahın da interesni işdəkləri var, balam, camaat şair olandan sonra min cür zülüm çəkib təxəllüs seçir özünə, Qulunusa birbaşa "imzayla" yaradıb e..."), "anadan şair doğulan" Ağsəs kişinin oğlu, mənim təbirincə desək, sözün hər mənasında "şeytan baladı" və təbii ki, belə Adamdan küsmək olmur, – düşünülmüş ən kobud səhvini də ona bağışlamamaq mümkünsüzdü – Əlisəmid Kürün təbirincə desək – "papaan canıyçün..."

ÜÇÜNCÜ ŞƏKİL

Tanrı onun qoluna qıyası gücü, özünə verəcəyi boyu, gözünə qismət olan nuru, səhhətindəki immuniteti – nə başınızı ağrıdım, çox zadları kəsib, yığıb-yumalayıb, hamısını sözündə cəmləyib. Ona görə Qulu Ağsəsin Sözü bu qədər güclü, bu qədər boy-buxunlu, bu qədər nurlu və bu qədər "immunitetli"di; sözünə də ona görə güvə düşən deyil – sözündəki "immunitet" o qədər güclüdü ki, "viruslu" ifadələri təmizləmək əvəzinə, onların özünü mətndən qovur – yeri gəlmişkən, ilk baxışda sizlərə epitet kimi görünən bu sözlərin hamısının izahını verəcəyik!

## İKİNCİ PƏRDƏ

BİRİNCİ ŞƏKİL

Qulu Ağsəs 33 yaşını adlayandan sonra nəhayət ki, çoxdan bəri gözlədiyimiz kitabını çıxara bildi – amma məhz "çıxardı", "kitab bağlamadı". Kitabda 64 şeiri cəmlənib – "adsız"dan 64-ün sonuncusu və "şah şeiri" "Sənsən hər yer"ə qədər Elçin İskəndərzadənin "yiyəliyiylə" Bayram Əvəzoğlunun "çıxışlığı" arasında onda 32, indi isə 34 yaşına "ayrılıq toxuyan" Q.Ağsəsin hər iki mənadakı ƏSƏRini 30-cu ilmədə Mahir Mehdi kəsib – "xalçasını" naxışlamaq üçün!





Bəlkə də bunlara görədi ki, Q. Ağsəsin bu kitabını ilk kitabı hesab etmədim: əvvəla, ilk kitabı jurnalda ("21" gənclik dərgisində, onun da adı "Sənsən hər yer"di) hazırlanmışdı, ikincisi də Qulu bu kitabın özünü iki yerə ayırıb; birinci "otuzluq" adsız şeirlə başlayıb, adsızla da qurtarır; ikinci "bölüm" isə "adlılar" arasındadı: "Səni özündən sevirəm"lə başlayıb, Tanrı sevgisiylə yekunlaşır.

İKİNCİ ŞƏKİL

Bu "üçlüyün" məna toplumu da diqqətimi çəkdi: Əgər "birinci" boxçada (jurnal-kitabda) şeirlər sistemsiz, pərakəndə formada yerləşdirilibsə;

"ikinci" boxçanı sistemini tapan Q. Ağsəs axtarışla başlayıb ("Sevgi bol, dərd də nəmxuda.., Bəs nədi görən bu... çatmır?") "heç nə" tapmadan ümidsizliklə ("Ara qarışmışkən öləydim gərək, Bir də doğulardım baş açılanda) qapadırsa;

"üçüncü" boxçada "yenidən dirilən" şairin "başı açılır": SEVGİdən "start" götürür ("...Günü-gündən sevildikcə, Dindən-imandan olursan") və sonda EŞQ ("...Gedib tövbə eləməyə, mənə yer ver İlahi, Elə yer ki, baxım, görüm, sənsən hər yer, İlahi") axtarışıyla YOLunu nişan verir...

İnsanın adicə mənəvi təkamül mərhələləridi – vəssalam. Sadəcə, bu etapların bu qədər ardıcıllığı artıq qismətdi – "imzası" kimi...

...Deyirəm, bu pərdəyə bir şəkil də cızım, özümün də, sizin də canınızı "rəqəm əhvalatından" qurtarım:

ÜÇÜNCÜ ŞƏKİL

Q.Ağsəsin Prezident təqaüdçüsü kimi ilk kitabı 1999-da, yəni onun 30 yaşında işıq üzü görməliydi, amma sor-sora düşdü, bilmədiyimiz səbəbdən yubandı. İndi – Qulunun 34 yaşında "Sənsən hər yer" əllərdədi – birinci və ikinci bölümlərinin sayı yaşına necə də uyğundu!..

Bilmirəm, Qulu bunu özü qurub – bu qədər uzun vaxta hesablayıbsa, ona eşq olsun – ya təsadüfən alınıb; hər nədisə, bu “üç boxçalı” eyni adlı quruluşun özü elə ŞEİR təsiri bağışlayır. Beləliklə, pərdəni burda çəkək ki, Qulu Ağsəsin “üçüncü” cəhdlə ortaya qoyduğu bircə kitab üç mərhələli və üç bəndlik gözəl bir şeirdi...

## ÜÇÜNCÜ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Q.Ağsəs yaradıcılığından tənqidi (təhlili) söhbət açmaq istəməzdim. Mənə elə gəlir ki, ümumiyyətlə, şeir və şair haqqında geniş yazmağa gərək yox: mətn ortadadı, həm də həcmi o qədər geniş deyil; nəyisə deyib sübut etmək və şairlə oxucu arasında körpü yaratmaq ətlə dırnağın arasına girmək kimi bir şeydi. Və səbəbini dediyimdən, Q.Ağsəs yaradıcılığından ayrılıqda yazmaq istəmirəm. Ancaq bu o demək deyil ki, Q. Ağsəsin də qatıldığı gənc ədəbi mühitin ümumi istiqaməti barədə heç bir söz açmayaq. Bu haqda isə yazmışıq – 2000-ci ildə. İndi sübutsuz aksiomaları qeyd edək:

### İKİNCİ ŞƏKİL

Klassik ədəbi nümunələrimiz içində – Nizamidən Seyid Əzimə qədər – “bizdə də var” deyə tutalğac etmək istədiyimiz bircə ədəd tumluq nəsr əsəri demək olar ki, yoxdu. Nəzmlə deyilən sözün çəkisi uzun müddət nəsrin inkişafının qarşısını alıb – və ya nəsrə hacət belə olmayıb. Ancaq ədəbiyyatımızı təkcə yazılı (və ya əlimizə gəlib çatan yazılı) klassik nümunələrdən ibarət saymaq niyyətində də deyilik: Ən azı, “Kitabi-Dədə Qorqud”a görə.

“Kitabi-Dədə Qorqud”da nəsrlə-nəzm birləşib – hazırda dastanlarımızda da beləcə yaşayır. Hesab edirəm ki, bu birləşmədən əvvəl də onların “suveren” vaxtları olub – nə təəssüf ki, bunu “əşyayi-dəlillə” izahlamaq mümkünsüz. Orta əsrlərdən başlayaraq, bir-birindən – şifahi yaradıcılıq istisna olmaqla – kəskin surətdə





ayrılan və aralarında uçurum yaranan poeziya ilə nəsri ilk dəfə böyük Füzuli birləşdirməyə cəhd etdi – “Şikayətnamə”si ilə. Nəzərə alsaq ki, həmin dövrdə nəsrin vəziyyəti hansı durumdaydı, onda bu cəhdi ilk yazılı nəsr nümunəsi də saymaq olar – ədəbiyyatşünaslar da bu fikirdədi.

Daha sonra isə nəsrin inkişafı – Axundov – 20-ci yüzildə nəhayət, bərabərhüquqlu sahələr olaraq nəsr və poeziyanın sərhədlərini cızdı. Artıq ötən əsrin 60-cı illərinə qədər Vaqifdən istiqamətini dəyişən poeziya ilə nəsri birgə təsəvvür etməkdə çətinlik çəkirik. Onları birləşdirən yalnız “ədəbiyyat” sözüydü...

60-cı illərdən sonra isə tədricən nəsrlə nəzmin birləşməsi başladı. İstər “ağ”, istərsə də “sərbəst”, modern və s. adlandırılan şeirlər artıq çevrənin geriyə qayıtdığından xəbər verirdi. Bu vaxta qədər olan arasıra cəhdlər – məsələn, “Komsomol poeması” – istisna olmaqla, Ramiz Rövşənin yaradıcılığında “birləşmənin” sistemini görmək olur: Həm “Süd dişinin ağrısı”, həm müxtəlif eynisüjetli və bütöv mətnli şeirləri, həm də hekayələri ilə.

“90-cılar” (şərti termindi) ədəbiyyatın bu yönümünü müəyyənləşdirmək üçün xeyli tərəddüd etməli oldular və bir dəfə qeyd etdiyimiz kimi, onların kor-koranə axtarışlarının nəticəsi olaraq artıq indi biz “90-cılar” deyəndə dərhal mötərizə açıb “şərti olaraq” sözünü yazmağa məcbur oluruq – onlar ədəbi nəsil kimi yetişmədilər.

Ayrı-ayrılıqda isə uğurlar oldu ki, bu sırada da yazımızın qəhrəmanının adını qeyd etmişik.

### ÜÇÜNCÜ ŞƏKİL

Maraqlı bilirsinizmi nədir? Bu sistem – dairəni həm də hər kəs öz yaradıcılığında – qısa zaman kəsiyində keçməli olur. Q.Ağsəsi bu mənada xüsusilə vurğulamaq lazımdı.

Qəzəl, beytlər arasında əlaqə baxımından daha sərbəst janrdı. Bəzən ayrı-ayrı beytlər müstəqil formada fikri tamamlayır və onlar arasında əlaqə yalnız “texniki” uzlaşmadan o yana keçmir. Qulu əruzda yazmır, amma hecada yazdığı şeirlərin əksəri belədi; Poetik

mətn kimi bütöv deyil, ayrı-ayrı bəndlər ayrı-ayrı şeirlərin gözəl bəndləri kimi özünü göstərir və bəndlər arasında "əlaqə" heç "texniki" – qafiyə baxımından da uzlaşmır. (Nümunələri kitabından oxuyarsız!)

"İmmunitet" deyəndə bunu nəzərdə tuturduq: "viruslu" ifadələri bütünlüklə çıxardan Qulu mətni bütöv olmağa qoymur...

## DÖRDÜNCÜ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Bir anlıq müqayisə eləyin: nəsrdəki "təbiət təsvirləri" ilə poeziyadakı "təbiət şeirləri" (bir vaxtlar bu tipli şeirlər öz şairlərini – "təbiət şairlərini" də yetişdirmişdi) arasında çoxmu fərqlər vardı?

Sözün poetik və pafoslu deyimlərdən təmizlənməsi poeziyada – bu kontekstdə Qulunun yaradıcılığı – görün, necə gözəl əksini tapdı: "Dənizdə üç qaya rəsmi..."

Bu, təsvirdi, mənzərədi, rəsmdi – potetika yox, pafos yox, eyni zamanda da mətn o qədər bütövdü ki, lap "nəsr nümunəsi" kimi! Q.Ağsəs doğrudan da burda rəssamlıq eləyib, ancaq omonim sözlərdən maksimum istifadə edərək söz oyunuyla "dərdin şəklini" "rəssamlıq akademiyasında" sərgiləməyib, rəsmi sözlə çəkib. Və bu o qədər canlıdı, o qədər səmimidi ki, elə bil Qulu özü danışır: "...Dənizdə üç qaya rəsmi, Vaxt tap sən də bir bax ona, Əcəb çıxıb fırçasından, Halal olsun Abşerona..."

Yaradıcılığındakı bu nüanslara görə Q. Ağsəsin dairəvi inkişafda yeni mərhələ olacağını demişdik və sevinirəm ki, o, artıq bir neçə nəsr əsərinin də müəllifidi (Təəssüf ki, onları oxumaq şansını Qulu oxuculara vermədi.).





### İKİNCİ ŞƏKİL

Heyf ki, Q.Ağsəsin bütün təsvirləri canlı, orijinal olsa da, hamısı bütöv deyil və ayrı-ayrı bəndlərə, misralara səpələnən gözəl deyimlər bir fikrin (deyimin, ideyanın, "rəsmin"...) poetik ifadəsinə yönəlmədiyindən ümumiyyətlə onun yaradıcılığında kəsirlər yaradır. Məsələn:

Bu gün bir təzə söz yedim-
Dadı, duzu qaçmamış.
Ləpələr uğunub gedir
Külək ağzın açmamış.

İnsanın uğunarkən "dalğalanmasını" Q.Ağsəs ləpələrin üstünə – həm də söz oyunuyla – çox uğurla keçirib, dənizin canlı, təbiətin bütövlüyünü bundan gözəl necə vermək olar ki?! Ancaq tapıntı məhz misralarda, ən yaxşı halda, ayrı-ayrı bəndlərdə ifadə olunur – təbiəti, insanı "panteistcəsinə" bütöv görən Qulu öz şeirini TAMlıqda götürməyə imkan vermir!

## VƏ ÖZ ŞƏKLİ

### BİRİNCİ CİZGİ

Səmimi deyirəm, mən Q.Ağsəsin şeirlərini ardıcıl oxumaq fürsəti qazananda çox sevindim.

Əvvəla ona görə ki, Q. Ağsəsin yalnız özünü, öz düşüncələrini səmimi etirafla və istedadla yazdığını gördüm – Qulunun şeirlərinin arxasında doğrudan da özü dayanır; yəni o, məhz şairdi.

İkinci: Q.Ağsəsin sözün hər mənasında ŞEYTAN bala olduğunu gördüm – həm şirinliyinə, həm atmacalarına, həm qabiliyyətinə, həm üstünlüyünə, həm də...

Həm də diqqət eləyin: "tərcümeyi-halını hal aparan" Qulu Ağsəs atasının rəhmətə getməsi barədə yazır ki, "Kişi məni ixtiyar

yaşında dünyaya gətirdiyinə görə hakimi-mütləqin qəzəbinə tuş gəldi və sarı-qırmızı vərəqəylə oyundan uzaqlaşdırıldı...”

İKİNCİ CİZGİ

Kitabın ilk şeirində: “Mən şeytan balanam, Tanrım” – deyən Qulu son şeirdə bağışlanması üçün Tanrıdan “yer” istəyir...

Tanrı insana tövbə etmək üçün yer verib – BU DÜNYANI. Yalnız şeytana bütün qapılar bağlıdı – ancaq o, Tanrıdan tövbə üçün yer istəyə bilər...

Sevindim həm də ona görə ki, deməli, şeytan da haqq yoluna gəlir!

Və sonda: Qulu Allahı bizdən həm də ona görə daha çox istəyir ki, insan görməyib, şeytansa Tanrını görüb, axı!..

*20-26 aprel 2003*



# MÜSAHİBƏLƏR



# "ƏDƏBİYYAT DƏQİQ ELMDİR"

*Qulu Ağsəs: "Yuxumda əsirlikdəki qayaüstü yazıları latına çevirirəm"*

Bugünkü müsahibimiz istedadlı şair Qulu Ağsəsdir. Onunla bu müsahibə həm də Türkiyədə çap olunan "Yeddi iqlim" dərgisi üçün nəzərdə tutulub. Xatırladırıq ki, Qulu Ağsəs Ağdam bölgəsində dünyaya gəlib. "Altay-Alp", Ş.Əkbərzadə, R.Rza ədəbi mükafatları laureatı, Prezident təqaüdçüsüdür. İki kitab müəllifidir. Hazırda AYB-nin "Ulduz" jurnalının redaktor müavinidir.

– İlk sualım sadə olacaq: necə oldu ki, şeir yazmağa başladınız?

– Bütün suallarınız belə "sadə" olsa, onda mən gərək söhbətimizə ayrılan yer həcmində susam. Hərdən mənə elə gəlir ki, əlimdə qələm, gözümdə eynək doğulmuşam. Qələm də – aydın məsələdir – yazmaq üçündür, eynək bəzən görmək üçün olmasa da...

Dağların, qayaların mühasirəyə aldığı uzaq bir kənddə dünyaya gəldim.

Quşlar evlərin damında yaşayır, buludlar yallarda yalmanırdı. Adamlar Günəşi yandırıb işə çıxır, söndürüb yatırdılar. Ağaclar elə sürətlə pöhrələyirdi ki, deyirdin, "qəhrəman ana" olmaq istəyirlər.

Hələ dəryazı gendən çağıran biçənəklər!

Hələ nənələrə il uzunu şalvar dalı yamadan Sürüşəkdaş!!

Hələ kibrit qutusundan mobil telefon (bəşəriyyət çox sonralar bizə gəlib çatacaqdı) düzəltdiyimiz günlər!..

Hələ... Nə hələ?..

Bəyəm buna görə şeir yazmağa başladım?..

Uşaqlar Allahın verən günü qayaya dırmaşırdılar. Əllərində də dəmir çəkic. Qayaların qəlbi yerləri oğlanların yazı stoluydu. Sevdiklərinə ürək sözlərini çəkiclə daşa yazırdılar. Üstündən illər ötəndən sonra məlum olacaqdı ki, qayaya qoşa dırmaşan iki dost bir-birindən xəbərsiz eyni qızın eşqinə külüng vururmuş. Məsələn:

"Məmməd + I....." şəklində. Qızın adını qorxusundan kim bütöv yaza bilərdi! Adamı qayaya mismarlayardılar. Özü də – aşağılara qadın, uşaq da qalxdığından – mütləq zirvəyə dırmaşmalıydın. Sirr açırsan axı! Sirri aşağıya etibar eləmək olmaz! – ancaq Allaha, ona əlin çatmır, qayanın başına! Hə, indi o yerlər əsirlikdədir: o qaya qarışıq, o sirr qarışıq. Hərdən yuxumda kəndə gedirəm, qayaya çıxıram, zirvədəki yazıları çəkiclə latına çevirirəm ki, düşmən sirrimizi bilməsin. "Tak-tarak-tak-tarrra..." Əlimin ufultusuna yerimdən dik atılıram. Yuxumda həmişə sol əlimi əzirəm, ayılandasa görürəm ki, ağrıyan sağ əlimin orta barmağıdır. Qələmin yağır elədiyi yer.

Amma uşaq vaxtları heç yuxuda da qayaya dırmaşmazdım; keçi deyildim – bu bir, yaxşı oxuyurdum – bu iki, qorxurdum – bu da üç.

Mən sirrimi varağa yazası oldum, özü də qələmlə. İşin ən yüngülündən yapışdım. İyirmi altı (təqaüdə çıxmağa nə qalıb?!) ildir şeir yazıram, deməli, əsrin dörddə birini qaya başında keçirmişəm. Havam çatmayanda yazıram. Çıxıram varaq – qayaya, nəfəsim geniyir. Qolum xamlayanda qələm – çəkicə cumuram. Ona görə, kompüterə öyrəşə bilmədim. Ona görə qələmdən ayrılmaq istəmirəm.

Ona görəmi şeir yazmağa başladım?..

İkinci sinfə təzəcə keçmişdim, böyük qardaşıma dərslərimi yəqin ki, üçüncü dəfə danışıb qurtarmışdım. Təzədən ağzımı doldururdum ki, Etibar imkan vermədi. Domino oynamağı təklif elədi. Şərtə görə, uduzan şeir yazmalıydı. Qardaşımı uddum. O, bir satirik şeir yazdı. Etibar pis oxuyurdu, o, mənim zənnimcə şeir yaza bilməzdi. Odur ki, ikinci partiya uduzan kimi o biri otağa çəkilib yazmağa başladım. A-ha! Bu, deyəsən, şeirdi. Əlbəttə, şeirdi! Axı mən qardaşımdan ağıllıyam, yaxşı oxuyuram. O yazan – bu yazan. Bakıda çap olundum. Hələ beşinci sinifdə oxuyanda. Çox tez şöhrət qazandım. Hamısı domino oynaya bilməməyin ucbatından.

Amma ona görəmi şeir yazmağa başladım?..

– Əslən Qarabağ mahalındansınız. Sizcə, Qarabağ Azərbaycan və Türk dünyası üçün nə deməkdir?

– Yaxşı olardı ki, bu suala Azərbaycan cavab versin. Amma Azərbaycan bu suala cavab verə bilməz, çünki Qarabağın yanında Azərbaycanın dili qısadır.





Yaxşı olardı ki, bu suala Türk dünyası cavab versin. Amma Türk dünyası bu suala cavab verə bilməz. Çünki Qarabağın yanında Türk dünyasının dili qısadır.

İndi görün Qarabağ Azərbaycan və Türk dünyası üçün nə deməkdir!

– Yeddi arxa dönənizini saya bilərsiniz?

– Əlbəttə, məmnuniyyətlə sayardım, əgər dədə-babamdan heç olmasa birinin üzünü görə bilsəydim.

– Onların arasında yazan olub?

– Mənim ana tərəfim azman saz-söz ustası Aşıq Valehə gedib çıxır. Anamın dayısı Azərbaycanın ünlü tarzəni Qurban Pirimovdur. Ata tərəfimsə qaradinməz nəsildir. Onların nəinki yazmaq, heç danışmaqla da arası olmayıb.

Mən doğulanda atam Ağsəs kişinin əlli üç, anam Səmayə xanımın əlli yaşı olub. İki yaşımda atamı itirmişəm. Ondan mənə qalan yeganə sərvət adıdır: Ağsəs. Təsəvvür eləyin ki, bu kişinin adını qadınlar heç vaxt çəkməzmişlər. Çünki atam arvadlara nə salam verər, nə də onların salamını alarmış. Hətta anamı da "a kişi" deyə çağırarmış.

– Qayıdaq ədəbiyyata...

– Bayaqdan hardaydıq ki?

– Uzaq dağ kəndindən Bakıya oxumağa gələndə ədəbi camiədə nə gördünüz?

– Gördüm ki, bütün yerlər dolub. Ayaq üstə durası oldum. Yuxarı başda kommunist şairlər əyləşmişdi. "Əyləşmişdi" deyəndə ki, şeir oxuduqca ekstaza gəlir, qalxıb özlərinə əl çalırdılar. Eşidəndə ki Sovetlər dağılır, ayaq üstə duranlar onları fit çala-çala yola saldılar. Yer genidi və mən otura bildim. Gördüm, indi də dindar şairlər meydan sulayır. Şeytana mədhiyyə deyənləri Allaha yaltaqlananlar əvəz eləyib. Artıq onların da halvası çalınır. Amma indi təzə zurna çalanlar meydana gəlib. Onlar Allaha da asidirlər, şeytana da; nə bu dünyaya, nə o dünyaya, nə də o biri dünyaya inanırlar. İnkarı inkarı inkarı... inkarla məşğuldurlar. Şeir yazmaqla şairliyin, nəsr cızmaqla nasirliyin fərqini bilmirlər. Ədəbiyyatın ağzı olsa, onların qələminə tüpürər.

– Deməli, indi vəziyyət daha pisdir?

– Niyə ki, alleqoriya, nəzirə, təbdil və satira ədəbiyyatı əməllicə inkişaf eləyib. Özü də bu ədəbiyyatı yaradanlar deyim kimlərdir: tərcümeyi-halını yaza bilməyə-bilməyə kitab bağlayanlar, dili olmaya-olmaya bayatı çağıranlar... hamısını saymağa həvəsim yoxdur.

– Ədəbiyyatı bu xıltdan, zir-zibildən necə təmizləmək olar?

– Çox asan. Bəzi qələmçilərə işlək "hamam dəsti" alıb bağışlamaq lazımdır ki, ədəbiyyatı batırmasınlar.

– Nəsillər arasında qarşıdurma səngimək bilmir. Bunun axırı necə olacaq?

– Çox yaxşı. Bir-birimizi çatladıb öldürəcəyik, ədəbiyyatın canı bizdən qurtaracaq. Bəri başdan fəxr eləyirəm ki, ədəbiyyata xidmətin yeni növünü biz tapmış olacağıq.

– İmzanız Azərbaycanda məşhurdur. Bəs hansı dillərdə oxunmaq istərdiniz?

– İlk növbədə, Azərbaycan türkcəsində. Mən bu dilin balasıyam. Sonra isə düşmən ölkələrdə.

– Düşmən? Yəni harda? Gəlin dəqiqləşdirək.

– Dəqiqləşdirəsi olsaq... az qala bütün dünyada. Bizə dost ölkə hardadır ki?

– İndi az qala bütün dünya qloballaşmadan danışır...

– Bu, dünyanın köhnə xasiyyətidir. Onu gözləyən təhlükəni bəlkə də instiktiv olaraq duyur və tirajlayır. Dünya çox da uzaq olmayan əsrdə kommunizmdən, faşizmdən, terrorizmdən danışırdı. İndi isə gündəmdə qloballaşmadır. Yəni bir qütblü, bir dinli, bir dilli dünya. Bax, Allahın işinə yenidən qarışmaq cəhdi buna deyərlər. Bu küfrdür: Allah kimi hansı torpağa, dilə, dinə, iqlim qurşağına məsləhət bilib, ora da ezam eləyib.

– Suallardan ustalıqla yayınırsınız...

– Anladım. Bilirəm, ədəbiyyat dəqiq elmdir. Amma dəqiq cavablar ədəbiyyat deyil.

*Söhbətləşdi: Xanəmir*
*"Səhifələr" qəzeti, N 24*





## "90-CI İLLƏR ƏDƏBİYYATI ÖTƏN MİNİLLİYİN SON NƏFƏSİDİR"

– Qulu bəy, nə var, nə yox! Vəziyyətiniz necədir? Çoxdandı susursunuz. Xəsisliklə çap edilirsiniz.

– Deyir, bir gün iki köhnə tanış küçədə rastlaşır. Biri o birinə qayıdır ki, nə var, nə yox? İkinci yoxdan başlayır: ev yox, iş yox, pul yox, kef yox...

Tanışı ona təpinir ki, ə, ürəyimi üzdün, adla vara. Adla adla da! Deyir, borcum var, düşmənim var, azarım var, ayıb olmasın, bir-iki ayıb işim var... Birinci təzədən partlayır: dayan, sən Allah – deyir – sənin varın yoxundan pisdi ki...

Mənimsə varım çox azdı, yoxum çox çoxdu. Kasıbın da aydındı ki, dili qısa olar. Xəsisliklə çap olunmağın bir səbəbi də budu. Yəni az yazmağım. Həm də qəzet işi yaradıcılığıma əməlli-başlı mane olur. Şeirsə çox qısqancdı, bir ayrı yazıya ondan çox vaxt ayırdınsa, qanın getdi, o da özünə bir yar qaralayacaq, necə ki qaralayır da. Amma... səbəb təkcə bu deyil axı! Təzə nəsə yazmaq, özünü təzədən kəşf eləmək adama həmişəmi nəsib olur?! Bəs aylarla cızığından çıxa bilmədiyin uğursuzluq zolağı? Bəs "daha kimdən, kimdən yazaq, uzaq, aman Allah, uzaq.." (Vaqif Səmədoğlu) tərəddüd – həyəcanı? Bəs yolda qəzaya düşən misraların reanimasiya stolunda gözün görə-görə can verməyi? Bəs, Allah, qardaşım, Allah?! Hər şey insanınmı əlindədi, Elşad? Yox, atam, yox!..

Bayaq soruşdun ki, nə var, nə yox; Allah var, Elşad, Allah! Yoxu var, varı yox eləyən...

– Ədəbiyyatımızın bu gününü necə dəyərləndirirsiniz?

– Ədəbiyyatın bu günü nə gəzir! Var keçmişi, var gələcəyi! Ya da, sadəcə, vaxtı yoxdu! Amma, deyəsən, "bu günü" də var axı. O da ibarətdi hamının bir-birini ötmək cəhdlərindən. Klassiklər qalıb bir kənarda, "bu gün" hamı bir-birinin qələmini yenməklə məşğuldu. Odu ki, Füzuli yaranmır, Nəsimi zühur eləmir, Sabir ortaya çıxmır,

Axundov ölüb öldüyü yerdə. Əvəzində "bizlər" meydan sulayır – babasının 20 əsr bundan irəli yazdıqlarını 20 əsr ondan sonra da əməlli-başlı mütaliə eləməyən, ya oxuyub qanmayan, ya da oxuyub, qanıb, özü ortaya babası ağırlıqda əsər qoya bilməyən nəvə-nəticə-kötücə – yadıcalar...

– Yazılar arasında qalmaqallar artıb. Bu, sözü qiymətdən salmırmı?

– Söz davası gedir, getsin! Kim ağzından dürr tökəcək ki, qalib tərəf də yığıb-yığışdıra bilməyə! Qaldı ki, indi söz davasından çox ÖZ DAVASI gedir. Bəli, bəli, söz-zad oynatmıram, oynadanlardan da zəhləm gedir artıq. Öz davası – hərənin özü uğrunda mübarizəsi. Sürü-sürü, xıl-xıl, ansambl-ansambl, trio-trio, tək-tək... Özləri hamıya ilişir, amma quyruğunu bir balaca tapdayan kimi zəhərləri yaxalarını batırır, şəkərləri çayxanaları. Hamı böyük şairdi, böyük yazıçıdı. Halbuki – beş-üç adamı çıxmaq (onların öyünməyə haqqı var) şərtiylə, gərək nə qədər həyasız olasan ki, özünü tərifləyib dağ başına qoyasan, ad gününü təbrik elətməkçün qəzetləri üzdən-gözdən salasan, hamını plagiatlıqla günahlandırasan və ən pisi... qələmin insana xidmətindən heç vaxt xəbərin olmaya. Bəli, dava gedir, – utananlar abrına qısılıb susur, utanmazlarsa yaxşı olar ki, özlərinin yoxudu-yoxudu, olanların abrının altına girib sakitləşsinlər.

– Ədəbiyyatımızın siyasiləşməsinə necə baxırsınız?

– Nə deyim, vallah... bir də görürsən YAP-çı şair Allahdan yazır, bitərəf şair Lissabon Sammitindən. Adam qalır məəttəl. Ədəbiyyatın siyasiləşməyini təbii ki, istəməzdim. Ədəbiyyatçının siyasiləşməsinə gəlincə... unutmayaq ki, ədəbiyyat bir namus işidi. Məncə, siyasiləşən yazıçı heç olmasa özünə haqqın böyründə yer eləməlidi, nahaqqın yox. Amma kimə deyirsən?!

– Son zamanlar çoxları şivələrində yazmağa üstünlük verir. Siz necə?

– Mən şivədən istifadəyə çox yaxşı baxıram, məsələn, qazaxlıların "dərdiş" sözünü misraya gətirmək şeirin xalq ruhunu bir az da artırır. Amma şivədə yazmağa lüzum görmürəm. Bircə elə o qalıb ki, ədəbiyyatımızı da regionlaşdıraq...

– Müharibə dövrünün ədəbiyyatı sizcə, niyə yaranmır?





– "Müharibə dövrü" ifadəsi, məncə, qüsurludu. Üstündən illər ötəndən sonra məlum olur ki, Azərbaycan müharibə aparmayıb, müharibə şəraitində yaşamayıb. Ayrı-ayrı qəhrəmanlıq və döyüş aktları olub – vəssalam. Bununla belə, 1990-cı illər ədəbiyyatını müharibə ədəbiyyatı adlandırmaq olar. Bu qədər göz yaşı, kədər, ölüm, ayrılıq, faciə, itkiyə... ayrı nə ad verəsən?

– Ədəbiyyatda 60-cılar yetişdi. Doxsanıncılar yetişmədi, fərd kimi yarandı. Buna səbəb nədir?

– Etiraf eləsək də, eləməsək də, ötən əsrin 60-cı illəri bir silkinmə, tərpəniş, oyanma dövrü olub. Ədəbiyyatda da, siyasətdə də, Özbəkistanda da, Pribaltikada da, Azərbaycan da həmin illər fürsəti fövtə vermədi: asqırdı, gərnəşdi, qalxdı, üzünə su vurdu, Günəşə tamaşa elədi və təzədən yuxuladı. Tək-tük oyaq və ayıq adamlar və elə bir o qədər də əməllər qaldı. Sonrakı on illər tarixin deyə bilmərəm, ədəbiyyat tarixçilərinin (elə bizim də) xatirində elə iz buraxmadı. 1990-cı illərə gəlincə... onlar XX əsrin son nəfəsidi. Son nəfəsi isə cəmi 2-3 dəfə almaq mümkündü. Yeni əsr, yeni nəfəs istəyir bizdən. Amma hələ indidən çoxumuzun nəfəsinin dalı gəlmir.

– Qara görürsünüz ədəbiyyatımızın gələcəyini?

– Vəziyyət həmişə sonradan yaxşılığa doğru gedir. Ölən ölür, qalan qalır. Bəzən də əksinə: ölən qalır, qalan ölür. Amma hamımızın bir təsəllisi var: "ruhumuz göy qübbəsinin altında qalacaq deyə..." (N.Hikmət), "dünya duracaq yer deyil deyə..." (İ.Nəsimi); deyə-deyə duracağıq, susa-susa danışacağıq, baxışlarımızın tirajı indiyəcən çap olunmuş bütün əsərlərin sayını geridə qoyacaq, duyğularımızın auditoriyasında "sükut əl çalacaq" (V.Səmədoğlu) və sonda... ən sonda... baxıb görəcəyik ki, "sənsən hər yer, İlahi"... (Q.Ağsəs), Darıxma, Elşad, darıxma...

*Söhbətləşdi: Elşad*
*"Məkan" qəzeti,*
*24 iyun 2001*

## "ALLAH MƏNİM SON MƏNZİLİMDİ..."

*"Küçəylə gözəl xanım keçəndə xəlvətcə baxıram ki, görüm Allahın nəzərləri üstündədirmi?..*

*"Ağ səsi olduğunu gözəl bilən" şair "taleyindən ağ xətt keçmədiyini" deyir. "Yorğunam... Hərdən mənə elə gəlir ki, məni çoxdan unudublar..."*

*30 yaşda bu hiss hardan hakim kəsilib ona? Amma bu sözləri həmişə dilinə gətirmir, "EQO"çulardandı. Hər şeyə ironiya ilə yanaşır. Elə bil kədərini, nisgilini də ironiya ilə pərdələmək istəyir...*

*Bunlar haqda sonra... Bir ara səsi radiodan gəlirdi. "Şans"dadı. Əslində indi də bilmək olmaz hardadı... Sonrasını Allah bilir.*

– Deyirlər ki, Allah şairə heç kəsdə olmayanları: qanad, eşq verir.

– Allaha qurban olum, nolar, mənə bu saat qüdrət versin ki, sizin "divan"dan üzüağ çıxım. Əvəzində qanadı və eşqi qaytarmaq şərtiylə. Oldumu?

– Şair və Allah ikisi birlikdə yol gedə bilərmi? Allah sizinçün nədi?

– ...Nə vaxt çapacam dördnala
mən də əcəl atında,
At altımdan uçub gedər,
mən də sənin altından...
Mən üzü Allaha gedirəm. O, mənim son mənzilimdi.

– Sizə şeir yazdıran nədi?

– Yəqin ki, əsəbdi, ya da darıxmaq. Amma ruhun adını çəkənlər də var. Çarəsizlik, fərsizlik sözlərini də məmnuniyyətlə stimul mənbəyinə aid etmək mümkündü. Qələmlə kağızın "intim münasibəti"ni isə xüsusi vurğulamaq lazımdı. Boynuma alım ki, dəqiq bilmirəm. Həm də bu haqda danışmaq mənə düşmür...

– Sizdəki ironyanın səbəbi nədi? Adama elə gəlir ki, içinizdəki kədəri gizlətmək üçün ironiyaya üstünlük verirsiz?





– Doğrusu, bu sualı mənə çoxları verib. Onlarca variant tapıb özümü vəziyyətdən çıxarmaq istəmişəm. Sizəsə, sadəcə, "ironiyasız düşməniniz olsun" deyirəm. Bir də unutmayın: ironiya heç nəyi ört-basdır eləmir, eləcə gözə kül üfürür...

– İlham pərisiz yazmaq çətin deyil ki?..

– Yaradıcılıq stimulu ilə bağlı sualınıza cavabda mən "ilham pərisi"nin adını qəsdən çəkmədim. Çünki belə varlıqla heç vaxt razılaşmamışam, onun diqtə və sığalıyla ələ qələm götürməmişəm. O pəri ancaq qrafomon və ...baz psevdoşairlərin gözünə görünür.

– Taleyinizdə ağ xətt varmı?

– Taleyimdə yorğunluq var. Yusif Səmədoğlunun sözü olmasın, elə bil, onu məndən qabaq bir yol da "yaşayıblar"...

– Gözəl səsiniz var. Radioda işləyəndə səsinizə vurulub sizinlə tanış olmaq, görüşə çıxmaq təklifi edənlər olurdumu?

– Gözəl yox, Ağ səsim olduğunu özüm də bilirəm. O səs mənim həm atam, həm imzam, həm də taleyimdi. Radioda işləyəndə "ona" vurulanlar olub, ancaq "mən igidin səsini eşit, üzünü görmə" prinsipini üstün tuturdum.

– Həyat yoldaşınız da yazardı. Maraqlıdı, iki qoçun başı bir qazanda necə qaynayır?

– Əkrəm Əylisli bizim toydan hali olanda demişdi ki, görən iki "kaprizni" adam necə yola gedəcək? Ailədə iki yazarın olmağı problemdi. Xüsusilə, heç kəs öz mövqeyindən geri çəkilməyəndə... ikimiz də iddialıyıq axı... Amma "həmkarlar ittifaqı"nın da öz üstünlükləri var. Lap adi bir misal: iki qoç baş-başa verəndə qurd onlara yaxın düşə bilmir...

– İlk sevginizi necə xatırlayırsınız?

– Dünyaya gəlişim, həyatım və ölümüm kimi. Başqa necə ola bilər?

– Çılğın sevginizi nə vaxt yaşamısınız?..

– Allah qismət eləsə, təxminən 30 ildən sonra yazacağım "Gülablıdan Gülablıya" – ad təbii ki, şərtidi – memuarımda sualınıza geniş və səmimi cavab verəcəm.

– İnsan hansı yaş mərhələsində əsl sevgisini tapır?

– Yəqin ki, 15-20 yaş arası. Sonra ağıl hissləri “basıb yeyir”. Amma bir para adamlar var ki, ürəyi ovcunun içindədi. Ömür boyu vurula bilir. Məncə, əsl sevgi insanı bir kərə yaxalayır. Əsl sevgiylə sonrakıların fərqisə bostan xiyarıyla xiyar turşusunun fərqi qədərdi...

– Birini sevmək üçün o birini unutmaq lazımdımı?

– Hə, icazə verin ağızdolusu “yox” deyim, soruşun niyə? Çünki sevgi çoxalandı, Allahdandı, yaşarıdı. Tutalım, iraq olsun, analığını sevmək üçün hökmən doğma ananı unutmalısan? Dostum Fəxrinin sevgidə “stajı” olmasa da, yaxşı bir kəlamı var: “Dünyanın bütün qadınlarını almaq olmaz, amma dünyanın bütün qadınlarını sevmək mümkündü”.

– Unuda bilmədiyiniz sevgi hansı yaş dövrünündü?

– İlini xatırlamıram. O vaxtlar tamam ayrı dünyada yaşayırdım...

– Həyatınız necə keçir: sakit, yoxsa...

– Hərdən təlatümlü olur. Hərdənsə adama elə gəlir ki, onu çoxdan, lap çoxdan unudublar. Ya da... “səni daha sevməyəcəklər”. Bax onda aləm bir-birinə qarışır.

– Qadında bəyəndiyiniz nədi?

– Gözəllik, əxlaq və yerini bilmək. İnqilabçı, vəzifəli qadınları qəbul eləmirəm. Küçəylə gözəl xanım keçəndə xəlvətcə baxıram ki, görüm Allahın nəzərləri üstündədimi?

– Hər halda, gözələ biganə də deyilsiz...

– Cavan vaxtları dostum Möhsünlə tanıdığımız qızları iki yerə bölmüşdük. Yarısını o sevirdi, yarısını mən. Fərqimiz ondaydı ki, Möhsün qızlardan çəkinmirdi, mənsə qorxurdum. O-bu...

– Ürəyinizi ovlayan xanıma eşqinizi etiraf eləməkdən çəkinmirsiniz?

– Yox, çəkinmirəm, amma...

– Elə bir şey olsa, onu hansı vasitəylə bildirərsiz?

– “Azercell”in xidmətlərindən istifadə etməklə.

– Sizcə, kişi ailədən qıraqda niyə sevgi axtarır?

– Sevgi ailədən başlayır, ordan start götürür və yenidən ailəyə qayıdır. Ailəsində sevgi olmayan kişinin onu kənarda tapacağına inanmıram, – bir şey ki, içində yoxdu, onu çölündə necə bulmaq





olar? Evində məhəbbət olan kişinin kənarda sevgi axtarmağına yenə inanmıram, hazır varıdı da... Özümü necə təmizə çıxardım?

– Ailə qurub yenidən bir başqasını sevənlər də çoxdu...

– Siz dediyiniz bir çox adamlar üçün anti-demokratik ölkədəki demokratik dəyərlərdən danışmaq kimi absurd bir şeydi. Məni də o sıraya qatın...

*Söhbətləşdi: Kifayət*
*“Rezonans” qəzeti,*
*12-19 noyabr 1999*

## YERLƏ GÖYÜN BİRLƏŞDİYİ TƏRƏFLƏR ARASINDA

*“MƏNİM ÜÇÜN ALLAH DA, MÜTLƏQ HƏQİQƏT DƏ, SÖZÜN YUVASI DA İLĞIM KİMİ UZAQDADIR”*

*Onun hər şeydən öncə adı, imzası var. Yəni Qulu Ağsəsi heç oxumayan adam belə onun adını eşidən kimi yadında saxlamalıdır. Sonra şeirlərini, sonra publisistikasını və beləcə, bütöv bir şairi... Burda mütləq Tanrının yumşaq bir əli var. O, əlini nə vaxtsa Ağsəs kişinin ruhuna çəkib. Qulu Ağsəs səsin və sözün ağını, ağısını və ağrısını çəkən şairdir, biz onunla təmasdan sonra bu qənaətə gəldik...*

– Qulu bəy, hər səhər yuxudan duranda Allaha şükür edə bilirsinizmi?

– Tərcümeyi-halı Hüseyn Cavidlə üst-üstə düşən ərəb filosof-şairi Cəbran Xəlil Cəbranın bir kəlamında deyilir: “Şairlə alim arasında bir zolaq var. Bu şəffaf zolaqdan əgər alim şairə sarı adlayırsa, o, müdrik, şair alimə tərəf istiqamətlənirsə, o, dahi olur”. Mən həmişə aralıq bir zonada yaşamağın tərəfdarı olmuşam. İki əks qütbün arasında dayanmağa çalışıram. Hətta publisist yazılarımda da öz mövqeyimlə cəmiyyətin mövqeyi arasındakı mövqeyi qələmə almağa cəhd edirəm. ŞEİRDƏ İSƏ ALLAHLA ÖZÜM ARASINDA OLANLARI TAPIB YAZMAQ İSTƏYİRƏM. Bütün bunları deməkdə məqsədim odur ki, yuxu ilə oyanmağım arasındakı müddət ən gözəl bir haldır mənim üçün. Çoxseriyalı, bəzən də rəngli yuxular görürəm. Ona görə də yuxudan adi həyata qayıtmaq mənim üçün çətin olur. Yuxudan ayılıb təzədən həyata qayıtdığıma görə yox, həmin aralıq məsafəyə görə Allaha şükür edirəm. Razılaşdığım bir məsəl də var: “İnsan hər axşam ölür, hər səhər təzədən doğulur”. Yuxu haqqında nə deyirlər-desinlər, o mənim üçün elə bir əsrarəngiz şeydir ki, heç ayılmaq istəmirəm. Bəzən gerçəkliklə yuxunu səhv salıram. Həyatda gördüklərim mənə yuxu kimi gəlir...





...Həm də elə istəklərim, arzularım var ki, onları məndən başqa kimsə bilməməlidir. Hətta onları özümə belə danışmaqdan çəkinirəm. Və çox çəkmir ki, həmin istəkləri yuxuda görürəm. DÜNYANIN HEÇ BİR GÜZGÜSÜ MƏNİ YUXUDAKI KİMİ GÖSTƏRƏ BİLMƏZ. Yuxuda düşünülməsinə belə qadağa qoyduğum hisslərimlə, duyğularımla birgə oluram. Hətta onlara əllə toxunuram elə bil. Hesab edin ki, yuxular mənim əsl həyatımdı. MƏNİM ORİJİNALIM YUXULARIMDADIR.

– Bəlkə də Allaha daha çox o zaman şükür edəcəyəm ki, həmin aralıq məsafəni, yuxularımı yaza biləcəyəm. Çünki bəzi məsafələr var ki, mən onları yuxuda tuturam – səhərə qalmır. Görünür, bir az ayıq adamam, kopirovkamı da yuxuya verməyə çalışmalıyam ki, əslimi olduğu kimi yazam.

–Bəlkə tərki-dünya olmanız gərəkdir...

– Bilmirəm. Əgər yuxular davamlı şəkildə məndən əl çəkməsə, buna cəhd edəcəyəm.

– Görünür, bütün bunlar həm də sizin pessimist olmağınızdan irəli gəlir?

– Bunun başqa yozumu da var: ola bilsin mən çox tənbəl adamam, çox yatmağı sevdiyim üçün özümə bu cür məşğuliyyətlər tapıram. Yozmalar müxtəlif ola bilər. Amma həqiqət heç birində deyil. Həqiqət o aralıq məsafədədir. Yəni nə alim şair ola bilər, nə şair alim. Onlar bir-birini tamamlayanda fövqəlinsan yaranır...

– Sizin haqqınızda belə də deyirlər: o, əla şair və publisist, babat bilyardçıdı. Və təbii olaraq insan kimi necəliyinizi özünüzdən eşitmək istərdim...

– Dediyiniz xronologiya azalan xətt üzrədir. Əgər əla şair və publisist, babat bilyardçıyamsa, təbii ki, ondan sonra nə gəlsə pis olmalıdı. Sizin şkalaya istinad olunsa, belə çıxır ki, pis adamam. Amma kiminsə nəzər-diqqətini ehkam kimi qəbul etmirəm. Elə adamlar var ki, məni gözəl insan, pis jurnalist, yaxşı şair sayır, bilyarda meylimi isə gərəksiz bir məşğuliyyət kimi dəyərləndirirlər. Mənim üçün başlıcası özümün özümə münasibətimdir. ÖZÜMƏ MÜNASİBƏTİM İSƏ BİRMƏNALI DEYİL.

Özümə münasibətdə nəyinsə yaxşı olduğunu qabartmağı xoşlamıram. Özümə bir qədər ironiya ilə yanaşıram. Məni nə qədər məğlub etmək, əsəbiləşdirmək lazımdır ki, "mən lap yaxşı şairəm" deyə biləm. Özümə adi Allah bəndəsi kimi baxıram. Bir qədər özümə lağ eləməyim də var. ÜMUMİYYƏTLƏ, YAXŞI OLMAQ YAXŞIDIRMI?

– Yazmaq həm də vərdişdir. Yazmaya bilərdinizmi?

– Təbii ki, yazmaya bilərdim. Yazmağa çox erkən – 9 yaşımdan başlamışam. Onda vərdişdən, vergidən, ilhamdan xəbərim yox idi. Təxminən 6-7 ildən sonra yazmaq məndə "xroniki xəstəliyə" çevrildi. Bir ucdan oxuyub yazırdım. Sonradan müəllimlər mənə şeir yazmağa qadağa qoydular, çünki dərslərimlə məşğul olmurdum. Müəllimlər məndə psixoloji dəyişiklik yarandığını, get-gedə məktəbdən, adamlardan qorxduğumu hiss etməmiş deyildilər... İynə vurdurmaqdan qorxsam belə, əsgərlikdə olanda dişlərimi çəkdirib qospitalda yatırdım ki, şeir yazmağa vaxtım olsun. Rilkenin "Gənc şairə məktub"unda oxumuşdum: "Əgər hesab edirsənsə ki, yazmaya bilməzsən, özünü yoxla – çəkil ədəbiyyatdan, başqa işlə məşğul ol. Gör, əgər yazmaya bilmirsənsə, təzədən qayıt yazmağa". Bunu oxuyanda çox pis oldum. Hətta bir müddət yazmadım. Yəni bunu vərdiş kimi qəbul eləməyim bəs edəcəkdi ki, bir də əlimə qələm almayım. Amma "yoxlama"dan uğurla çıxdım – təzədən yazmağa başladım. VƏRDİŞ – PEŞƏKARLIQ YARADA BİLƏR. AMMA MƏN PEŞƏKAR OLA BİLMİRƏM. ÜRƏYİM İSTƏYƏNDƏ YAZIRAM. İSTƏMƏYƏNDƏ YOX. Ürəyim lap istəyəndə, qışqıranda, məni əldən salanda çalışıram yazım. Ədəbiyyatda, şeirdə belə peşəkarlığı qətiyyən qəbul eləmirəm. MƏN JURNALİSTİKAYA ONA GÖRƏ BAĞLANDIM Kİ, BƏDİİ SÖZLƏ HEÇ VAXT PUL QAZANMAYIM.

– Yazdıqlarınız həmişə səmimi olur?

– Qətiyyən. Ancaq Allah hələ elə bir cihaz icad etməyib ki, kimsə aparıb evində səmimiyyət tərəzisində mənim şeirlərimi çəksin və desin ki, onlar qeyri-səmimidir. Bunu ancaq mən deyə bilərəm. Başqalarının başqaları haqqında söylədiyi fikirləri absurd hesab edirəm. SƏMİMİYYƏT – İNSANIN ELƏ DUYĞUSUDUR Kİ, ONUN QİYMƏTİNİ ANCAQ O ÖZÜ VERƏ BİLƏR.





– Seçilmək duyğusu necə, sizdə olubmu?

– Bir vaxtlar, xüsusən sovet dövründə ədəbiyyat və incəsənətlə bağlı güclü ənənə olduğu üçün ədəbiyyata gələnlərdə seçilmək duyğusu olurdu. Mən özüm də şeirlərimə görə həmişə bütün rayonda tanınmışam, məktəbdə seçilmişəm. İnsanın özünün əlləşib-vuruşması azdır. Gərək onu Tanrı seçsin. Çox populyar adam ola bilərsən, amma Allah səni seçməyə bilər... Zəhmət çəkib əməkdar pambıqçı olmaq mümkündür. Amma yazıçının qabiliyyəti hələ çox kitab oxumaqla, zəhmətlə ölçülmür. Allah sənin "qabına nə qoyubsa", onunla seçilməyin tərəfdarıyam.

– Seçilmək demişkən, Rüstəm Behrudi bu yaxınlarda müsahibələrinin birində gənc yazarlar içində seçilənlərdən birincisi olduğunuzu söyləmişdi. Özünüz özünüzü istedadlı hesab edirsinizmi?

– Səmimi şəkildə deyirəm bunu; kiminsə mənə dəyər verməsindən sevinməyə bilmirəm. Xüsusilə depressiya vaxtı. O məqamda eşidəndə ki, hörmət etdiyim adamlardan biri mənim haqqımda xoş sözlər deyib, deməli, OVQATIN NÖVBƏTİ KÜT ZƏRBƏSİNDƏN – NOKAUTDAN MƏNİ XİLAS ETMİŞ OLUR. Amma həmişə xoş söz eşitmək fikrində də deyiləm. Və elə bir qələm adamı tanımıram ki, birmənalı şəkildə onun yazılarına baxıb "bundan yoxdur" deyəsən. Yaradıcılıq yol getmək kimidir, məsafə qət etməkdir. Uşaq vaxtı bir şeyə marağım var idi – kəndimizdən görünən "yerlə göyün birləşdiyi" yerə qaçırdım. 3-5 km qaçandan sonra ordan baxırdım ki, indi evimizin yanında göylə yer birləşib. Geri qayıdırdım. Yaxud ordan o üzə birləşib. Bir də o üzə gedirdim. Həmişə gedirdim, gedirdim... Heç vaxt yerlə göyün birləşdiyi yerə çata bilmirdim. MƏNİM ÜÇÜN ALLAH DA, MÜTLƏQ HƏQİQƏT DƏ, SÖZÜN YUVASI DA İLĞIM KİMİ UZAQDADIR. Həmişə yerlə göyün birləşdiyi yerə getmək istəyirəm. Və hər dəfə gedəndə görürəm ki, əlim boşa çıxır.

– Şeiri normal şəraitdə oturub yazırsınız, ya "dəmi gələndə"?

– Çalışıram başımı evə təpim. Kənar yerdə yazmağı bacarmıram. Şeir yazmaq üçün əlimə qələm alanda özümü paltarsız kimi hiss edirəm, utanıram. Hətta gizlədib bir müddətdən sonra üzə çıxarıram. Normal şəkildə oturub şeir yazım – məndə belə şey olmayıb.

Belə deyək, "dəmi gələndə" yazıram. Yaradıcılığımla bağlı qabaqcadan nə isə açıb danışandan sonra heç nə yaza bilmirəm. Görünür, bu, şeirlə ikimizin aramızda olan gizli münasibətdən doğur. Mənim aləmində yazı prosesində qələmlə kağızın münasibəti var. Bəlkə də məntiqə uyğun deyil, kağızı qız kimi, qələmi oğlan kimi görürəm. Yazanda elə bilirəm elçilik edirəm, evləndirirəm onları. Toydan sonra təbii ki, onların balaları olur.

– Təxəllüsünüz qəribədir – "Ağsəs". Bu təxəllüs atanızın adını əbədiləşdirmək istəyindən yaranıb, yoxsa fəlsəfi yozumu da var idi?

– Bu adda səslə rəngin harmoniyası olduğunu sonradan dərk etdim. Atamın 53, anamın 50 yaşı olanda dünyaya gəlmişəm. Valideynlərimin bir qədər yaşlı dövründə doğulduğum üçün Allah vergisi kimi də baxırdılar mənə. Gözlənilməz dünyaya gəlişimdən il yarım sonra atam rəhmətə gedib. Mənə həmişə elə gəlir ki, atamın yarımçıq ömrünü yaşayıram. Özümdə bir "baş yemək" kompleksi yaratmışdım. Əgər 55 yaşda insan ölümü ədalətsizlik idisə, o yaşda qadının doğmağı da qəribə idi. Atamın adı çox qeyri-adi addır. Yalnız bu adda Türkiyədə bir bəstəkar olub. O da vaxtsız rəhmətə gedib. Çalışıram ki, öz adımla yanaşı "baş yediyim" kişinin də adını yaşadım. Çalışıram ki, kəndli, fəhlə Ağsəsi bir az böyük miqyasa çıxara bilim. Qismət olsa, oğlumun da adını Ağsəs qoyacağam.

– Bir yerdə olanda rahatlıq tapdığınız adam varmı?

– Adamlar var ki, onlarla bir yerdə olanda dərdimizi kompensasiya edirik. Yalançı bir aura yaratmağa cəhd edirik və alınır. Yalançı aura yavaş-yavaş gerçəkləşir və sonra dərd yiyəsini tanımır. O ADAMLARIN YANINDA ADAM ÖZÜNÜ DİNC, RAHAT HESAB EDİR Kİ, ONLAR İNSANLARI, CƏMİYYƏTİ PROBLEMSİZLƏŞDİRİR. Arzulayan adamların yanında isə dinclik tapmaq olmur. Məncə, problemlər və həyatın bütün ağırlığı arzulamaqdan yaranır. Nə qədər az arzulayırıqsa, özümüzə o qədər də az problem yaratmış oluruq.

– Kimisə xoşbəxt edə bilirsinizmi?

– Kimsə məni gördüyünə sevinə bilər. Yaşamağımla, səhər işə getməyimlə, axşam işdən tez gəlməyimlə, şəklimi qəzetdə görməklə anamı xoşbəxt etdiyimi deyə bilərəm. Bir də qələm və kağızı xoşbəxt etdiyimi dedim. Amma məni o qədər xoşbəxt edə biləcək adamlar var ki... Çox adi şeylər məni xoşbəxt edə bilir.





– Məhəbbət sizin üçün poetik ifadələr anlamındadır, yoxsa...

– Məhəbbət yeganə təmənnasız münasibətdir. Burda şərt qoyulmur ki, səni istədiyimə görə məni sevməlisən. SEVGİ ÜNVANINI, ŞƏKLİNİ DƏYİŞƏ BİLİR, AMMA İTMİR. İti, pişiyi, torpağı, insanı da sevmək olar. Sevgi olmayanda təmənnalı münasibət olur, proporsiya, balanslaşma yaranır. Mən yuxuda uçuram, amma sevəndə elə gerçəkdə də uçuram. Əgər sevgi xəstəlikdirsə, onu hamıya arzulayıram, taundursa qoy bəşəriyyət ondan məhv olsun. SEVGİ ONA GÖRƏ GÖRMÜR, EŞİTMİR Kİ, O, DÜNYANIN CAZİBƏ QANUNUNDAN KƏNARA ÇIXIR.

– Alın yazısının rejissoru komediya, yoxsa faciə yaratmaq istəyib?

– Cavab vermək çətindir. Əvvəla ona görə ki, fatalist deyiləm, alın yazıma inansam da, məncə, redaktə, düzəlişlər eləmək insanın öz əlindədir. Baxdığım tamaşalarda komediya ilə faciə bir-biri ilə o qədər bağlıdır ki, komediya baxımından ölmək, faciə baxımından sevinmək olur. Amma inanıram ki, bizim yerüstü qanunlarımız Allahın yanında işləmir. Ona görə də Allah bizi bu janrlara aid etməz. Ola bilər ki, daban-dabana bir-birini izləyən qarışıq şeydir alın yazımız. Komediya və faciənin uğurla bir-birlərini əvəz etdiklərinə inanıram. Yadda qalan isə adam olduğumu unutmamağımdır...

*Söhbətləşdi: İradə Xanım*
*"Ulus" qəzeti,*
*5 iyul 2000*

# “YAZDIQLARIMI AYAĞIMIN ALTINA QOYA-QOYA GƏLİRƏM...”

*Qulu Ağsəs Nuhun gəmisində quşlara yuva qururmuş*

*1969-cu ildə Abdal-Gülablıda doğulub.*

*Camaatın kitabı kitabda çıxanda, Qulu Ağsəsin kitabı jurnalda (“21” gənclik dərgisi) çıxıb.*

*Yeganə müsahibdi ki, onu “Qapı”ya redaksiyanın pəncərəsindən çağırmışam.*

*Göy çəməndə əyləşib göy qutabı yedik. And-aman elədi ki, “Prezident təqaüdünün hamısını onunla müsahibə almaq adıynan görüşən jurnalistlərə xərcləyib. Ona görə, mənə yaxşı görüm-baxım eləyə bilmədi. Pulsuzluqdan gileylənən Qulu bilyardın adını çəkən kimi əlini cibinə saldı: “Canın üçün pulum yoxdu, səndə hayıfım var” – dedi.*

– Qulu, səni müsahibəyə dəvət eləmişəm. Gələndə hansı hissləri keçirirdin?

– Dost üzü mübarək olar. İlham Qəhrəmanla görüşə gedəndə, adətən, özümü yorğun göstərirəm. Üzünə demək olmasın, tək şairlər arasında yox, ümumiyyətlə tanıdığım tək-tük adamlardan birisən ki, adamın canını dərdindən, azarından sonra alırsan. İndi özün tap, o hissin adı nədi?

– Hər bir qələm adamının ədəbiyyata gəlməsi üçün körpü rolu oynayan şair, yazıçı və s. olur. Hətta Markes telefon nömrələrinin yazıçıya təsirindən danışır. Sənin üçün körpü rolu oynayan kimdi və ya kimlərdi?

– Biz tərəflərdə körpü yox, addamac olur. Çayı o taya adlamaq üçün suya əvvəl bir daş atırsan, bir ayağını həmin daşın üstünə qoyub qoltuğundakı ikinci daşı o biri ayağın üçün suyun dayaz yerində rahlayırsan. Nə qədər daş götürə bilsən, sudan o qədər quru çıxırsan. Mən ədəbiyyata da körpüdən yox, yazdıqlarımı ayağımın altına qoya-qoya gəlmişəm. Suyun o üzünə çıxmağasa nə imkanım,





nə də həvəsim var. Bir də o addamacdan, lap sənin sözünlə desək, körpüdən adlayıb hara gedəsiyəm ki...

– Konkret ad çəkmirsən, deməli...

– İnanmırsansa, ovcumun şəklini Ali Məhkəmənin tibbi-ekspertiza komissiyasına təqdim edə bilərsən. Əgər kiminsə əl izi ovcumda tapılsa, onda körpü məsələsinə təzədən qayıdarıq.

– Bəzi şeirlərində söz oyunu hiss olunur. Bunu qəsdən edirsən, yoxsa belə alınır?

– Elə misralar var ki, mən onların qabağında qələm oynada bilmirəm. Yazı prosesindən sonra xəbərim olur ki, bu şeirdə heç vaxt üz-üzə gəlmək istəmədiyim sözlər var. Biz həmişə yaxşı şeiri ələ almaq, tutmaq istəyirik, hərçənd unuduruq ki, yaxşı olmayan şeiri də Allah yaradıb. Bəzən də qəsdən xoşum gəlməyən şeir yazıram. Yaxşı, onu sən yazma, mən yazmayım, bir ayrısı yazsa, onda yaxşıdı?..

– Qulu, şirin dilin var, nə vaxtsa nəsr yazmaq fikirləşmirsən ki?

– Xeyli vaxtdı nəsri tovlayır, sən demiş, şirin dilə tuturam. Yavaş-yavaş quyruq ələ verir. “Nabran novellası”nı “Azadlıq”da xeyli adam oxuyub təriflədi. Bu, mənim dərc olunan ilk nəsr əsərimdi. Hazırda əlimdə yarımçıq kinossenarim də var. Bu günlərdə daha bir hekayəmi mətbuata təqdim eləmək fikrindəyəm. Ən qəribəsi odur ki, nəsri də şeir kimi sevə-sevə, özü də birnəfəsə yazıram. Sonradan redaktə etmək isə mənə əzab verir.

– Bakıda gənc yazıçılar üçün ali ədəbiyyat kursları təşkil etmək olmazmı? Mən, məmnuniyyətlə, həmin kurslarda Anara, R. Rövşənə, Elçinə, Əkrəm Əylisliyə, V. Səmədoğluna və başqalarına qulaq asardım.

– Əla ideyadı. Həmin kursların olmaması ucbatından biz qəzet mirzəliyi eləməyə məcburuq. Yazıçılarla müsahibələr əslində həmin boşluğu doldurmaq üçündü. İndiki reallığı nəzərə alıb kompromis variant da təklif eləmək olar. Qoy universitetlərin ədəbiyyat fakültələri yazıçıların üzünə sənin kimi bir qapı açsın; Nizami Cəfərovdan dilçiliyin elmi əsasını öyrənən gənc filoloq Ramiz Rövşəndən poetik dilin sehrini əxz eləsin.

– Bəzən yazıçı və şairlər əsərlərində özlərinin mələk obrazını yaradır. Ancaq yaxından tanıyanda bütün təsəvvürlər alt-üst olur...

– İlk yaxından gördüyüm şair Musa Yaqub olub. Onda 15 yaşım olardı. Ağdamda küçədə rastlaşdıq. Uzun müddət kənardan heyran-heyran baxandan sonra qaçıb mağazadan onun kitabını aldım. Gətirib verdim, avtoqraf yazdı. Çox qəribədi ki, indiyə qədər də Musa müəllimə, eləcə də sevdiyim şairlərin hamısına – sağdısa özünə, ölübsə şəklinə – heyranlıqla baxıram. Qaldı sualına, əsəri ilə özü düz gəlməyən qələm sahibini təkrar oxumaq lazımdı, görünür, o, bizi hardasa aldada bilib.

– Qan yaddaşına inanırsan?

– Bu günlərdə öyrənmişəm ki, mənim zatım Aşıq Valehə gedib çıxır. Bu azman sənətkar, sən demə, nənəmin ata babasıymış. Hələ kənddəykən Aşıq Valehdən eşitdiyim bir-iki şeirin dilini, elə bil ki, öz ağzımda hiss eləyirdim. Mən söz götürməzliyi kəndimizin yaşlı qayalarından öyrənmişəm. Qızılqayanın başına çıxırdın, otun yolurdun, səni çıxarmırdı. Amma vay odu yekəbaşlıq eləyib üstünə qışqıraydın – elə bozarırdı, elə hayqırırdı ki, dinməyinə peşman olurdun. Adamı xoşluqla başına çıxaran qaya bədliklə deyilən sözü götürmürdü. O qaya, babamın dili, ancaq uca ağacı vuran, yetim-yesirə əl qaldırmayan ildırım mənim qan yaddaşımdı.

– Qan yaddaşından danışdıq. Səni and verirəm Adəmlə Həvvanın cənnətdən qovulduğu günə, düzünü de: Nuhun gəmisi yadına gəlirmi?

– Yaxşı and yeri tapmısan, dünyadakı ilk qaçqınların xatirinə, mən qaçqın gərək sən qaçqına yalan danışmayam. Nuhun tufanından yadımda quruca təəssürat qalıb. Gəmidəki quşların lələklərindən dor ağacında yuva düzəldirdim ki, özlərini evlərindəki kimi hiss eləsinlər. Tufanı veclərinə almasınlar. Bir də göydən ələnən leysana baxmadan göyərtədəki suyu ovuclayıb dəryaya tökməyim yadımdadı.

*Söhbətləşdi: İlham Qəhrəman*
*"Azərbaycan XXI əsr" qəzeti,*
*24-30 may 2000*



# KİTABDAKILAR

*Ağsəs Qulu...* (Mövlud Süleymanlı) . . . . 3

## NOVELLA, HEKAYƏLƏR, PYES

Nabran novellası . . . . 9
Qədir gecəsi . . . . 12
Dörd sim . . . . 16
Solo konsert . . . . 19
Qarğış . . . . 23
Bəbiş kişinin qızı . . . . 27
Peyğəmbərin məqbərəsində qətl . . . . 31
Qaynaqçı . . . . 35
On üç şəkilli pyes . . . . 39

## ESSE, PUBLİSİSTİKA

Yuxu dərmanı . . . . 45
Anar . . . . 53
Yetmişinə yetən . . . . 55
İsa Hüseynov və Muğanna . . . . 58
1964 yaşlı şair . . . . 63
Sözün mövludu . . . . 65
Əkrəmdən Əylisliyə, Quludan Əkrəmə . . . . 67
Əlaçı şair . . . . 69
Səssiz yazı . . . . 73
...Üzündən köçürdüyüm yazı . . . . 74
... Mərtəbənin adamı . . . . 77
Tənqidçinin ad gününə resenziya əvəzi... . . . . 79
Həyatın dörd anı . . . . 81
Səhra sulamağa gedən yolçu... . . . . 84
Bir sorğuya cavab . . . . 87
Tək-lər tənhası . . . . 90
Nabrannamə . . . . 92

Qapısı açıq Məcid . . . . . . 94
Diri adamın xatirəsinə... . . . . . . 96
Flora Kərimova oxumur . . . . . . 98
Azərbaycan qadını . . . . . . 101
Abdal-Gülablıdan Allahacan . . . . . . 103
8121 kəpənək uçuran kişi . . . . . . 106
Səfər . . . . . . 108
Sözsüz teatr və... Sözsüz teatr! . . . . . . 110
Fevralın otuzu doğulan şair... . . . . . . 114
Yeddi oğuldan biri də getdi... . . . . . . 116
Ulduzları his eləyən şəhər . . . . . . 118
İsa İsmayılzadəyə məktub . . . . . . 120
Qayıdış . . . . . . 122
Yarım kilo ət . . . . . . 124
Min atlıdan biri . . . . . . 125
"Tənqidçi" Əli Kərimin kitabı . . . . . . 127
Əlimiz çatmayan Əli Kərim . . . . . . 129
Həmişə "Qan-tər içində..." . . . . . . 131
Axır çərşənbə . . . . . . 133
Mənim anam . . . . . . 135
"Özümə bir ağız layla" . . . . . . 137
Bunu da yazıram Akif Səmədin sağlığına! . . . . . . 139
Ay maestro!.. . . . . . . 141
Rəmişin nəşəsi . . . . . . 143
Sinifdənxaric oxu . . . . . . 145
İsi Məlikzadəni anım . . . . . . 147
Məmməd Nazimoğlunun Son zarafatı . . . . . . 148
"Adlerdə bir körpü var:" keçiləsi... . . . . . . 151
Tam-dan zərrələr . . . . . . 153
Hər gün – qisas, hər yer – xocalı! . . . . . . 155
Şuşa tezliklə azad olacaq!.. yaddaşların məhbəsindən . . . . . . 157
Əsarətin ikinci sinif şagirdi . . . . . . 159
Məni düzgün başa düşün... . . . . . . 161
140 (-60) min dollarlıq "manifest" . . . . . . 163
Həyat akademiki . . . . . . 165
Panoktikum üçün eksponat . . . . . . 167
Bakı-Kiyev-Bakı . . . . . . 169
Muğamağ Yaqub . . . . . . 177
Köhnə təzə il . . . . . . 179
"Rəmiş, sən dədənin goru, gözlərini aç!.." . . . . . . 181



Pamukun portreti . . . . . . 189
Fahişizm . . . . . . 191
Dilindən yatan şair . . . . . . 193
Uçulası "uçurum" . . . . . . 195
"Çətin sual", asan seçim . . . . . . 197
Torpaqlı yazı... . . . . . . 199
Təzə sətirdən, abzasdan... . . . . . . 202
Anam Abdal, atam Gülablı . . . . . . 204
"Batan səs oldun..." . . . . . . 206
"Meyvələrdən bir meyvə var" . . . . . . 208
Xərçəngdən qorxanlar . . . . . . 210
Nadir - rejissor . . . . . . 213
Qadın mənimçün kimdi... . . . . . . 215
"Canımda can..." Ağrısı . . . . . . 216
Ölümlə gizlənpaç oynayan . . . . . . 218
33 . . . . . . 220
Köhnə bayatı . . . . . . 222
Adaşım... Mübariz üçün . . . . . . 224
Cüt Sabirdən biri . . . . . . 226
Yol . . . . . . 228

## "POEZİYADA BƏMBƏYAZ BİR SƏS..."

**Fikrət Qoca**
"Sənsən hər yer..."lə söhbət . . . . . . 231

**Çingiz Əlioğlu**
Düz sözü az deyirlər . . . . . . 236

**Tofiq Abdin**
Şair Qulu az deyirlər . . . . . . 238

**Vaqif Bəhmənli**
"Sənsən hər yer..." . . . . . . 242

**Qurban Bayramov**
Çağdaş poeziya - ədəbi istiqamətlər . . . . . . 249

**Vaqif Yusifli**
Bu, Qulu Ağsəsdir... . . . . . . 251

**Rüstəm Kamal**
Qulu Ağsəs: ömrün miqyasını anlamaq cəhdi . . . . . . 256

**Orxan Aras**
Qulu Ağsəsin poeziyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .263
**Elxan Zal Qaraxanlı**
"Səhər - körpəsidir doğan günəşin" . . . . . . . . . . . . . . . . . . . . . . . . . .266
**Nərgiz Cabbarlı**
Onun şeirləri Allahla söhbətinin yalnız bir qismidir . . . . . . . . . . . . .268
**Xuraman Hüseynzadə**
Poeziyada bəmbəyaz bir səs . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .275
**Balayar Sadiq**
Sözün beşinci fəsli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .279
**Cavanşir Yusifli**
Anadillərdən soruşduğum yol... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .285
**Şərif Ağayar**
Heyif aprelin 20-nə... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .290
**Etibar Cəbrayıloğlu**
Qulu Ağsəsi məğlub etməli... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .292
**Ceyhun Musaoğlu**
Tanrını həsrətdə qoyan Qulu Ağsəs . . . . . . . . . . . . . . . . . . . . . . . . . .294
**Şaiqə Həmzəqızı**
Sözündən doyulmayan şair . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .296
**Elsevər Məsim**
Qulu Ağsəs poeziyası haqqında söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . .298
**Anar Mahmudoğlu**
Şəxsən Qulu Ağsəsə çatacaq!.. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .301

## MÜSAHİBƏLƏR

"Ədəbiyyat dəqiq elmdir!" . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .311
"90-cı illər ədəbiyyatı ötən minilliyin son nəfəsidir" . . . . . . . . . . . . .315
"Allah mənim son mənzilimdi..." . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .318
Yerlə göyün birləşdiyi tərəflər arasında . . . . . . . . . . . . . . . . . . . . . . .322
"Yazdıqlarımı ayağımın altına qoya-qoya gəlirəm..." . . . . . . . . . . . .328

**QULU AĞSƏS**

**NABRAN NOVELLASI**

BAKI, "AVRASİYA PRESS" 2009

Nəşriyyat redaktoru — ***Rəhilə Gülgün***

Texniki redaktor — ***Mübariz Piri***

Dizaynerlər — ***Turab Məhərrəmli***, ***Samir Göyçəli***

Kompyuter operatorları — ***Maral Rəisqızı***, ***Əsli Vahidqızı***, ***Pərvanə Familqızı***

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1a
Tel: (994 12) 439 76 97